

Nəsibə Günəş

İKİMİZİN YERİNƏ...

Nəsibə Günəş

Azf296347

İkimizin yerinə...

Roman.(Vida məktubu...)

Azərbaycan Milli Kitabxanası

Bakı – Gənclik – 2017

İSBN – 5-8020-1766-7

İkimizin yerinə...(roman), Nəsibə Günəş

Bakı., "Gənclik"., 2017. 232 səh.

Sizə nədən deyim, nədən danışım...

Həyat...

Həyat...çox çəkici, çox şirin, məna dəyəri var olmaq və xoşbəxt ömür sürmək anlayışları ilə özləşən, ürəyə su səpən, qulağa xoş gələn, bir kəlmə...

Həyat...Yaşamaq üçün bizə verilmiş məhdud bir zaman kəsimi...

Həyat...Dünyaya gəlişimiz, dünyanı görməyimiz, dünyada var olan hər şeylə təmas qurmağımız üçün bizə verilən möhtəşəm bir fürsət...

Həyat...Yaşayıb-yaratmaq, sevib-sevilmək, evlənib-yuva qurmaq, övlad böyütmək, boya-başa çatdırmaq, və daha neçə-neçə gözəl əməlləri yerinə yetirmək üçün üzümüzə açılan bir qapı...

Yer üzərində bir dünya var, insan yüklü, həyat dolu...O dünya, bizim doğulduğumuz gündən yaşadığımız bəşəri bir məkandır.Həyat isə, hər birimiz üçün ayrı-ayrı ölçülərdə biçilmiş ömür payıdır.Dünya ilə həyat kəlmələri dilimizdə çox zaman yan-yana gəlsə də, dünya ilə həyatın bir-birinə bağlılığı müvəqqətidir, etibarsızdır.Hər doğulan insana qucaq açaraq qoynuna alsa da, dünya riyakardır, çünki insan həyatının ölümlü olduğunu əvvəlcədən bilir.Bəzən dünya kəlməsi bizə sonu gəlməyən bir məvhum kimi görünə bilər.Hardasa, buna inanmaq da, güvənmək də olar, bir şərtlə ki, dünyanın əbədi olduğunu qəbul edərkən, unutmayaq ki, dünya bizə məxsus deyil.Dünya bəşəriyyət üçün müvəqqəti bir yurd yeri olduğu halda, bizim hər birimizə aid olan tək şey, yaşayacağımız həyatdır.Dünya bizdən əvvəl də vardı, bu gün də var, bizdən sonra da olacaqdır.Həyat isə, bizim hər birimizə görə fərqli boyutda biçilmiş bir məvhumdur.Bu mənada, insan bir yolçudur.Bir gün yolu dünyadan düşər, süfrəsini açıb, həyatın bəxş elədiyi nemətlərdən faydalanmağa başlayar.Bir gün də bu yolun sonu gələr, insan da süfrəsini yığışdırıb gedər.Talehlər də, həyat yolları da hər

insana görə fərqlidir, dəyişəndir. Hər kəs üçün dəyişməyən yeganə şey, heç kimin əbədi olmamasıdır. Dünya ilə həyat anlayışları arasındakı ən böyük vərq də budur, və bu fərq biz insanlar üçün çox böyük əhəmiyyət kəsb edir.Beləki, gəldiyimiz belə bir üzücü nəticə, əslində bizi dünyanın ən böyük həqiqəti ilə üz-üzə qoyur:dünya əbədidir, həyat isə parçalardan ibarət olan, bir başlanğıcla bir sonun arasını dolduran ömür kəsimidir.Dünya ümumbəşəri bir gəzəyəndir, həyat isə onun üzərində yaşayan insanların ömür payından epizodlardır.Dünya bir pəncərədirsə, həyat da bizim o pəncərənin önündən baxa-baxa keçdiyimiz andır.

Bir gün biz, ağlı-şüuru olan mükəmməl varlıqlar kimi doğulub, bu dünyaya, bizim üçün ayrılmış ömür payını yaşamağa gəlirik.Ağlımızın gücü bizə yol göstərir, biz də o yolla irəliləyərək böyüyürük.Uğurlarımız möhtəşəmdir.Biz hər gün yeni biliklərə sahib olur, bizi əhatə edən dünyaya aid yeni-yeni kəşflər edirik.Lakin, hər zaman da hiss edirik ki, arxamızda cavabsız buraxılmış suallar qalır.O suallar da bizim özümüzlə, yaranışımızla, dünyaya gəlişimizlə bağlıdır.Necə oldu ki, biz bu dünyaya gəldik, axı bizim heç nədən xəbərimiz olmadı?Elə isə biz bu dünyaya niyə gəldik?Bizi bura kim göndərdi?

Zaman keçir, ancaq bu suallar yaxamızı buraxmır, məyyən vaxta kimi bizim beynimizi qurcalayan, bizi yorub əldən salan suallara dönüşür.Maraqlıdır ki, ağıl sahibi olmağımız, zaman-zaman bizi axtarışlara sövq eləsə də, öz yaranışımız barədə nəsə öyrənməyə çox gec başlayırıq.Axtarışlarımız davam elədikcə, malik olduğumuz biliklərin sayəsində çox şeyə nail ola bilirik.Ancaq nədənsə, öz yaranışımızla bağlı olan bu qədər önəmli bir məsələ bizim diqqətimizi ən son cəlb edən bir şey olur.Dünyanın sirlərini öyrənməyə gücümüz yetir, ancaq özümüzə aid olan sualların cavabını tapmaqda bir müddət aciz qalırıq.Bir tərəfdən şübhələrlə ağlımızı qarışdıran tərəddüdlər, digər tərəfdən də güclü bir maraq bizi bu suallardan vaz

keçməyə qoymur, nə onları cavabsız buraxa bilirik, nə də onlara cavab tapa bilirik.Biz bu dünyaya gəldik, fəqət özümüzün bundan xəbərimiz oldumu?Bunu bizə gəyəşən, istəyib-istəmədiyimizi soruşan oldumu?

Həyatın gözəlliyini görərək ondan istifadə eləsək də, şirinliyini dadıb yaşasaq da, cavabsız suallar öz işini görür, bizi rahat buraxmır.Əcəba, biz qaranlıqdanmı gəldik?Boşluqdanmı yarandıq?Hansısa bir çağırışa cavab olaraqmı doğulduq?Nə oldu?Necə oldu?Anlayırıq ki, biz bu sualların cavabını tapmayınca, həyatımızın nəbzi qaydasına düşməyəcək.

Suallar hər addımda yolumuzu kəsir, ancaq bir yandan da anlayırdıq ki, bu başımıza gələnlər, dünyanın ən heyrətamiz, ən ağlasığmaz möcüzəsidir.Çünki, önümüzdə gözəlliyi ilə göz qamaşdıran, şirinliyi ilə bizi özünə məftun edən bir həyat var...

Bir insan, özünün dünyaya gəlişi prosesini gec anlayır, çünki onun ömrünün yuxu kimi keçən qismi də var, kamilləşib gözü açılan qismi də var.Biz bu gözü açılan qismə, insanın ağlı kəsən yaş dövrü deyirik.Kamil insan, ağlı kəsən gündən özünün yaranışının da, bu dünyaya insan şəklində doğuluşunun da bir möcüzə olduğunu, həm də, bizdən uca, gözlə görünməsi mümkün olmayan bir yaradanın möhtəşəm bir möcüzəsi olduğunu dərk eləməyə başlayır. Çünki, daim başına gələnləri təhlil edən, başından keçən min-bir sualın cavabını tapmağa çalışan insan, çox keçmədən o sualların cavabını məhz belə bir inancın içində tapa bilir. Məlumdur ki, heç nə öz-özünə yarana bilməz.Heç şübhəsiz ki, mövcud olan bu zəngin təbiəti də, çeşid-çeşid bitkiləri də, cürbəcür heyvanları da, saya gəlməyən insanları da bir yaradan vardır.O da aydındır ki, bu gördüklərimizi insan da yarada bilməz.Çünki, insan özü əbədi bir məxluq deyil, ölümə boyun əyən, ölümün qarşısında aciz və carəsiz qalan bir məxluqdur.Təbiəti bu qədər gözəl, canlıları bu qədər mükəmməl yaratmağa insanın nə ağlı çatar, nə də gücü.Elə isə hər şeyi yaradan başqa bir varlıq vardır.O,

insanlardan çox fərqli, daha güclü, daha hökmlü bir varlıq olmalıdır.Və belə bir varlıq mütləq vardır.Çünki, biz onu heç vaxt görməsək də, onun varlığını, bizi gördüyünü, bizim həyatımıza müdaxilə elədiyini hiss edirik.O həm də uca bir varlıqdır.Ancaq belə bir varlıq, bu qədər yaradıcı ola bilər, hər şeyi bu qədər mükəmməl düşünə bilər, bu qədər gözəl yarada bilər.Gözümüzün gördüyü dünyanı da, kainatı da o yaratmışdır.Yer üzündə nə varsa, hamısı o qədər gözəl, o qədər qüsursuzdur ki, bunu ancaq uca bir varlıq yarada bilər.Ancaq uca bir varlıq bizi bu qədər mükəmməl xəlq edə bilər, üstəlik bizim ağlımıza, beynimizə özünə qarşı bu şüuraltı inancı da yerləşdirə bilər ki, gec, ya tez biz bu inancı öz içimizdə tapa bilək.Bu minvalla da biz nə qədər axtarsaq da, araşdırsaq da, sonunda bizi bizdən qat-qat uca bir varlığın yaratdığı qənaətinə gəlir, bu inanca güvənir, ona ömürlük bağlanırıq.O uca yaradanın adı Allahdır.Allahın hər şeyi düşünərək, məqsədyönlü və mükəmməl yaratdığı şübhəsizdir. Odur ki, onun yatardığı hər şeyin bu dünyada yeri də var, anlamı da.

Uzun axtarışlardan sonra bir gün biz, Allahın bizə göndərdiyi kitaba da ulaşırıq.O kitab bizə yeni nəfəs verir, bizi bu vaxta qədər cavabsız qalan sualların əsarətindən qurtarır.Biz, bütün sualların cavabını o kitabda tapırıq. Cavablar o qədər məntiqlidir ki, onları bir yana buraxıb başqa yerdə nəsə axtarmaq, öz ömrünün dayaq sütunundan uzaq düşmək kimi bir şey olur.Bir insan, müvazinətini itirdikdən sonra, başına nələr gələ bilərsə, inancsız insanın da başına o şeylər gələ bilər.Bir insan, öz yaranışı barədə özünə verdiyi sualların cavabını başqa heç yerdə tapa bilmirsə, demək elə cavab da bu inancın içindədir. İnsanı ayaqda tutacaq, onu qane edəcək qədər məntiqli cavablar da bu yöndə olur:Yeri, göyü kainatı da, yer üzündə var olan suyu, torpağı, bitkiləri yaradan, ətrafımızda bizə yol yoldaşı olan heyvanlara da, biz insanlara da həyat verən bir Allah var ki, hər şeyin yaradıcısı da odur.Hər şey onun istəyi ilə, rizası ilə, "ol"

deməsi ilə yaranmışdır.Odur ki, nə bizim ana-atamız, nə də onlardan yüz il, min il öncə dünyaya gəlib-getmiş əcdadlarımız da, özlərinin bu dünyaya gəlişlərində heç bir rol oynamamışlar. Onlar da bizim kimi, sadəcə uca yaradanın rizası ilə bir gün bu dünyaya doğulmuşlar.

Bu düşüncə tərzi, dünyanın və həyatın anlamını bizim üçün doğru-düzgün şərh edən mükəmməl bir inancdır. İnsan belə bir inanca sığındığı gündən özünü güvəndə hiss edir, inanır ki, onu hər yerdə bir qoruyan, onun talehini ondan başqa da düşünən var.İnancımız bizi həyata daha məntiqli yanaşmağı, hər addımımızı ölçüb-biçməyi, hələ bu həyatdaykən axirətdə davam edəcək əbədi dünyamızı düşünməyi də öyrədir.İnanclı insanlar bu bilikləri əldə elədiklərindən çox məmnundurlar, çünki onlar bu biliklərin sayəsində, nəhayət ki, ürəklərini gəmirən şübhələrdən qurtuldular, əbədi bir hüzur tapdılar.

Allahın rizası, ana-atamızın da istəyi ilə bir gün bu dünyaya gəlişimiz, bizim bir heçdən yaranışımızın, buna baxmayaraq, bu dünyaya insan şəkli alaraq doğulmağımızın bariz sübutu olaraq, öz möhtəşəmliyi ilə bizi heyrətə salır.Biz özümüz, bu işdə fikir-qərar sahibi olmasaq da, bir gün insan olaraq bu dünyaya gəlişimizə sevinirik.O gündən də bizim ömrümüzün "həyat" sözü ilə biçilmiş, kimisində yüz ili də aşan, kimisində yüz günü də doldura bilməyən bir hissəsi yaşanmağa başlayır.Yaşanmağa başlanan o ömür kəsiminin adı həyatdır...Həyat...

Gözəlliyinə baxmaqdan doymadığımız, sonsuz ərazilərindən, torpağından-daşından, suyundan, bitkilərindən, heyvanlarından istifadə elədiyimiz geniş bir dünya...

Sevdiyimiz, və sevə bilmədiyimiz qanunları ilə ömrümüzü nizamlayan, "olar"ları və "olmaz"ları ilə bizi daim müşaiyət edən bir cəmiyyət...

Sevdiyimiz, və sevə bilmədiyimiz əşyalardan tərtib edilmiş yaşam tərzimiz, şəhərlərdən və kəndlərdən ibarət olan insan məskənləri...

Sevdiyimiz, və sevə bilmədiyimiz insanlardan ibarət olan saysız-hesabsız dövlətlər və millətlər, bizə aid olub, birgə yaşamalı olduğumuz insanlar, ailələr, və toplumlar... Bütün bunların adı həyatdır...Həyat...

Bizi gözəlliyi ilə özünə məftun edən, bizdə hər şeyə bağlılıq oluşduran, nəfsimizi, tələblərimizi gün-gündən artıran, gözəl əxlaqların az-az rast gəlindiyi, şəhvətlərin aşıb-daşdığı geniş bir dünya...

Bizi hisslərin burulğanında atıb-tutan, gah böyük eşqlərin qarşısında diz çökdürən, gah da sonsuz nifrətlərin təsiri ilə qanlı savaşlara sürükləyən hüdudsuz bir dünya...

Haqla nahaqın hər zaman savaşdığı, haqqın daha çox nahaqa uduzduğu, bu üzdən də insanların bəzisinə sonsuz imkanlar bəxş edən, bəzisini aclıq və səfalətlə sınağa çəkən ədalətsiz bir dünya...Bütün bunların adı həyatdır...Həyat...

Müdriklərin, və həyat kəlməsinə fəlsəfi nəzərdən yanaşanların verdiyi tərifə görə, həyat məna və keyfiyyət baxımından ağ və qara zolaqlardan ibarət olur. Deyilənə görə bu zolaqların bir-birini nizamlı şəkildə təqib etməsindən oluşan həyatın, sevinc və səadət dolu günlərilə, kədər və uğursuzluq dolu günləri, hörük kimi bir-birinə sarılaraq davam edir.Ağ zolaq uğurlu günlərə, qara zolaq da çətinliklərlə dolu günlərə işarət edir.Zolaqlar bir ardıcıllıqla, müntəzəm şəkildə yer dəyişərək, bir-birini təqib edirlər.Bir ağ zolaq, bir qara zolaq, sonra yenə bir ağ zolaq, sonra yenə bir qara zolaq, və sair, və ilaxır...

Buna inanıb, könlümüzü fərah tutmağa çalışsaq da, həyat bizə bunun hər zaman belə olmadığını göstərir.Həyat, fəlsəfi fikrin tərtib elədiyi bu sistemdən çox fərqlidir.Beləki, həyatda bizə sevinc və səadət bəxş edən, bizə uğur gətirə bilən hər şey ani olduğu halda, bizi üzən çətinliklərin, problemlərin, xəstəliklərin ömrü, ömrümüzdən kəsəcək qədər uzun və əhəmiyyətli ola bilir. Xatirimizdə çətinliklə tutub saxlaya bildiyimiz qədər ani olan, olmağı ilə də yuxu kimi ötüb keçən

sevincli anların müqabilində, bizi bu həyatdan küskün salan, yoran, bezdirən anların sayı da çox, ömrü də daha uzun olur.Bəzən adama elə gəlir ki, qara zolaq tez-tez sıranı pozur, bir ağ zolaqdan sonda dörd-beş qara zolaq ard-arda gəlir.Belə acı günlərin ağırlığını üstümüzdən atmaq, yenidən bu həyata bağlanmaq üçün, bizə uzun-uzun zaman lazım gəlir.Və bütün bunların adı həyatdır. Həyat...

O ani sevincli anların xatirinə kədərli anları da səbirlə, dözümlə yola vermək, insan xarakterinin mətinliyini-cəsurluğunu göstərən amildir. Fəqət, unutmaq lazım deyil ki, bu amil hər insanda istənilən səviyyədə olmaya bilir.

Kədərli anlara rağmən, sevincli anlar bəzən bizə elə ruh yeksəkliyi verə bilir ki, biz ömrümüzün bir az da uzanmasını, əsla bitməməsini istəyirik. Bu yerdə iki, və daha artıq insan həyatını yaşamaq da keçir ürəyimizdən.Belə vaxtlarda, bu gözəl həyatın bir gün bitəcəyi fikri bizə elə dərin üzüntü verir ki, biz bu həyatdan dörd əlli yapışmağa can atırıq.Ölümün bir gün qapımızı döyəcəyi fikri bizi elə qorxudur ki, bir anlıq bütün xoş arzularımız alt-üst olur, sanki yer ayağımızın altından qaçır.Bir panik içində, bütün bəşəriyyətin bildiyi o acı həqiqəti də yox saymazdan gələrək, "mən əsla ölmək istəmirəm, mən əbədi yaşamaq istəyirəm" kimi bir üsyan da qopa bilir dilimizdən. Xislətimizdə mövcud olan qorxu hissi, bir insanın ölümün gerçəkliyi qarşısındakı acizliyini bu cür ortaya qoyaraq, bizi ifşa edir. Yalnız Allaha sığınmağımız köməyimizə gəlir, bizə güc verir, qüvvət verir, bizə səbirli olmağı, məntiqli davranmağı öyrədir. İnancımız bizim ən güvənli sığınacağımızdır. Biz Allahın qüdrətindən yarandıq, odur ki, çətinə düşən kimi, onun bizə demək istədiklərini dərk etməyə başlayırıq. Ağlımızın sayəsində biz dərhal hadisələrin idrakına varırıq, özümüzü ələ alır, sakitləşirik. Qəbul edirik ki, həyat varsa, onu ləyaqətlə yaşamaq lazımdır, ölüm varsa, ona şərəflə hazır olmaq lazımdır...

Nəsibə Günəş.23.01.2015.Avropa.

Ölüm...

Ölüm...Hər canlının bir gün Allahın əmri ilə can alıb yaşamağa başladığı, o gündən yol alaraq məyyən bir məsafəni qət elədiyi, nəhayət bir gün, yenə də Allahın əmri ilə son nöqtəsi qoyulduğu, bir ömrün bitişi...

Ölüm...Axın-axın dünyaya gələrək qismətinə düşən həyat payını yaşayan insanları, vaxtı çatanda həyatdan alıb götürən bir qəzavü-qədər...

Ölüm...Gəlişi ilə varı yox, arzuları və istəkləri puç edən, qapısından girdiyi evin çırağını söndüən seçənəksiz bir sonuc...

Ölüm...Həqiqətlərin ən doğrusu, ən dəyişməzi və ən acısı...

İnsan bir gün doğulub bu dünyaya gəlir, və elə o andan da, onun üçün ayrılmış fərdi həyat parçasının sayqacı işə düşür. İnsanın doğulub dünyaya gəlməsi ilə, öz həyatını yaşamağa başladığı o an, müdhiş bir andır.Çünki o an, həmin o bəşəri dünya ilə insan həyatlarının kəsişmə nöqtəsidir.Bu kəsişmə nöqtəsi hər insanın ömründə iki dəfə baş verir.Bir, doğulub bu dünyaya gəldiyi an, bir də ölüb bu dünyadan getdiyi an.Ona görə də, hər insanın tərcümeyi-halında onun həyatının hüdudlarını göstərən, bir başlanğıcla bir sonu kodlaşdıran çox önəmli iki məlumat yer alır.O məlumatlardan birincisi, hər insanın şəxsi sənədlərində doğum tarixi kimi keçir.Bu tarix xoş xəbərin müjdəçisi kimi, hər qapıdan girə bilən, hər evdə yolu gözlənən xəbərdir.Dünyaya yeni insan gəlir, bu xəbər nəsillərin çoxalacağına, insanlığın davam edəcəyinə dəlalət edir.Ona görə də bu tarixin gətirdiyi sevinc, həmin ailəyə də, onların qohum-əqrəbasına da böyük bir səadət bəxş edir.Şübhəsiz ki, yeni insan doğulursa, özü ilə yeni arzular, yeni xəyallar gətirir.Yeni insan doğulursa, ailələr böyüyür, inkişaf edir, güclənir.Yeni insan doğulursa, həyat davam edir.

İnsanın tərcümeyi-halında ölüm tarixi kimi keçən ikinci məlumat isə, bir insanın həyatının son bulduğunu, bu dünya ilə

haqq-hesabının bitdiyini göstərən məlumatdır. Acılıqda tayı-bərabəri olmayan "ölüm" kəlməsi bir insanı həyatdan almaqla, onun ailəsinin də, qohum-əqrəbasının da dünyasını başına yıxır, onları qəmə-kədərə boğur.Onların uzun zaman yas saxlaması da, bu itkinin acısını həzm edə bilmədiklərinə sübutdur.Ölüm bir insanı alıb aparır, o insanın yeri əbədi boş qalır, acısı unudulmur, onu sevənlərin həyatlarına kölgə salır, ürəklərində sağalmayan iz buraxır.Ölümdən hər bir insan da, bütün insanlıq da qorxur. Çünki, ölüm aparandır, azaldandır, yox edəndir.Bütün bəşəriyyət ölümdən qorxur.İnsanlığın kökü kəsilər deyə, qorxur.Bu qorxu bir də ona görə əsassız deyil ki, həyatın sonunda, ölümün hökümranlığa başladığı zaman içində, bütün insanlığın hesab verəcəyi bir gün də var. Qiyamət günü...

Biz həyata gələndə, yolun sonunda bir ölümün olduğundan xəbərsiz oluruq.Bunu çox sonralar, ağlımız kəsəndən sonra anlamağa başlayırıq.Həyatın əbədi olmadığını bilsək də, hər birimiz ürəyimizdə, ölümün bizdən yan keçəcəyinə dair zəif bir ümid yaşadırıq.İnancımız bunun mümkün olmayacağını açıq mətinlə bizə demiş olsa da, qorxumuz bizi hərdən yoldan çıxartmağa çalışır.Sevinc dolu, nəşə dolu günlərimizdə ölümün varlığını unudaraq, ümidlərimizə su səpsək də, bir insan ölümü ilə rastlaşan kimi silkinib ayılır, bu dünyanın ölümlü olduğunu xatırlamalı, qəbul eləməli oluruq.Bir gün gələn bir gün gedəcək fikri, tədricən həyatımızda öz yerini tutmağa, yavaş-yavaş yerini bərkitməyə başladıqca da, ölüm qorxusunu zəiflətməyə başlayır.

Yaşadığımız bu həyatın sirlərini öyrənmək məqsədilə yola çıxdığımız axtarışlar, bir gün bizi inancımıza tuş gətirir, və o gündən hər şey öz yerinə oturur.Gözümüz açılır, ağlımız aydınlaşır.Anlayırıq ki, bu həyat bizə verilmiş müvəqqəti bir zaman biçimidir.Həyat dediyimiz bir imtahandır.Biz bu həyatda ləyaqətlə yaşamalı, nə qədər qiymətli, nə qədər dəyərli də olsa, dünya nemətlərinin heç birinə bağlanmamalıyır.Çünki, yediyimiz-içdiyimiz, geydiyimiz-gəzdiyimiz, aldığımız-verdiyi-

miz nə varsa, hamısı bu dünyada qalacaq.Bizə yol yoldaşı olan tək şey, inancımız və bu dünyada elədiyimiz əməllər olacaq.Bu anlayışa varıb, qəbul elədiyimiz gün, ümidlərimizin də öz mənasını dəyişdiyi gün olur.İndi biz artıq başqa bir ümidlə yaşayırıq.Əyər inancimizi doğru-düzgün yaşada bilmişiksə, əyər yaxşı əməllər tutmuşuqsa, Allahın mərhəmətinə ümid edə bilərik.Allahın mərhəməti, günahlarımızın bağışlanması, günahlarımızın bağışlanması isə, cənnət qapısının üzümüzə açılacağı demək olacaq.O gündən də, "Allahdan ümid kəsilməz," deyərək bu ümidimizə sarılır, hər addımımıza diqqət edərək yaşayırıq.

Mömin və əməli saleh insanlar üçün o dünya, cənnət bağçalarından bir bağça, günahkar və kafir insanlar üçün, cəhənnəm çuxurlarından bir çuxur olacaq, deyərək, Allahın əmrini bizə bu şəkildə çatdırmışdır Allah Rasulu Məhəmməd Mustafa s.v.s.

Demək, uca yaradan bu qədər önəmli bir seçimi bizim özümüzə buraxmışdır.Ya, dinimizə-imanımıza sığınaraq, doğru-düzgün bir həyat yaşayacağıq ki, sonumuz bir cənnət bağçası olsun, ya da heç nəyin fərqinə varmadan, yaxşı-yaman bilmədən, hər işdən çıxaraq yaşasaq, bilməliyik ki, o dünyada cəhənnəm çuxurunu boylamış olacağıq.

Hər kəs bəşəri dünyasında nə əkəcəksə, əbədi dünyasında onu da biçəcək...

Qara zolağdan keçən günlərimiz bəzən bizi adi halımızdan çıxarda bilir.Yaşanan dərd-sərli, ağır günlərimiz bizi elə ruhdan sala bilir ki, bu cür gözəl həyatdan da bezə bilirik.Belə hallarda həyat bizi imtahana çəkir, biz də iradəsizlik göstərərək, düşüncəsiz hərəkətlər eləməyə başlayırıq.Vaxt olur ki, ağlımızi itirir, həyata son verməyi, intihar eləməyi də düşünə bilirik.Həmin o an, insanın acizləşdiyi, ağlını və iradəsini itirdiyi andır.Əksi halda bir insan, bu dünyaya gəlişinə özü qərar vermədiyi kimi, bu dünyadan gedişinə də özü qərar verə bilməz.Həyat bəzən çox dözülməz ola bilər, lakin onu vaxtından əvvəl sonlandırmaq bizim həddimiz deyil.Zatən vaxtı çatanda,

həyatımızın son bulmasını heç bir qüvvə əngəlləyə bilməyəcək. O vaxta qədər işimiz yaşamaq, yaşayaraq inanmaq, inanaraq gözəl əməllər törətmək olmalıdır.Yaxşı ki, inancımız var. İnancımız bizi ölümlə üz-üzə gələcəyimiz o günə hazırlaşdırır. İnsanın bir sonsuzluq yolçusu olduğunu, bu dünyada bir göz qırpımında bitən həyatın o dünyada sonsuza qədər davam edəcəyini öyrədir bizə.Bu biliklərə sahib olan insan da daha ölümdən qorxmur.Ölüm kəlməsinin özü də, onun törətdiyi əməl də insanın gözündə adiləşir, hər kəsin başına gələcək, bu üzdən də normal qəbul ediləcək bir vaqiə halına gəlir.

Yaxşı ki, bizi hər cür düşünülməmiş addımdan saxlayan ağlımız var.Ağlımız inancımızdan güc alaraq, son anda da olsa dadımıza çatır, bizə düzgün yol göstərir.Bizə bir daha xatırladır ki, önümüzdə həyat var, onu ləyaqətlə yaşamaq lazımdır, sonumuzda ölüm var, ona da layiqincə hazır olmaq lazımdır...

Nəsibə Günəş. 23.01.2015.Avropa.

Rəqəmlər və insanlar...

Bir, iki, üç, dörd,...sayqacların say səsləri,
Saya-saya bu dünyanın hər işini hesablayır.
Hər hesabın başındakı hesablayan o kəsləri,
Öz işində arif olan başqa hesablar haqlayır.

Bir, iki, üç, dörd,...sonsuz sayda rəqəmlər var.
Bu rəqəmlər insanların həyatına hesab tutar.
Rəqəmlərin sayı qədər, sonsuzluğa gedər yollar,
Hər kəs ömrün hesabını yolun hesabına qatar.

Bir, iki, üç, dörd,... yağışın damcı səsləri,
Damdan axan sel suyu da, saya-saya axıb gedir.
Bu saylarda bir nəğmə var, bir qərib tütəyin səsi,
Bir şimşək də bu saylardan ilham alıb, çaxıb gedir.

Bir, iki, üç, dörd,...həyat özü bir sayqacdır,
Dövran edir yaxşıları-yamanları saya-saya.
İnsanların həyatdan da, hesabdan da gözü acdır,
Hər kəs dörd əllə yapışır yaşadığı bu dünyaya.

Bir, iki, üç, dörd,...döyəcləyir ağacdələn,
Üstündə yuva qurduğu qalın ağac gövdəsini.
Qulaq asır bu səslərə hər dəfə meşəyə gələn,
Bu səslərdə tutmaq üçün fələyin sayan səsini.

Bir, iki, üç, dörd,...tələsir ömrün günləri,
Bu dünyanın bir də geri dönüşünü hesablayır.
Qibləgahlar üsyan edir, suçlayır bütün dinləri,
Bəd insanların əlindən dad edir, qara bağlayır.

Bir, iki, üç, dörd,...sayqac sayır, tıqqıldayır,
Sayılacaq hər nə varsa, bir gün mütləq bitəcəkdir.
İnsan oğlu, sən də tələs, yaxşıları pisdən ayır,
Hər kəs öz əməllərilə bu dünyadan gedəcəkdir.

Nəsibə Günəş. 09.08.2011. Belçika.

Dünyasını dəyişənlərə vicdan borcumuz...

(Həyat yoldaşım Nurəddinin əziz xatirəsinə.)

Nurəddin...
(13.10.1950.----15.08.2016.)
15 avqust 2016 saat 15:45.....

...Dünyadan bir Nurəddin getdi....

Mənim 45 illik ömür-gün yoldaşım, dostlarına 50 illik vəfalı dost, üç oğul övladımıza, üç gəlin qızımıza qayğıkeş ata, səkkiz nəvəmizə mehriban bir baba olmuş bir insan getdi dünyamızdan, yeri boş qaldı.O boşluğu biz nəylə dolduracağıq bundan sonra, heç özümüz də bilmirik.Həyatımızdakı bütün irili-xırdalı məsələləri özünün narahat xasiyyəti ilə daim nəzarətdə saxlayan, sağlamlığı yol versə də, verməsə də, ən vacib işlərin ipini həmişə əlində tutmağı bacaran bir insan, heç gözləmədiyimiz bir halda bizi də, bütün dünyanı da bir qəfil tərk edib getdi.Ancaq bu müdhiş hadisə baş verəndən sonra anladıq ki, sən demə o, bizim hər birimizin həyatındakı ən əvəzolunmaz şəxs imiş.Onun gedişi ilə sanki, bir boyunbağının ipi qırıldı, boyunbağı dənələri yerə dağıldı, səpələnib getdi.

Əlbət ki, "Həyat davam edir" deyərək, biz də hər kəs kimi, bir gün özümüzü toplayacaq, onsuz da olsa, yolumuza davam edəcəyik.Əlbət ki, hər birimiz Nurəddinsiz qalmış həyatımızın bundan sonrasını necə yaşayacağımıza baxacağıq.Ancaq bu artıq, bundan belə hər zaman bir tərəfi əksik qalan başqa bir həyat olacaq.Bu həyat, artıq bir atasız qalmış övladların, bir yoldaşsız qalmış qadının həyatı olacaq.Bəşəri dünyamızın sonunda bir ölümün olduğunu hər zaman bilsək də, bu bizi yaşadığımız şokun ağırlığından, bir faciə acısının göynərtisindən, bir ayrılıq duyğusunun dəhşətindən qoruya bilmədi.Ölüm haqdır, fəqət ölüm ağırdır, ölüm acıdır, çünki ölüm əbədi ayrılıqdır.Bu əbədi ayrılığı mətinliklə qəbul etmək, onun əmələ gətirdiyi boşluğu doldurmaq, əksik tərəfini yola vermək çətindir, hər kişinin işi deyil.Fəqət, təqdir İlahinindir, və biz də bu təqdirlə barışmaq zorundayıq.O zaman Allahdan Nurəddinə

yalnız rəhmət diləmək qalır.O zatən çox uzağa getmədi, əbədi yaşamaq üçün bir Allahın yanına, bir də onu sevənlərin qəlbinə köçdü.Allah ona qəni-qəni rəhmət eləsin, məkanı cənnət olsun, ruhu şad olsin!Amin!(Mərhumun Ruhuna bir Fatihə söyləyən dostlar sağ olsun!)

P.S. Allah sənə rəhmət eləsin, ay Nuru!Məkanın cənnət olsun, barı ruhun orda hüzur bulsun inşaAllah!Çox erkən tərk elədin məni, halbuki biz belə danışmamışdıq.Hələ nə qədər görəcəyimiz işlər vardı, arzularımız vardı...Hamısı yarımçıq qaldı...Hamısı yetim qaldı...Sən yoxsansa, onların da mənim üçün daha heç bir mənası qalmadı.Bundan sonra sənə vəd edə biləcəyim tək bircə şey qaldı:Gözünü yollardan ayırma, nə qədər sağam ziyarətinə, zamanı gələndə də yanına gələcəyəm.Gözlə məni!

Həyat yenə də davam edəcək, ancaq o həyatda səni sevənlərin gözünə hər zaman ox kimi batan bir şey olacaq:sənin yoxluğun, və sənsiz qalmış bir dünya...

Allah səni cənnətinə qəbul eləsin, əzizim...

Nəsibə Günəş. 21.08.2016. Saat 15:45. Belçika.

Azf296347

Azərbaycan Milli Kitabxanası

İkimizin yerinə...

Roman.(Vida məktubu...)

...Nurəddinin əziz xatirəsinə...

Narahat bir ürəyin közü oldu ayrılıq,
Ən zərif duyğular da oda tutuşdu, yandı.
Süzülən göz yaşının duzu oldu ayrılıq,
İtirilmiş ömürdən hər keçən günü dandı.
Buzlaşmış xatirələrin özü oldu ayrılıq,
Əriyən xəyallarda şamı da günəş sandı...

Nəsibə Günəş.

Mən elə bilirdim sənsiz də olar,
sənsiz heç olmazmış, olmazmış məyər...N.G.

GİRİŞ SÖZÜ...

Mən bu kitabı Nurəddini tanıyanlar, sevənlər, unutmaq istəməyənlər üçün yazmışam.Kitabda təsvir olunan hadisələr Nurəddinin 65 illik ömrünün onsuz aparılan son təhlili, son yekunudur...

Mən, "İkimizin yerinə" adlandırdığım növbəti kitabımda bu dəfə öz həyatımızı, hətta hardasa, özəl həyatımızı qələmə almışam.Mən ömür-gün yoldaşım Nurəddinlə keçən ömrümüzün bəzi xatirələrinə istinad edərək, yazdıqca xatirimdə canlanan epizodları yazıya daşımışam.

Oxuduqca, oxucu özü də görəcək ki, bu kitab sanki ziq-zaqa bənzər bir xətt üzrə inkişaf edir.Mənim özümdən asılı olmayan bu irəli-geri gediş-gəlişlər, bu kitabı bir az dəyişik bir şəkilə, fərqli bir üsluba saldı.Mənə görə son nəticə pis olmadı deyə, mən də hər şeyin yaddaşımdan süzülüb gəldiyi kimi qalmasını istədim.Etiraf etməliyəm ki, kitab, mənim tərəfimdən böyük məsuliyyət hissi ilə yazılıb.Əslində, hər şey sanki əvvəlki kitablarımdakı kimidir, fəqət bir fərqlə ki, bu kitabımın məzmunu başdan ayağa qədər, həyat yoldaşını itirmiş bir qadının səmimi etiraflarından yoğrulub.

O etiraflarda bir qadının yaşadığı peşmançılığın göynərtisi var, əbədi ayrılığın acısı var, bir ölümün arxasından susmaq bilməyən həsrət, durmaq bilməyən göz yaşları var.O etirafları edən, həsrətin gücündən bir gün ürəyini dünyaya açan həmin qadın da mən özüməm.Belə bir kitabı yazmaq mənim üçün asan olmadı, mənə əzab verdi, göynərti verdi.Buna baxmayaraq, mən bu kitabı yazdım, çünki içimdə bir məcburiyyət hissi var idi.

Belə bir kitabı yazmaq məcburiyyəti...O hiss, kitabı yazmağa başladığım andan məni rahat buraxdı, mən də doğru yolda olduğumu anladım.Mən bu kitabımı da bundan əvvəl yazdığım romanları yazdığım kimi, böyük məmnunluq hissi ilə, hər epizodu ürəyimin içindən keçirə-keçirə, sevə-sevə yazmışam.Və sadəcə yaşanmışları yazmışam...

Bu kitabın boynuna, bəlkə yalnız bizim ailəmiz üçün, bəlkə daha kimlər üçünsə çox böyük, çox vacib bir missiya düşür.Bu missiyanın bizim ailəmiz üçün boynuna düşən yükü, belə bir fikrin altından xətt çəkərək əbədiləşdirməkdir: By dünyadan bir Nurəddin gəldi, keçdi...

O Nurəddin kim idi, necə adam idi, həyatında nələr yaşadı, niyə belə erkən bu dünyadan köçdü?Bütün bunlar kimi maraqlandıracaqsa, həmin oxucu, hamısını da olmasa, müəyyən şeyləri bu kitabda tapa biləcək.Tanımayanlar, "Nurəddin belə bir insan imiş." --deyəcək, tanıyanlarsa, "Nurəddin həqiqətən də belə bir insan idi." --deyəcək.

Kitabın, əhəmiyyət baxımından birincidən heç də geri qalmayan ikinci bir missiyası da var ki, bu artıq bizim cəmiyyətimizdə yaşayan hər kəsi maraqlandıra bilər, çünki sözü gedən məsələlər bizim indiki mühitin insanlarından çoxuna aiddir.Əminəm ki, aşağıda açıq buraxılmış sualların cavabları, orda yaşamağa davam edən insanların diqqətini çəkəcək.Əslində, mən bu sualların cavabını kitabda vermişəm, ancaq mən o cavabları öz həyatımızdan gətirdiyim misallarla vermişəm.Ümid edirəm ki, mənim bu yazdıqlarım irəlidə çox adamı düşünməyə vadar edəcəkdir.

Niyə bizim həyatımız bu qədər çətin oldu?Biz çəkdiyimiz o zülümləri haqq eləmişdikmi?Cəmiyyətdə mövcud olan məsələlərin heç birini həll etmədiyindən, bizim kimi gənclərin ömrünü bu qədər ağır problemlərlə yükləyərək, vaxtından əvvəl qocalmasına səbəb olan bir quruluşun yaşamağa haqqı varmı? İnsanlara qarşı bu gün də haqsızlıqlar törədən, öz xalqına zülüm edən bir hakimiyyətin o kürsülərdə oturmağa haqqı varmı?Bütöv bir xalqın yaşadığı belə bir qüsurlu cəmiyyətdə, çoxluğun bu gün də baş verənlərə qarşı biganə olması, susqun qalması düzgündürmü? Xarici ölkələrə axışan insanların öz doğma yurdunu-yuvasını buraxıb getmələri, səbəbsizdirmi? Yoxsa, gedənlər keflərindən gedirlər, dünyanı gəzməyə çıxırlar?

Oxucular, ara-sıra bu sualların da cavabını kitabda tapa biləcəklər.Mən yalnız Nuru ilə ikimizin həyatımızı təsvir edərək, bu ciddi məsələlərə bizim yaşadıqlarımızın üzərindən açıqlama verməyə çalışmışam.Yəni bir ailənin misalında cəmiyyətin iç üzünü açmağa çalışmışam.Təsvir elədiyim bəzi səhnələrdə, oxucu təkcə bizim deyil, minlərlə bizim kimi ailələrin nə yaşadıqlarını da, niyə yaşadıqlarını da oxuyub anlayacaqlar. Anlayacaqlar ki, mövzu təkcə Nurəddin deyil, mövzu, həm də Nurəddin adında bir ailə başçısının simasında bir çox insanların keçdiyi, çətinliklərlə dolu həyat yoludur.

Bütün həssas insanlar kimi mən, dünyasını dəyişən valideynlərimi də, böyük qardaşımı da, həyat yoldaşımı da torpağa deyil, ürəyimə gömmüşəm.Ona görə də, onları unuda bilmir, hər yerə özümlə götürür, onların xatirələrini əbədiləşdirmək məqsədilə onlara yazılar da həsr edirəm.Mən ölənlərimizə həsr elədiyim yazılarımı "Dünyasını dəyişənlərimizə vicdan borcumuz" adlandırıram.Fürsət düşmüşkən, mən bu cümləyə yüklədiyim fikirlərimi də oxucularımla paylaşmağa çalışıram.

Ölümlü dünya zaman-zaman bizim içimizdən kimisə alıb aparır.Bu qaçılmaz bir sonucdur ki, ağlımız kəsəndən bəri biz bunu gözümüzün altına alaraq yaşayırıq.Lakin bunu bilməyimiz, heç də bizi bu fikirlə dost olmağa kömək edə bilmir.Biz ölümə bir yandan Allahın əmri kimi baxır, onu heç bir qeydsiz-şərtsiz qəbul edirik, çünki buna məcburuq.Bir yandan da ölümü insanlığa düşmən görür, onun bir gün bizi alıb aparacağından daha çox, bizim sevdiklərimizi alıb aparacağından çox qorxuruq.Və bu qorxu, həyatımızın ən böyük, ən daimi qorxusu olur.

Sual ola bilər ki, bəs niyə mən özümü dünyasını dəyişənlərə borclu hesab edirəm, niyə vicdanım onlara borclu qalır?Onların ölümündə mənim nə günahım var imiş?

Necə şeydirsə, mən lap əvvəldən anamı, atamı, qardaşımı, bu dəfə də həyat yoldaşımı itirdikdən sonra, mənə dəhşətli dərəcədə göynərti yaşadan güclü bir duyğunun altında əzab çəkə-çəkə

yaşayıram.Bu, anlaşılması zor, acısı zaman içində azalmaq yerinə, bir azacıq zəifləsə də, bir tikan kimi ürəyimə sancılıb qalan, yadıma da ən ağrılı xatirələri salmaqla, mənə bir peşmançılıq yaşadan bir duyğu, sanki məndən əzizlərimin ölümünün intiqamını alırmış kimi əzab verəndə, mən də özümü bu qəzavü-qədərin bir suçlusu kimi hiss edirəm.Bu duyğu mənim özüm üçün də mürəkkəb bir duyğudur.Bu duyğu, hər rəhmətə gedən yaxınımın ardından, ancaq elə ondan sonraya qaldığıma görə mənə vicdan əzabı çəkdirən, mənim həyatımın qalan hissəsinə kölgə salmağı bacaran bir duyğudur.Və mən, bu duyğunun qarşısında hələ də acizəm.Bir insan həyatının son bulmasının Allahın hökmü, təqdiri olduğu məni nə qədər ovundursa da, bu göynərti də yaxamı buraxmamaqda bir o qədər israrlıdır.Və mən bunun cavabını, səbəbini tapmaq üçün günlərlə düşünür, yavaş-yavaş tükənməkdə olan həyatımdan, məcburən, bu axtarışlara da vaxt ayırıram.Bir yandan da düşünürəm ki, biz başqa bir dünyaya yola saldığımız bu rəhmətliklərlə həyatımız boyu "can" deyib "can" da eşitməmişik axı... Onları nə qədər sevsək də, normal həyatda biz də hər kəs kimi, yəqin ki, bir-birimizə acı söz də demişik, yalnış da danışmışıq, yəqin ki, onların qəlbini qırdığımız zamanlar da olub.Olub ki, indi də biz bunun peşmançılığını çəkir, heç cür bu borcumuzu geri ödəyə bilmirik.Çünki gedənlər getdi, elə getməyi ilə də bizi cəzalandırdı...

Keşkə biz, yaşadığımız hər günün sona doğru getdiyini bir an belə unutmayaydıq, keşkə biz, tərəf müqabilimizin hər acı kəlməsinə də "can" deməyi bacaraydıq...

Bunları yazmaqdan məqsədim özümə həmfikir axtarmaq deyil, gərçi elə bu sözlərimdən də hər kəs dərsini alsa, yaxşı olar.Mənim burda məqsədim, sadəcə ürəyimin yükünü "yerə qoymaqdır" ki, zatən bundan sonra hər nə qədər yüngülləşsəm də, çox keçmədən o fikirlərin yerini yeniləri tutacaq.Bundan da əminəm...

***

Əyər oxucularımın arasında məni də bir yazıçı, (yazar) kimi qəbul edən varsa, istəyirəm bilsinlər ki, mən yazmağa başladığım ilk gündən, ilk cümləni yazdığım andan, nə yazıramsa, hamısını bədahətən yazıram.El dilində buna "sinədəftər" də deyirlər.Yəni ki, mən heç nə düşünmədən, heç bir hazırlıq etmədən, plan tutmadan yazı masamın arxasına keçirəm, və beynimdən nə axıb gəlirsə, məndən qat-qat güclü olan təxəyyülüm mənə nə diktə edirsə, onu da yazıram.Ona görə də, bu kitabda xatirələrin, bəzi yerdə günümüzə gəlişi, bəzi yerdə keçmişlərə dönüşü, təkrar-təkrar gah irəli, gah geri gedib-gəlməsi, oxucuya bir az qəribə gələ bilər.İstəyirəm hər kəs bilsin ki, bunlar qəsdən elənmiş bir dəsti-xətt deyil, bunlar təbii olaraq belə alındı, və mən də heç nəyi dəyişmək, heç nəyə düzəliş eləmək istəmədim.Mən hər şeyin axıb gəldiyi kimi kağızda öz əksini tapmasını istədim, düzəlişə ehtiyac görmədim.Bəzən tez-tez təkrarlanan cümlələrə də rast gəlinir.Lakin o cümlələr elə-belə, boş-boşuna təkrarlanmır, fikirlərin tamamlanması üçün, hadisələrin yada salınması üçün yardıma gəlir ki, bu da məncə çox yerinə düşmüş olur, mənaya məna qatır.Elə olmasaydı, onlar beynimdən bu şəkildə süzülüb gəlməzdi.Buna bədii ədəbiyyatda sözün gəlişi, ya da "sözgəlişi" də deyirlər.Sözün gəlişi çox vaxt düzəliş istəmir, mən bunu hiss edirəm, və o sözü olduğu kimi qəbul etməyə üstünlük verirəm.Mən öz təxəyyülümə çox güvənirəm.Bu da mənə əsas verir ki, ilk dəfədən qələmə aldığım heç bir cümləni dəyişməyim.

Bu kitabı da roman adlandırmaq olar, bircə fərqlə ki, mən bu kitabda Nurəddinlə birgə yaşanmış həyatımı, ikimizin həyatını qələmə almışam.Kitab, ilk kəlməsindən son kəlməsinə kimi Nurəddinə həsr olunub.Çünki, bu kitab mənim Nurəddinə vicdan borcumdur.Bir şey də var ki, hər həyat yoldaşının haqqında kitab da yazılmır. Məsələn, mənim haqqımda yazan

olmayacaq. O baxımdan, nə mutlu Nurəddinə ki, mən varam, və mən onun xatirəsini ailəsi üçün, övladları üçün, onu tanıyan dost-tanışlar üçün bu yolla əbədiləşdirməyə çalışdım.

Adətən mən, yazdığım romanların kədər dolu bölümlərində özüm də çox təsirlənir, mətnin o hissəsini qəhərdən boğula-boğula yazıram.Bu da mənim yazmaq qabiliyyətimin, (istedad deməyə üzüm gəlmədi), hər kəsdən əvvəl bir oxucu kimi mənim özümü sınağa çəkməsidir.Əyər mənim yazdığım özümü kövrəldirsə, deməli oxucunun da ürəyinə işləyəcək, ona da bu kövrək hissləri aşılaya biləcək.Əlbəttə ki, məqsəd oxucunu kövrəltmək deyil, məqsəd, oxucunun ürəyinə yol tapmaq, onun hisslərinə hakim kəsiləcək təsirli bir şey yazmaqdır.

Allahdan gizlin deyil, mən özüm də duyqusal insanam, ona görə də etiraf etməliyəm ki, "İkimizin yerinə" adlandırdığım bu romanı yazmağa başladığım ilk sətirdən son sətirə kimi göz yaşlarıma hakim ola bilmədim.İkimizin həyatını oluşduran acılı-şirinli xatirələrə, bir də bir can yoldaşı itkisinin göynərtisi, bir ömür-gün yoldaşının vaxtsız bu dünyadan gedişi kimi bir müsibətin acısı qatılmışdı çünki...

Nə vaxtsa bu kitabı oxuyacaq, bizi tanımayan yad insanlardan, bu insani kövrək duyğularıma anlayış göstərmələrini təvəqqe edir, onlardan bu kitabda yazılanlara sayqı ilə yanaşmağı umuram.Onlar zatən, sadəcə bir roman oxuduqlarını düşünəcəklər, və biz də onların qarşısına, sadəcə bir roman qəhrəmanları kimi çıxacağıq.Lakin ailə fərdləri üçün, ən yaxın qohumlar üçün, dostlar-tanışlar üçün bu belə olmayacaq.Bu qəbildən olan insanların bəziləri, kitabın bir yerində öz adlarına rast gələrkən, bəziləri də kitabın başqa yerində, bir zamanlar özləri şahidi olduqları hadisələrin izinə düşərkən, xatirələrində mənim qələmə aldığım o illərə geri dönəcəklər, hələ mənim burda bəlkə unutduğum, bəlkə qəsdən yazmadığım hadisələrdən nələri...nələri...xatırlayacaqlar. Yeri gəlmişkən, çox önəmli hesab elədiyim bir məqamın da altını cızmaq istəyirəm. Burda,

bizim həyatımızın şahidi olmuş, həyat yolunu bizimlə bərabər addımlamış, hər şeyi yaxından təqib eləmiş insanlar üçün bir haşiyə çıxmaq yerinə düşər.

Ola bilər ki, kitabda yazılmış hansısa bir hadisəni onlar başqa cür xatırlasınlar, yazılanların həqiqətə uymadığını düşünsünlər və sair.Burda qeyri-adi heç nə görmürəm, və belə məqamların ola biləcəyini düşünərək, burda belə bir qeyd eləmək istəyirəm.Mən öz həyatımızı yazmışam, odur ki, yazdıqlarımın həqiqət olduğundan, yalnız olanları yazdığımdan əminəm.Lakin, bu xatirələr də romanlaşmış bir şəkildə yazıldığı üçün, hansı məqamdasa, kimisə qane etməyə bilər.Mən burda heç bir problem görmürəm.Önəmli olan, bu kitabdakı Nurəddin obrazıdır ki, mən əminəm, onu hər kəs belə tanıyırdı, onu hər kəs belə sevirdi, onun vəfatına da hər kəs, eynilə bu kitabda yazdığım kimi, yandı-yaxıldı.Nurəddinin qazandığı hörmətə, sədaqətə, sevgiyə heç kim şərik çıxa bilməz, heç kim onun bu mənəvi qazanclarını dana bilməz.Nurəddin harda yaşadısa, hardan yolu düşdüsə, hər yerdə özünə hörmət qazandı, sevgi qazandı, inandığı hər kəsdən vəfa-etibar gördü.O, bu gözəl insani duyğuların hamısını öz səmimiyyəti ilə, dürüstlüyü və saflığı ilə qazanmışdı.O bu hissləri öz ürəyi ilə haqq eləmişdi.Mən də bunu yazmışam.Önəmli olan da budur.

Kitabda bəlkə çox az ad çəkimşəm, bəlkə kiminsə adını çəkməmişəm.Bunun da səbəbləri var.Məsələn, nəvələrimin adlarını qürurla çəkməyimə rağmən, övladlarımın adlarını heç çəkməmişəm.Belə olmasını onlar istədilər, mən də anlayışla qəbul elədim. Halbuki, onlar Nurəddinlə bizim sönsuz məhəbbətimizi özlərində yaşadan ən dəyərli sərvətimizdirlər.Biz ömrümüzü onlara adadıq, onlar üçün yaşadıq, onlar üçün ölməyə də hər zaman hazır idik.Həyatımız çətin oldusa da, biz dürüst, qeyrətli, dini-imanı yerində övladlar yetişdirə bildik, və son günündə Nurunun dilindən də eşitdiyim kimi, ancaq elə bunun üçün yaşamağa dəyərmiş.O son gündə, biz bir-birimizdən

halallıq istədik.Nə hiss eləmişdisə, sözü Nuru başladı, əlimi əlinə alıb dedi:

--Məni bağışla, sənə çox da gözəl günlər yaşada bilmədim.Həyatımız çətinliklərlə dolu oldu, ömrümüz-günümüz sanki bir savaşda keçdi.Sən olmasaydın, mən təkbaşına bunların öhdəsindən gələ bilməzdim.Haqqını halal elə.

Sonra o, mənim əllərimdən öpdü, mən də göz yaşları içində əvvəcə onun əllərindən, sonra da alnından öpdüm.

--Sən nə danışırsan ay Nuru, olmaya peşmançılıq çəkirsən? Belə demə, sən də bilirsən ki, yaşadıqlarımız bizim qismətimiz idi.Məsələ çətinliklərdə deyil, məsələ o yolda arxamızda bizi utandıracaq, başımızı önümüzə əyəcək bir şeyin olmamasıdır. Heç nəyi özünə dərd eləmə.Şükür Allaha ki, hər kəsin qarşısında alnımız açıq, üzümüz ağdır.Onunla öyün ki, biz birlikdə hər şeyin öhdəsindən gəldik. Sənin sayəndə gəldik.İndi bax, bir kənd adam var başımızın üstündə.Bu da bizim zəhmətimizin bəhrəsidir. Əsas odur ki, sən hər şeyin öhdəsindən gəlməyi bacardın, nəticəsini də gördün.Bura gələndən sonra azad nəfəs aldın, övladlarının mürvətini gördün, nəvələrini qucağına aldın, hər istədiyinə nail oldun.Mənim haqqım sənə min dəfə halal olsun.Əsil sən haqqını bizə halal elə. Boynumuzda haqqın böyükdür.

Mən elə bilirdim ki, biz sadəcə söhbət edirik, halbuki, o bizimlə vidalaşırmış, mən bunu gec anladım.O, nəmli gözləri ilə gülümsəyərək, başımızın üstündə dövrə vurub dayanmış oğlanlarımıza, gəlinlərimizə, nəvələrimizə baxdı, onları məhəbbətlə süzüb dedi:

--Düz deyirsən, bunlar üçün yaşamağa dəyərmiş... MaşaAllah... mən sizin hər birinizə qurban olum, balalar...haqqımı sizə halal eləyirəm...halal olsun...

Bu sözləri deyərkən bir az da kövrəldi, gözlərindən iki damcı yaş da axdı. İndi belə düşünürəm ki, hər halda o an, o gerçəkdən də nəsə hiss eləyirdi ki, övladlarımızın hamısını, böyüklü-kiçikli yanına çəkib öpdü, hamısı ilə bir də halallaşdı.

Sonra, ona qəribə bir gümrahlıq gəldi, elə bil bir az özünü topladı.Heç nə olmamış kimi, oğlanları ilə yeni çıxan maşınlardan danışdı, futbol maçı izlədi, Türkiyədəki darbədən danışdılar.Axşama doğru yoruldu, əlimi əlinə alıb dedi:

--Sən balalarımızı başına yığ, söhbət elə, mən bir az yatım, yorulmuşam.

Bu onun, əbədi yuxuya getməzdən əvvəl söylədiyi son sözləri idi. Həmin gün o, çox dərin bir yuxuya getdi, o yatan yatdı, bir daha oyanmadı.Ertəsi gün, saat 15:45-də Nuru dünyasını dəyişdi.O son günlərdə Nuruda, övladlarını da, məni də həm heyrətə salan, həm də bizə özümüzün də anlamaqda çətinlik çəkdiyimiz bir ümid verən, qəribə bir cəhətə şahid olduq.O cəhət əbədilik yaddaşımıza həkk olunub qaldı.Üzünə bir nur gəlməsindən əlavə, son ana qədər, gözlərini əbədi yumana qədər, Nurunun gözlərinin içi gülürdü.İnşaAllah biz ümidlərimizdə yanılmarıq.İnşaAllah ki, bu bizə bir müjdə idi...

Kitabda ara-sıra da olsa, ailə üzvülərindən, tanış-bilişdən kiminsə adı keçir, o da ona görə ki, yazdığım həmin epizodda o obraza ehtiyac vardı.Təkrar olsa da, deyəcəyəm, gərək heç kəs məndən inciməsin.Mən beynimdən nə gəldisə, təxəyyül qabiliyyətim mənə nə diktə elədisə, onu da yazdım.Desəm ki, bu yığcam kitabda bütün həyatımızı əks elətdirdim, bu yalan olar.Yaşadığımız cəmiyyətin ən sadə vətəndaşları olduqsa da, həyatımız mürəkkəb problemlərin, mürəkkəb hadisələrin içindən keçə-keçə bizim sadə həyatımızı da mürəkkəbləşdirə bilmişdi.Odur ki, bizim kimi sadə insanların həyatı da bir kitaba sığmaya biləcək qədər uzana bilirdi.Bu kitabda yazılanlar, ancaq müəyyən anların toplusudur.Burda oxuyacaqlarınız, heç hər ilin bir gününü də əhatə edə bilmir.Sadəcə illərdən bir gün, o gündə yaşanmış bir an, və o anın mənim üçün əziz olan xatirəsi...

Rəhmətlik Kərəm qardaşımın əziz xatirəsinə geniş yer verilməsinə gəlincə, ailəm də, bizimlə eyni zamanı, eyni mühiti paylaşan insanlar da şahidimdir ki, o bizim həyatımızın hər

anında, hər yerində yanımızda oldu.Həyatda ikən, canlı olaraq, rəhmətə gedəndən sonra bir xəyal kimi...Vətəni tərk etməzdən əvvəlki həyatımızda, biz hər Allahın verdiyi gün görüşməsəydik, olmazdı.Sevincli günlərimizdə də, dara düşəndə də bizə ilk özünü yetirən o olurdu.O, hər zaman yanımızda olduğu üçün, həyatımızdakı bütün yaşanmışların həm iştirakçısı idi, həm də şahidi.

Araya əbədi ayrılıq düşəndən sonra biz Nuru ilə onu tez-tez yad edər, sözünü-söhbətini danışardıq.Biz Kərəmi yad edərək, Kərəmsiz keçən ömrümüzü onun əziz xatirəsi ilə doldurmağa çalışardıq.Çünki buna ehtiyacımız var idi.Çünki, həyatımızda hər zaman yeri görünən bir Kərəm yoxluğu var idi...

Allah hər ikisinə rəhmət eləsin, məkanları cənnət olsun.Amin.

O və Mən...
Qismətin gücü Allahın hökmündədir...

Kainatda sonsuz sayda ulduzları görmüsünüsmü?

Sual sizə qəribə gəlməsin.Əlbəttə, mən də bilirəm ki, hər kəs nə zamansa, hardasa, heç olmasa bir dəfə ulduzlu axşamlarda göyə tamaşa eləmişdir.Və yəqin ki, ulduzlu göyləri görənlərin də, görməyənlərin də bu mənzərə haqqında müəyyən təsəvvürü vardır.Ancaq, mən özüm də, yaşam tərzi ilə bizi, ruhumuzu oxşayan belə görüntüləri izləməkdən daim yayındıran bir meqapolis şəhərinin sakini kimi, əminliklə deyə bilərəm ki, həyatımızda ulduzlu göylərə tamaşa eləmək kimi bir lüksümüz olmuşsa da, yəqin ki, bu lap çoxdan olub.Bəlkə gəncliyimizdə, bəlkə son dəfə hardasa təbiətin qoynunda olduğumuzda, bəlkə televizorda...

Halbuki, o ulduzlu göylər hər zaman bizim başımızın üstündə olub, və o ulduzları görməkdən ötrü aydın gecələrdə başımızı qaldırıb göyə baxmağımız kifayətdir.Lakin, hətta belə bir sadə

hərəkətin yada düşməsi üçün də, həyatımızda müəyyən şəraitin olması vacibdir.Məsələn, bir insanın əhvalı da o gözəlliyə tamaşa eləmək kimi bir istəyə uyğun gəlməlidir.Başqa sözlə desək, bu bir ehtiyac olmalıdır, və bu ehtiyac insanın içindən gəlməli, onu bu hərəkəti eləməyə sövq etməlidir.O zaman da, ömrümüzün hər anını sıralanmış problemlərin həllinə cəlb edərək yaşadığımız bu dünyada, ən azından bunun üçün imkan yaradan şərtlər olmalıdır.Hər zaman uyğun olmayan, hər zaman əksik qalan şərtlər...şərtlər...şərtlər...

Hər fürsət düşəndə, şərtlər də uyğun gələndə, mən də ulduzlu göyləri seyr eləməyi sevirəm.Gecənin zülmət qaranlığında, bizə uzaqdan da uzaq görünən ulduzlar, var gücləri ilə işıq saçaraq, təkcə göyün üzünü deyil, yeri də yetəri qədər işıqlandıra bilirlər. Bu mənzərəni izləyən hər kəsin gözü önündə çox gözəl bir görüntü sərgilənir. Ucsuz-bucaqsız tünd mavi atlas kumaşın üzərinə, zər dənəcikləri kimi səpələnmiş saysız-hesabsız ulduzlar. Əslində, gecələri göy üzü heç mavi də deyil, elə göydür, ona görə də göy adlanır, və bu tünd göy ümmanda alışıb yanan, adama göz vururmuş kimi sayrışan ulduz kahkəşanı, heç şübhəsiz ki, dünyanın tayı-bərabəri olmayan gözəlliklərindən biridir...

Belə deyirlər ki, göydə nə qədər ulduz varsa, yerdə də o qədər insan var.Bir də deyirlər ki, guya hər ulduz bir insana aiddir.Hələ deyilənə görə, ulduz axışı kimi bir olay da baş verə bilirmiş.Mən görməmişəm, ancaq ulduz axışını öz gözləri ilə gördüklərini deyənlər də var.Ulduzları birbaşa insanların talehi ilə əlaqələndirərək fəlsəfə yürüdənlər də söyləyirlər ki, guya hər axan ulduz, hardasa bir insanın həyatdan ketdiyini göstərir.Bu deyilənlərin doğruluğuna mənim inanmağım gəlmir.Mən hardasa qəbul edə bilərəm ki, nadir hallarda da olsa, kainatda ulduz axışı deyə bir hadisə baş verə bilər.Mən bunu öz gözlərimlə görməmişəm, ancaq televiziya ekranlarından bunu əks etdirən görüntülər izlədiyim olub.Bu məlumatların doğru olub-olmadığına gəlincə, mən bunu nə doğrulaya, nə də inkar edə bilərəm.Çünki

əlimdə bu fikirlərin heç birini sübuta yetirə bilən bir dəlil yoxdur.Mən bu hadisənin özünü deyil, onun insan talehi ilə əlaqələndirilən hissəsini təkzib edə bilərəm.Çünki mənim bu yaşa qədər apardığım şəxsi hesablamalarım heç cür bu deyilənlərlə üst-üstə düşmür. Əvvəla ona görə ki, günlərin bir günü, avqust ayının tən ortasında, mənim 45 illik ömür-gün yoldaşım Nurəddinin bu dünyaya gözünü yumduğu gün, mən ürəyimi yandırıb-yaxan, başıma gəldiyinə heç cür inana bilmədiyim bir ağrı-acı ilə dan yeri ağarana qədər evə girə bilmədim, balkonda oturdum, göz yaşları içində Allaha yalvarıb Nuru üçün dua elədim.Allaha yalvardım ki, onun taqsiratlarını əfv eləsin, onu sevdiyi qullarının cərgəsinə qataraq, cənnətinə qəbul eləsin.Yanımdan can yoldaşım getmişdi, gözümün önündə qara torpağa dəfn edilmişdi, mənimsə əlimdən bundan artıq bir şey gəlmirdi.Uzun illər mənim həyat yoldaşım, sirdaşım olmuş bir insanın, bu dünya ilə bütün əlaqələri kəsilmişdi deyə, az öncə ismi də dünya sakinlərinin siyahısından silinmiş, artıq axirətin əbədi dünyasında yer almışdı. Odur ki, indi onun ancaq o dünyası üçün dua eləmək lazım gəlirdi.Bunun hətta çox vacib olduğunu bilsəm də, o gün məni dilə gətirən bunu bilməyim deyildi, ürəyimin yanqısı idi.Mən dan yeri sökülənə qədər göz yaşları içində dualar edirdim.Dünyasını dəyişmiş həyat yoldaşıma Allahdan rəhmət, mərhəmət istəyir, onun irili-xırdalı, bilərək və ya bilmədən işlədiyi günahlarının bağışlanmasını diləyirdim.

Göz yaşları və dualar...Onun üçün edə biləcəyim tək şeylər bunlar idi.Mən bu duaları ağlaya-ağlaya, göyün üzü işıqlaşana qədər, həm də başımı qaldırıb göyə baxa-baxa edirdim.Ancaq hardasa bir ulduz axdığını heç görmədim. İnanmamağımın ikinci səbəbi də odur ki, əyər müasir dünyamızda hər gün minlərlə insanın öz əcəli iləmi, yaxud qanlı savaşlar nəticəsindəmi, həyatdan getdiyini,düşünəcək olsaq, məntiqlə gərək onda hər gecə göydən ulduz yağışı yağaydı.Halbuki, mən əminliklə deyə bilərəm ki, nə mən, nə də başqa kimsə, bu günə qədər belə bir hadisəyə şahid olmamışdır.

Sözsüz ki, ulduzlu göylər çox gözəldir, və heç şübhəsiz ki, Uca Yaradan insanın qavrama qabiliyyətinə gözəllikləri fərq etmək, gözəlliklərə aludə olmaq kimi bir zəifliyi də qoymuşdur.Xəyalpərəst bir insan olduğum üçün, ulduzları seyr eləməyi mən də çox sevirəm, insana çox böyük zövq verdiyi üçün, mən də bu mənzərəni saatlarla izləyə bilər, onların mənəvi dünyamızdakı yerindən yorulmadan danışa bilərəm.Başqa vaxt olsaydı, mən belə də edərdim.Başqa vaxt olsaydı...Ancaq bu gün deyil. Bu gün mövzu başqadır.Bu gün mən, bu günə qədər özəl bir şey olduğunu düşünərək, haqqında bir kəlmə də danışmadığım bir mövzuya baş vuracağam.Bu gün mən bir insandan, onun həyatını təşkil edən bəzi xatirələrindən danışacağam.Bir zamanlar ikimizin də həyatı olmuş, indi artıq ikimizin həyatını yada salacaq xatirələrə çevrilmiş keçmişlərə geri dönəcəyəm.O xatirələrdən yadıma gələnlərini, sonunda, oxucunun təfəkküründə bir insan obrazı yarada biləcək önəmli hadisələri yazacağam.Bu gün mən başqa bir şeydən danışacağam.Odur ki, ulduzlarla bağlı fikirlərimdə bu bir-iki cümlədən o yana getməyəcəyəm, çünki ulduzlar mövzusunun bu gün danışacaqlarıma heç bir aidiyyatı yoxdur.Bu gün mövzu başqadır.Bu gün mövzu, Nurəddinlə bizim həyatımızla, bizim yaşadığımız konkret bir məkanla bağlı olacaq ki, biz də ömrümüzü ulduzlarda deyil, ulduzlarla eyni səmanı paylaşan gəzəyənlərin birində yaşadıq...

Məlum olduğu kimi, göyün üzü ulduzlardan əlavə saysız-hesabsız gəzəyənlərlə də doludur.Uzaqdan baxanda hər biri toz dənəciyi kimi görünsə də, hər gəzəyən, hüdudlarını insanın gözlə görə bilməyəcəyi geniş bir dünyadır.İnsanlıq, "O gəzəyənlərdə də həyat varmı?" kimi bir suala əsrlərini verərək cavab axtardısa da, bu gün bu ritorik suala girməyin heç yeri deyil, çünki bu sual bizi əsas mövzudan yayındırar, çox uzaqlara apara bilər. Gərçi, onların da məsələyə heç bir aidiyyatı yoxdur, çünki biz o gəzəyənlərdən yalnız birində, Yer adlanan həyat

dolu bir kürədə yaşayırdıq.Ondan qalan gəzəyənlər bizi, yeri gələndə, ancaq bir elmi-tədqiqat mövzusu kimi maraqlandıra bilərdi.O saysız-hesabsız gəzəyənlərin arasında biri vardı ki, bütünlüklə bizə aid idi, ona görə də bizim gəzəyənimiz idi.Yer adlanan bu gəzəyən bizim qoynunda doğulduğumuz, yaşadığımız, öldükdən sonra da torpağına gömüldüyümüz, təkcə insanlarla deyil, cürbəcür canlılarla da dolu dünyamız idi. Bu dünyada sonsuz sayda ölkələr, şəhərlər, kəndlər, bir sözlə insan məskənləri var idi.Əslində, heç onların da bu günkü mövzuya heç bir aidiyyatı yoxdur.

Çünki, əyər mən Nuru ilə keçən ömrümdən nələrsə danışacağamsa, biz ömrümüzün böyük bir hissəsini bircə şəhərdə, Bakıda yaşadıq.Doğrudur, sonralar qismət bizi qarşısına alıb çox uzaqlara apardı.Biz qalan ömrümüzü vətəndən uzaqda, Avropa ölkələrindən birində, Belçikada yaşamalı olduq.Bizə ikinci vətən olmuş Belçikada da Nuru ömrünü başa vurdu.Mən bunlardan da söz açacağam.Mən yeri gəldikcə Nuru ilə qoşa gəzdiyimiz, zaman-zaman yaşadığımız dəyişik yerlərdən də danışacağam, ancaq indilik ömrümüzün ən vacib bir məqamından söhbətə başlamaq üçün, özüm qəsdən yavaş-yavaş çənbəri daraldıram.

Sözümün əvvəlində ulduzları, yeri-göyü, kainatı, planetləri, ölkələri, şəhərləri saymağımın başlıca məqsədi, qismət adlanan bir alın yazısının gücünə, qüvvətinə, dəyişməzliyinə diqqət çəkmək idi.Bu yerdə, inanclı insanların Uca Yaradana cani-könüldən şükür etməsində bir fayda var. Bizi bu qədər mükəmməl yaradan o uca varlığa şükürlər olsun ki, təkcə ulduzların arasından deyil, təkcə planetlərin içindən deyil, hətta milyardlarla insan sıxlığının arasından, bir insanın yalnız onun üçün nəzərdə tutulmuş başqa bir insana rast gəlməsini, ona qovuşmasını bu dərəcə mükəmməl hesablamış, hazır şəkildə önümüzə qoymuşdur.

Bu hesablamada zərrə qədər yalnışlığa yer yoxdur.Bircə onu

düşünək ki, yeri-göyü, ulduzları, kainatı, bizi yaradan o böyük Allah, özü yaratdığı bu qədər insan sıxlığının içində, kimin-kimə qismət olacağını nə qədər dəqiq hesablamalı, sonra da onu necə dəqiq tənzimləməlidir ki, öz qismətinə tuş gətirmək üçün bir insanı dünyanın o başından bu başına çəksin, bununla da, onu öz qismətinə tuş gətirsin.Yaxud da bir-birinə yazılmış, lakin müəyyən bir vaxta kimi bir-birindən xəbərsiz yaşayan iki insanı, günlərin bir günü eyni bir dalanda bir-birinə rast gətirsin.Uca yaradanın hökmü varsa, bir-birinin qismәti olan iki insanın ömür yolları bir gün mütləq kəsişəcəkdir.

O kəsişmə nöqtəsinin hansı yaş dövrünə təsadüf edəcəyini, hansı bir məkanda baş verəcəyini Allahdan başqa bilən yoxdur, mənsub olduğumuz dinin təbiri ilə desək, Allahu-aləmdir.

Biz ancaq yaşayırıq, və önümüzdəki, bizim üçün öncədən cızılmış o yolu gedirik.Sözümə qüvvət kimi, günlərin bir günü, bir dalanda üz-üzə gəlmiş bir özümlə Nuraddini göstərə bilərəmsə, bir də oğlanlarımla gəlin-qızlarımın alın yazısını misal çəkə bilərəm.Bir-birinə rast gətirmək üçün, Gözəl Allahım onları da dünyanın bir ucundan o biri ucuna çəkərək, bir-birinə rast dətirdi ki, Allahın bu təqdirinə də şükürlər olsun!

Burda söhbət Rəhmətlik Nuru ilə bizim ömrümüzün kəsişmə nöqtəsindən gedirsə, biz ömrümüzün lap başında, yaşadığımız Bakı şəhərində bir-birimizə rast gəldik.Heç bu şəhərdə də çox küçələrin, çox yerlərin mövzuya o qədər də aidiyyatı yoxdur.

Çünki bizim ikimizin də həyatımızın ən mənalı günlərini yaşadığımız o zaman kəsimi, birlikdə sürəcəyimiz həyatın başlanğıc nöqtəsi kimi əhəmiyyət kəsb edən bircə məhlədən, bir küçədən, bir həyətdən başlayırdı.

Hər şey, bizi bir gün bir araya gətirən, əvvəlcə qonşu kimi bizi bir-birimizə tanıdan, sonra uşaqlıq yoldaşı kimi uzun illərin sınağından keçirdən, daha sonra da ömür-gün yoldaşı kimi, bizi ömürlük bir-birimizə bağlayan o həyətdən başladı...

***

O həyətə ilk gəlişimi yada salmağa çalışıram.Altı yaşındaydım.Bundan sonra Nuru ilə mənim uzun illəri qonşu kimi yaşayacağımız, bu tanışlığın, bu qonşuluğun nəticəsi kimi, zamanı gələndə də bizi bir damın altında birləşdirəcək yeni məhləmizə köçüb gəldik, yeni evimizə yerləşdik, və mən ilk dəfə küçəyə çıxdım, o həyəti gördüm.O həyət, irəlidə bizim də ibtidai təhsilimizi alacağımız məhəllə arası dördillik məktəbin həyəti idi.Burda yaşadığım müddətdə bir şeyi anladım ki, sən demə, bu məhləyə yeni gələn hər kəsin ətrafla tanışlığı, bir qayda olaraq, bu həyətdən başlayırmış.

Çünki bu məhlənin harasında yaşasaydın da, bir küçəyə çıxdınmı, qulağına uşaq toplumundan gələn hay-küylü səslər gələr, istər-istəməz hər kəsin diqqətini də səs gələn tərəfə çəkərdi.

Kim o səsi tutub gedərdisə, bir azdan hündür bir hasarın önündə durmuş olardı.O hasar məktəbin hasarı, o hasarın arxasındakı asvaltla örtülmüş həyət də, həmin o iki mərtəbəli məktəbin həyəti idi. Altı yaşında bir qız uşağı olduğum üçün, məhlənin necə bir yer olduğu məni maraqlandırmırdı, mənim də diqqətimi çəkən o həyətdən gələn səslər idi. O gün ilk dəfə evimizin içinə kimi gələn bu şən səslərin hardan gəldiyini öyrənmək üçün çölə çıxdım, bizim darvazamızla üz-üzə dayanan o darvazasız həyəti gördüm.Maraq mənə üstün gəldikcə, mən də addım-addım yaxınlaşıb içəri baxdım.Orda bir uşaq dünyası olduğunu gördüm, üstəlik o dünyada dəcəl uşaqlardan ibarət bir toplumun qaynaşdığına şahid oldum.Həyət gerçəkdən də qazan kimi qaynayırdı, və bu qaynar qazanda qızlar oğlanlara qarışmış, hər kəs hansısa bir hərəkətli oyuna qapılıb getmişdi.

İpatdı oynayan kim, sinif-sinif oynayan kim, top oynadan kim, ora-bura qaçışan kim.Uşaqların hay-küyü ətrafı başına götürmüşdü.Mən içəri girməyə ürək eləmədim, nə qədər sürdü

bilmirəm, ancaq anam məni evə çağırana kimi eləcə qapının ağzında durub içəridəki qaça-qovu izlədim.

Qısa bir sürə bu məhlədə yaşadıqdan sonra, bu həyətin bu məhlə üçün nə qədər böyük əhəmiyyət kəsb elədiyini anladım.Sən demə, məktəbin həyəti bu məhlənin mərkəzi imiş, və məhləmizin ən önəmli yeri sayılan məktəbin həyəti necə deyərlər, "düz bizim ağzımızın içində imiş." Yəni, bizim evimiz düz məktəbin yanında olduğundan, darvazalarımız da üz-üzə idi.İşin belə olması məni çox sevindirdi, məktəbin həyətinə bu qədər yaxın ev aldığımız üçün özümüzlə qürur duydum.Bu durum bizim xeyrimizə idi, çünki bizə, eynilə bir kənddə kənd meydanına ən yaxın yerdə yaşamaq kimi bir üstünlük verirdi.Yəni, biz bundan sonra məhlənin tam da mərkəzində yaşayacaqmışıq.Mənə görə, bu çox gözəl bir şey idi.Çünki səhər saatlarında uşaqların əyləncə və oyun, günortadan sonra yeniyetmələrin toplantı, axşam vaxtı da gənclərin görüş yeri olan məktəbin həyəti, bizim evimizin iki addımlığında idi.

Yeri gəlmişkən, mən illərlə, bu məktəbin həyətində yeni dərs ilinin başlanmasını, sonra da bitməsini tarixə möhürləyən neçə-neçə güllü-çiçəkli, şeypurlu, təbilli tədbirlərin şahidi olmuşam. Ancaq bu həyətin daha böyük, daha sanballı tədbirlərdə də əvəzolunmaz rolu vardı ki, bu da burda çadırların qurulması idi, o çadırlarda neçə-neçə toyun çalınması idi, bəzi axşamlarda yeniyetmələrlə gənclərin buranı rəqs meydançasına çevirməsi idi, burda gecə yarısına kimi rəqs eləmələri idi ki, bunları da mən yaxşı xatırlayıram.Çünki, mən bunların hamısının şahidi olmuşam.Bu həyətin, bu məhlədə yaşayan insanların qarşısında bu cür rəngarəng xidmətləri də olub ki, indi bunların hamısı bizim uşaqlığımızı da özündə yaşadan şirin xatirələrdir.

O xatirələrdə biz hamımız varıq...mən, qardaşlarım, bacılarım, Nuru, onun qardaşı, bacıları, və bir çox, bir çox başqaları...Bir şey var ki, o xatirələrdə biz daha vəfalı, daha etibarlıyıq, çünki heç ayrılmadıq...

O vaxtlar, məktəbin həyəti öz bəxtəvər günlərini yaşayırdı. Çünki, səhərdən bura axışan uşaqların qarışıq səsləri ilə başlayan gün, hava qaralana qədər gah dolan, gah boşalan, ancaq heç vaxt boş qalmayan bu həyətin, insanlar üçün nə qədər vacib bir yer olduğunu göstərirdi.Həyət də ömrünü bu cür yaşayırdı, səhərdən gələnlərə qucaq açar, axşamın sərininə kimi sinəsində atılıb-düşdükcə həyəti bu qədər təpik altında əzən uşaqların hər hərəkətinə dözər, yalqız qalmamaq naminə hər zəhmətə qatlanardı.Bu da onun qisməti idi.Yaşanan evlər də, yaşanan həyətlər də, ancaq oralarda insan yaşayarsa, yaşayardılar.Necə şeydirsə, insan ayağı dəyməyən yerlərdə həyat əvvəldən necə vardısa, elə də davam edərdi, fəqət insanlar tərəfindən tərk edilmiş yerlər barədə bunu demək mümkün deyil.İnsanların tərk edib getdiyi yerlər artıq ölmüş yerlər sayılır, ona görə də belə yerlər qısa zaman içində xarabalığa çevrilir.

O vaxtki uşaqlar üçün həm oyun meydançası, həm də əyləncə mərkəzi kimi bir şey olan bu həyət, yuxudan oyanan hər uşağı maqnit kimi özünə çəkirdi.

Bir neçə gündən sonra, həmin o məktəbin həyətində tanış olduğum qızlardan bəzisinin bizdən də şanslı olduğunu öyrəndim.Onlar nəinki məktəbə yaxın yerdə olurdular, onlar hətta bu məktəbin birinci mərtəbəsində yerləşən yaşayış evlərində yaşayırdılar. Sonralar öyrəndim ki, səhərdən axşamacan bir yerdə oynadığım qızlardan ikisi Nurunun bacıları imiş. Böyüyü məndən 2 yaş kiçik, kiçiyi də ondan 2 yaş kiçik qızlar, onun baçıları idilər.Bunu çox sonra öyrəndim.Gün boyu məktəbin həyətində sinif-sinif, gizlənpaç oynadığım qızlardan Şəadət adlı ən ağıllı, ən gözəl qız onun, özündən 4 yaş kiçik bacısı imiş.Qızlarla tanışlığım ilk günlərin birində olmuşdusa, Nurunun özü ilə yaxından tanışlığım böyük qardaşımın sayəsində daha sonralar oldu.İllərlə səsli-küylü uşaq aləminin içində yan-yana, bir-birimizin ətrafında dolanıb dura-dura böyüyürdüksə də, onu ilk dəfə illər sonra, artıq yeniyetmə

yaşlarımızda, əsil adı Kərəm olub, məhlədə Keşa kimi ad çıxartmış böyük qardaşımın dostu kimi tanıdım.O, Kərəmlə dost olmuşdu. Məhləmizdə qardaşımın dostu çox idi, xarakterindəki liderlik qabiliyyəti demək olar ki, bütün məhlə uşaqlarını onun başına toplaya bilmişdi.Kiçik qardaşım Yusif fərqli bir oğlan idi.Dərslərində əlaçı, sinifdə tərbiyəli, evdə də sözəbaxan bir uşaq idi.O, böyük qardaşımdan çox fərqlənirdi.Yusif nə qədər sakit, başıaşağı oğlan idisə, Kərəm bir o qədər dikbaş, cığal, davakar idi.Ancaq onun hər davası haqq-ədalət uğruna olurdu.Kərəm başına yığdığı yoldaşları ilə dostluqda da, yola getmədiyi oğlanlarla düşmənçilikdə də həmişə ədalətli olurdu.Böyük qardaşımın həmyaşıdlarından məhlədə kim vardısa, bir-ikisini çıxmaq şərtilə, demək olar ki, hamısı onunla dost olmuşdu, necə deyərlər, onun dəstəsinə qoşulmuşdu. Ancaq onların içində, məhrəm bir oğlan kimi evimizə istədiyi vaxt girib-çıxan, bütün gününü qardaşlarımla bir yerdə keçirdən, axşamın gec saatlarına kimi bizim ailəyə qaynayıb qarışan tək dostu Nuru idi.Bu da o demək idi ki, Nurəddin, qardaşım Kərəmin ən yaxın dostu, dostdan da yaxın sirdaşı olmuşdu.Böyük qardaşımın hamıdan çox güvəndiyi, hər sirrini etibar edə biləcəyi bir dostuna çevrilmişdi Nuru.

Onun əsil adı Nurəddin olsa da, məhlədə hamı onu Qaraxan deyə çağırırdı.Bu bəlkə də onun soyadının Qarayev olması ilə bağlı idi.Qəribə görünsə də, mən bu adın hardan əmələ gəldiyini, necə əmələ gəldiyini o vaxt da bilmirdim, bu gün də bilmirəm.Yəqin ki, bu bizim üçün o qədər də vacib olmamışdı ki, biz bunu nə o vaxt araşdırdıq, nə də sonralar bu adın hardan əmələ gəldiyini soruşmaq ağlımıza gəldi.Görünür, soyadı ilə bağlı təxminlər hamımızı qane eləmişdi.Bir onu bildik ki, Qaraxan kimi tanıdığımız oğlanın adı əslində Nurəddin imiş.Nurəddin orta məktəbi bitirənə kimi, əskərliyə gedənə kimi bizim məhləmizdə yaşadı, bir neçə ildən sonra da məhləmizdən köçüb getdi.Onlar ailəlikcə Yasamalda yeni mənzil almışdılar.

Məhləmizdən getdisə də, qardaşımla onun münasibətlərində heç nə dəyişmədi.Kərəmlə Nurunun dostluğu əvvəlki kimi davam edir, bu dostluğun içində Nurunun mənə olan marağı da davam edirdi.Bəlkə o, mənə yaxın olmağa çalışırdı, bəlkə də bu dostluq ona hələ də nələrsə vəd edirdi, bilmirəm.Bəlkə kimsə inanmayacaq, ancaq mən səmimiyyətlə etiraf edirəm ki, qapımıza elçilərini göndərən günə kimi, Nurunun mənə vurulmasından, uzun illər məni gizlincə sevməsindən xəbərsiz oldum.Mən keçi kimi dəcəl, bütün bunlardan xəbərsiz böyüyən bir qız idim.Üstəlik, o dönəmdə öz romantik arzularımı həyata keçirmək niyyətilə ali məktəbə sənəd verməklə məşğul idim.Oxuyacaqdım, müəllimə olacaqdım.Bu yolda qarşımda heç bir maneə istəmirdim.Ona görə də, yeniyetmə bir qız olduğum halda mənim nə Nuru ilə, nə də bir başqası ilə bağlı heç bir fikrim yox idi. Maraqlıdır ki, o vaxtlar mən gözəl də deyildim, sadəcə bəlkə bir az gözəgəlimli idim, bununla belə evimizdəki qızlardan qapımıza elçiləri gələn ilk qız mən olmuşdum.Hələ on altı yaşında idim, heç tanımadığım, məndən də yaşca çox böyük bir adam qapımıza elçi göndərmişdi.Atam o elçiləri qapıdan söyə-söyə qovmuşdu.Mən bunu sonralar eşitmişdim.Kim idi, nəçi idi, heç bilmədim.O aralarda məni istəməyə qapımıza daha bir neçə elçi gələn olmuşdu, beləki, atam artıq bu durumu özünə dərd eləmişdi. Məktəbli qız üçün elçi gəlmək o zamanlar ayıb sayılırdı.Bu səddi aşanlar da atamdan paylarını alıb kor-peşiman geri dönürdülər.Hələ o aralar mən özüm də qardaşımın ətrafında dönüb-dolaşan oğlanlardan bir neçəsinin mənə qarşı biganə olmadığını hiss eləmişdim.Ancaq necə şeydirsə, təkcə Qaraxanın, Nurunun mənə olan duyğularından sonuna kimi xəbərim olmadı.Halbuki, bu oğlan dəstəsinin içində məni ən səmimi, ən güclü məhəbbətlə sevən bir oğlan vardısa, o da Qaraxan imiş.İndi burda ona Qaraxan desəm də, Kərəmlə mən heç vaxt onu bu adla çağırmadıq. Qardaşımın ən yaxın dostu, yaşadığı ömrü boyunca hamı üçün Qaraxan olaraq qalırdısa,

təkcə qardaşımla mən onu ilk gündən Nuru deyə çağırırdıq. Qardaşım Kərəm, 56 yaşında gözünü bu dünyaya yumana qədər, mən də Nurunu 65 yaşında qara torpağa verənə kimi, bizim üçün onun adı Nuru oldu.

Bu bizim qismətə doğru ilk addımımız idi...

1.Yaddaşımın xatirə qatlarından bir epizod...

Məhləmizdəki dördillik ibtidai məktəbdə oxuyurduq.Neçənci sinifdə olduğum yadımda deyil.Yay tətili idi, biz də həmişəki kimi vaxtımızım çoxunu elə məktəbin həyətində, bütün məhlə uşaqlarının əyləncə yeri hesab elədiyi o asvaltın üstündə keçirdirdik. Həmin gün də orda idik.Qızmar günəş təpəmizdən vursa da, yer ayağımızın altında od tutub yansa da, biz bunun fərqində deyildik.Hər kəs qruplara bölünərək, müxtəlif oyunlar oynayırdı.Bizi bu oyunlardan ara-sıra ayıra bilən, ya analarımızın bizi yeməyə çağırması, ya da küçə-küçə gəzib dondurma satan əminin, dondurmanın guya ki, rusca deyilişi ilə "Maarojni!Maarojni!" deyə müştəri çağırışı olardı.Biz bəlkə analarımızın yeməyə dəvətinə hər zaman vaxtında hay verməzdik, ya da versəydik də, yemək yeməyi sevməyən bütün uşaqlar kimi, könülsüz hay verərdik.Ancaq dondurmaçını qaçırtmazdıq.Onun ilk çağırışında hər kəs evə cumar, anasından qəpik-quruş alıb dondurmaçının yanına qaçardı.Tərs kimi, dondurmaçının təkərlikli taxta qutusu heç vaxt ağzına qədər dondurma ilə dolu olmazdı.Bizim məhləyə gəlib çıxana qədər çoxunu satmış olurdumu, ya da əriyəcəyindən ehtiyat edərək, əvvəldən dondurmanı bu qədər az götürürdümü, bunu biz bilmirdik.Ancaq hər dəfə dondurmaçı qutunun qapağını qaldırıb bizlərdən birinə vermək üçün ordan dondurma götürəndə, biz qutunun içini görür, ordan qalxan soyuq, tüstüyə bənzər dumanı da, bu tüstünün içində gözümüzün zorla seçə bildiyi cəmi 15-20 dondurmanı da görürdük.Bu soyuq tüstü-duman bizə maraqlı

gəlirdisə, orda bu qədər az dondurma olması, bizi əməlli-başlı təşvişə salırdı.Bu mənzərəni ilk dəfə gördüyümüz andan canımıza düşən bir qorxu, dondurmaçının səsini eşitdiyimiz andan, bizim evə qaçmağımızı, anamızdan pul alıb özümüzü dondurmaçıya yetirməyimizi, zamanla bir yarışa çevirmişdi.Hamı tələsir, heç olmasa ilk onluğun içində dondurmaçının yanında olmağa çalışırdı, heç kim sona qalmaq istəmirdi.Bu ciddi bir mübarizə idi, dondurma uğrunda mübarizə...Bu mübarizədə gecikmək olmazdı.Çünki, gecikmək, dondurma satanın yanına hamıdan sonra gəlib çatmaq demək idi ki, bu da həmin gün dondurmasız qalmaq kimi bir fəlakəti yaşamaq anlamına gəlirdi.Günəşin qızmar şüaları altında ciyəri od tutub yanan bir uşaq üçün dondurmasız qalmaq bir imtahan idi.Dondurmasız qalmaq, bir də aldıqları dondurmanı adamın gözünün önündə yalaya-yalaya, ləzzət ala-ala yeyən yoldaşlarına tamaşa eləmək, hər uşağın çəkə biləcəyi bir imtahan deyildi.Bu əsil fəlakət idi.Bu sınağa mərdliklə sinə gərib dözmək var idi ki, buna hər kəsin iradəsi çatmazdı.Biri qürurunu sındırmadan bu işkəncəyə dözürdüsə, kənarda bir daşın üstündə oturub bu bitmək bilməyən mənzərəni seyr edə bilirdisə, başqası zəiflik göstərir, ərki çatdığı dostuna yaxınlaşır, ona dostluq xatirinə dondurmasını paylaşmağı təklif edirdi.Bu yerdə də kimin əsil dost, kimin sadəcə bir saxtakar olduğu da üzə çıxırdı.

Həmin gün mən onluğa düşə bilmiş, dondurmamı alıb özüm kimi şanslıların cərgəsində oturmuşdum. Hamı ləzzətlə dondurmasını yeyirdi. Dondurmanın yeyildiyi zaman kəsimi, kimin üçünsə sonsuza qədər uzanmasını arzuladığı bir ləzzət zamanı idisə, bu gün dondurma almaq nəsib olmadığından, bu zamanın bir an öncə bitməsini istəyən başqası üçünsə, işkəncə zamanı idi.

Nəhayət, dondurmanı dişləyə-dişləyə yeyənlər üçün də, yalaya-yalaya bu vaxtı bir az da uzatmaq istəyənlər üçün də bu ləzzət zamanı bitdi, hər kəs də yarımçıq qalmış oyununa döndü. Biz qızlarla sinif-sinif oynayırdıq.Beş-altı qızın içində mütləq

bir-iki cığal tapılırdı.Onlar vaxtaşırı çizgini tapdasalar da, heç cür boyunlarına almaq istəmir, cığallıq edirdilər.Belə anlarda, onsuz da qarışıq uşaq səsindən qulaq tutulan bir ortamda, biz qızların cır səsi də, daha ucadan eşidilə bilirdi.

Səslərin bir-birinə qarışdığı, divarları-daşları aşdığı bir vaxtda, "bir, iki, üç, dörd, beş...." deyə xorla sayan oğlan səsləri bütün qalan səslərdən ayrıldı, daha ucadan, daha aydın eşidilməyə başladı.Biz əvvəlcə bu səsə fikir vermədik.Mübahisə eləməyə başımız elə qarışmışdı ki, ətrafda olanlara baxmağa macal tapmırdıq.Bir azdan hamının yavaş-yavaş səs gələn tərəfə yeridiyini gördük.Biz də oyunu yarıda buraxıb o səs gələn tərəfə getdik.Orda, artıq məktəbin həyətində oynayan uşaqlardan canlı çəpər əmələ gəlmişdi.Bu canlı çəpər dairə şəklində sıx durub ortada nə baş verdiyini görməyə mane olurdu.Biz də gəlib bu sıxlığa dirəndik, ancaq boyumuz balaca olduğundan, heç nə görə bilmədik.Mən həmişə səbirsizliyimlə seçilirdim.Bu dəfə də səbrim çatmadı, əllərimi irəli verərək, cərgəni yardım, ortaya doğru irəlilədim.O sıxlığı bir cəngəlliyi keçər kimi, yara-yara keçdiyimdən, saçlarım pırtlaşmış, gözümün üstünə tökülmüşdü. Mən bir əl hərəkəti ilə saçlarımı geri eləyib baxdım.Ortada bizdən böyük oğlanlar dövrə vurub dayanmışdılar. Bunlar xorla sayanlar idi.Oyun bir yarış xarakteri daşıdığından, kimin sona qalacağına, beləliklə də qalib gələcəyinə hesab tutulurdu.Sonuncu dairənin tən ortasında iki oğlan üz-üzə dayanaraq yarışır, ovuc içi boyda qurğuşuna yapışdırılmış qoyun dərisini sağ ayaqlarının pəncəsi ilə atıb-tuturdular.Bu oyunun adı çilədi idi.Bu oyun, oğlanların arasında çox sevilən, daha çox oynandığı üçün o vaxtlar çox populyar olan, bəlkə ancaq futboldan sonra ikinci yerdə gələn bir oyun idi.Məhləmizdə bu oyunun da öz ustaları var idi.İndi ortada cilədi oyununda öz məharətini göstərən, bundan əvvəl də məhlədə bu oyunun ustası kimi ad çıxardan iki oğlan yarışırdı.Bunlardan biri Kərəm, biri də Nuru idi...

Məhləmizin uşaqları üçün, bu gün oyun meydanında, bu məhlənin qüruru, hamıdan cəsur, hamıdan güclü, hamıdan bacarıqlı iki dost, Keşa ilə Qaraxan çiləbi oynayırdı.

Nə qədər düşünürəmsə, onları bir-birindən ayrı xatırlaya bilmirəm.Onlar hər zaman, hər yerdə birlikdə idilər.Onları, yalnız ölüm ayıra bildi.

***

Yeri gəlmişkən, bu yerdə yadıma bir hadisə düşdü.Nurunun ömrünün son günləri idi.Biz önun bircə gün sonra dünyasını dəyişəcəyini hələ bilmirdik, elə hey nəyəsə ümid edir, onun gücünü toplayaraq ayağa qalxacağına inanırdıq.Ancaq yenə də hər ehtimala qarşı, hər gecə birimiz yanında keşik çəkirdik. Dünyasını dəyişməzdən bir gün əvvəl idi.Mən gecəni Nurunun yanında qalmış, səhər evə getmişdim.Evdə bir az yemək, bir az meyvə şirəsi hazırlayıb geri döndüm, xəstəxanaya gəldim. Axşamdan atasının yanında gecə növbəsi çəkən kiçik oğlumu evə yola saldım ki, gedib dincəlsin.Nuru gümrah idi.Mənimlə hal-əhval tutdu, balaları, nəvələri soruşdu. Bu söhbət mənə yeni bir ümid verirdi ki, birdən o mənə dedi:

--Sənə bir söz deyəcəyəm, qardaşın da olsa, xətrinə dəyməsin.Sən Kərəmin hər sözünə güvənmə, özün bilirsən, onun bir az cığallığı da var.

Mənim canımdan bir üşütmə keçdi, onda anladım ki, o gedir, yerimdəcə döyüküb qaldım.Onun bu sözündən sonra, sanki içimdə nəsə qırıldı.Mən həm qorxdum, həm də qorxumu ona bəlli eləmək istəmədiyim üçün soruşdum:

--Niyə elə deyirsən ki?

--Niyə olacaq?Qardaşını tanımırsan?Həmişəki kimi cığallıq edir.

Mən qoxa-qorxa ona baxdım, durumunu anlamağa çalışdım, ancaq elə bir dəyişiklik görə bilmədim.Bir də əmin olmaq üçün soruşdum:

--Sən Kərəmi harda gördün ki?

Sualı verdim, özüm də ümidlə gözlədim ki, desin "yuxuda."

O isə cavabında dedi:

--Harda olacaq, burda.Yanıma gəlmişdi.Bayaqdan siz yox idiniz, ikimiz doyunca söhbət elədik.İndicə getdi.

Məni soyuq tər basdı, ürəyim sıxıldı.Gözlərim də dolmuşdu, o bir şey anlamasın deyə, əyilib onun alnından öpdüm, otaqdan çıxdım.Zəng vurub uşaqları təcili xəstəxanaya çağırdım.Heç on dəqiqə çəkmədi, hamısı ailəlikcə gəldilər.Həyəcanlı idilər.Mən onları koridorun o başında qarşılayıb söhbəti onlara da danışdım. Onlar üzümə mat-mat baxırdılar, sanki eşidəcəklərindən qorxurdular.

--Ana, bu danışdıqların nə anlama gəlir?Nə deməyə çalışırsan??

Mən özüm də qəhərdən boğulurdum, ancaq artıq hər şeyi anlamışdım, övladlarımdan gizlətməməli idim.Artıq Nurunun həyatının son saatları idi.Uşaqları burda tutmalı idim.Ona görə də, nə qədər ağır olsa da, mən onlara olanı dedim.

--Daha burdan ayrılmayın.Atanızın vaxtı bitmək üzrədir.

Mən bu sözü demişdim ki, mənim, hərəsi 35-40 yaşlarında olan mətin, mərd oğullarım körpə uşaq kimi hönkürtü ilə ağlamağa başladılar.Gəlinlər də onlara qoşuldu.Onların ağlamağı get-gedə artıb isterik hala dönürdü.Biz Nurunun yanına girəndə, artıq bir az özümüzü toplamışdıq.O da bizim halımızdan xəbərsiz ürəyindən keçənləri paylaşırdı.Onun söylədikləri bir az nəsihət idisə, daha çox vəsiyyət idi.O an biz bunun fərqinə vara bilməmişdik.Nuru axşama qədər ürəyindən keçən hər şeyi söylədi.Sonra bizdən izin alıb yatmaq istədi.Biz bir müddət dəhlizdə oturduq ki, o da yatsın.O gecə hamımız onun yanında qaldıq.Nuru körpə uşaq kimi yatmışdı.Biz, həm onun dərin yuxusundan qorxur, bir yandan da bir gün onun bu yuxudan gümrah oyanacağına ümid edirdik.Fəqət, bizim bu ümidimiz doğrulmadı.Nuru ertəsi gün də oyanmadı, dünyadan

xəbərsiz bir görünüşlə elə hey yatdı.Bu yatışda bir qəribəlik vardı.Bu yatış bir əbədi yatışa bənzəyirdi.Onun nəfəs alması da güclə hiss olunurdu.Sonra o güçlə hiss edilən nəfəs, bir xiriltiya dönüşdü. Sonra...

Həmin gün saat 15:45 də Nuru keçindi.Bu bizim vida saatımız idi.Yaxşı ki, hamımız onun yanında idik.Bu bizim yeganə təsəllimiz oldu.

Mən sonralar, Nurunun Kərəm barədə dediyi son sözlərini yada saldım, bu barədə çox düşündüm.Mən inanıram ki, Nuru o sözləri boş yerə deməmişdi.Görünür, Kərəm ən son anda doğurdan da dostunu ziyarətə, əslində, qarşılamağa gəlmişdi.O, Nurunu qarşılamaq üçün, ona bələdçilik eləmək üçün gəlmişdi. Mən ürəkdən inanmaq istəyirəm ki, o gün bu iki dost, axirətin giriş qapısında görüşdülər, orda bir-birini yenidən tapdılar.Və mən ümid edirəm ki, Kərəmlə Nurəddin, bir zamanlar qardaşımın ölümü üzündən yarıda qalmış dostluqlarına, indi də orda, o haqq dünyasında davam edirlər. İndi artıq, axirət sakinlərinin arasında bir Keşa ilə bir Qaraxan da var.Allahdan təvəqqəm odur ki, onların hər ikisininin taqsiratlarını əfv eləsin, günahlarını bağışlasın, cəhənnəm atəşindən qorusun, onları cənnət məkan eləsin inşaAllah.

Allah ikisinə də qəni-qəni rəhmət eləsin...Ruhları şad olsun.Amin.

O və Mən...
Uşaqlığımız...

Biz hələ çox kiçik idik.Günümüz həmin o həyətin ortasında, bir sürü uşaqların arasında, hərəkətli oyunların içində keçirdi.Desəm ki, o yaşda, ətrafımda olub-bitənlər, həyətə hər çıxdığımızda, ən azı 5-6 saatı bir yerdə keçirtdiyimiz uşaqlar da yaxşı yadımdadır, bu yalan olar.Heç kimin üzü yadıma gəlmir.Xatırladığım ancaq bu uşaqlardan bəzilərinin adları,

yadda qalan hərəkətləridir.O yaşda mənim dünyamda ancaq ip atdı, gizlənpaç, sinif-sinif, evcik-evcik oynadığım qızlara yer var idi ki, onlardan bəzilərini çox yaxşı xatırlayıram.Üzlərini olmasa da, adlarını, xasiyyətlərini, nəyi sevdiklərini, mənə münasibətlərini xatırlayıram.Səadət, Gülzar, Validə, Qalya, Humeyrə, Məhbubə, Sürəyya, Mənsurə, və başqaları gələrdi o həyətə.Belə ki, biz vaxtımızın çoxunu bu qızlarla bir yerdə keçirdirdik.Həyət o qədər geniş olmasa da, orda hamıya yer çatırdı.Bir yığın qız uşağının cürbəcür oyun oynadığı eyni anda, bir sürü oğlan uşağı da futbol oynaya bilirdi burda.O zamanlar Nuru bu uşaq toplumunun içində var idimi, özünü necə aparırdı, mənə aid hisslərini biruzə verə biləcək bir şeylər edirdimi, mənim haqqımda nəsə düşünürdümü?Bunları heç xatırlamıram. Bunları evləndikdən sonra Nurunun öz dilindən eşitmişdim, ancaq onda da bu deyilənlərə inanmağım gəlmirdi.Hər şeyi öz arşınımla ölçdüyümdən, inana bilmirdim ki, 7-8 yaşlı bir oğlan uşağı gözünə xoş gələn bir qıza bu qədər güclü hisslər bəsləyə bilər. O qədər güclü ki, enində-sonunda onunla evlənməyə nail olar. Şəxsən mənim üçün o vaxtlar Nuru da bir sürü oğlan uşağının arasından bir oğlan idi.Biz o vaxt oğlanlarla oynamazdıq, o vaxtlar qızlar ayrı, oğlanlar da ayrı oynayardı. Aramızda təmas qurulmadığı üçün oğlanlar məni əsla maraqlandırmırdı. Əslində, oğlanlar məni heç sonralar da maraqlandırmadı. Mən, həddi-buluğa yetişməkdə gecikən, özünü həmişə oğlan kimi aparan, nadinc bir qız idim.Tay-tuşumu da tez-tez yoldan çıxardan, qızları qıza yaraşmayan oyunlara sürükləyən, bir sürü yaramazlıqlar edərək, sıx-sıx cəza alan qızlardan idim. Qızlardan deyirəm, ancaq heç bilmirəm ki, məndən başqa da bu xasiyyətdə bir qız vardımı yoldaşlarımın arasında...Özüm xatırlamıram.Xatırladığım, böyük qardaşım Kərəmdə olduğu kimi mənim də bir liderlik nüfuzumun olması idi.Məndə də, qızları ardımca aparmaq qabiliyyəti var idi.Bütün yaramaz fikirlərin məndən gəlməsi də onu göstərirdi ki,

qızlardan ibarət bu kiçik qrupda "yeddi vedrə ayrana çalansı" olan da mən idim...

Bu bizim ömrümüzün ilk pərdəsi idi...

2. Yaddaşımın xatirə qatlarından bir epizod...

Bəlkə 64, bəlkə 65-ci illər olardı.Mən də ya dörddə, ya da beşdə oxuyurdum, indi dəqiq yadımda deyil.Bakıda qış mövsümü idi.Fevral ayında hava soyuq keçirdi, ancaq həmişəki kimi, hələ də qardan əsər-əlamət yox idi.Halbuki, yağması ilə insanların həyatını zorlaşdırmasına, min-bir problem yaratmasına baxmayaraq, hər kəs qışı da həsrətlə gözləyir, hər il qışı qarlı görməyi arzulayırdı.Yəqin ki, bu da Allahın bir hikməti idi.

Bir səhər biz ailəcə tezdən oyandıq, fikrimiz vardı ki, həmişəki kimi səhər naharını edib məktəbə gedək.Anam qapını açıb həyətə çıxmaq istəyirdi ki, qapı açılmadı.Sanki qapının arxasında kimsə durmuşdu, anam qapını çöl tərəfə itələdikcə, o kimsə də qapını tutub dururdu.Bu dəfə atam qapıya yaxınlaşıb var gücü ilə qapıya bir həmlə elədi.Bu zaman qapı azacıq aralandı, biz də qapının niyə açılmadığının səbəbini anladıq. Bakıya qar yağmışdı. Ancaq bu qar, hər il yağan qar kimi deyildi.Biz alışmışdıq ki, hər il qış boyunca cəmi üç-dörd dəfə qar yağardı, o da 15-20 sm-i keçməzdi.Bu dəfə qar görünməmiş bir həcmdə, yəni ən azından bizim uşaq ömrümüzdə bu günə qədər görmədiyimiz bir həcmdə yağmışdı. Sən demə bu, hər 15-20 ildən bir yağan qar imiş, bunu böyüklər belə deyirdilər.Bir gecədə Bakıya o qədər çox qar yağmışdı ki, səhər bütün məhləmizdəki həyət evlərinin qapılarını da, bizim evimizin qapısını da qar basmışdı.Elə basmışdı ki, özümüz içəridən qapını açа bilmədik.Mən pəncərəyə yaxınlaşıb bayıra baxmaq istədim ki, görüm çöldə nə baş verir, ancaq pəncərə sanki bir ağ pərdə ilə örtülmüşdü, heç nə görmək mümükün deyildi.Atam dedi ki, kənardan yardım olmasa bu qapını belə açmaq mümkün

olmayacaq.Söz atamın ağzından çıxmışdı ki, qapının arxasından qonşuların səsi gəldi. Onlar qarı təmizləməyə yardıma gəlmişdilər. Qonşuların yardımı ilə qar küründü, qapımız açıldı, və mən həyətə çıxıb ilk dəfə bəyazlığı göz çıxardan qəribə bir mənzərə gördüm.Hər tərəf, həyət-baca, damlar-daşlar, mənə görə bəlkə də bütün dünya, hündürlüyü mənim boyumu aşan bir səviyyədə qarın altında qalmışdı. Bəyazlığı ilə pambığa, hər tərəfi mehribancasına qucaqlaması ilə qalın yorğana bənzəyən qar, üstündə bərq vuran parıltıları ilə, günəşin işığı bol, istisi az olan şüaları altında almaz kimi göz qamaşdıran ulduzcuqları ilə, həm də nağıllardan gəlmə bir yorğana bənzəyirdi.Bu möhtəşəm görüntü körpə qəlbimizi ancaq nağıllarda çin ola biləcək arzularla doldururdu.Məktəbdə oxuduğumuz qış nağıllarının təsiri, ancaq buna bənzər gözəllikləri gördüyümüz zaman artar, xəyal gücünün ən yaradıcı yaş dövründə olduğumuz üçün, bizləri həmin o sehirli aləmlərə səsləyərdi.

O gecə doğurdan da heç vaxt görmədiyimiz qədər qar yağıbmış, bu doğurdan da belə idi.Üstəlik, bu qalın qarın üstünə həyətlərdən kürünmüş qar əlavə olunmuş, bunun nəticəsində də, küçələrdə atalarımızın da boyunu aşan qar təpələri əmələ gəlmişdi. Bu səhər məhləmizin adamları erkən oyanmış, birlikdə iməciliyə çıxmış, həyətlərin qarını təmizləyib küçəyə tökmüşdülər.Sonra da küçənin qarını yol kənarlarına ataraq, qar qalaqlarının arasından o evdən bu evə, o yoldan bu yola cığırlar açmışdılar.Nəticədə, yüksəkliyi bir ev qədər uca olan hündür hasarların arası ilə, o həyətdən bu həyətə burulan, hardasa qıvrılan, hardasa açılan bir cığır əmələ gəlmişdi ki, bu da həmin o ildən bizə bir xatirə qalan, bəzən yuxu kimi uydurma, bəzən xatirə kimi həqiqi görünən, sonralar bir daha heç vaxt rastlaşmadığımız bir mənzərə idi.

Həmin gün heç kim məktəbə getmədi.Zatən yollar-izlər qarla elə örtülmüşdü ki, bir dənə də olsun nəqliyyat qarajından çıxmamışdı.Belə olan sürətdə, hamı, böyüklü-kiçikli küçəyə

çıxdıq, qartopu oynamağa başladıq.İki daşın arasında xizək tapıb gətirən oldu, hər evdə paltar yumaq üçün saxlanan böyük taslar, ləyənlər, vannalar, sinilər işə düşdü.Böyüklər qarı bir yerə toplayıb təpələr düzəltdilər, colma-cocuq da o təpədən, kimi xizəklə, kimi də əlindəki qab-qacaq vasitəsi ilə sürüşməyə başladı.O gün çox fərqli, çox hərəkətli bir gün oldu.Bir tərəfdə qardan adamlar cərgələndi, bir tərəfdə qar təpələrinin içində mağaralar qazıldı, bir tərəfdə də, qış oyunlarının ən sadəsi, qartopu oynandı. Böyüklər gün ortasına qədər bizdən ayrılmadılar, bu nadir fürsəti yetərincə dəyərləndirmək məqsədilə, onlar da bizə qoşularaq, bizimlə oynadılar, bu qarlı, bir yandan da barlı-bərəkətli qışın dadını çıxartdılar.Günorta onlar dağılışıb öz iş-güclərinə getdilər.Küçədə ancaq biz qaldıq, böyüklü-kiçikli uşaqlar.

Mən də qartopu oynayanların cərgəsində idim.Əlimdəki toxunma yun əlcəklər artıq yetərincə islanmışdı deyə, əllərim üşüyürdü.Hiss edirdim ki, barmaqlarımın ucu artıq donur, onları hiss eləmirəm.Artıq oyundan çəkilməyi düşünürdüm ki, başıma dəyən ağır zərbədən az qala huşumu itirdim.Səndirləyib yıxıldım.Yanımdakı rəfiqələrim köməyimə yetişdilər, mənim qoluma girib yerdən qaldırdılar.Toxunma yun papağım başımdan düşmüşdü, başımdan qan axırdı.Bu nə idi, mənə bir qəfil nə oldu, deyə başımı qaldırıb qarşı tərəfə baxanda, bizi qartopu ilə atəşə tutan dəstənin içində Nurunu gördüm.O, görünür özü də belə bir şey gözləmirmiş ki, yerində donub qalaraq, geniş açılmış gözləri ilə mənə baxırdı.Hər halından bilinirdi ki, başımı yaran o hər nə idisə, onu Nuru atmışdı.Bunu, sonradan o özü də boynuna almışdı.Ancaq o an, mən ona elə qəzəblənmişdim ki, heç bilmirdim ondan bunun acığını necə çıxım.Mən, ağrıdan gözlərimdən vurub çıxan göz yaşını tuta bilmir, ağlaya-ağlaya kinli baxışalarımı ona zilləyib durmuşdum.O da, elədiyindən peşman bir halı ilə, çaşqın baxışlarını mənə dikərək, yerində donub qalmışdı.Baxışlarımız

bir anlıq toqquşdu və sanki bundan sonra o da özünə gəldi, yanıma gəlib dil-ağız eləməyə başladı:

--Bağışla, heç bilmirəm bu necə oldu...Mən qar topasının içində daş olduğunu bilmirdim. İnan ki, bilmirdim, sən Allah bağışla...

Ağrı artdığından, bir yandan da qan axdığından, mən artıq ağlamağa güc verərək, hönkür-hönkür ağlayırdım.Sonra, onun dediklərini cavabsız buraxdım, heç nə demədən evə, anama şikayətə qaçdım.Anam mənim əlimi-üzümü yudu, yaramı sarıdı, sonra da Nurugilə şikayətə getdi.Nurunun anası-atası gündüzləri işdə olurdular deyə, Nurunun bütün yaramazlıqlarına görə hər cür tənələri də həmişə Nurunun rəhmətlik Durna nənəsi eşidirdi.Orda nə danışıldı, nə ölçü götürüldü, mən bilmədim, ancaq o gündən sonra uzun müddət mən Nurunu dindirmədim.Buna rağmən, bir yandan Nurunun rəhmətlik bacısı, bir yandan da rəhmətlik qardaşım Kərəm, Nurunun yerinə mənə üzürhaqlıq edir, qarın içində daş olduğundan onun xəbəri olmadığını deyirdilər.İşin əslini sonradan öyrənmiş, Nurunun doğurdan da günahsız olduğunu bilmişdimsə də, onun bu əməlini dilə-dişə salmaqdan da qalmadım.Sən demə, o qartopu oyununun ən qızğın vaxtında qartopunun atıcısı Nuru imiş, yanındakılar ancaq onu hazır qartopu ilə təmin edirlərmiş.Belə bir vaxtda kim o qarın içinə daş qoymuşdu, bu yaramazlığı niyə eləmişdi, heç kim bilmədi.

Mən bu xatirəni dəfələrlə övladlarıma danışar, zarafatla da sözümü belə bitirərdim:

--Siz Allah özünüz deyin, sevdiyi qızın başına bu oyunları gətirən adama ərə gedən qızın ağlı varmı?

Bu sözümə Nuru özü gülərdi, uşaqlar da, yəqin ki, kişi həmrəyliyi düşüncəsiylə onun yanını verməz, deyərdilər:

--Vallah, ana incimə, ancaq sən özün də az âşın duzu olmamısan.Odur ki, bu yerdə taylı tayını tapıbmış, desək, çox doğru olar.

Mən də onların sözündən incimәzdim, çünki әvvәla onların sözündә haq var idi, ikincisi də mən, ömrümü bәzәyən bu dörd kişini çox sevirdim.Onlar mənim varım-dövlәtim, ən qiymәtli sәrvәtim idilәr...

Allah Nurәddinә qәni-qәni rәhmәt eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Yeniyetmə dövrümüz...

Nuru günün çoxunu bizim evdə, qardaşımın yanında keçirdirdi.Anam da, atam da Nurunu çox sevirdilәr, qardaşlarımdan ayırmırdılar.Biz qızlar ona elә alışmışdıq ki, onu da özümüzә bir qardaş bilirdik.Onun bir gənc oğlan kimi mənimlә marağlanmasından, ətrafımda dönüb dolaşmasından heç vaxt xәbәrim olmadı.Halbuki, sonradan Nuru özü mənә etiraf eləmişdi ki, ilk gördüyü gündən, böyüyəndə mənimlә evlәnәcәyinә dair özünә söz veribmiş.Gündә bir şeyi bәhanә edәrәk, gününün çoxunu bizdә keçirtmәyinin әsas sәbәbi də elә bu olmalı imiş.Nurunun sözlәrinә görә, dostluq öz yerindә, ancaq onu bizә gәlmәyә mәcbur edәn başlıca sәbәb, onun mәni görmәk arzusu imiş.Gәrçi, mәhz elә Nurunun bu bәlalı sevgisini dostluğa xәyanәr kimi qәbul edәn qardaşım, günlәrin bir günü onun ağzını-burnunu da әzişdirmişdi.Yaxşı ki, özülü möhkәm qoyulmuş bu dostluğun davamı, sonunda onların qayın-yeznә kimi baş-başa vermәlәrinә gәtirib çıxartdı.Nuru mənә etiraf edirdi ki, qardaşımın gözünü oğurlayaraq, onun başının üstündәn, yandan-böyürdәn mənә baxar, baxışları ilә mənim diqqәtimi çәkmәyә, nәsә bir işarә eləmәyә çalışarmış.Yәqin ki, qardaşım erkәn yaşlarında belә bir şeydәn duyuq düşsәydi, aralarında dava düşәr, dostluqları da pozulardı.Belә bir şey olmuşdusa da, Nuru dostluğuna bu şәkildә xәyanәt eləmişdisә də, yaxşı ki, zamanında nә mən, nә də qardaşım bunu nә gördük,

nә də hiss elәdik.Nurunu hәmişә qardaşımla qoşa gәzәn gördüyümdәn, ona da bir qardaşa, әrk elәdiyimiz yaxın bir dosta bәslәnәn hisslәr bәslәyirdim.Doğrudur, Nuru әskәrliyә yola düşmәzdәn bir gün әvvәl qardaşıma ürәyini açıbmış, cәzasını da çәkibmiş, ancaq mənim heç bundan da xәbәrim olmamışdı.Odur ki, çox sonralar, günlәrin bir günü, Nurunun valideyinlәri mənә elçi gәlәndә, mən bu hadisәyә mәәtәl qaldım, yer ayağımın altından qaçdı.Mənә görә belә bir şey mümkün deyildi. Sevmәdiyimdәn deyil də, onu hәmişә qardaş yerinә qoyduğumdan, belә bir şeyi heç cür ağlıma oturda bilmirdim. Ancaq, nә var ki, qismәt artıq öz hökmünü vermişdi, nәhayәt bir gün mən də Nurunun evinә gәlin köçdüm...

Bu bizim qismәtimiz idi...

***

3. Yaddaşımın xatirə qatlarından bir epizod...

7-8 yaşlarında idik.Zaman keçirdi, biz böyüyürdük, ancaq vәrdişlәrimiz, oyunlarımız eyni qalırdı.Seçәnәyimiz eyni әyləncәləri ya həyәtdә, ya da bayırda keçirmәk arasında bölünә bilirdi.Biz də dәrhal bayırda oynamağı seçirdik, çünki bayır demәk, mәktәbin həyәti demәk, mәktәbin həyәti demәk də, ən yaxın rәfiqәlәrlә sinif-sinif oynamaq demәk idi.Belәliklә də dәrslәrimizi hazırladıqdan, boynumuza düşәn ev işlәrini bitirdikdәn sonra, günümüzün çoxu yenә də mәktәbin həyәtində keçirdi.Biz artıq elә yaşda idik ki, mәktәbin həyәtinә çıxmaq da artıq mənasını dәyişmiş, gördüyümüz işlәrin mükafatı, analarımızın tapşırıqlarını yerinә yetirmәyimizin qarşılığı anlamına gәlmişdi.Yәni, mәktәbin həyәtinә çıxmaq artıq bir izinә, qazanılmış bir ödülә bağlanmışdı.Mәktәbin həyәtinә çıxmaq üçün öncә o izini almaq, o ödülü qazanmaq lazım gәlirdi.Günortadan sonra qızlar bir-bir sәrbәstlik haqlarını

qazanar, məktəbin həyətinə gələrdilər.Biz, nə zamandan bəri idi ki, artıq bizim üçün bir favoritə çevrilmiş sinif-sinif oyununa aludə olmuşduq.O dərəcə ki, sinif-sinif oyunu artıq başqa oyunları sıxışdırıb aradan çıxartmışdı.Təkcə səndəllərin altının deşilməsi olmasaydı, bu oyunda qorxulu heç nə yox idi.Ancaq bu oyunun bir naqisliyi vardı ki, ikicə həftəyə səndəllərin altını deşirdi.Analarımız bizə səndəl almaqdan yorulmuşdu.Bir cüt səndəl heç iki həftə getmirdi, asvalta sürtülməkdən pəncə tərəfdən altında ya bir neçə irili-xırdalı, ya da bir dənə böyük dəlik açılırdı.Biz sinif-sinif oyunu oynayarkən, daşı sağ ayağımızla vuruduq deyə, sağ ayağımız da asvalta sürtülürdü, beləcə səndəlin göndən olan alt qatı, yavaş-yavaş yeyilib gedir, sonra da orda iri bir dəlik açılırdı.Bunun nəticəsində də, bütün qızların səndəllərində sağ tay sıradan çıxmış olurdu, çünki altı deşilirdi, sol tayı isə yenicə alınmış kimi təzə qalırdı.

Hamımızın evində vəziyyət get-gedə gərginləşirdi. Analarımız bizi xəbərdar eləmişdilər ki, bu il bizim son yayımızdır ki, biz sinif-sinif oynayırıq.Gələn yay onlar bu oyuna qadağa qoyacaq, biz də bu oyuna bir daha yaxın getməyəcəyik.Biz tələş içində idik.Bu problemə bir çarə axtarırdıq, ancaq ağlımıza heç nə gəlmirdi.Bir yandan anlayırdıq ki, analarımız düz deyir, iki günün biri ayaqqabı almaq bizim haramıza yaraşırdı, o biri tərəfdən də sinif-sinif oyunundan ayrı qalacağımızı hələ təsəvvür eləyirdik, ürəyimiz ağzımıza gəlirdi.Sinif-sinif oyunu olmayan bir dünya bizim tərəfimizdən qəbul olunmaz bir şey idi. Beləcə, gah bir yerə toplaşıb fikirlərimizi paylaşırdıq, gah da evdə dərin-dərin düşünürdük.Qəsdimiz, bu məsələyə bir çözüm tapmaq idi.

Bir gün, günorta üstü evdə oturmuşdum, çox fikirləşdikdən sonra ağlıma bir fikir gəldi.Mən əslində boş-bekar idim, ancaq bir gün əvvəl sağ səndəlimin altı getmişdi deyə, daha çölə çıxmağa həvəsim qalmamışdı.Qara-qara düşünürdüm ki, ağlıma bir fikir gəldi, və bu fikirdən dünya gözümdə nura boyandı. Ağlıma gələn bu fikrə görə özümdən elə xoşum gəldi ki, bir ara özümü zəka küpü

də hesab elədim.Cəld yoldaşlarımın yanına qaçdım.Qızlardan kimin səndəli hələ salamat idisə, onlar oynamağa davam edirdilər, digərləri də onların yanlarında dayanıb oyuna tamaşa edirdilər.Mən sevincək onlara yaxınlaşıb dedim:

--Qızlar, oyunu durdurun, mənim bir fikrim var.Tez evə gedin, hamınız səndəllərin sol taylarını bura gətirin, hamısını!

Sual vermək istəyən oldusa da, mən onları tələsdirdim, evlərinə yolladım.Birazdan onlar əllərində, qaytanından tutub salladıqları üçün qurbağa ölüsünə bənzəyən səndəlləri ilə geri gəldilər.Səndəllərin hamısı təptəzə idi, çünki hamısı sol ayağa idi.Qızlar səndəlləri əllərindən yerə qoyub sual dolu baxışlarla üzümə baxırdılar.Mən onları çox gözlətmək istəmədim, özüm birinci hərəkər edərək, sol taylı səndəllərdən bir cütünü öz ayağıma geydim.Qızlara da eyni cür hərəkət eləməyi tapşırdım. Qızlar da eyni mənim kimi özlərinin sol taylı səndəllərini geydilər.Səndəllər baş barmağımızı sıxırdı, bunu elə ilk anda hiss elədik.Ancaq ortada bundan da əzcaib bir durum vardı, ayağımız çəpgöz adamların gözləri kimi hərəsi bir tərəfə baxırdı, tərs tərəfə.. Bu görünüşümüzlə biz balaca klounlara bənzəyirdik.Qızlardan bəzisi tez ayağını soyundu, bu fikrin yaxşı fikir olmadığını söylədi.Mən onları səbirli olmağa çağırdım, dedim ki, fikirlərim hələ bitməyib.Üzümü qızlara tutub dedim:

--İndi biriniz gedin tez evinizdən bir qayçı gətirin, bu səndəllərin burun hissəsini kəsək.O zaman səndəllər daha barmağımızı əzməyəcək, hər şey yoluna düşəcək.Bir təsəvvür edin, biz hərəmiz birdən-birə necə cüt səndələ sahib olacağıq.

Elə Gülzar adlı qız qayçı gətirmək üçün evə getmək istəyirdi ki, hardansa Nuru gəlib çıxdı.O, bizi başdan ayağa süzüb bacısından soruşdu:

--Bu nədir?Siz burda neynirsiniz?

Mən tez özümü irəli verdim, düşündüklərimi ona da söylədim.O bizim bu gülünc halımıza əvvəlcə ürəkdən doyunca

güldü, sonra sakitləşdi, üzünü mənə tutub dedi:

--Bu dahiyanə fikir səndən gələr də...

Mən bozardım:

--Nədir ki?

O da bu dəfə üzünü bacısına tutub dedi:

--Çıxart o ayağındakıları, milləti özünə güldürmə...Boş yerə deməyiblər ki, qadında ağıl olmaz.

Mən ona acıqlandım:

--Sən hardan gəlib çıxdın ey?Niyə qarışırsan?Görmürsən, başqa çarəmiz qalmayıb...

Nuru bir də acıqlı bizi süzdü, sonra yenə halımıza gülməkdən özünü saxlaya bilmədi.Sonunda ciddiləşərək dedi:

--Çıxardın onları...Ondansa, gəlin dalımca.

Biz bir az ləngidik, çünki Nurunun çağırışı heç bizə cəlbedici gəlmədi.Ancaq onun bizdən xeyli uzaqlaşdığını görüncə, qaçıb onu təqib eləməyə başladıq.O bizi məhləmizin köhnə daş karxanası tərəfinə aparırdı.O karxanadan daha istifadə olunmurdu deyə, o dərin dərəyə nə vaxtdır ki, gətirib maşın-maşın zibil boşaldırdılar.İndi ora böyük bir zibillik idi.Biz ora niyə gedirdik, anlaya bilmirdik.Ağlımıza yaxşı heç nə gəlmirdi.Ancaq gəlib çatandan sonra anladıq ki, Nuru bizi bura niyə gətirirmiş.Qarşımızda bizim boyumuzu iki dəfə aşa biləcək boyda bir qalaq zibil dururdu.Ancaq bu adi zibil deyildi, bu bizim səndəllərimizin eynisi olan, doğranmış, kəsilmiş, ancaq hamısı təzə səndəl parçalarından toplanmış zibil idi.Nuru ayağı ilə bu qalağı ətrafa yayaraq dedi:

--Bu, sizin səndəllərinizi tikən ayaqqabı fabrikinin tullantılarıdır. Eşələyin, baxın, dünən uşaqlar burdan bir qucaq sağlam səndəl tapdılar.

Elə bu sözə bənd imiş kimi hamımız bu zibil topasına cumduq.Aradan bircə saat keçmişdi ki, bizim qucağımız da, ətəyimiz də təzə səndəl tayları ilə dolu idi.Biz səndəllərin sağ, yaxud sol olmasına fikir vermədən toplayırdıq.Bu dəfə məndən

də zəkalı çıxan Nuru demişdi ki, siz sağlam səndəlləri seçmədən toplayın, buna burda vaxt itirməyin.Onları sonra evdə seçər, öz aranızda dəyişərsiniz.

Nurunun bu fədakarlığı sayəsində biz, həmin il alınmış, lakin sağ tayı sıradan çıxdığı üçün kənara atılmış bütün səndəllərimizi yenilədik.Birdən-birə hamımızın neçə cüt təzə səndəli oldu.Bu, təkcə bizim deyil, ailələrimizin də qazancı idi.Lakin bu qazancın, Nurunun dilinə düşmək kimi bir ödüncü də oldu.Nuru məktəbin həyətində gördüklərini heç vaxt unutmadı, hamının yanında bizim klouna bənzər halımızdan, hərəsi bir dərəyə baxan səndəllərimizdən hər yerdə, hər kəsə danışdı, o görünüşümüzə özündən yeni-yeni lətifələr uydurdu.

Onun lətifələrini hamı sevirdi.Şahidi olduğu hadisələri bəzəmək, gerçək hadisələrdən dadlı-duzlu lətifələr uydurmaq Nurunun Allah verən qabiliyyəti idi.Nuru, həyatı boyu onu tanıyanlar üçün ən məzəli, ən əyləncəli lətifələr uyduran, onları xüsusi bir qabiliyyətlə danımağı bacaran bir insan kimi tanınırdı.Heç kim onun kimi lətifə danışa bilmirdi.

Nuru vaxtsız rəhmətə getdi, ancaq lətifələri qaldı.O lətifələr hələ bu gün də hər evdə danışılır, Nurunu xatırladır, onun yoxluğunu yada salır, hər kəsin ürəyini göynədir.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Gəncliyimiz...

Biz böyüyürdük.Yaşımız artsa da, günün çoxunu bir yerdə keçirdiyimizdən, böyük bir ailə kimi olmuşduq.Artıq yeniyetmə yaş dövrünə girmişdik, bununla belə hamımız yenə də eyni bir məktəbdə oxuyurduq.Ancaq bu artıq orta məktəb idi.Biz məhləmizdəki dördillik ibtidai məktəbi bitirmiş, şəhərin məhləmizə daha yaxın olan məktəblərindən birinə, 159 nömrəli orta məktəbə

köçürülmüşdük.Məhlədən uzaqlaşmaq, adət eləmədiyimiz böyük məktəbdə təhsil almaq, başlanğıcda bizi bir az qorxutmuşdu deyə, elə ilk gündən məhlədən böyük qrup halında çıxmağa, yeni məktəbə gedən yolu birlikdə gedib-gəlməyə başladıq.Səhərlər dərsə gedərkən, günortadan sonra da dərsdən dönərkən, hamımız bir-birimizi gözləyər, qonşu uşaqların da dərsləri bitdikdən sonra birlikdə evə dönərdik.Necə oldu ki, biz birlikdə gedib-gəlməyi qərara aldıq, heç xatırlamıram, ancaq yenə də bu döyük dəstənin içində sözü keçən, nüfuzu olan iki insanın rolu olduğu şübhəsiz idi.Bizim bir qrup halına gəlməyimiz, toplu şəkildə yeni məktəbə gedib-gəlməyimiz ancaq Kərəmlə Nurəddinin təşkilatçılığı sayəsində ola bilərdi.Yəqin ki, qərarı bu ikisi vermişdi.Bu həm bizim, həm də valideyinlərimizin ürəyindən olan bir qərar olmuşdu.Hal belə olunca, valideyinlərimiz artıq bizim üçün narahat olmur, aramızdan kimin üçünsə nigaran qalmırdılar.Səhərlər hər kəs övladını məktəbin həyətinə yola salar, gerisindən də arxayın olardılar. Toplantı yerimiz yenə də məktəbin həyəti olardı.Kərəmlə böyük bacım Əsli, Yusif, mən, Nurəddinlə bacıları, digər qonşu uşaqlar, hər səhər bir qayda olaraq, məktəbin həyətində toplaşar, ordan da hamılıqla şəhər məktəbinə yola düşərdik.

Birlikdə yeni məktəbimizə gedib gəlməyimiz, beləcə uzun illər davam elədi.O yolu gedərkən aramızda maraqlı söhbətlər, şən zarafatlar baş tutardı.Qonşu uşaqlarla dostluğumuz daha da güclənmiş, daha güvənli mərhələyə yüksəlmişdi.Biz bir-birimizə güvənər, dərdi-sərimizi bölüşər, hər şeyimizi paylaşardıq.Daha qonşu oğlanlardan çəkinməz, onlara ailəmizin bir üzvü kimi bel bağlayar, güvənərdik.Doğrudur, qızlarla oğlanların bir-birinə ərk eləməsi, bəzi yoldaşlarımızın arasında səmimi hisslər oyatmağa başlamış, dostluqdan fərqli daha dərin duyğuların baş qaldırmasına yol açmışdı. Ancaq bu təbii gedişatda tərs düşən heç bir şey gözə batmadığından, yoldaşlarımız da gözlərindən qaçmayan bəzi durumlara hörmətlə yanaşır, özlərini bilməməzliyə vururdular.Ancaq hər kəs də ürəyində özünə etiraf

edirdi ki, filankəslə filankəs güclü bir hissin təsiri ilə yavaş-yavaş bir-birinə bağlanmağa başlayır.

Bu gün mən hərdən düşünürəm ki, bəlkə o vaxt yoldaşlarımızın arasında Nuru ilə mənim haqqımda da nəsə buna bənzər şeylər düşünən olmuşdu.Nurunun qardaşımla dostluğu, mənim də çox vaxt qeyri-ixtiyari onlara yaxın bir yerdə olmağım, bəlkə bizi də kənardan iki sevən gənc kimi göstərmişdi, bilmirəm.Ancaq indi yadıma salıram ki, biz məktəbin həyətinə toplaşan kimi, Nuru özünün böyük sakvoyajını açardı, mən də özümün balaca, zərif qovluğumu onun sakvoyajının içinə atardım.Bu mənim ona ərk eləməyim idi.Soruşan olsaydı, qardaşımın dostu mənim də qardaşımdır, deyərdim.Ancaq soruşan olmadığı üçün, mən də heç nə düşünmür, bu hərəktəimizdə qeyri-adi heç nə görmürdüm. Ailə həyatı qurduqdan sonra Nuru mənə etiraf elədi ki, bizim hamının gözü önündə məktəbə bu şəkildə "iç-içə" getməyimiz onun üçün, mənim tərəfimdən nəhayət ki, onun səmimi hisslərini görməyim, anlamağım, müsbət münasibət bəsləməyim anlamına gəlirmiş.Halbuki, mənim bütün bunlardan xəbərim yox idi.

Öz etiraflarında Nuru mənə, mənim ağlıma belə gəlməyən hadisələr danışardı.Nə vaxtsa mənə maraq göstərən bir oğlanı özü döydüyündən, digərini özü əskərlikdə ikən dostlarına döydürdüyündən danışanda, mənim əvvəlcə inanmağım gəlməzdi.Allahdan onun, mənə əcaib, inanılmaz görünən hər sözünün, hər söhbətinin qardaşım Kərəm kimi, ikimizə də doğma, ikimizə də əziz, ikimiz üçün də nüfuz sahibi olan bir şahidi var idi.

Bu bizim addım-addım bir-birimizə doğru gəlişimiz idi...

4. Yaddaşımın xatirə qatlarından bir epizod...

Mən səkkizdə, Nuru da onda oxuyurdu.Yazılarımda dəfələrlə etiraf elədiyim kimi, hələ də onun məni sevdiyindən, qardaşımın dostu olmaqdan əlavə, bizim evə mənə görə girib-çıxdığından

xəbərim olmayan zamanlar idi.Yaşımızın elə vaxtı idi ki, oğlanlı-qızlı biz böyüyürdük, damarımızda qanımız qaynayırdı. Bu yaşda gənc insanın hər cür səmimi hisslərə açıq olması, bir gün o hisslərdən hansınasa yaxalanması təbiət qanunlarına zidd olmayan ən normal şeylər idi.Oğlanlar qızlara aşiq olurdular, bu vaxta qədər xoşlandıqları, ancaq ürəklərini açа bilmədikləri qızların adlarını daşa-divara, oturduqları partalara, əllərinin üstünə yazır, bununla da onları çuğlayan hisslərin heç olmasa bir qismini, kiməsə etiraf edirlərmiş kimi, çölə atırdılar.Bu mənada qızların tutduğu yol daha maraqlı idi.Onlar bu güclü hisslərin əmələ gətirdiyi həyəcanlardan az da olsa qurtulmağın yolunu, gündəlik tutmaqda tapmışdılar. Qızlar gündəlik tuturdular.Onlar, gündəlik üçün ayırdıqları bir qalın dəftəri gəlin kimi bəzəyir, içini sevgi dolu lirik şeirlərlə doldurur, o vaxt dəbdə olan hind filmlərindən şəkillərlə bəzəyirdilər.Daha cəsarətli qızlar həmin o gündəliyə öz sevgilərini də etibar edərək, kimi sevdiklərini açıq söyləyir, sevdiyi oğlanın adını, doğum tarixini yazır, şəklini yapışdırır, və həmin oğlana aid bir sıra başqa məlumatları da ora qeyd edirdilər. Valideyinlərinin qəzəbindən qorxan qızlarsa, sevgi-məhəbbət mövzulu şeirlərdən o yana getməyə cəsarət eləməzdilər.

Mən də bu qızların arasında idim, odur ki, bir gün mən də bu dəbə təslim olaraq, gündəlik tutmağa qərar verdim.Bir-iki gün uğraşdım, istədiyim mətnləri o dəftərə yerləşdirdim, lazım bildiyim şəkilləri də yapışdırdım.Sonra vaxtı çatdı, mən də öz gündəliyimi, necə deyərlər, "ictimaiyyətin müzakirəsinə" çıxartdım.

Həmin gün məktəbdə xüsusi bir canlanma yaşanırdı. Çünki, o gün martın yeddisi idi, bu da demək idi ki, dünyanın yarısı üçün bu gün bayram idi, qadınlar bayramı...

O gün hamı məktəbə bəzənib gəlmişdi.Mən də özəl günlərdə geyinmək üçün alınmış yeni paltarımı geyib gəlmişdim.Səhər güzgüyə baxanda hər zaman olduğundan fərqli olaraq, bu dəfə öz-özümdən xoşum gəlmişdi.Məktəbin koridorları əllərində gül dəstələri tutmuş gənclərlə dolu idi.Oğlanlar qızları təbrik edir,

gücləri çatdığı qədər kiçik-kiçik hədiyyələr bağışlayır, çiçək verirdilər.Belə bir gündə mən də öz gündəliyimlə öyünmək istədim, onu yoldaşlarıma təqdim elədim.Mənim özümə çox xoş gələn, mənə görə ürəyimin içindəkiləri əks etdirən o dəftər, sinif yoldaşlarımın gözünə necə göründüsə, həmin gün bütün sinif yoldaşlarım məni araya qoyub güldülər.Onlar mənim bu gündəliyi nə fikirlə tutduğumu anlaya bilmədilər deyə, haqqımda bir-birindən gülməli lətifələr qoşdular.Mənsə onların bu cür reaksiya vermələrinin səbəbini anlaya bilmir, pərt olmuş halda əlimdəki gündəliyə baxırdım.Bu, üz qabığında totuq uşaq şəkli olan, səhifələri cürbəcür körpə şəkilləri ilə bəzədilmiş, gül üzlü körpələrə həsr olunmuş şeirlərlə doldurulmuş dəftərin nəyi pis idi, anlaya bilmirdim.Halbuki, mən o totuq uşaq şəklini o vaxt mağazalarda satılan məşhur "Malış" uşaq qidasının qutusundan kəsmiş, onu min-bir zəhmətlə dəftərimin üzünə yapışdırmışdım.Dəftərin ilk səhifəsində məşhur bir qoşmanın bu parçasını yazmışdım:

Əzizinəm bal dadı,
Bala dadı bal dadı,
Şirini şirin olur,
Acısı da bal dadır...

Dəftərin içini də başdan-başa körpə şəkilləri ilə, bir ananın öz körpəsinə deyə biləcəyi ən gözəl sözlərlə, oxuya biləcəyi ən şirin laylalarla doldurmuşdum.Mən əmin idim ki, mənim gündəliyim mövzusunun məsumluğu və fərqliliyi ilə seçiləcək, hər kəs tərəfindən daha çox bəyəniləcək.Nəticə, bunun tam tərsi olmuşdu.Mən, belə bir gündə sinif yoldaşlarım tərəfindən məsxərəyə qoyulduğuma görə pərt oldum, ağzımın açısını onların üstünə töküb sinifdən çıxdım.Pilləkanın başında dayanıb bu gün olanları götür-qoy edirdim ki, Nuru əlində bir dənə böyük, həm də çox böyük sarı rəngli qızıl güllə mənə yaxınlaşdı.

--Bu gülü sənə gətirmişəm, bayramın mübarək!-deyərək gülü mənə uzatdı.Mən, daha çox böyüklüyünə heyrət elədiyim gülü alıb nəzakət xatirinə burnuma tutdum.Fikrim də o idi ki, gülü bir dəfə qoxlayım, sonra məndən təşəkkür gözləyən Nuruya öz təşəkkürümü bildirim.Mən gülü burnuma tutub, indi fikirləşirəm ki, sanki daha böyük cəhdlə qoxladım, ancaq bunun məhz belə olduğunu da söyləyə bilmirəm.Elə bunu görmüşdüm ki, burnumun dərinliklərinə qədər gedən tütünlə qara istiotun təsirindən burnum od tutub yandı.Eyni anda gözlərimdən od çıxdı.Bunlar baş verəndə Nuru harda idi, nə edirdi, bilmirəm.Çünki, mən elə o andan başlayan asqırağın əsarətinə düşdüm, göz yaşları içində asqıra-asqıra sinfə girdim, çantamı qaparaq, elə asqıra-asqıra da evə qaçdım.

Sonradan danışılanlara görə, yoldaşlarım elə biliblər ki, onlar gündəliyimə rişxənd elədikləri üçün mən ağlamaqdan o günə düşmüşəm.Məsələnin əslini nə mən dedim, nə də onlar bildilər.

Həmişə olduğu kimi, mən bu dəfə də Nurudan anama şikayət elədim, anam yenə Nurunun nənəsinə şikayətə getdi, Nuru yenə də özünü təmizə çıxartmağa çalışdı.Dedi ki, guya siniflərindəki oğlanlardan biri bu gülü sevmədiyi fizika müəlliminə vermək üçün hazırlayıbmış.Nurunun bundan xəbəri olmayıbmış, hər şeyi sonradan öyrənibmiş.Guya oğlan deyib ki, əyər Nuru bu gülü icazəsiz götürüb aparmasaydı, həmin müəllimin asqırağdan boğulması, oğlanın hər dəfə iki aldıqda çəkdiklərinin hayıfı olacaqdı.Hətta, əyər bu belə idisə də, gör bu necə bir uğursuz təsadüf olmalıydı ki, Nuru guya sevdiyi qızı qadınlar bayramı münasibəti ilə təbrik edəcəkdi, əvəzində özünü də rəzil elədi, məni də.Bu dəfə mən onun açıqlamalarına nə inandım, nə də qəbul elədim.Hələ məni sakitləşdirməyə, Nurunun da üzünü ağartmağa çalışan qardaşıma da cavab qaytarıb dedim ki, nahaq yerə dostunu müdafiə eləməsin.Mən onsuz da onu bağışlayan deyiləm.Dünyada gül qəhətliyi idi bəyəm?Onların özlərinin həyət-bacası gül-çiçəklə dolu olduğu halda, o niyə gedib

kiminsə gülünü, həm də ayrılıq mənasına gələn sarı gülü götürüb mənə verirdi ki, mənim də başıma bu biabırçılıq gəlirdi?

***

Nuru mənim dibçək güllərini də, çiçəkləri də çox sevdiyimi bilirdi.Biz həyatımız boyu çox evlər, çox ünvanlar dəyişməli olduq.Hər zaman bir evdən o biri evə daşınanda, bizim ev əşyalarımızın çoxu ağac boyda qollu-budaqlı dibçək gülləri olurdu.Mənim sevə-sevə böyütdüyüm, heç vaxt evimizdən əksik eləmədiyim sevimli ağaclarım.Ona görə də sonralar, birgə yaşadığımız illər boyunca hər bayramda mənə dəstə-dəstə çiçək bağışlamaq, Nuru ilə aramızda bir adət halını almışdı.Ancaq mən hər dəfə o çiçəkləri Nurudan almazdan əvvəl o hadisəni xatırlayaraq soruşurdum:

--Düzünü de, içinə tütündən, istiotdan bir şey doldurmamısan ki?

İlk vaxtlar bu sözlər Nurunun xətrinə dəyərdi, ancaq sonralar o da bu zarafata alışdı, inciməz, sadəcə gülüb deyərdi:

--Yaxşı görək...

Evimiz indi də dibçəkdən ətrafa qol-budaq atmış ağaclarla doludur.Ancaq nədənsə, bu dibçək gülləri mənim üçün daha əvvəlki effekti vermir.İndi anlayıram ki, evimizin bəzəyi o ağaclar deyilmiş, onları mənə bağışlayan Nurəddinin özü imiş...

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Ayrılıqda sınanan dostluqlar, sevgilər...

Nuru da, qardaşım da əskər gedirdilər.El adətinə görə, əskər gedən gənclərin ailələri son günlərin birində evində qonaqlıq verər, qohum-qardaş da gəlib əskər gedəcək gənclə görüşər,

halallaşardı.Belə qonaqlıq bizdə də verildi, Nurugildə də.Həm də eyni gündə.Biz elə bilirdik ki, həm Nuru, həm də qardaşım fürsət tapıb bir-birinə qonaq gedər, bir-biri ilə xudahafizləşərlər. Ancaq bizim gözlədiyimiz kimi olmadı.Nə qardaşım onlara getdi, nə də Nuru bizə gəldi.Sonradan məlum oldu ki, onlar ilk dəfə bir-birindən küsüblərmiş.Bu küsülülüyə nə səbəb olmuşdu, heç kim bilmədi.Gün boyu birlikdə gəzib dolaşan, ancaq yatmaq üçün bir-birindən ayrılan bu dostlara nə olmuşdu, niyə küsmüşdülər, nə onlar dedilər, nə də biz bildik.

Onların küsülü olması hamıya qəribə gəlirdi.Hamı bu işə məətəl qalmışdı.İllərlə aralarından su da keçməyən iki dost, uzun sürəcək bir ayrılıq öncəsi bir-birindən küsmüşdülər. Deyəsən heç barışmaq fikirləri də yox idi.Mən bu küsülülüyün səbəbini bir də nişanlanandan sonra öyrəndim.

Bizim məhləmizi, Yasamaldan köhnə daş karxanaları, karyerlər ayırırdı.O karyerlərin istifadəsi dayandırılmışdı deyə, yararsız bir dərəyə dönmüş, sonradan içinə qrunt suları da dolaraq, süni göl əmələ gətirmişdi.Təhlükəli də olsa, bizim məhlənin uşaqları bu göldə çimməyi, ətrafında oyun oynamağı çox sevərdilər.Elə ki, bizim gənclərə çağırış kağızı gəlir, onlar da filmlərədə olduğu kimi, bir gün bu gölün başına toplaşır, gölə xırda pul ataraq, ən gizli, ən müqəddəs hesab elədikləri sirlərini ən yaxın dostlarına söyləyirlər. Sirlərini, uzun sürəcək bir səfər öncəsi, bir növ dostlarına əmanət edirlər.Nuru da bu rituala əməl edərək, suya qəpik atır, ardından da qardaşıma ürəyini açır, "Bacını sevirəm, əskərlikdən dönən kimi onunla evlənəcəyəm" deyir.Nuru yəqin elə bilirmiş ki, yüz ilin dostu ayrılıq öncəsi onun xətrinə dəyməz, hələ bəlkə bu sözlərinə görə onu təqdir də edər.Ancaq Nuru ilk dəfə dostunda yanılmışdı.Qardaşım ondan belə bir şey gözləmirmiş deyə, hirsindən qan beyninə vurur, qeyrətə boğularaq Nurunu yaxşıca əzişdirir."Mənim dostum mənim bacıma yan gözlə baxa bilməz, bu gündən sən mənim dostum deyilsən" deyərək, Nurudan üz döndərir. Bunları mənə

Nuru danışmışdı.Bircə o yadıma gəlir ki, Nurunun dünya görmüş Durna nənəsi, Allah ona rəhmət eləsin, həmin günün axşamı bizə gəldi, anama şikayət elədi."Ay qızım, bunlar sabah əskər gedirlər, gör oğlun nəvəmi nə günə qoyub..."Anam da heç nə anlamadığından cavabında dedi:"Ay Durna xala, mən də məətəl qalmışam, nə oldu bunlara?Göz dəydi nədir?"

Onlar əskərliyə küsülü getdilər.Biz onları Biləcəri stansiyasından da eyni gündə yola saldıq.Ailələrimiz bir yerdə toplaşıb durmuşdu.Gah qardaşımı, gah da Nurunu qucaqlayıb öpür, onlara xeyir-dua verirdilər.Nəhayət ayrılıq vaxtı çatdı, hər iki çağırışçı başqa-başqa qatara minərək, vətənə əskəri borclarını vermək üçün, başqa-başqa istiqamətlərə yola düşdülər.

Qardaşım Rusiyanın Kuybışev şəhərinə, Nuru isə Almaniyanın Leypsiq şəhərinə təyin edilmişdi.İki il sürən əskərlik müddətində bizə hər iki ölkədən əskər məktubları uçurdu.Bir ölkədən qardaşım, başqa ölkədən də Nuru həsrət dolu məktublar yazırdı.İki il başa çatdı, əskərlərimiz hərbi xidmətlərini başa vurub geri döndülər.Hər ikisi böyümüz, olğunlaşmış, sanballı görkəm almışdı.Üstəlik, əskəri xidmətin hansı dönəmindəsə, məktublaşmağa başlamış, barışmışdılar da. Beləki, əskər gedəndə küsülü getmişdilər, geri gələndə o küsülülkdən əsər-əlamət qalmamışdı.

Bu bizim dosta vəfamız idi...

***

5.Yaddaşımın xatirə qatlarından bir epizod...

Nuru əskərlikgən yeni gəlmişdi.Mən onun əskərlikdən geri gəldiyini eşitmişdim, ancaq hələ onunla üz-üzə gəlməmişdim.Əskər getməmişdən bir müddət əvvəl onlar yeni mənzilə köçmüşdülər, və artıq beş il olardı ki, ailəlikcə Yasamalda yaşayırdılar.Mənim də o tərəflərə heç yolum düşməzdi deyə, hələ onunla görüşməmişdim.O vaxtlar əskər gedən bir oğlanı uğurlayıb yola salmaq məqsədi ilə hamı onlara

yığışardısa, əskərlikdən dönəni, əksinə, "xoş gəldin" anlamında bütün qohum-əqrəba, tanış-biliş, ərki çatan hər kəs evinə qonaq çağırardı.Biz Nurunu hələ qonaq çağırmamışdıq.

Bir yay günü, mən qəbul imtahanından gəlirdim. Həyətə girdim, şüşəbəndə qalxan pilləkəndə bir cüt ağılasığmaz böyüklükdə qara lak kişi ayaqqabıları gördüm.Ayaqqabılar bu qədər böyük olmasaydı, yaraşığına heyran olmaq olardı.Onlar çox təzə idi, gözəl idi, son dəbdə idi, üstəlik par-par yanırdı. Lakin, ayaqqabılar o qədər böyük idi ki, onların bütün müsbət cəhətləri o böyüklüyün kölgəsində qalırdı.Bu böyüklükdə ayaqqabılara ancaq heyrət eləmək mümkün idi.Mən təəccüblə bunun sahibinin kim ola biləcəyini düşünə-düşünə içəri girdim, divanda təzə bəy kimi şıq geyinib oturmuş Nurunu gördüm.O, mənim görmədiyim iki ildə çox dəyişmişdi, böyümüşdü, kişiləşmişdi.Biz o vaxtlar kişi xeylaqlarından heç kimlə əl tutuşmazdıq. Sadəcə dilimizin ucunda salam verərdik.Mən də onunla bu cür görüşmüş oldum.Salam verib öz otağıma keçdim. Onun yanından keçəndə məni gözəl bir ətir iyi də vurdu.Öz otağımda da o pilləkəndəki ayaqqabılar yadıma düşdü, doyunca güldüm.O zaman da xatırladım ki, əvvəllər də o bizə gələndə, qapımızda bizə görə, dünyanın ən böyük ayaqqabısı durardı.Biz sahibindən xəbərsiz bu ayaqqabıları ortaya qoyar, hərəmiz ayaqqabının bir tayının içinə girər, gülməkdən qırılardıq. Nurunun ayaq ölçüsü gəncliyində 45 idi, sonradan bir az da böyüyərək, 46 olmuşdu. Biz öz aramızda onun ayaqqabılarına "div ayaqqabıları" deyərdik. Yazıq Nurunun bundan xəbəri olmazdı.

Mən Nurunu bu görkəmdə evimizdə gördükdən sonra bir şeyi də anladım ki, əynindəki bu gözəl əyin-başı da, pilləkanda par-par yanan bu gözəl ayaqqabıları da Nuru yəqin ki, əskərlikdən, yəni Almaniyadan gətirib.Belə düşündüm, ancaq heç ağlıma da gəlmədi ki, Nurugildə, mənim üçün nəzərdə tutularaq hazırlanan nişan və toy xonçalarında, eyni ayaqqabıların qadın üçün olanı da var.Nişandan, daha sonra da toydan sonra məlum oldu ki,

Nuru doğurdan da Almaniyadan ikimizi düşünərək elə gözəl paltarlar, kostyumlar, ayaqqabılar alıb gətirmişdi ki, baxmağa iki göz istəyirdi.Nuru hər şeydən ikimizə də eyni şeyi cüt almışdı.Özü üçün nə almışdısa, mənə də onun qadına uyğun olanını almışdı.Biz evləndikdən sonra 3-4 il nə geyinirdiksə, cüt geyinirdik. Nurunun aldığı əyin-baş bizə bu imkanı verirdi.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Nişan günümüz...

Nurunun elçiləri ilk dəfə bizə gələndə, mən tut ağacının başında oturmuşdum.Başında dedimsə, yəni hündürlüyü üç mərtəbəli ev qədər uca olan, qoca bir ağacı təsəvvürə gətirin.Bu ağacın yaşını bilən yox idi, ancaq yaşlı olduğu ondan bilinirdi ki, budaqları artıq gövdəsi qədər yoğun, gövdəsi qədər güclü idi.Beləki, hər tərəfə qol-budaq ataraq gövdələşmiş budaqlarında, bir sürü adam rahatca otura bilirdi.Ağacın yoğun budaqları ikinci mərtəbəyə, nisbətən incə, yaşıl budaqları isə, artıq üçüncü mərtəbə qədər bir yüksəkliyə aid olurdu.İkinci mərtəbə səviyyəsi, sırf yoğun gövdələrdən ibarət idi.O gövdələr də, bizim sevimli toplantı yerimiz olardı.Biz burda oturub tut yeməyi, söhbət eləməyi, xəyal qurmağı, musiqi dinləməyi, kitab oxumağı çox sevirdik.Yadıma gəlir ki, kiçik yaşlarında qardaşlarım da bizim bu "toplantılarımızda" iştirak edərdilər. Ancaq sonralar, onlar özlərinə çoxlu dostlar, yeni məşğuliyyətlər tapdılar deyə, tut ağacının bütün faydaları, isti yay günlərində həyətdən çıxmayan, bitmək bilməyən uzun günləri bu qapalı mühitdə keçirmək zorunda qalan biz qızlara qaldı.Üstündə oturulmaqdan gövdələrin çox oturulan hissələri ortadan çat verib yarılmış, oturacaq kimi yayılaraq, bununla da bizim üçün bir növ daha rahat skamyalar halına gəlmişdi.Həmin o skamyaların birində də o gün mən oturub kitab oxuyurdum.

Bu yerdə, bəlkə hər kəsin bu anda xatırladığı, "Anası gəzən ağacı, balası budaq-budaq gəzər" atalar sözünü mən özüm də xatırlamışkən, bu atalar sözünün bu dəfə xeyrinə fərqli bir fikir bildirmək istəyirəm.Əlbəttə bu sözün bir ağaca deyil, bir həyat yoluna, bir əxlaqa aid olduğunu qeyd edərəkdən onu demək istəyirəm ki, həqiqətən də bu atalar sözündə haqq var, lakin onu həmişə yalnız neqativ mənada anlamaq da düzgün olmaz. Məncə, bu atalar sözünün pozitiv anlamda da özünü doğrultduğu zamanlar ola bilər.Elə bizim ailəmizi götürsək, məncə bizə, bu deyimin ancaq pozitiv məna daşıyacağı halı uyğun gələ bilər. Beləki, mən bir ana olaraq, həyatımı hansı əsaslar üzərində qurdum, hansı prinsiplər üzrə yaşadımsa, mənim övladlarım da, gerçəkdən də, mənim tutduğum həyat yolunun layiqli davamçıları oldular.Mən nəyi sevdimsə, nəyə inandımsa, güvəndimsə, onlar da həyatda eyni şeyi sevdilər, eyni şeyə inandılar, güvəndilər.Hətta məndən də çox inandılar, məndən də çox güvəndilər.Bizim bütün fikirlərimiz, inancımız, əqidəmiz hər zaman üst-üstə düşdü.Bizi birlikdə tutan da, sınmağa qoymayan da bizim əqidə birliyimiz oldu.Bu yerdə, həmin o atalar sözünə qüvvət olaraq onu demək istəyirəm ki, əyər kimsə bir vaxtlar məndə bir müsbət cəhət görmüşdüsə, əmin ola bilər ki, bir gün diqqətlə baxsa, mənim övladlarımda həmin o müsbət cəhətlərin beş mislini görə biləcək.Ona görə də, yeniyetmə yaşlarımda bir ağacın budağında oturmağımın mənə heç cür ləkə gətirə bilməyəcəyindən əmin olaraq, o ağacın gövdəsini özümə istirahət yeri seçməyimdən də məmnunluq hissi ilə xatirələrimə dönürəm, və qaldığım yerdən sözümə davam edirəm...

O gün elə bir gün idi ki, mən bir neçə gün öncə qəbul imtahanlarının son nəticəsini öyrənmiş, bir gün öncə də tələbə biletimi əlimə almışdım. Sevincimin həddi-hüdudu yox idi.Mən bundan belə, beş il boyunca ali təhsil alacaq, beş ildən sonra da əlimə müəllimə diplomu alacaqdım.Arzular sonsuz, xəyallar çox idi.Xəyallarımda özümü bir müəllimə kimi görür, necə dərs

deyəcəyimi təsəvvür edir, özümlə qürur duyurdum. Evdə də ailəm bu sevincimə şərik olmuşdu deyə, özümə qarşı isti münasibət göründə, sevincim daha da aşıb daşırdı.Hiss edirdim ki, bu həvəslə mən irəlidə xarüqələr yarada biləcəyəm.Özümə inamım da, ruh yüksəkliyim də gün-gündən artırdı.

Keyfimin yerində olduğu günlərdən biri idi.Bu gün ev işlərindən boynuma düşənini görüb qurtarmış, asudə vaxtımı kitab oxumağa həsr eləmişdim.Nəhəng tut ağacının ən uca gövdəsi mənim oxu zalım idi.Ağacın nisbətən gənc-budaqları palazqulaq yarpaqlarla sıx bir arakəsmə əmələ gətirdiyindən, yerdən, yaxud ətrafdan baxan olsaydı, ilk baxışdan məni görə bilməzdi.Biz bunu dəfələrlə yoxlamışdıq.Həyətdən başını qaldırıb yuxarı baxmaq heç kimin ağlına gəlmirdi, küçədən baxan da heç nə görə bilməzdi.Bu sığınacağımızın həm məxfi, həm də ətrafdan görünməz olduğunu bilirdik. Birimiz ağacda gizlənsəydik, səsimizi çıxartmayınca, bizi görən olmurdu.

Evimizin bütün gündəlik işləri mənimlə bacılarımın arasında ədalətlə bölünmüşdü. Anam, hər mənada çox ədalətli bir qadın idi.Heç birimizi gücünün çatmadığı, yaxud sevmədiyi işlərlə yükləməzdi.Qələbəlik bir ailənin yaşadığı geniş evimizdə hərənin öz işi vardı, və hər birimiz gördüyümüz işi özümüz seçmişdik.Hər birimiz ona aid olan işləri məsuliyyətlə yerinə yetirər, işlərimizi görüb bitirdikdən sonra sərbəst buraxılardıq. Bundan sonra hər kəs boş vaxtını, həyətdən çıxmamaq şərtilə istədiyi yerdə, imkanlar nəyə çatardısa, o imkanlar daxilində istədiyi kimi keçirdə bilirdi.Bizim də əyləncəmiz ya kitab oxumaq, ya televizor izləmək, yaxud da musiqiyə qulaq asmaqla məhdud idi.Bacılarımla ağacda oturub söhbət elədiyimiz anlar da çox maraqlı keçirdi.Hər kəs eşitdiyindən, gördüyündən, oxuduğundan söhbət açar, bir az qeybət, bir az söhbət, bir az da elmi biliklərlə bəzənmiş söhbətlər başımızı elə qatardı ki, bitmək bilməyən gündüzlərdə vaxtın necə keçdiyindən xəbərimiz olmazdı.O illərdə zaman sanki daha sakit, daha rəvan axırdı.Biz

bütün günü tənbəl-tənbəl hərəkət edər, bu günkü qaça-qovdan fərqli sakit bir həyat sürərdik.Gördüyümüz işləri də tələsmədən, keyfiyyətinə nəzarət edə-edə görərdik, ancaq yenə də hər şeyə zamanımız çatardı.Necə olurdusa, hər şeyə vaxt ayıra bilirdik, bununla belə, günlər bitmək bilmirdi.Mən evdəki paş-paltarı yuyub ütüləməklə hökümlü idim.O zamanlar bu işlər, evin ən ağır işlərindən hesab olunurdu.Doqquz baş ailə üzvü olan bir evdə, qalaq-qalaq əyin başı, doqquz nəfərlik yataq dəyişəyini əllə yuyub günəşdə qurutmaq, quruduqdan sonra da arıtlamaq, ütüləyib dolablara yığmaq çətin iş olsa da, bu işi mən özüm seçmişdim.Mən ev işlərindən daha çox bu işləri sevirdim.Mənim bu seçimim bacılarımı çox sevindirmişdi, onları bu işdən azad elədiyim üçün mənə qəhrəmana baxan kimi baxırdılar.İşimin mənə görə ağır olduğunu hesab edən mələk simalı anam, mənə qıymadığını etiraf etmək üçün, hər düşən fürsətdə mənə xüsusi diqqət yetirməyə çalışırdı.Eləki, özümə aid gündəlik işlərimi bitirirdim, anam mənə gah çay təklif edər, gah yemək təklif edər, gah da məni dincəlməyə çağırardı.Mən də iş bölgüsündə məhz bu işləri boynuma çəkdiyimdən bir daha məmnun qalır, anamın bu diqqətindən bir az da həvəsə gəlirdim.

O gün də işlərimi bitirib istirahətə çəkildiyim günlərdən biri idi.Hələ saatlar səhərin 11-ni göstərirdi, ancaq ətraf artıq istidən od tutub yanırdı.Bacılarım evdə sərinliyə çəkilmişdilər, mənsə, hərdən hardansa meh gətirən bir yüksəkliyi özümə istirahət yeri seçərək, bu dəfə də ağacın rahat gövdəsində oturub kitab oxuyurdum.Həyətdə bir sakitlik hökm sürürdü.Bu sakitlikdə birdən darvazanın qapısı döyüldü.Bacılarımdan kimsə gedib qapını açdı. Səslərdən kimlərinsə bizə təşrif gətirdiyini anladım, ancaq aşağı enməyə tələsmədim. Fikirləşdim ki, kim gəlibsə, qoy evdəkilər onlara qulluq eləsinlər.Mən öz boş vaxtımı haqq eləmişdim, istirahətimi də pozmayacaqdım.O an mən halımdan çox məmnun idim.Əlimdə oxuduğum kitab da çox maraqlı idi. Yalnız anamgil, gələn qonaqları tut ağacının altında qurulmuş oturma köşkünə gətirəndə, mən onları

görüb tanıdım.Bu, Nurunun anası ilə atası idi.Onların bizə nə məqsədlə gəldiyindən, anamın onları xüsusi bir məqsədlə bu günə dəvət elədiyindən hələ mənim xəbərim yox idi.Mən enimmi, enməyimmi, deyə tərəddüd edirdim ki, budaqların arasından anamın küçədə dayandığını, ordan mənə bəzi işarələr elədiyini gördüm. Həyətdəkilər duyuq düşməsin deyə, anam küçəyə çıxıb məni nədənsə xəbərdar eləməyə çalışırdı.O, əvvəlcə işarət barmağını dodaqlarına yapışdırıb susmaq işarəsi verdi. Mən də bu işarəyə uyğun olaraq səsimi çıxartmadım. Maraqla anamın demək istədiklərinə diqqət elədim.Anam him-cimlə mənə, öz həyətimizə deyil, yan həyətə, qonşumuz Ceyrangilin həyətinə enməyi anladırdı. Biz dəfələrlə belə eləmişdik.

Əyər qonşu qadın bizə pay vermək istəyirdisə, biz ağacdan birbaşa onların damına keçər, ordan da onların həyətinə enərdik, payı götürüb normal yolla həyətimizə gələrdik. Mən anamdan gələn işarələri anladım, ancaq niyə belə eləməli olduğumu anlamadım.Hər ehtimala qarşı tut ağacının Ceyrangilin damına keçən tərəfi ilə irəliləyib onların həyətinə endim.Anam qapıda məni qarşıladı, qoluma girib evə apara-apara dedi:

--Gəl qızım, gəl, səs salma, ayağının ucunda, yavaşca içəri keç.

Mən hələ də heç nə anlamırdım, odur ki, soruşdum:

--Nə olub axı?Mən neyləmişəm?

Anam bir qəfil məni qucaqlayıb öpdü.

-- Sən içəri keç, qonaqlara çay verim, gəlib hər şeyi sənə başa salacağam.

Qonaqlar arxası mənə oturmuşdular deyə, mən doğurdan da ayağımın ucunda evə keçə bildim.Atam onlarla üz-üzə oturub nəsə şirin-şirin söhbət edirdi.Anam ilk dəfə öz sözünü tutmadı, içəri gəlib olanları mənə anlatmadı.Əvəzində böyük bacım Əsli mənə hər şeyi başa saldı.O mənə anlatdı ki, tez-tez bizə qonşu kimi gəlib-gedən bu qonşular bu dəfə sadəcə qonşu kimi gəlməyiblər.Onlar bu dəfə elçi kimi gəliblər.Özü də mənə elçi gəliblər.Məni Nuru üçün istəməyə gəliblər.

Mən bu xəbərdən şoka düşdüm, bir az ətim ürpəşdi, bir az ürəyim bulandı, bir az utandım, ən sonunda qəzəbləndim.Beləcə mən, bu gün bu olanlarla əlaqəli özümün də anlamadığım bir böhran keçirtdim.Bunun da səbəbi o idi ki, bu gün bu evdə məndən xəbərsiz, mənim heç vaxt ağlımın ucundan belə keçirtmədiyim bir hadisə baş verirdi.Mən hələ bilmirdim ki, anam-atam onlara nə cavab verəcək, ancaq artıq Nurunu öldürməyim gəlirdi.İyirmi ilə yaxın bir evə girib çıxasan, sevdiyin qıza ucundan-qulağından bir söz deməyəsən, onun ağzını aramadan qapısına elçi göndərəsən, mənə görə bu ən azı saymazlığın, ən çoxu da həyasızlığın göstəricisindən başqa bir şey deyildi.Məni ən çox əsəbləşdirən də Nurunun bu arxayınçılığı idi.Sanki məni əli ilə qoymuşdu, sanki mən ondan başqa heç kimə gedə bilməzdim.Sanki mən bunca ili burda durub onun elçilərini gözləyirdim. Nurunun mənə heç bir söz deməməsi, bu qədər ciddi bir işi mənim başımın üstündən görməsi, məni saya salmadan, öz bildiyi kimi hərəkət eləməsi, bir gənc qız kimi yeniyetmə qürurumа toxunmuşdu.Mən bunun heyfini Nurudan çıxmalı idim.

O gün, 1971-ci ilin bir yay axşamı, günlərdən şənbə olmaq üzərə, atam Nurunun elçilərinə öz razılığını verdi.Sanki, bu işlərin mənə heç bir dəxli yoxmuş kimi, heç kim məndən heç nə soruşmadı, heç kim mənim nə düşündüyümlə maraqlanmadı. Təkcə ertəsi gün, o gün günlərdən bazar idi, evdə yaşanan tələşdən, hazırlıqdan anladım ki, bu gün dünənki söhbətin davamı, yəni nişan tədbiri hazırlanır. Mən üsyan eləməyə, etirazımı bildirməyə başladım. Rəhmətlik atam səsimi eşitdi, gəlib qarşımda diz üstə oturdu, sevgi dolu baxılarını üzümə dikib dedi:

--Qızım, bax, bu gün mən səni ən yaxın dostumun oğluna, qardaşın Kərəmin də ən yaxın dostuna verirəm.Səni, balalarım qədər sevdiyim, bu günə kimi də öz övladlarmdan ayırmadığım, sənin də yaxşı tanıdığın, hər xasiyyətinə bələd olduğun Nurəddinə verirəm, və sənin onunla çox xoşbəxt olacağına inanıram.Gəl mənim sözümdən çıxma, babalı da mənim

boynuma.Bax onlar söz verirlər ki, sənin oxumağına da mane olmayacaqlar, səni oxudacaqlar.

Bəlkə atam elə bilirdi ki, mən onun dediyi bu xəbərə sevinəcəyəm, ancaq mən əksinə, elə bir tələş keçirtdim ki, atam da qorxdu.

--Necə yəni, necə yəni?Demək istəyirsən ki, mən təhsilimi bitirməmiş evlənməliyəm?

Atam sakitcə gülüb dedi:

--Allah köməyin olsun, bəs sən necə bilirdin?Durub sənin beş il təhsil almağını gözləsinlər?Toydan sonra ha burdan dərsə getmiş, ha qaynatanın evindən getmiş, nə fərqi olacaq?Əsas odur ki, heç kim səni oxumağından saxlamayacaq.

Mən ilk dəfə özüm barədə danışılanların içində toy kəlməsini eşidib döyükdüm.

--Toy?Toy da olacaq?Nə vaxt olacaq?

Atam bu dəfə də səbirlə cavab verdi:

--Qorxma, hələ zamanın çox olacaq.Yavaş-yavaş bu evlilik fikrinə də alışacaqsan, hər hazırlığını da görə biləcəksən.Toyu gələn yaya saxladıq.Gələn yaya qədər birinci kursu bitirərsən, yay tətilinə çıxarsan, inşallah o arada da toyunuzu edərik.

Mən atama daha heç nə deyə bilmədim, ancaq elə ağladım. Sonra rəhmətlik qardaşım yanıma gəldi, məni qucaqlayıb dedi:

--Bəs mən elə bilirdim ki, sən də onu sevirsən...İstəyirsən, bu dəqiqə bu işə son verim, hamını qapıdan qovum.Ancaq bir qardaş kimi onu da deməliyəm ki, bu dünyada səni Nuru qədər sevən ikinci bir adam da yoxdur haa...Bunu mən bilirəm, istəyirəm bunu sən də biləsən...Məncə sən bir ömür boyu onun sevgisinə güvənə bilərsən, üstəlik, hələ arada mən də varam...

Qardaşımın sözlərinin nə anlama gəldiyini mən də bilirdim.Ona görə mən ona da heç nə demədim, sadəcə ağladım.Qardaşım üzümdən öpüb çıxdı.

Bir azdan tut ağacının altında qurulmuş çadırdan musiqi səsləri qalxdı.5-6 saat sürən şənliyin sonunda barmağıma nişan üzüyü taxıldı.Nurunun nişan üzüyü...

***

Nuru mənim həsrətimə bircə gün davam gətirə bildi.Nişan günündən bircə gün keçmiş, o qardaşımı göndərib atamdan mənimlə görüşmək üçün icazə istədi.Atam da icazə verdi.Mən daha çox Nurunu cəzalandırmaq üçün bu görüşü qəbul eləmişdim.

O, mənim fikirlərimdən xəbərsiz, sevincindən yerı-göyə sığmayaraq, mənimlə ilk görüşə gəlmişdi.Üzünü təraş elətdirmiş, ən gözəl paltarlarını geyinmiş, gözəl qoxulu bir pafumlə ətirlənib gəlmişdi.Həyəcanlı olsa da, gözləri gülürdü.Əlində böyük bir gül dəstəsi tutmuşdu.O gülü mənə uzatdı, mən də gülü alıb kiçik bacım Rahiləyə ötürdüm, özüm də savaşa hazır bir vəziyyət aldım.Nuru, utandığından rəng verib rəng ala-ala mənə yaxın gəlib təbrik eləmək istəyirdi ki, mən ağzımdan od püskürə-püskürə sözə başladım. Onu saymamazlıqda, gönüqalınlıqda, hissiyyatsızlıqda günahlandırdım. Mən danışdıqca, gözümün önündə Nurunun necə pərişan, peşman, günahkar bir hal aldığını gördüm, ancaq hisslərimi cilovlaya bilmədim.Mən ondan birlikdə, lakin bir-birimizin duyğularından xəbərsiz keçən iyirmi ilə yaxın bir zamanın hesabını sorurdum.O iyirmi ilin ki, hər gününü sevgi dolu, məhəbbət dolu yaşaya bilərdik.Bir-birimizə alışa bilərdik, bir-birimizin həsrətindən yana bilərdik.Birlikdə necə gözəl xəyallar qura bilərdik, necə niyyətlər edə bilərdik.Bəs gör indi nə oldu?Haqqında heç bir fikir belə qurmadığım bir oğlan, məndən xəbərsiz barmağıma üzüyünü taxdı.Bəs sonra?Bunun sonrası necə olacaq?Bütün o yaşanmalı olacaq gözəl şeylərin haqqını, kötük kimi hissiz-duyğusuz bir oğlan üzündən yaşanmadan keçən illərin əvəzini bircə üzük ödəyə biləcəksə, al üzüyünü də, get burdan. Belə dedim, və üzüyü barmağımdan çıxardıb atdım.Nuru belə bir hərəkəti heç gözləmirdi deyə, özünü itirdi, çaşıb qaldı.

--Sən neylədin?O üzük barmaqdan çıxarılarmı?--deyə addım-addım geri çəkildi.Sonra da yerdə üzüyü axtarmağa başladı.Mən

heç özüm də bu qədər irəli gedəcəyimi düşünməmişdim, ancaq çılğınlıq öz işini görmüş, olan olmuşdu. Mən artıq öz hərəkətimdən peşman olmuş kimi idim, ancaq inadım da inad idi deyə, bunu biruza vermək istəmirdim.Odur ki, Nurunu elə bu vəziyyətdə orda qoyub evə qayıtdım.Bu söhbət bizim evin önündə baş vermişdi deyə, mən evimizin arxa pəncərəsindən baxır, onun orda üzüyü necə axtardığını görürdüm.Bir yandan ona canım yanırdı, ürəyim ağrayırdı, bir yandan da onu cəzalandırdığıma sevinirdim.Bundan sonra bilər ki, hər sözün, hər hərəkətin öz vaxtı var.Mənim yaşıdlarımın hərəsi artıq illərdir ki, özlərinə sevgili tapmışdılar, artıq hər yerdə qoşa gəzirdilər, hər sözlərini, hər söhbətlərini birlikdə edirdilər. Mənsə, bunca ili heç kimə gözümün ucu ilə baxmadım, indi birdən-birə, heç bir hazırlıq dönəmi yaşamadan evlənmək üzrə idim.Bu cür səfeh fikirlər məni nə qədər qəddarlaşdırırdısa da, başqa bir duyğu, artıq bu oğlanın mənə yad olmadığını, onun bundan sonra ancaq mənə aid olduğunu ağlıma yeridərək, ürəyimi yumşaldırdı.

Nuru axşama qədər küçəmizdə gəzdi-dolaşdı, gah evə girib qardaşımla söhbət elədi, gah da gizlincə küçəyə çıxıb öz axtarışlarına davam elədi.Tərs kimi üzük tapılmırdı.Elə bil göyə uçmuşdu.Mən özümü günahkar hiss edir, üzük tapılmasa, atama, qardaşıma nə cavab verəcəyəm deyə ürəyimi yeyib-bitirirdim. Ən son, axşam hava qaralandan sonra bacım Rahiləni xəbər bilmək üçün göndərdim.Üzük hələ də tapılmamışdı.Artıq gec idi deyə, Nuru hamı ilə görüşüb getdi.Mən qorxudan əsim-əsim əsirdim.Bu nə iş idi mən tutdum?Bəs birdən üzüyü barmağımda görməyib soruşsalar, nə cavab verəcəyəm?Heç kimin gözünə görünmədən öz otağıma çəkildim, ancaq yata bilmədim, sabahı gözlərimlə açdım.Gözüm yolda, qulağım səsdə idi.

Ertəsi gün, heç gözləmədiyim halda, anamdan bir xəbər gəldi.Anam atama dedi ki, bu gün günortaya Nurunu qonaq çağırıb, ayaq açdı edəcək.Anam dedi ki, Nuru bir gün də bu

edən, bu ailədən ayrı dura bilməz.Odur ki, gəl heç uzatmayaq, elə bu gün onun ayağını açaq, əvvəllərdə olduğu kimi, istədiyi vaxt bu evə gəlib-getsin. Atam heç nə demədi, sadəcə başını bulayaraq güldü.Bu xəbər məni elə həyəcanlandırdı ki, əlim-ayağım əsməyə başladı. Həm sevinirdim ki, onu yenidən görəcəyəm, həm də qorxurdum ki, o hər şeyi anama-atama danışar.

Günortaya qədər havada oldum, özümü ələ ala bilmədim.Elə ki, qapı döyüldü, heç kimə macal vermədən özüm qapıya getdim.Nuru idi.Əlində dünənkindən də gözəl bir gül dəstəsi tutmuşdu.Əvvəlcə salam verdi.Çox həyəcanlı idi.İkimiz də yarpaq kimi əsirdik.Mən qorxa-qorxa onun salamını aldım.O da ürəklənib gül dəstəsini mənə verdi.Mən günahımı yumaq üçün gül dəstəsini aldım, susub gözlədim.Nuru əlini cibinə saldı, ordan nişan üzüyünü çıxardıb əlimi tutdu.

--Düz deyirsən, üzüyü sənin barmağına özüm taxmalıydım,--dedi, üzüyü barmağıma taxdı.

--Təbrik edirəm, xoşbəxt olasan.--dedi və məni özünə sarı çəkib yanağımdan öpdü.Mənim ürəyimi birdən-birə elə güclü bir sevinc doldurdu ki, heç nə deyə bilmədim.Sadəcə başımı aşağı salıb durdum.Ürəyim onu sevmişdi, qəbul eləmişdi, içinə almışdı.Özüm də məətəl qalmışdım, bu necə oldu, nə vaxt oldu?

--Üzüyü hardan tapdın?

--Elə burdan.O üzük o qədər halal, o qədər müqəddəsdir ki, itə bilməzdi.Bir də barmağından çıxartmayasan haa...

--Yaxşı...

Bununla da biz anlaşdıq, biz bir-birimizi qəbul elədik, biz bir-birimizi ürəklərimizə buraxdıq, biz bir-birimizi sevdik.Belə çıxırdı ki, biz bu 3-5 dəqiqəlik ünsiyyət zamanı o iyirmi illik yolu qət eləmiş olduq.Nə də olsa, biz iyirmi il boyunca günəşlə yer kürəsi kimi bir-birimizin ətrafında dönüb dolaşmışdıq.O qədər zəhmət heç cür boşa gedə bilməzdi.Həmin o illərin zəhməti də bu gün, o 3-5 dəqiqəlik ünsiyyət zamanı öz işini görmüşdü.Qismətin bizi bu yolla bir-birimizə tuş gətirməsi özümüzə də möcüzə kimi

gəlirdi.Ancaq biz onu da anlayırdıq ki, bizim aramızdakı bu qəribə münasibəti çox yaşıdlarımızın bir-birinə olan münasibətindən fərqləndirən, bu münasibətin həm özəlliyi, həm də gözəlliyi idisə, onu fərqli qılan həm də, bu münasibətin daha təbii, daha məsum bir özül üstündə qurulması idi...

Bu bizim ilk sınağımız idi...

6. Yaddaşımın xatirə qatlarından bir epizod...

Nuru iki gün idi ki, xəstəxanada yatırdı.Mən onun yanına, bizdən yeddi km uzaqlıqda yaşayan ortancıl oğlumgildən gəlirdim.Bir müddət idi ki, oğlum işləri ilə əlaqəli vətəndə idi, mən də gəlinim, nəvələrim tək qalmasın deyə, onlarda qalırdım.Xəstəxanaya yatmazdan əvvəl Nuru da arabir gəlib bizimlə qalırdı.Elə son dəfə halı pisləşəndə də, biz oğlumgildə idik.O səhərə qədər yatmadı, halı get-gedə pisləşirdi.Səhər biz öz maşınımıza minib bizim yaşadığımız şəhərə gəldik.Bütün yolu Nuru halbahal ola-ola maşını güclə sürürdü.Yol nişanlarını ona mən xəbər verirdim.Halbuki, mən hələ gecədən oğlanlara zəng vurmaq istəyirdim, o isə qoymurdu.Deyirdi ki, evə gedək, hər şey keçəcək, boş yerə uşaqları qorxutma.Biz evə çatdıq, ancaq Nuru özünü toplaya bilmirdi.Mən artıq onun vəziyyətindən qorxmağa başladım, kiçik oğluma zəng vurdum, o da gəlib atasını xəstəxanaya apardı.Həmin gün Nuru sonuncu dəfə xəstəxanaya yatdı.Mən hər səhər oğlumgildən onun yanına gəlir, axşam saatlarında evə qayıdırdım.O səhər də saat yeddidə evdən çıxdım.Avtobus dayanacağına kimi 3-5 dəqiqəlik yolum vardı.Yol iki tərəfindən də ağacların cərgələndiyi xiyabandan keçirdi.Səhərin alatoranında, ətrafda quşların, bir də ötüb keçən maşınların səsindən başqa heç bir səs yox idi.Mən dərin fikirlərə dalaraq, yoluma davam edirdim ki, birdən qulağıma Nurunun səsi gəldi.Məni çağırdı.Bircə dəfə çağırdı, və o an mənə elə gəldi ki, bu səsdə qeyri-adi heç nə yoxdur.Sadəcə Nuru məni gördü və

çağırdı.Səs o qədər aydın eşidildi ki, elə yaxından gəldi ki, mən getdiyim yerdə bir qəfil durdum, dönüb ətrafa baxdım, o doğma səsi aydınca eşitməyimə rağmən, heç kimi görmədiyimdən çaşıb qaldım.O, ya arxamca gəlsəydi, ya da o biri səkidə dayanıb məni çağırsaydı, burda doğurdan da qeyri adi heç nə olmayacaqdı.Mən zatən ətrafa döyüküb baxanda, belə də düşünmüşdüm.Bu düşüncə, ardıyca, qanımı damarlarımda donduran bir qorxu hissini gətirən ani bir hiss oldu.Mən birdən ayıldım ki, Nuru burda nə gəzər?Nuru xəstəxanada deyilmi? Mən də onun yanına getmək üçün sabahın korunda yola çıxmadımmı?Elə bunu özüm üçün aydınlaşdırmışdım ki, canımdan bir üşütmə keçdi.Ürəyim, məni qorxudan fikirlərlə dolmağa başladı."Görəsən nə oldu?Bu nə səs idi qulağıma gəldi?Niyə gəldi?Nuru xəstəxanada deyilmi?Bəs niyə burda məni çağırdı?Xeyirdimi?Bu nə deməkdir?" Suallar artdıqca, ürəyim də möhkəm çırpınmağa başladı, çünki bu qəfil çağırış, mənə xeyirli heç nə vəd eləmirdi. İçimdə bir tələş artdıqca artırdı."Görəsən orda bir şey olmayıb ki? Bu səs mənə nəsə demək istəyir yoxsa?" Yolun sonraki qalan hissəsini də, avtobusla getdiyim on dəqiqəlik yolu da, mən Allaha yalvara-yalvara getdim.

Nuru üçün dualar elədim, Allahdan ona möhlət istədim. Dayanacaqdan xəstəxanaya qədər olan beş dəqiqəlik yolda, mənə elə gəlirdi ki, ürəyim məndən on addım qabaqda gedir, mən də nəfəsim kəsilə-kəsilə ona yetişməyə çalışıram. Nəhayət gəlib çatdım, ikinci qata çıxdım, palataya girdim, Nuru yatmışdı.Mən əyilib yavaşca onun alnından öpdüm.O gözünü açıb məni görən kimi, gülümsədi, ancaq mənə qıymadığı üçün belə dedi:

--Səni də yollarda qoydum.Səhər-səhər nə xəbər idi?Barı bir az dincələydin...

Mən bu dəfə onun əllərindən öpdüm, dedim:

--Elə demə, borcumdur.Həm də burda nə zəhmət var ki?Bütün günü işimiz yeyib-yatmaq deyilmi?Hesab elə ki, gəzməyə çıxıram. Sonra o nəvələrimizi soruşdu, mən də ona bir az adaşı Nurəddinin yaramazlıqlarından danışdım.Birazdan

gəlinlər bir-bir gəldilər, axşama doğru oğlanlar da işdən çıxıb xəstəxanaya gəldilər.Onlardan kimsə atasını yedirdirdi, kimsə söhbət edirdi, kimsə əynini dəyişirdi.Mən kənarda oturmuşdum, gözüm gördüklərinə baxırdı, ancaq beynim başqa şeylə məşğul idi.Mən səhərki o hadisəni unuda bilmirdim, Nurunun aydınca məni çağırması qulağımdan getmir, məni anlamadığım bir qorxu ilə hədələyirdi.Ya da nəyisə mənə xəbər verirdi...

Ertəsi gün eyni qayda ilə dayanacaqda dayanıb avtobus gözləyirdim.Birdən telefonum çaldı.Böyük oğlum idi.Səsindən görünürdü ki, çox həyəcanlı idi.O, tələş içində, məndən harda olduğumu soruşdu.Mən də avtobusu gözlədiyimi, on dəqiqəyə xəstəxanada olacağımı söylədim.Oğlum həyəcandan qırılan səsi ilə dedi:

--Ana, ordan heç yerə ayrılma, avtobusa da minmə.Mən səni almağa gəlirəm.

Mən anladım ki, nəsə olub.Ürəyim düşdü, qorxa-qorxa soruşdum:

--Niyə elə deyirsən?Bir şey olub?

O da cavabında bu sözləri dedi:

--Ana, atamın halı yaxşı deyil, səni ona yetişdirməyə çalışıram, ancaq özüm də bilmirəm ki, yetişdirə biləcəyəm, yoxsa yox...

Oğlum bu sözləri dedi, telefonu qapatdı.Yer ayağımın altından qaçdı.Məndə bir isterik hal başladı.Oğlum mənim yanıma gələnə qədər, mən küçənin ortasında səsimi başıma atıb dəli bir hayqırtı ilə ağladım.Yoldan keçən maşınlar, mənim minməli olduğum avtobusun şoferi, içindəki adamlar mənə baxır, nə olub deyə soruşurdular.Ancaq mən heç nə görmür, heç nə eşitmir, ancaq elə ağlayırdım.Onlar da sürüb gedirdilər. Nəhayət, oğlum gəlib məni götürdü.Biz xəstəxanaya gələndə, kiçik oğlum da orda idi.Burda bir hərəkətlilik vardı, və bu hərəkətlilik ilk başda mənə bir panik yaşatdı.Kiçik oğlum məni sakitləşdirməyə çalışdı.Xəstəxana görəvliləri Nurunun palatasını

dəyişirdilər. Onu ayrıca palataya keçirdirdilər, çünki bu sabah məlum olmuşdu ki, Nuru daha ayağa qalxa bilmir.Uşaqlar hər səhər işə getməzdən əvvəl atalarına baş çəkər, sonra işə gedərdilər.Bu səhər də atalarına dəyməyə gəliblər.Həmişəki kimi onu ayaqyoluna aparmaq istəyiblər, ancaq Nuru nə illah edibsə, qalxa bilməyib.Həkimlər uşaqları sakitləşdiriblər ki, narahat olmasınlar, bu halda da nə lazım olacaqsa, tibbi personal burda 24 saat növbə çəkir, hər şeyi özləri edəcəklər.Lakin uşaqlar razı olmayıblar, atalarının yanında özləri qalacaqlarını söyləyiblər.Vəziyyət belə olunca da, Nurunu ayrıca palataya keçirtməyə qərar verilib.Nurunun tək kişilik palatasında, həqiqətən də xəstənin yanında daha birinin qalması üçün hər şərait var idi.İndi onun yanında kim istəsə qala bilərdi.Mən həmin gündən Nurunun yanında özüm qalacağımı söylədim. Ortancıl oğlum da gəlib çıxmışdı deyə, oğlanlar da hər biri sıra ilə, mənə yoldaşlıq edəcəklərinə qərar verdilər. Mən hər gecə bir oğlumla növbə çəkirdim.Mənə üç gecə, oğlanların hərəsinə bircə gecə növbə çəkmək düşdü.Nuru bundan artıq bizə qıymadı, üç gündən sonra rəhmətə getdi.

Mən tez-tez onun səsini eşidirəm.Nuru məni çağırır.Sonra birdən anlayıram ki, mən o səsi indi eşitmirəm, mən sadəcə, o səsi eşitdiyimi xatırlayıram.Mən indi-indi anlayıram ki, o çağırış nə anlama gəlirmiş.Mən o gün boşuna o səsdən sonra o cür tələş keçirtməmişdim. Nuru o gün mənə bir mesaj verirmiş."Xəbərin olsun, mən gedirəm" deyirmiş.

Evdə tək olanda, Nurunun hər bir hərəkəti, hər sözü gözümün önündə dövrə vurub durur.Onu unuda bilmirəm.Salona girirəm, Nurunu tapa bilmirəm, bir otağa girirəm tapa bilmirəm, o biri otağa girirəm, tapa bilmirəm.Mətbəxə keçirəm, yoxdur, balkona çıxıram, yoxdur.Heç cür bir yerdə qərar tuta bilmirəm, bütün günü hər yerdə onu axtarıram, ancaq tapa bilmirəm.Belə vaxtlarda anlayıram ki, beynimin təmkini ilə ürəyimin göynərtisi, bir-biri ilə çəkişir, biri digərini üstələməyə çalışır.

Sonra birdən zehnim açılır, ağlım və şüurum aydınlaşır, və mən beynimdən gələn belə bir acı həqiqəti növbəti dəfə qəbul etmək zorunda qalıram.Nurəddin getdi, o yoxdur artıq.O bir daha geri gəlməyəcək.Olsa-olsa, mən onun yanına gedə bilərəm ki, bunun üçün də gözləmək lazımdır.Çünki, hər şeyin öz vaxtı var.Həmd olsun ki, bizi bu dünyaya gətirənin və bizi bu dünyadan götürənin cədvəlində, mənə də bir gün sıra çatacaq...

Doğrudur, başım qarışıq olanda heç nə yadıma düşmür.Ancaq elə ki, hamı dağılışıb gedir, evdə bir mən oluram, bir də Nurunun xatirələri, səsi, sözü, hərəkəti...Bir də tez-tez o çağırışı gəlir qulağıma.İnsanın hissiyyatı hələ də bizə sonuna qədər açılmamış sirlər dünyasıdır.O sirrin birini, bir gün mən özüm üçün açа bildim.O gün ki, o xiyabanda Nuru məni çağırdı, o gün o mənə bir mesaj göndərirmiş, mən də o mesajı almışammış. Ancaq bunu ya anlamırammış, ya da beynim bu qorxunc mesajı aldığını boynuna almaq istəmirmiş.O üzdən mən o hala qalırammış.İçimdə fırtınalar-tufanlar ona görə qopurmuş ki, mən o mesajı almışdım, həm də doğru anlamışdım. Anladığım üçün də o hala qalırammış.Belə çıxır ki, o mesaj zamanında gəldi, öz missiyasını yerinə yetirmək üçün bir an belə yadımdan çıxmadı, mənə tezliklə başımıza gələcək o müsibətdən xəbər verdi...

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Toyumuz...

Bizim toyumuz, atalarımızın söz verdiyi kimi, düz bir ildən sonra oldu.Mən də, Nuru da birinci kursu bitirdik, yay tətilinə buraxıldıq.Nuru da deyirəm, çünki mən özüm də bunu nuşandan sonra öyrənmişdim.Sən demə mənim universitetə qəbul olunduğum il, Nuru da başqa bir universitetə qəbul olunubmuş. O bu xəbəri mənə deməmiş, sürpriz eləmək istəmişdi.Nişan baş

tutandan sonra o da öz sürprizini mənə açdı.Mən buna çox sevindim.İkimiz də artıq tələbə idik.O vaxtlar yüksək təhsilə yüksək də qiymət verilirdi.Doğrudur, əlində hansı diplom olmasının maaşlara təsiri az idi, ancaq təhsilsiz insanları da heç yerdə işə almırdılar.Bu mənada oxuyub ali təhsil alacağımız fikri bizi sevindirirdi.İrəlidə, bəlkə də evli tələbələr kimi çox çətinliklərə məruz qalacaqdıq, ancaq biz inanırdıq ki, əl-ələ verərək hər cür çətinliyin öhdəsindən gələ biləcək, o cümlədən təhsilimizi də başa çatdıra biləcəyik.

Bir ildən sonra, ikimiz də birinci kursu müvəffəqiyyətlə başa vuraraq yay tətilinə girdik.Həmin ilin isti yay axşamlarından birində, o vaxtki qayda-qanuna uyğun olaraq, çadır toylarının yavaş-yavaş dəbdən düşdüyü, restoran toylarının yeni-yeni dəbə girdiyi bir zamanda, həmin o yeni-yeni dəbə girən restoranlardan birində bizim toyumuz baş tutdu. İndi, qulağımda "Sevgilim" oyun havasının səslənişi, yaddaşımda qırıq-qırıq xatirələrin mozaik parçaları, gözümdə keçən günlərin həsrətindən gilənənən göz yaşları, o toydan, daha doğrusu, o toyun mənə danışılan təəssüratlarından yazmağa çalışıram.

Mən o toyda olmadım.İndi çoxları inanmayacaqlar, ancaq bizim toyumuz hələ gəlinlərin toyda oturmadığı, toya gətirilmədiyi bir dönəmə tuş gəlmişdi.Gəlinlərin də toyda bəylə yan-yana əyləşməsi, restoran dəbi ilə birgə gəlir, hələ ilk addımlarını atırdı.Nadir hallarda, hardasa, kimdəsə, gəlinin də toyda görünməsi, bəylə yanaşı oturması halları olurdu, ancaq bu dəb hələ bizə gəlib çıxmamışdı.Bu yenilik hələ başlanğıc etapında idi, hələ geniş kütlələrə yayılmamış, hələ bu günkü kimi hər kəs tərəfindən ucdantutma qəbul olunmamışdı.Ona görə də, bəy evinin heç bir dartışmaya gəlməyən qərarı ilə məni ata evindən alıb, ər evinə gətirdilər.Halbuki, mən də Nurunun hələ əskərlik dönəmində Almaniyadan mənim üçün aldığı, həm də irəlidə mənə gəlinlik kimi tikiləcəyini düşünərək aldığı, daha çox gümüşü saplardan toxunmuş, alışıb yanan ağ parçadan tikilmiş gəlinliyimi hamıya

nümayiş elətdirməyi istərdim.Ona uyğun gələn, gümüşü saplarla bəzədilmiş gəlinlik duvağımı, burnunun üstündə brilyant kimi alışıb yanan qaşları olan 34 ölçüdə ağ gəlinlik ayaqqabılarımı da hər kəsə göstərmək istərdim.İnsafla, bütün bu gəlinlik dəsti başdan-başa bir tamaşa idi.Mənimçün taa... Almaniyadan alınmış gəlinlik dəstini görənlər, Nurunun zövqünə çox heyran qalmışdılar o vaxt.Mənim özümü də heyrətə gətirən əsas məsələ o idi ki, Nuru hələ mənim irəlidə ona nə cavab verəcəyimi bilmədiyi halda, mənim toydan sonrakı 3-4 ildə geyinməyimə yetəcək qədər bir-birindən gözəl əyin-baş alıb gətirmişdi əsgərlikdən.Mən doğurdan da o paltarları, ayaqqabıları, bir-birindən gözəl xalis dəri çantaları, uzunboğaz dəri çəkmələri toyumuzdan sonrakı 3-4 il boyunca geyindim.Hərdən onun özündən soruşurdum ki, birdən sənin hesabın baş tutmasaydı, mən sənə getmək istəməsəydim, bu aldıqlarını neyləyəcəkdin?Axı ayaq ölçüsü 34, əyin ölçüsü 38 olan bir "cırtdan" qızı hələ axtarıb tapmaq lazım gələcəkdi.O da sinəsini irəli verib deyirdi:O cür ki, mən səni sevirdim, inanırdım ki, Allah o boyda sevgini mükafatsız qoymaz...

Yadıma gəlir ki, onun bu sevgisini ilk başdan bilənlər də, sonradan xəbər tutanlar da, ondakı əzmə, iradəyə, öz əhdinə vəfalı çıxma bacarığına hörmətlə yanaşırdılar.

Həmin o mənim zərxara gəlinliyimi, heç məni oğlan evinə yola salanlar da, yanımca gedənlər də əməlli-başlı görə bilmədilər.Çünki, həmin o alışıb yanan duvağımın üstündən başıma bir qırmızı kəlağayı da atdılar, beləki ayağımın altını da görməz oldum.Məni oğlan evinə kimi müşaiyət edəcək qızlar-gəlinlər iki tərəfdən qoluma girib məni oğlan evinə gətirdilər.Orda məni oğlan tərəfini təmsil edən qız-gəlindən ibarət kiçik bir məclis gözləyirdi.O gün orda nələr danışıldı, nələr yeyildi, nələr içildi, heç biri yadımda deyil.Mən bir gənc qız kimi, qapısından ilk dəfə girdiyim ər evində həyəcandan yarpaq kimi titrəyir, ətrafımda baş verənləri qarmaqarışıq bir yuxuya bənzədirdim.Bir onu bilirəm ki, bu yuxunun tezliklə

bitməsini istəyir, bu qələbəlik dağılışandan sonra mən də onların ardından ata evinə geri dönməyi arzulayırdım.Bu istək həm də bir həftə əvvəl həyətimizdə qurulmuş mağarda keçirilən, yalnız qadınların dəvət olunduğu qız toyundan başımda qalmışdı.O toyda da çox adam iştirak elədi, hamı yedi-içdi, dedi-güldü, çaldı-oynadı, sonunda da hamı dağılışıb getdi.Mən də, heç nə olmamış kimi, ata evimdə qalıb həyatıma davam elədim.Ər evində oturduğum o an ürəyimdən keçdi ki, kaş bu dəfə də belə olaydı.Bu gün də hamı öz evinə, mən də öz evimizə dönəydim.Fəqət qonaqlar dağılışıb gedəndən, mən də, atamın, anamın aldığı cehizlərdən bizim üçün bəzədilmiş otaqda tək qalandan sonra anladım ki, daha burdan geriyə yol yoxdur, mən bundan sonra bu evə aidəm, burda qalmalı, burda yaşamalıyam. Etiraf edim ki, bu məsum fikirlərdən az qaldı ürəyim partlasın.Gəlin duvağının altında olduğum üçün hər kəsdən gizlin ağlamağa başladım.

Qələbəlik bir şəhərdə bir qəfil anasından, atasından ayrı düşmüş, onları itirmiş uşaq kimi, bütün bədənim titrəyə-titrəyə, ürəyim parçalana-parçalana, hönkür-hönkür ağladım.Bu vaxt qapı açıldı, Nuru içəri girdi, mən də yenidən ana-atasına rast gəlmiş uşaq kimi sevinərək, onun boynuna sarıldım.Hər bir şeyin, hətta öz cehizimin də mənə yad gəldiyi bir ortamda mən bir qəfil doğma bir insana, bir illik nişanlıma rast gəlmişdim.O gün o mənə o qədər doğma gəldi ki, bundan sonra onunla birlikdə nəinki bu evdə, diləsə, lap qalın bir meşədə də, susuz səhrada da, dərənin dibində də yaşamağa razı idim.O məni yaxından tanıyan, hər xasiyyətimə bələd olan, hər şıltaqlığıma dözən ən yaxın adamım, bura qədər bir illik nişanlım, bundan sonra da bir ömürlük can yoldaşım olacaq bir insan idi.O gün mən ona özüm kimi inandım, sonuna kimi güvəndim.

Deyilənə görə, toyumuz gecə saat birə kimi davam edibmiş.Heç kəs dağılışıb getmək istəmirmiş.Nəhayət gecə saat birdə toy bitmiş, Nuru da bundan belə bir evli kişi kimi ömür

sürəcəyi evimizə, mənim yanıma gəlmişdi.Nuru bizim toyumuzdan məmnun qalmışdı, odur ki , onun toy təəssüratları da xoş idi, ürəkaçan idi.Həmin o toy, oğlan evinin hazırladığı, hər bir şeyin oğlan evinə aid olduğu bir toy idi.Ona görə də, mən indi gözümlə gördüyümdən deyil, orda iştirak edən adamların danışdıqlarından yola çıxaraq, bizim toyumuzdan nəsə danışa bilərəm.Əslində heç danışılacaq o qədər çox şey də yox idi.Bir onu dedilər ki, toy çox şən keçib, çağırılan, çağırılmayan kim varsa, hər iki tərəfdən toy sahiblərinin hörmətinə böyük həvəslə toya gəliblər.Ona görə də toyda qonaqlar bir sıxlıq əmələ gətiriblər, qonaqların çoxu ayaq üstə qaldığından, rəqs eləməkdən əldən düşüblər.Bu hesabla da rəqs eləmək üçün ayrılmış meydança bir an belə boş qalmayıb, hər oturan qonağın yerinə, ayaq üstə qalan qonaq özünü rəqsə verib.Bu gedişlə də, deyilənə görə şahanə bir toy məclisi alınıb.Mən bu eşitdiklərimə inanıram, çünki aid olduğumuz mühitdə, çevrəmiz atamı da, qaynatamı da yaxından tanıyan, sevən, onlara bir ağsaqqal kimi hörmət edən insanlarla dolu idi.Onlar bizim qonşularımız, qohumlarımız, valideyinlərimizin iş yoldaşları idi.O vaxtki ölçülərdə insanların dəyər verdiyi şeylər başqa idi deyə, səmimiyyəti hər nemətindən üstün olan bu toy, səmimiyyəti hər nemətdən üstün tutan hər kəsin yaddaşında o ilin ən uğurlu toyu kimi qaldı.

Bu bizim ailəmizə aid olan ilk toyumuz idi...

7. Yaddaşımın xatirə qatlarından bir epizod...

Nurunun əskərlikdən gəldiyi vaxtlar idi.O, bir-iki ay dincəldikdən, özü qapı-qapı gəzib hamı ilə görüşdükdən sonra iş tapıb işə girmişdi.Qardaşım Kərəmin evdə - danışdığı söhbətlərdən aldığımız xəbərlərə görə, Nuru çörək kombinatında sürücü kimi işə düzəlmişdi.O, bundan sonra gün boyu çörək dükanlarına çörək daşıyacaqdı.

Mən hərdən keçmişləri yada salıram, arxada buraxdığımız həyat yolunun xatirələrini vərəqləyirəm, yaşadığımız həyatın elə anlarını xatırlayıram ki, bundan sonra, ömür 100 il ikən, niyə bizim eyni mühitdə böyümüş yaşıdlarımızın 60-65 yaşı da doldura bilmədiyinin səbəblərini öyrənmiş oluram.Bizim yaşıdlarımızın, hətta 60-65 yaşı güclə doldura bilən ömürlərinə, zamanında elə hadisələr, elə olaylar, elə çətinliklər öz damğasını vururdu ki, bu damğalar bir insan ömrünə bir qurğuşun ağırlığı, bir zəhər acılığı yükləyən, onun bu qısa ömründən kəsən, ən ağır xəstəliklərin toxumunu da gizlincə səpən zərbələr olurdu.Bu yüklə də insan ancaq bu qədər yaşaya bilər, ömrü buraya qədər sürdürə bilərdi.

Hərdən Nurunun, xəstəliyini yeni öyrəndiyi vaxtlarda dediyi bir sözü yadıma düşür.O sözün ağırlığı ürəyimi deşir, göynərtisi canımı yandırır.Biz əvvəldən burda uşaqlardan ayrı yaşayırıq. Burda qanunlar ailələrin iç-içə yaşamasının əleyhinə olduğu üçün, hər kəs ayrıca yaşamaq hüququna malikdir, və belə də yaşayır.Biz də üç otaqlı evimizdə ayrıca yaşayırdıq.Mən indi də o evdə tək yaşayıram.Nurunun xəstəliyi haqqındakı dəhşətli xəbərə, elə Nurunun özü ilə birgə yeni-yeni alışdığımız vaxtlar idi.Bir gün səhər-səhər mən süfrəni hazırlayırdım, Nurunun da süfrəyə gəlməsini gözləyirdim.O isə yubanırdı. Mən gəlib yataq otağının qapısında dayanıb içəri baxdım.O, yerinin içində oturub, məzlum-məzlum önünə baxırdı.Mənim ürəyimin içindən bir göynərti keçdi, yavaşca dedim:

--Nuru, niyə belə oturmusan?Gəlsənə...

O, başını qaldırdı, mən də onun gözlərini gördüm.O, ağlayırdı.Sonra səyriyən dodaqlarını zorla bir yerə yığıb dedi:

--Gül kimi yaşayırdıq, bu zəhirmar hardan gəlib tapdı məni?

Mən onun yanına gəlib oturdum, əlini əlimə alıb dedim:

--Nuru, bax sənə yalvarıram, belə eləyib ruhdan düşmə, mübarizə aparacaqsan, həkimlərin dediyinə əməl edəcəksən.Gör bü ölkədə nə qədər belə xəstə var.Onlar hər şeyə düzgün əməl

edərək, həyatlarına davam edirlər.Sən də qorxma, özünə güvən, doktorlara inan, gerisi də Allahdan...Biz hamımız sənin üçün dua edirik, sən də dualarını əskik eləmə.

İndi birdən yadıma düşdü, fikirləşdim ki, biz burdakı insanlar kimi yaşamadıq axı...

65 illik bir ömürdə, hələ onun da 17 ilini qürbətdə yaşadığımızı nəzərə alsaq, 50 illik bir ömürdə nə qədər çətinliklər yaşadıq?Ərzaq qıtlığı, çörək qıtlığı, cürbəcür savaşlar, iki günün biri baş verən dövlət çevrilişləri, qanun tanımayan bir cəmiyyətin öz xalqına vurduğu zərbələr, kasıbçılıq, işsizlik, evsizlik, ən son da, Qarabağ savaşı...

Bu baş verənlər mənzərəni hələ tam əks etdirmir, ancaq yenə də bütün bunların orda yaşayan bir insanın talehinə, onun ağlına, yaddaşına, ən önəmlisi də sağlığına necə dağıdıcı zərbələr vurduğunu düşünəndə, niyə bir insanın 65 ili bu cür darta-darta güclə doldura bildiyini də anlamaq o qədər çətin olmamalı...

Nuru bir sözü düz deyirdi ki, biz bura gəldiyimiz gündən gül kimi yaşayırdıq.Ancaq görünür, biz bura özümüzlə, içimizdə hər zaman partlaya bilən minalarla gəlmişdik ki, bundan özümüzün də xəbərimiz yox imiş.

İnsan sağlam həyat sürəndə, ömrünün sonrası üçün "sağlıq qutusuna" bir şeylər atır.Həyat normal keçməyəndə, insanın başı bəladan, canı macəradan qurtulmayanda, sonrası üçün "dərd qutusuna" nələrsə atmış olur.Bir yaş dövründə, bu qutulardan istifadə olunmağın zamanı gələndə, biri sağlıq qutusundan sağlığına sağlıq əlavə edərək, biri də dərd qutusundan dərd üstünə dərd qoyaraq həyatının imtahan masasına yaxınlaşır. O imtahandan kim keçər, kim keçməz, burda bəlli olur.

Bizim həyatımız "dərd qutusuna" bir şeylər ata-ata keçdi. Ona görə də, ömrümüzün gül kimi yaşanmış kiçik bir hissəsi, o "dərd qutusuna" yığılmış dərdi-səri silib ata bilmədi. Buna gücü çatmadı. Zaman elə zaman idi ki, respublikada ciddi çörək qıtlığı yaşanırdı. Respublikanın yarıtmaz hökuməti hansı

danışığısa düzgün aparmamış, bu üzdən də respublikanı taxıl ehtiyatı ilə təmin edən ölkələr tərsə düşüb, bu boyda respublikanı çörəksiz qoymuşdular.Ölkə taxıl blokadasında idi deyə, dükanlarda çörək tapılmır, tapılanda da insanlar çörək üstə, növbələrdə bir-birinin başını yarırdı.

Belə bir vaxtda Nuru dükanlara çörək daşıyırdı.Özü danışırdı ki, xalqın arasındakı paniki yatırtmaq üçün səhər saat beşdə artıq çörəklər bişmiş olur, maşınlara yüklənirdi.Nuru danışırdı ki, səhər saat altıdan yeddiyə kimi dükanlara çörək daşınır, ora toplaşmış insanların gözü önündə dükanlara boşaldılırmış.Ölkə ərazisində bütün dükanların doqquzda açılmasına baxamayaraq, təkcə çörək dükanları saat altıda açılırdı.Bundan sonra o dükanın qabağında yaşananları görmək lazım idi.

İndi, keçmişdən yadıma gələn o zaman elə zaman idi ki, insanlar çörəklə imtahana çəkilir, kimi insanlıqdan çıxır, kimi də insanlıq göstərərək, başqalarına da nümunə olurdu.Çörək qıtlığının ilk etapında buraxılmış bir yarıtmaz məmur səhvi, bütün respublikanın bir-birinə dəyməsinə gətirib çıxartmışdı. Mağazalara "Adam başına bir çörək!" sərəncamının uyğulanması o qədər yalnış idi ki, ikicə günün içində çörək dükanlarının qarşısının savaş meydanına çevrilməsinə səbəb oldu.Bundan sonrakı bir ili, bu fərsiz hökümət bu səhvi düzəltmək üçün uğraşdı, ancaq nəticə əldə edə bilmədi.Bu bir ildə Nuru da bu çətinliklərin içindən keçə-keçə qardaşıma gördüklərindən, eşitdiklərindən danışa-danışa, bizi də o hadisələrin qiyabi şahidi edirdi.Ancaq bir ildən sonra, bir ağıllı adam tapıldı, (hər kim imişsə, Allah onun atasına rəhmət eləsin!), bu ağıllı adamın fikri ilə bütün çörək dükanları gecə-gündüz çörəklə dolduruldu.İdeya belə idi ki, əvvəla çörək dükanları 24 saat açıq tutulsun, sonra çörək maşınları da arası kəsilmədən, dükanlara çörək daşısın, rəfləri bir an belə boş qoymasınlar.Beləki, insanlar günün hansı saatında çörək dükanına girsələr, rəfləri çörəklə dolu görsünlər.Ancaq bu yolla insan gözünün aclığına qalib gəlmək,

o gözləri doydurmaq, bu problemin öhdəsindən gəlmək mümkün idi. Həqiqət bu idi ki, bu panikin aradan qaldırılaması üçün, insanın öncə gözü doymalı idi.İdeya o qədər doğru düşünülmüşdü ki, bircə həftənin içində öz effektini verdi. İnsanlar ilk başda yenə də dükanlara cumdular, kisələrlə çörək alıb apardılar. Bir də geri gəldilər, yenə də çörək alıb apardılar, sonra üçüncü gəlişlərində birdən durdular.Vəziyyəti bir də analiz edib sakitləşdilər.Artıq ortada, çörək qıtlığı deyə bir şey yox idi.Nə vaxt gəlirdilərsə, dükan açıq olurdu, rəflər də çörəkdən dolub-daşırdı.Bu məsələ ancaq bu yolla həll oluna bildi.Bir də insanların çörəklə sınandığı bu bir ildə, onların "dərd qutusuna" nələr atdıqlarını düşünək. Onların yaşadıqları tələşləri, keçirdikləri stresləri düşünək.Onların o növbələrdə qoyub gəldikləri əsəblərini, sağlıqlarını düşünək. Süfrəsində ən vacib nemət sayılan çörəyi görə bilməyən uşaqların paniklərini, qorxularını, tələşlərini düşünək.Belə olan surətdə, bizim insanlarımız nə deyib 100 il yaşamalıdır ki?

Həmin o qıtlıq ili, Nurunun da öz çörək maşını ilə fədakarlıqlar elədiyi il idi.O, özü danışırdı ki, gənclərdən ibarət bir qrup iş yoldaşı müdiriyyətdən izin alaraq, hərəsi yüz çörək götürür, xüsusi ünvanlara paylayırdılar.Bu təşəbbüs, evdən çıxa bilməyən şikəstlərə, evlərində ata olmayan ailələrə, bir də oğlları əskərlikdə olan ailələrə yardım etmək üçün irəli sürülmüşdü. Nuru, o çörək dükanlarının qarşısında baş verənləri hər gün görürdü deyə, təsəvvür edirdi ki, hər insan burdan nəinki çörək ala bilməz, heç sağ da çıxa bilməz.

Bir gün bizim qapımız döyüldü.Anam qapını açıb Nurunu qapıda gördü.O, əlindəki çörəkləri anama uzatdı.Anam da bu yardım məsələsini qardaşımdan eşitmişdi deyə, çörəkləri almaq istəmədi, dedi:

--Çox sağ ol bala, zəhmət çəkmisən.Ancaq mən bunları ala bilmərəm, şükürlər olsun, biz çörəyimizi özümüz ala bilirik.

Nuru geri durmadı, dedi:

--Al xala, al bu çörəkləri, özün də arxayın ol, mən qanunu pozmuram.

Anam təəccüblə onun üzünə baxdı:

--Qanunu pozmursansa, bəs bu çörəkləri bizə nə adla verirsən?

Nuru da qımışaraq dedi:

--Bizim öz ailəmizə də çörək buraxılır ax...Mən, sizi də öz ailəmdən bilib bu çörəkləri sizə gətirmişəm.Bizimkilər dünən paylarını almışdılar, bu gün artıq ehtiyacları yox idi, mən də onların bu günkü payını sizə gətirdim...Öz ailəm kimi...

Bunu deyib Nuru mənə baxdı, gülümsədi, tez də qapını örtüb getdi.Mən anama baxdım, anam da çörəkləri evə apara-apara yavaşca deyirdi:

--Allah saxlasın, ay bala, Allah səndən razı olsun.

Mən, Nurunun dediyi "Öz ailəm kimi..." sözlərinin mənasını çox sonralar anladım.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
İlk övladımız...

İlk oğlumuz dünyaya gələndə mənim 21, Nurunun 23 yaşı vardı.Dost-tanışın yanında gənc yaşda övlad sahibi olmağımızla nə qədər öyünsək də, təcrübəsiz valideyin olmağımız bizə çox çətin anlar yaşadırdı.Allahın bizə bəxş elədiyi bu qiymətli hədiyyəni dünyalar qədər sevsək də, qucağımızda da zorla tuta bildiyimiz bu totuq varlığın bir oyuncaq olmadığını anlayır, onunla davranışlarımızda hər şeyə diqqət eləməyə, ana-ata borcumuza məsuliyyətlə yanaşmağa, öhdəsindən layiqincə gəlməyə çalışırdıq.

İkimiz də tələbə idik.Ailəli tələbələr...Hələ bu iki sözü ayrı-ayrılıqda götürəndə, hər birinin necə çətin bir yol, necə ağır bir

yük olduğunu başına gələnlər təsəvvür edə bilər.Bir də bu iki çətin yolun eyni vaxtda, bir arada gedilməsi, bu yolu ikiqat ağırlaşdırır, insanı bitib-tükənməyən problemlərin içində çabalamağa vadar edirdi.Bu yolu sonuna qədər getmək, uğurla başa vurmaq bir cəsarət istərdi.Belə bir yol hər kəsin hünəri deyildi.O qədər bu yükün altında əzildiyi üçün boşanan, yollarını ayırıb gedən tanışlarımız oldu ki...Biz də bu yolu yıxıla-dura gedirdik.Nurunun valideynləri ilə bir yerdə yaşamağımız da, böyük bir ailənin darısqal bir evdə yaşaması kimi bir diskomfortu hər gün bizə daddırırdı.Ev yox, iş yox, pul yox...Bir tərəfdə dərslər, bir tərəfdə uşaq...İkisinin də uğrunda keçirdiyimiz yuxusuz gecələr...

Tez-tez universiteti buraxmağı düşünər, sonra buraya qədər çəkdiyimiz zəhmətimizə heyfimiz gələr, var gücümüzü toplayaraq bu fikirdən vaz keçərdik.Yükümüz gerçəkdən də çox ağır idi.Ailə, uşaq, universitet...Bir də kasıbçılıq...Kasıbçılıq da işimizi zorlaşdırırdı.Biz ikimiz də vəziyyəti nəzərə aldığımızdan, qiyabi oxumağa qərar vermişdik.Belə olanda, hər ikimizin çalışmaq imkanımız olmuş olurdu.Ancaq Nuru, mənim kimi gənc bir qadının harda gəldi çalışmasına razı deyildi, o mənim evdə oturub uşağa baxmağımı istəyirdi.Zatən bizim cəmiyyətimizdəki işsizlik problemi o cəmiyyətdə heç vaxt dəyişməyən yeganə şey idi. Ölkədə işsizlik oranı hər zaman çox yüksək olardı.Ona görə də, harda gəldi, necə gəldi iş tapmaq da hər zaman mümkün olan şey deyildi.Bu səbəblə də aramızda belə qərara gəldik ki, mən universiteti bitirənə kimi iş-filan düşünməyim, ancaq evə, uşağa baxım.Evimizə çörək qazanmaq Nurunun boynuna qaldı.O da qeyrətə boğulub özünü meydana atdı, qısa ömürlü də olsa, harda gəldi iş tapır, evin dolanışığını təmin edirdi.Nuru çox zəhmətkeş, çox qeyrətli oğlan idi.Heç kimin yardımı olmadan ailəni dolandırmaq üçün çiynini ən ağır işlərin altına verməkdən çəkinməzdi.Bütün günü çalışıb yorulurdusa da, evə gələn kimi yeməyini yeyər, bundan sonra

hələ oğlumuzla oynamağa da özündə güc tapardı.Mən ona qıymasam da, hələlik heç nə ilə kömək edə bilmirdim. Əlimdən gələn, hər şeydə ekonom eləmək, az maaşla ailənin ehtiyaclarını mümkün olduğu qədər təmin eləmək olurdu.Bu işi, yəni ailəmizin xəclərini hesablamağı, təsərrüfatını aparmağı yaxşı bacarırdım.Beləki, az maaşdan kəsib-qanadıb yığdığım pulla beş il sonra biz özümüzə ayrıca ev ala bildik. Nurunun valideyinlərindən ayrıldıq, öz evimizə çıxdıq, müstəqil yaşamağa başladıq.

Bu hadisə bizim həyatımızı çox dəyişdi, bir növ həyatımızın dönüş nöqtəsi oldu.Bundan sonra hər kəsdən ayrıca, balalarımızın şıltaqlıqlarına-dəcəlliklərinə yetəcək qədər geniş bir evdə yaşayacaq, içində körpə balalarımızın o baş-bu başa çapacağı, hər hərəkətində sərbəst olacağı, onların səs-küyü ilə, gülüşləri ilə dolub daşan bir yuvamızda, bir məhəbbət məbədimizdə, həm də çox qayğıları arxada buraxaraq ömür sürəcəkdik.

Bu bizim sevincimiz idi...

Günəş, ilk sevgilim, ilk oğlum mənim,
Ömrümə bir dünya işıq gətirdi.
O oldu dünyada ömür yelkənim,
Həyat baxçasında güllər bitirdi.

8. Yaddaşımın xatirə qatlarından bir epizod...

Böyük oğlumuz...Bizə gənc yaşımızda övlad şirinliyini daddıran ilk övladımız... Atasının vəfatından sonra ailəmizin rəisi...Mənim də Nurudan sonra ən güvəndiyim övladım, dostum, sirdaşım...Bir də atam...Ağlı kəsəndən bəri, biz valideyinlərlə maraqlanmaqda, bizim üçün narahat olmaqda, hər işimizi ürəyinin içindən keçirdərək daima nəzarətdə saxlamaqda tayı-bərabəri olmayan tək övladımız...

Böyük oğlumuzun toyu qürbətdə oldu.Alın yazımızın bizi qarşısına alıb gətirdiyi bir Avropa ölkəsində, eynən bizim kimi vətəndən incimiş, qalaq-qalaq dərdlərini də götürüb buralara qədər gəlmiş vətən övladlarından Rauf adlı bir həmyerlimizlə, və onun, başda həyat yoldaşı Nüşabə xanım olmaqla, ailəsi ilə tanış olduq.Bir il sonra oğlumuz bu ailənin qızını istədiyini söylədi, biz də ilk dəfə onların qapısını elçi qismində döydük.

Adətdəndir ki, qız istəməyə gələni heç olmasa, bir dəfə əliboş geri qaytararlar.Bizi üç dəfə əliboş qaytardılar.

Son dəfəki gedişimiz gecə yarısına qədər uzandı.Buna səbəb, qızın atasının hələ bir az da düşünmək istəməsi, əslində övladının mürvətini vətəndə qalmış anası ilə birlikdə görməyi arzulaması idi.Bu da o demək idi ki, gələcək qudamız bizdən bəri başdan nə qədər uzun sürəcəyi bəlli olmayan bir vaxt istəyirdi.Övladlarımızın evlənmək yaşı çatmışdı, hələ keçirdi də.Qızın könlü oğlumda, oğlumun da niyyəti bu qızda idi.Bizə görə uzatmağın heç bir anlamı yox idi.Azərbaycanda zor zamanlar idi. (Bu yerdə özümü bir fikirdə yaxaladım: Azərbaycanda zor olmayan bir zaman oldumu heç?) Şengen vizası almaq Azərbaycan mühitində bu gün də min-bir çətinlikdən keçir.Ancaq o vaxt viza almaq, əksər hallarda boş bir xəyal idi, viza almaqdan çətin bir şey də yox idi.Uşaq da anlayardı ki, biz qız atasının sözünə öz sözümüzlə qarşı qoymasaq, bu xeyir iş Allah bilir nə vaxta qalar.Lakin, bizimki də tutduğumuz yerdən kəsmək deyildi.Biz qudamızı anlayırdıq, bilirdik ki, bu kişininki də inad deyildi.Bu bir atanın ilk övlad toyunda, bütün qohum-əqrəbanı deyilsə də, heç olmasa bir tək anasını yanında görmək arzusu idi ki, nə vaxtsa bu mümkün olardımı, olmazdımı, bilmirdik.Ona görə də, biz o qapıya son dəfə gedəndə, Nuru dedi:

--Bax, bəri başdan deyirəm, mən bu dəfə o kişinin razılığını almadan o qapıdan çıxan deyiləm.

Mən də zarafatla soruşdum:

--Necə yani, kişi bir də dirənsə orda yatıb qalacaqsan?

Cavabında Nuru dedi:

--Lazım gəlsə, yatıb qalacağam, sən qarışma.Görmürsən uşaqlıq eləyir?Biz nə qədər gözləməliyik?Elə şey deyir ki, bəlkə heç mümkün olmayacaq.

Nuru doğru deyirmiş.Qudamızın anasını heç toya da, heç ilk nəvəmiz doğulanda da gətirdə bilmədilər.Əslində onlar, bir daha heç görüşə bilmədilər.Bir-neçə ildən sonra qudamızın anası rəhmətə getdi.Bir az vicdanı olan insan anlaya bilər ki, bir ana ilə bir oğulun ayrı düşməsi, ananın oğlunu görmədən dünyasını dəyişməsi, hər ikisi üçün necə böyük dərddir.Ana o dərdlə gedir, oğul o dərdlə yaşamağa qalır.Azərbaycana girmək də, ordan çıxmaq da heç vaxt asan olmayıb.Ona görə də, bu gün də bu dərdi çox analar, çox oğullar çəkir.

Nuru sözündə durdu, necə demişdisə, elə də eladi.

Hələ ilk tanışlığımızdan Nuru ilə qudamızın xasiyyəti tuturdu.Onlar təxminən eyni yaşda idilər, eyni mühitdə böyümüşdülər, ömürlərinin yarısını eyni şəhərdə yaşamışdılar.O qədər bənzər cəhətləri, bənzər xatirələri var idi ki...O baxımdan da söhbətləri tuturdu.Bir-birinin söhbətindən, zarafatından doymazdılar.Ancaq ortaya qohumluq məsələsi düşəndə, qudamız dirənib durur, elə hey bizdən vaxt istəyirdi.Nuruya da Nuru deyərlər.O son gedişimizdə onlar yenə də şirin-şirin söhbət edir, yorulmaq bilmirdilər.Hərdən mənə elə gəlirdi ki, bizim bü gün bura niyə gəldiyimizi Nuru unudub.Ancaq sonra fikir verib görürdüm ki, yox, o heç nəyi unutmayıb.Söhbət haralara qədər mövzudan uzaqlaşsa da, Nuru hər yarım saatdan bir mətləb üstünə gəlir, qızın atası mövzudan qaçmağa çalışır, söhbət eyni yerə qayıdırdı.Çox gec idi, evin gəncləri, bacı-qardaş artıq otaqlarına çəkilib yatmışdılar.Nüşabə xanım da, mən də yorulmuşduq.Qonağın bu vaxta qalmağı da ədəbdən kənar bir şey olmalı idi.Mən artıq gec olduğunu Nuruya xatırlatdım, getmək vaxtı olduğunu dedim.Nuru üzünü mənə çevirib dedi:

--Siz gedin yatın, biz hələ söhbətimizi bitirməmişik.

Ev adamı mənə baxdı, mən də onlara.

--Necə yani?Gecəni də burda qalacağıq?Gələn dəfə davam edərsiniz də...

Nuru mənə baxıb güldü:

--Heç elə şey yoxdur.Gələn dəfə-filan olmayacaq.Bu gün bu qapıdan razılıq alıb çıxacağıq.Yoxsa, heç yana gedən deyiləm.Qudam məndən iki yaş kiçikdir, onu başa salmalıyam ki, xeyir işi ləngitmək olmaz.Qız razı, oğlan razı, daha biz nəyi gözləyirik.

Uzun söhbətdən sonra, gecə saat üçdə, qızın atası təslim olaraq, razılığını bildirdi.Ər-arvad yəqin elə bildilər ki, biz artıq qapıdan çıxıb gedəcəyik.Halbuki, Nuru cəld məni də çəkə-çəkə yanına salıb yuxarı, yataq otağına qalxdı.Mənə gəlinimizi oyatmağı tapşırdı.Mən içəri girib qızı oyatdım.Yazıq qız nə baş verdiyini anlamırdı, yuxulu idi.Ancaq elə onu bildi ki, qalxıb yerinin içində oturdu.Nuru içəri girdi, yuxulu olduğu üçün nə baş verdiyini anlamaqda çətinlik çəkən, Nurunu görərkən bir az da özünü itirən qızın barmağına nişan üzüyünü taxdı, alnından öpüb dedi:

--Gərək bağışlayasan qızım, bu günün işini sabaha qoya biməzdim, atan gündə bir fikrə düşür.Allah xoşbəxt eləsin, bu gündən mənim gəlinimsən.

O gecə, saat üçlə dörd arası evə gəldik, oğlum qarşımıza çıxdı.Sən demə o da yatmayıbmış, bizi gözləyirmiş.Oğlum həyəcanla üzümüzə baxdı:

--Siz harda qaldınız?Saatdan xəbəriniz varmı?Olmaya bir şey olub?

Nuru oğlumuzun boynunu qucaqladı, yanaqlarından öpdü, qürurla sinəsini irəli verib dedi:

--Olub, olub...Yaxşı bir şey olub...Sən atanı nə bilmişdin? Mənə də Nurəddin deyərlər, o qızı sənə alacam demişdim? Demişdim.Bu gün o qızı sənə aldım.İndi get gir yerinə, rahat yat.

Qürbət eldə, yığcam da olsa, bütün adət-ənənələri yerli-yerində bir Azərbaycan toyu təşkil elədik.Nuru hər zaman bu

toyla öyünürdü.Qonaqlarımız əsasən yad ellərdən gəlmiş insanlar idisə də, tanıdığımız, yerini bildiyimiz azərbaycanlıların hamısını bu toya dəvət eləmişdik, onlar da, sağ olsunlar, bir nəfər kimi gəlmişdilər. Toy o qədər şən keçirdi ki, toyu bitirə bilmirdik. Qonaqlarımız rəqs meydançasından çıxmaq bilmirdilər. O toyun hər detalı gözəl oldu, mənalı oldu, yerli-yerində oldu. O toydan çox danışıldı.Toyun ən dəyərli anı, Nurunun ilk gəlinimizlə rəqsi oldu.İkisi də elə gözəl rəqs elədilər ki, heç kim ortaya çıxıb bu rəqsi pozmaq istəmədi.Hamı ancaq tamaşa elədi.Toydan sonra biz də tez-tez toy kasetinə baxır, o anı təkrar-təkrar izləyirdik.Mən bilirdim ki, Nuru özü ilə fəxr edirdi.Bu onun haqqı idi, çünki bir insanın özü ilə fəxr eləməsi, əslində onun öz ailəsinə göstərdiyi xidmətlərin nəticəsində ortaya çıxan özünə inamı, güvəni, dəyəridir.Bir insan özü ilə fəxr edirsə, o ailəsinin qarşısında xidmətlərini yerinə yetirə bilmişdir, demək...

O vaxtdan illər keçdi, o gəlinimiz bizə dörd dənə gül qoxulu nəvələr verdi.İlk nəvəmiz, gözümüzün ilk ovu Timurxan oldu.Onu sevdik, nəvənin nə olduğunu anladıq, onu sevdik, nəvənin nə qədər şirin olduğunu öyrəndik, onu sevdik, yaşamağın səbəbini kəşf elədik.Nəvənin dadını biləndən sonra anladıq ki, yaşamağa dəyərmiş.

Nuru Babası rəhmətə gedəndə, Timutxan on üç yaşını doldururdu.Timurxan, Allahdan rəssamlıq qabiliyyəti verilmiş nəvəmiz...Onun çəkdiyi şəkillər hər baxanı heyrətə gətirir.Nuru da onun bu qabiliyyəti ilə öyünərdi.Həmişə:"Bu uşağı bir yerə yazdırın, hayıfdır, çəkdiyi şəkillər itib batmasın."--deyərdi.

Timurxan... rəssam balamız, idmançı balamız, fantastik təxəyyülü sərhəd bilməyən balamız, dünyalar içində öz dünyası olan balamız.Timurxan nəvəmiz sirli bir dünyadır, kəşf edilməmiş bir aləmdir.Bəlkə gözümüzün ilk ovu olduğundan, bəlkə bu qədər fərqli qabiliyyətləri özündə birləşdirdiyindən, bizim üçün Timurxanın yeri bir başqa oldu həmişə.

İkinci nəvəmiz, dünya gözəli Adilə oldu.Adilənin ağlına-kamalına Nuru Babası həmişə heyran qalardı.Adilə doğurdan da yaşına yaraşmayan ağıllı, məntiqli danışığı ilə bizim ailənin sevimlisidir.

Üçüncü nəvəmiz Rəsul, dünyaya gələn gündən Nuru Babasının şəklini aldı.Hamı onu Nuru Babasına bənzədir.Nuru da bunu bilirdi, ancaq həmişə Rəsulda daha başqa bir cəhət görür, mənə də deyirdi:

--Bilmirəm fikir vermisən ya yox, ancaq bu balamız tamam başqa xasiyyətdədir.Bu bir intelliqent oğlan olacaq, hamı ilə dil tapacaq.İndidən üzüyola olması ilə görünür ki, Rəsul balamız nəvələrimizin hamısından fərqli bir oğlan olacaq.Həmi ağıllı-kamallı, yaraşıqlı olacaq, həm də səbirli-təmkinli.

Rəsul hələ körpədir, bəlkə də zamanla şəkildən şəkilə dəyişəcək.Ancaq bu gün o, hələki, doğurdan da babasına bənzəyir.Həm də Nurunun onun üçün saydığı cəhətləri də elə Nuru Babasından alıb.Biz öz aramızda Rəsulu elə mülayim xasiyyətinə görə də babasına bənzədərdik, ancaq bundan Nurunun xəbəri olmazdı.

Bu gün nəvələrimizin arasında Nurunun adını yaşadan Nurəddin də var, şəklini yaşadan Rəsul da...

Timurxanı, Adiləni, Rəsulu Nuru Baba dünya gözü ilə gördü, sevdi, qucağında böyütdü.Sonuncu nəvəmizi görmək Nuru Babaya qismət olmadı.Nəvəmizin doğulmağına dörd ay qalmış Nuru rəhmətə getdi.Halbuki son günə kimi də heç unutmurdu, elə hey məndən soruşurdu ki, "uşağın cinsiyyətini öyrənmədilər ki?"

Bir gün soruşdum ki, neyləyirsən cinsiyyəti bilməyi?

Dedi ki, "oğlan olsa adını mən qoyacağam, Ayxan qoyacağam.Bu adı çox sevirəm."

Oğlan olsaydı, oğlumla gəlinim Nurunun xatirəsinə uşağın adını Ayxan qoyacaqdı.Amma dördüncü nəvəmiz qız oldu, oğlumla gəlinim də nə fikirləşdilərsə, körpəyə Nurunun anasının

adını, Məryam adını qoydular.Bəlkə də bununla onun ruhunu şad eləmək istəyirdilər, kim bilir...

Mən elə bilirəm ki, bir gün bizim ailəmizdə Allahın izni ilə daha bir oğlan nəvəmiz dünyaya gəlsə, övladlarımız Nurunun o arzusunu yada salacaq, o körpənin adını heç şübhəsiz ki, Ayxan qoyacaq.

Nuru, ilk gəlinimizi, gecə saat üçdə barmağına üzük taxdığı gündən sevdi, ona atasından da yaxın ata oldu.Gəlin də bunu bilir, həmişə eyni sevgi ilə, hörmətlə ona qarşılıq verirdi.Nuru rəhmətə gedən gündən, gəlinimin gözünün yaşı qurumur.Bu gün də tez-tez qəbrini ziyarət eləyir, balalarının Nuru Babasını sevgi ilə, həsrətlə yad edir.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun. Amin.

O və Mən...
İkinci övladımız...

İlk oğlumuzun iki yaşı tamam olan ili, ikinci övladımız dünyaya gəldi.Sevincimizin həddi-hüdudu yox idi.Çətinliyimiz az deyildi, ancaq bu qədər irili-xırdalı problemlərin içində, hələ gözlə güclə görünən sevinclərimizi də doya-doya yaşaya bilirdik.O da ola ki, bir övladın dünyaya gəlişi qədər önəmli, böyük bir hadisə olaydı.Bu dəfə də oğlumuz olmuşdu.Nuru elə o dəqiqə bu hadisənin müsbət tərəfini qeyd elədi:

--Bax, biri mənim atam idi, indi bu da sənin atan olacaq,- dedi.

Biz, ailələrimizdən gördüyümüz kimi, oğlan uşaqlarına bir qayda olaraq "atam," qız olardısa, "anam" deyən bir toplumun yetirmələri idik.Bu hesabla da, indi bizim evimizdə "atam" çağırışına uyğun gələn iki oğlumuz olacaqdı.Nuru da bu durumu belə həll etməklə, əslində ona iki oğul vermiş arvadının, yəni mənim könlümü xoş eləmək istəyirdi.Biz bu balalara ərklə

"atam" deyərək gözümüzdə böyütməyə çalışsaq da, onlar bizim körpə balalarımız, kiçik-kiçik canlarımız, ürəklərimizin bir parçası, digər tərəfdən də, bizim məhəbbər dolu böyük dünyamız idilər.Onlar vardılar deyə, heç nə vecimizə deyildi.Tapdığımıza da, tapa bilmədiyimizə də şükür eləməyi, "limondan limonad düzəldib" həyatımızı şənləndirməyi bacarırdıq.Allah bizə bu qabiliyyəti də vermişdi.Çətinliklərin altında əzilməyimizi özümüzdən başqa hər kəs görsə də, hiss eləsə də, təkcə biz özümüz bunu boynumuza almır, başımıza gələn haqsızlıqların, sınaqların altında sınmır, əyilmir, başımızı dik tutaraq yolumuza davam edirdik.Biz çətinliklə əldə elədiyimiz uğurlarımıza ürəkdən sevinir, onları bacardığımız şəkildə qeyd edir, özümüzü xoşbəxt hesab edirdik.Aramızda ilbəil güclənən, tədricən ailəmizin onurğa sütununa çevrilən bir sevgi yaranmışdı.Dostluq qarışıq, yoldaşlıq qarışıq, vəfa ilə etibarın da qarışımından əmələ gəlmiş, güclü bir sevgi... Həyatımızın ən çətin sınaqlarından da çıxmağı bacaran, bəzən yanıb-bitmiş bildiyimiz halda, yenidən öz külündən doğan, bizi bir-birimizə daha sıx bağlayan, hər nə olursa olsun, bizi bir arada tutmağı bacaran güclü bir sevgi...İllər keçdikcə, ikimizi bir-birimizə, balalarımızı da ikimizə candan bir can, candan bir əza yapan, bizi bu qədər yaxınlaşdıran, bizi bir bütünə, tək bir varlığa çevirən, bəzən özümüzün də anlamaqda çətinlik çəkdiyimiz əcaib bir sevgi...

Bu bizim sevgimiz idi...

İkinci oğlumda dənizi gördüm,
Məhəbbəti sonsuz, ülfəti sonsuz.
Ona gözlərimin nurunu verdim,
Bu dünya bir heçmiş, sən demə onsuz.

9. Yaddaşımın xatirə qatlarından bir epizod...

İkinci oğlumuz...Bizim üçün dadından doyulmayan, həsrətinə dayana bilməyəcəyimizi bildiyi halda, illərlə bizə həsrət çəkdirən, gözümüzü yollarda qoyan, bir qəfil böyürdən çıxıb hər dərdimizə dərman olmağı bacaran övladımız.İkinci oğlumuz... sevgisini hərəkətlərində, davranışlarında bildirə bilməyən, ancaq gözlərində də gizlədə bilməyən, ürəyində bizi bəlkə də hamıdan çox sevən övladımız...İkinci oğlumuz...Çox zaman bizdən uzaqlarda yaşadığı üçün, atasının sözü-söhbəti, mənim də nigarançılığım-həsrətim, geri gəldiyində, ikimizin də yerə-göyə sığmayan sevincimiz olmağı bacaran tək övladımız...

İkinci oğlumuz çox gec evləndi.Onun toyu da sona qalmış olduğu üçün, ailəmizin son mürvəti oldu.Vaxt vardı ki, Nuru ilə mən, bu oğlumuzun yüz bəhanə ilə evlilikdən boyun qaçırmasını özümüzə dərd eləmişdik.Boylu-buxunlu, yarlı-yaraşıqlı, ağıllı-kamallı oğlumuza göstərmədiyimiz qız qalmamışdı, soraq salıb axtarmadığımız yer qalmamışdı. Hər tanışın, qohumun, dostun evində bu oğlana ərə getməyə razı olan qız da vardı, bu oğlana qızını vermək istəyən ana-ata da var idi. Di gəl ki, bu uşaq evlənmək fikrinə yaxın gəlmirdi ki, gəlmirdi.O özü belə inad etməsinə müəyyən səbəblər gətirirdi, özünə karyera qurmaq istədiyini deyirdi.Bu məqsədlə, doğurdan da bir yerdə durmurdu, elə hey çabalayırdı.Lakin hər dəfə bir səbəb üzündən işi baş tutmurdu, zəhməti zaya gedirdi.Nə var ki, gənc idi, həvəsli idi, ruhdan düşmürdü, geri durmurdu.Bu işdən o işə, bu ölkədən o ölkəyə yer dəyişir, hər işə baş vurur, sanki özünü axtarırdı.Bizsə, onun zəhmətinə acıyır, onun özünə qıymır, kənardan oğlumuzun əziyyətlərini izləyir, narahat olurduq.Vaxt gəldi ki, bu oğlumuz özünün evlənmək sırasından da imtina elədi, yerini kiçik qardaşına verdi.Özündən beş yaş kiçik qardaşı evləndi də, üç oğul sahibi oldu da, o isə hələ də havalarda gəzirdi.Xəyallar qurur, o xəyalları gerçəyə çevirmək üçüm ölkə-ölkə gəzib-dolaşırdı. Aradan illər keçdi, biz

yorulduq, nə gücümüz qaldı, nə həvəsimiz qaldı, nə də qız atalarının yanında üzümüz qaldı.Biz onun yaxasını buraxmağa qərar verdik. Bir məqamda anladıq ki, bu belə olmayacaq, biz bundan sonra sadəcə gözləməliyik.Qismət özü bir yerdən çıxacaq. Biz bu işi Allaha buraxdıq, və bir az sonra anladıq ki, biz lap başdan bu yolu tutmalı idik.Allaha dua eləməkdənsə, araya vasitələr, vasitəçilər soxurduq.Nalbuki, bircə dəfə Allah deyib çağırdıq, cavab yubanmadan gəldi.

Biz yenicə əlimizi üzüb otururduq ki, oğlum bizə xəbər göndərdi, "gəlin, evlənirəm", dedi.Biz də əlimiz ayağımızı basa-basa qalxıb vətənə getdik.Oğlumuzun nişan verdiyi evdə qızı gördük, bəyəndik.Eldar adlı təmiz vicdanlı, düz ilqarlı, zəhmətkeş bir insanın qızını el adəti ilə istədik.Qız evinin razılığını aldıq, iki ayın içində gəlinimizin barmağına üzük də taxdıq, ardından toylarını da elədik.Onları bir damın altına yığandan sonra, yanlarında bir müddət qonaq da qaldıq.Ən gənc gəlinimizin ədəb və tərbiyəsinə, evdarlıq qabiliyyətinə bələd olduq, onun bizə olan hörmətini-izzətini gördük, çox düzgün yetişdirilmiş bir qız olduğuna şahid olduq.Gənclərin halından-əhvalından arxayın olduqdan sonra biz də geri, evimizə döndük.

Biz bu oğlumun toyunu vətəndə, qohum-qardaşın, dost-tanışın arasında keçirtdik.Həmin o toyda, Nurunu çoxdan görməyən insanlar vardı.Onlar Nurunu görür, yaman qocaldığını deyirdilər.Yaxın qohumlarsa, Nurunun rəngi-ruhunu bəyənməyib, onun üçün narahat olurdular.Onların sözlərinə görə Nurunun rəhgi sağlam görünmürdü, özü də çox arıqlamışdı.Mən onun-bunun sözündən sonra Nuruya diqqətlə baxdım, deyilənlərin doğru olduğunu gördüm.İçimə bir qurd düşdü.Bizim başımız xeyir işin qaça-qovuna elə qarışmışdı ki, heç özümüzdən xəbərimiz yox idi.Bir də baxdım ki, Nuru doğurdan da yüz ilin xəstəsinə bənzəyir.Doğrudur, Nuru heç yerindən şikayət eləmirdi.Oğul toyu onu elə sevindirmişdi ki, toyda aktiv iştirak elədi, doyunca oynadı, dedi, güldü.Kənardan

baxan, ona xəstə deyə bilməzdi.Ancaq həqiqət bu idi ki, Nuru mənim yanımca vətənə gələn Nuru deyildi.Nə iş görsəm də, bir gözüm onun bəzən sarıya, bəzən göyə çalan rəngində qalırdı.Bir də yeməkdən kəsilmişdi.Heç nə yemirdi.Təkcə əhvalı yerində idi, çox sevinirdi. Oğlumuz nəhayət evlənmişdi, bizi murada yetirmişdi, gözümüzü yollardan yığmışdı.Oğlumuzun qayınatası Eldar, Nuru ilə tez bir zamanda dostlaşdı.Onlar qısa zaman içində bir-birinə elə qaynaşdılar ki, elə bil yüz il idi tanışırdılar.Ona görə də, bu toydan sonra Nurunun uçmağa qanadı yox idi.Elə bil ona dünyaları vermişdilər.O, böyük ürəyi ilə bu gəlinimizi də elə sevdi ki, o biriləri görsəydi, bəlkə qısqanardı.Ancaq Allah bilir, o gəlinlərin hər üçünü, üç qızı varmış kimi sevirdi, onları bir-birindən ayırmırdı.

Toyu başa vurduq, mən, ürəyimdə min-bir fikir, evə dönməyə tələsirkən, Nuru oğlumuzgildə bir az qonaq qalmaq istədiyini söylədi.Biz də qaldıq, indi düşünürəm ki, yaxşı ki, qaldıq.Bu da bir murad idi ki, Nuruya nəsib oldu.Oğlumgildə bir ay qonaq qalandan sonra geri qayıtdıq.

Evimizə çatan günün ertəsi, Nurunu həkimə aparıb müayinədən keçirtdik.Analizlərini laboratoriyaya təhvil verib nigaran-nigaran evə döndük.Bir hətədən sonra həkim oğlanlarla məni yanına çağırdı, əlində topladığı bütün analizlərin nəticələrini bizə elan elədi.Nuru mədə kanserinə yaxalanmışdı. Həm də xəstəliyin son mərhələsində idi.Biz şok olduq, dünyamız başımıza uçdu.Mən ağlamağa başladım.Oğlanların gözlərində yaş gilələndi.Bir müddət donub qaldıq, dilimiz söz tutmadı.Sonra oğlanlar həkimdən ,"İndi bəs nə olacaq? -deyə soruşdular.O da, "Təcili kemoterapiyə başlamalıyıq,"--dedi.

Yadıma gəlir ki, həmin gün həkim onun yatdığı kameraya gəldi, bir-iki günə kemoterapi kursunu başladacağını dedi, Nurunun rəngi kətan kimi ağardı.Ona qədər bizim həqiqətləri deməyə cəsarətimiz çatmamışdı.Nuru həkimin sözündən hər şeyi anladı.Bizə baxıb soruşdu:

--Bu nə deyir? Kemoterapi deyir...Olmaya məndə o zəhirmardan var?

Biz nə deyəcəyimizi bilmədiyimizdən başımızı aşağı salıb susduq.O, gözümüzün önündə necə tarı-mar oldu, bunu biz gördük.Oğlum doktorun dediklərini ona tərcümə eləməyə tələsdi, bununla da ona ümid verməyə çalışdı:

--Ata, gör doktor nə deyir? Deyir ki, hələ gec deyil, müalicə başlansa, xəstəlik də geri dura bilər, əsas odur ki, xəstə ruhdan düşməsin, təslim olmasın, mübarizə aparsın.

Nuru isə sanki bunları eşitmirdi, gözləri yol çəkə-çəkə məchul bir nöqtəyə baxırdı, sonra yorğun-yorğun əllərini yelləyib yavaşca dedi:

--Boş sözlərdir, hər şey bitdi...

Müalicə başladı, Nuru da sanki bu acı həqiqətə alışdı.

Və bundan sonra bizim ailənin əzablı günləri başladı.Gizlin göz yaşları tökmələr, Nuruya baxıb doluxsunmalar, doktorların ağızlarına ümidlə baxmalar, həyatımızın gündəliyi oldu. Nuru ağrı-acı çəkirdisə də, özünü sındırmırdı.Nə vaxt soruşsaydıq:

--Bir yerin ağrımır ki?

Deyirdi:--Heç yerim ağrımır, bir az ürəyim bulanır.

Hər halda Nuru Allahın sevdiyi qullarından imiş ki, biz oğlanlarımla birlikdə onu başqa həkimlərə də göstərmək qərarına gələndə, onun xəstəliyinə, əslində həyatına son qərarı da Leuven xəstəxanasının professoru doktor Topal verəndə, sən demə Uca Yaradan bu yolla bizə mesaj göndərirmiş.Biz bunu sonradan anladıq.Şəhərimizin xəstəxanasındakı baş həkim Van Aken bizə Nurunun həyatına dair bir vaxt qoymaq istəmədi, barmağını göyə tuşlayıb,"O bilir..." --dedi. Ancaq biz rahatlıq tapa bilmirdik, həqiqəti öyrənmək istəyirdik.Nurunun vəziyyəti nə qədər ciddidir?Onun nə qədər ömrü qalıb?Bunları bilmək istəyirdik.Avropanın məşhur onkoloqlarından biri olan professor Topal, kompüter vasitəsi ilə Nurunun bütün xəstəlik görüntülərini, xəstəliyin inkişafını, ağ və qara ciyərlərə sıçrayışını incələdi, dərs

keçirmiş kimi, hər şeyi bir-bir bizə də anlatdı.Son qərarın zamanı gəldi. Mən onun necə ehtiyat elədiyini, həqiqəti deməkdə necə çətinlik çəkdiyini gördüm. Ürəyimin içindən bir sancı keçdi.Elə bildim indi deyəcək ki, xəstənizin üç gün ömrü qalıb.Doktor üzünü böyük oğluma tutub, sözünə belə başladı:

--Öncə üzülərək söylemeliyem ki, babanız bu savaşı kayb edib.Ciyerlere metasdaz vermesi, işin en kötü tarafı, çünkü, bizim cerrahi müdahilemizi engelliyor.Bu halde bunu yapamayız. O zaman da çare yine de kemoterapiye kalıyor. Kemoterapi mümkün olduğu kadar süreni uzatacakdır, fakat, yalnız mümkün olduğu kadar...

Oğlum göz yaşlarından boğula-boğula son sualını da verdi:

--Doktor, bababım ne kadar süresi kalmış, söyleye bilirsinizmi?Bu bizim için çok önemli...

Professor Topal bir müddət susdu, sonra dedi:

--Malesef, çok az...

Mənim ürəyim üzüldü, qulaqlarım tutuldu, elə bildim indi stuldan düşəcəyəm.Əl atıb oğlumun qolundan yapışdım.O da mənə döndü, çiynimi qucaqladı, sonra gözünü doktora dikib durdu.Doktor sözünü tamamladı:

--Ən fazla üç sənə...

O an mənə elə bil bir rahatlıq gəldi, çünki mən daha az vaxt qaldığını düşünürdüm.Üç il çox şeyi yerinə yetirmək üçün, hələ bir az da yaşamaq üçün az vaxt deyildi.Ancaq bu üçcə ilə belə sevinmək də, əslində çarəsizlikdən başqa bir şey deyildi, özüm də bilirdim.Bu ancaq:"Üç gündənsə, üç il yaxşıdır,"-- demək idi.Ancaq mən həmin an professor Topalın sözündə Allahın mesajını da gördüm.Sanki, Uca Yaradan Topalın dili ilə bizə mesaj göndərmişdi:

"Qorxmayın, mən elə edəcəyəm ki, onun gözü arxada qalmayacaq".

Topal bizə bir sürü məsləhətlər verdi, xəstəmizə necə qulluq eləməyi, zərərli vərdişlərdən uzaq tutmağı, sağlam qidalanmağı, gəzməyi, və sair kimi tövsiyələrini verib bizi yola saldı.

Oğlumla mən maşına minib evə qayıdırdıq.Birdən oğlum hönkürtü ilə ağlamağa başladı.Sükan əlindən sağa-sola qaçırdı, ancaq mən onu sakit edə bilmirdim.Birdən ağlıma bir fikir gəldi.Ortancıl oğlumun evi şəhərimizin lap girişində idi, yəni yolumuzun üstündə ilk onun evi gəlirdi.O arada ortancıl oğlum ailəsi ilə vətəndə idi.Mən böyük oğluma, maşını qardaşının evinə sürməyi məsləhət gördüm.Biz oğlumun evinə gəldik, ana-bala baş-başa verib doyunca ağladıq.Sonra sakitləşdik, öz aramızda atamıza necə yardım edəcəyimizi danışdıq.Oğlumun ilk sözü belə oldu:

--Bu dəfə atam heç bir qeydsiz-şərtsiz siqareti buraxmalıdır.

Bu, professor Topalın da ilk şərti idi.Mən nə qədər çalışırdımsa, Nurunun siqareti atacağına özümü inandıra bilmirdim.Çünki, arxada bir ömür qoyub gəlmişdim ki, orda Nuru bəlkə çox şeydən əl çəkdi, ancaq siqaretdən əl çəkə bilmədi.Ondan bir gün ayrı qalmadı, onu özü ilə ömrünün sonuna kimi gətirdi.

Nuru həqiqətən də üç il yaşadı.Düşündükcə anlayıram ki, Allahdan o mesaj gəlmişdi ki, bu üç ildə Nuru bu qədər gec evlənən oğlumuzun da balalarını gördü.Onun adını daşıyan Nurəddini özündən də çox sevdi, ona "atam" dedi.Nuru, adaşı Nurəddinlə nəfəs alırdı, bir gün onu görməsə, dayana bilmirdi.Çox şükür ki, Nuru bu oğlumuzun göyçək qızı Dəryanı da gördü, sevdi, gəzməyə apardı, oynatdı.Ona gah "anam", gah da "qızça" dedi.Yəni, gözü arxada qalmadı.Bu üç ildə iki dəfə vətənə getdi, gəzdi gəldi.Nəvələri ilə dolu-dolu bir həyat yaşadı ki, bu onun üçün səadətin zirvəsi demək idi.İndi durub nankorluq eləsək, "yox, bu əsla belə olmamalı idi," desək, bu doğru olarmı? Əlbət ki, olmaz!Biz Nurunun dünyasını dəyişməsinə min dənə səbəb gətirsək də, xəstəlikdən öldü, kemoterapidən öldü, siqaretdən öldü, desək də, əsas səbəbi unutmağa haqqımız yoxdur. Nuru, dünyasını dəyişdi, çünki sürəsi dolmuşdu...Canı verən də Allahdır, alan da.Biz burda göz

yaşı tökürük, canımızı oda yaxırıq, amma, bəlkə Nuru indi elə yerdədir ki, qarşısında gördüyü gözəllikdən gözləri qamaşır...Bəlkə, indi orda o gözəlliyi görüb:"Bilsəydim, bura bir az da tez gələrdim,"--deyir...Nə bilmək olar...İnşaAllah ki, elədir...Əbəs yerə ən son ana kimi Nurunun gözləri gülmürdü ki...Bu bizim ən böyük təsəllimizdir ki, biz bunu bir müjdə kimi qəbul elədik.İnşaAllah Nuru yatdığı yerindən məmnundur, İnşaAllah Allahın sevimli qullarının arasındadır.

Allah onun o dünyasını versin, Allah onu cənnətinə qəbul eləsin. Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Üçüncü övladımız...

Üçüncü övladımızın ayağı çox düşərli oldu.Əvvəla, onun dünyaya gəldiyi il biz nəhayət ki, ali təhsilimizi başa vurduq, diplomlarımızı əlimizə aldıq.Özümüzə şəxsi ev alıb Nurunun valideyinlərindən ayrılmağımız da üçüncü oğlumuz dünyaya gələndən altı ay sonra baş tutdu.Bir hadisə də baş verdi ki, bu da bizim üçün çox önəmli idi. Nuru nəhayət ki, harda gəldi işləməkdən qurtuldu.Tam uyğun gəlməsə də, məhz diplomunda ixtisası coğrafiya olduğu üçün, Bakıda çox sayda mövcud olan turizm və səyahətlər bürolarından birində işə düşəldi.O il bizim ailəmiz üçün uğurlar ili oldu.Həyatımıza daha bir övlad, ayrıca ev, yeni iş yeri daxil olmaqla, bu günə qədər çəkdiyimiz əziyyətləri də bizə unutdurdu.Çətinliklər bir müddət, doğurdan da yaxamızı buraxmışdı.Bundan sonra üzümüzə ömrümüzün daha maraqlı, daha ürəkaçan səhifələri açılmağa başladı.Beləcə, biz ilk dəfə olaraq tətil mövzusunu elə aldıq, övladlarımıza fərqli istirahət proqramı düşünməyə cəsarət elədik.Biz bir neçə il yay tətilini ailəcə Vətənimizin səfalı guşələrindən birində, Nabranda keçirtdik.O aralarda mən bir neçə dəfə Nuruya yoldaş olaraq,

onunla birlikdə Mockvada, Pribaltika ölkələrində, Sank peterburqda turistik səfərlərdə oldum.Üçüncü oğlumuzun dörd yaşı tamam olan ili nəhayət ki, mən də özümə iş tapa bildim.Uzun axtarışlardan sonra mən də ixtisasıma tam uymasa da, 161 nömrəli orta məktəbdə, ibtidai siniflərin rus bölməsində dərs deməyə başladım.Ömrümüzün o illəri qəribə illər idi.Sanki hər problemin düyünü öz-özünə açılır, həyatımız da yavaş-yavaş yoluna düşürdü.İndi düşündükcə ortaya belə bir fikir çıxır ki, deməli hər bir məsələnin çözümü öz vaxtını gözləyirmiş.Kimdə necə olur, onu deyə bilmərəm, ancaq bizim həyatımızın ən gözə batan düsturu belə idi.Olurdu ki, biz bir məsələni həll eləmək üçün illərlə uğraşmalı, nə qədər əsəb, nə qədər əmək sərf eləməli olurduq.Ancaq o məsələ düzəlmirdi ki, düzəlmirdi.Sonra biz nəhayət yorulur, o işin yaxasını buraxırdıq, əl çəkirdik.Onda bir də baxırdıq ki, çox sadə bir çözüm yolu ilə həmin məsələ düzəldi.Qulağa qəribə gəlsə də, bizim həyatımızda bu işlər belə idi.O il də, bir vaxt yorulub yaxasını buraxdığımız bir çox məsələ öz-özünə çözülməyə başlamışdı.Nə vaxtsa düzələcəyinə gümanımız qalmayan bəzi məsələlər nəhayət ki, öz həllini tapdı, həyatımıza rəng qatdı, bizi də çox sevindirmiş oldu.

Mən hər dəfə özümə sual verəndə ki,"Əcəba həyatımızda elə bir zaman oldumu ki, biz dərdsiz-sərsiz yaşayaq, nə xəstəlik, nə kasıbçılıq, nə də başqa bir problem həyatımızı zəhərləməsin? "Bu sualı özümə verən kimi, yadıma ömrümüzün o dönəmi düşür.Uzun, məşəqqətli ömrün içində sadəcə bir neçə il...O bir neçə ildə biz, sözün əsil mənasında xoşbəxt idik.Əyər dünyada ailə səadəti deyə bir şey vardısa, biz o səadəti gördük, daddıq, yaşadıq.Təəssüflər olsun ki, bu ancaq bir neçə il sürdü...

Bu bizim ailə səadətimiz idi...

Geniş səmalar da gəldi ömrümə,
Ən kiçik oğlumun geniş qəlbilə.
Onu gözləyirmiş varlığım demə,
Mən onun eşqilə gəlmişəm dilə.

10. Yaddaşımın xatirə qatlarından bir epizod...

Kiçik oğlumuz...Oğlanların ən kiçiyi, ən həssası, ən qabiliyyətlisi, ən mərdi...Kiçik oğlumuz, yaşı az, müdrikliyi çox, yaşı az, həyat təcrübəsi çox, yaşı az, qabiliyyəti çox olan övladımız...Kiçik oğlumuz, dinində-imanında dəyişməz, mərhəmətində-insafında vəfalı, qeyrətində-namusunda əyilməz oğlumuz...Kiçik oğlumuz, insanlığı dünya boyda, sevgisi ürəyi boyda, ürəyi də özü boyda olan tək övladımız...

Kiçik oğlumuzun toyu da vətəndə oldu.Ancaq, iş elə gətirdi ki, mən o toyda iştirak edə bilmədim. Bunun üçün özümü hər zaman qınayıram.Doğrudur, gözümün nuru, sonbeşik balamın toyuna getməmək üçün ortada ciddi səbəblər var idi. Biz, yaşadığımız ölkənin sənədlərini almışdıq, ancaq ölkədən çıxmaq üçün əlimizdə sənəd yox idi.Amma mən yenə də düşünürəm ki, gərək o səbəblərə baxmayaydım, gərək o toya gedəydim.

Oğlum öz seçimini etiraf edən kimi, Nuru dedi ki,"Mən orda olmalıyam." Kiçik oğlumun seçdiyi qız, Nurunun xətrini çox istədiyi, hər zaman gözəl anlaşdıqları, dostluqları ilə öyündüyü bacanağı, Gülağanın qızı idi.Nuru, hələ vətəndə yaşadığımız vaxtlardan bu qızı o evin başqa uşaqlarından çox sevirdi.Ancaq bir gün bu qızı gəlin olaraq oğluna alacağı ağlından da keçməmişdi.Bu xəbər ikimiz üçün də çox gözlənilməz oldu, amma bu məsələnin bu şəkil almasına ən çox sevinən də, Nuru oldu.Sevindiyindən, onun sanki ayağı yerdən üzülmüşdü.O, mənim böyük bacımın qızı olan bu gəlinimizi çox sevər, adı ilə deyil, Gülağanın qızı deyə çağırardı.Gülağanın qızı da onun sevgisinə əhdə vəfa edərək cavab verdi.O, Nuru dayısını hər zaman sevdi, hörmətini saxladı, sevgisini-sayqısını əskik eləmədi.Odur ki, bacımın qızı, Nurunun xəstəxanaya girdiyi ilk gündən, gözlərini yumduğu son günə kimi Nurunun yanından əl çəkmədi.Nuru ilə ikimiz onu qapıdan yola salırdıq, o gedib bir də gəlirdi.O müdhiş son anda da, bacım qızı onun əlini bir an belə buraxmadı. Nuru artıq keçinmişdi, ancaq onun cansız əli hələ də Gülağanın qızının əlində idi...

***

Hər necəsə, mən o toya gedə bilmədim.Əvəzində, Nuru özünü ora çatdırdı.Halbuki, mənim yolumu kəsən eyni problem ona da aid idi.Arada Belçika oturumunu itirmək riski olduğu halda, Nuru arxasına baxmadan vətənə qayıtdı, bacım qızının elçiliyini özü elədi. Mənim əvəzimdən də danışıq apararaq, böyük bacımın ortancıl qızını kiçik oğlumuza aldı.Mən ancaq burdan ora məsləhətlər verirdim, oğluma hansı məqamda necə rəftar edəcəyini anladırdım. Nuruya bilmədiyi incəlikləri başa salırdım.Bəy olacaq oğlum da, o günlərdə qohumluq əlaqəsinə girdiyimiz bacım da, yeznəm də mənim o toya gedə bilməməyimi anlayışla qarşıladılar, ancaq mən özümü bu günə kimi də bağışlaya bilmirəm ki, bilmirəm.

Oğlum özü danışır ki, Nuru orda özünü necə təkbaşına oda-közə vururmuş, hər şeyin gözəl olmasına çalışırmış.Mənim orda olmamağım Nurunun da köməksiz qalması demək idi.Bu belə idisə də, onlar geri gələndən sonra mən toy kasetinə baxdım, çox bəyəndim. Zəhmət çəkilmişdisə də, hər şey çox gözəl alınmışdı. Oğlum təkcə bir şeydən narazı qalmışdı, mənim orda yoxluğumdan. O, dedi ki, "ana biləsən ki, sənin yerin görünürdü." Mən onun nə demək istədiyini anladım.Əsli bacım zatən ağır təbiər qadın idi, bir də toyda qız anası olunca, özünü elə ağır aparıb, gəlindən də betər elə utanıb ki, oğlan anası yerinin boş qaldığı hamının gözünə batıb.Belə vəziyyətdə də, istər-istəməz oğlumun gözü hər yerdə məni axtarıb.

Kiçik oğlum atasının toy hazırlığı zamanı necə vurnuxduğundan, hər şeyi necə həvəslə təşkil elədiyindən, ümumiyyətlə təşkilatçılığından çox danışırdı.O, atasından razı qalmışdı, ona minnətdar idi.Bu söhbətlər də, rəhmətlik Nurunun sinəsinə yağ kimi yayılırdı.Mən hiss edirdim ki, o hər oğul toyundan sonra özü ilə qürur duyur.Bu da onun atalıq haqqı idi.O, hər toydan sonra günlərlə toy kasetinə baxmağı sevərdi.

Bu gün kiçik oğlumuz da bizim kimi üç oğul sahibidir. Onlardan ilki Suleymandır ki, yaraşıqlı, ağıllı olması ilə Nuru Babasının fəxri idi.Süleyman həm ümumi dərslərində, həm də quran dərsində yaxşı oxumağı ilə seçilir, Nuru da həmişə bununla öyünərdi. İkincisi, sultanlar sultanı Nursultandır, yaraşıqda mənim gözümdə Kıvanc Tatlıtuğ, ağıllı-kamallı, bir az da öz aləmində olan nəvəmiz.Nuru Babasının ən çox söz atdığı, cırnatmaqdan ləzzət aldığı nəvəsi.Üçüncüsü Osman...Nurunun ən çox sevdiyi, ən çox söhbət elədiyi, ən çox lətifələr qoşduğu nəvəsi...Osmanın "Çupa-çups" lətifəsi, Nurunun ən son lətifəsi oldu.Osman bu gün də mənim telefonumu götürüb, "Nənə, qoy Nuru babaya zəng vurum gəlsin", deyərək hamımızı kövrəldir.

Mənim belə deməyimə baxmayın, Nuru bütün nəvələrimizi bərabər sevən, onları ürəyində gəzdirən, onlarla nəfəs alan, onların söhbəti ilə, sözü ilə yaşayan bir baba idi.

Sonra elə oldu ki, sıra övladların borclarını qaytarmasına gəldi.Nuru bir gün bu dünyaya gözünü yumanda, həmin o kiçik oğlumuz atasının dəfn mərasiminə başçılıq elədi.O, dəfn mərasimini, bir vaxt atasının onun toyunu təşkil elədiyi kimi təşkil elədi, həmin cür vurnuxdu, hər şeyi lazım olduğu kimi,qüsursuz düzdü-qoşdu, fərqli dinə mənsub qürbət bir eldə, atasının müsəlman qayda-qanunu ilə dəfninə nəzarət elədi.

Hər halda biz Nuru ilə xeyirli övladlar yetişdirmişdik ki, Allahın mömin bəndələri olan övladlarımızın üçü də, qürbət eldə biz valideyinlərinə sayqıda, sevgidə qüsur eləmədilər.Evlərimiz ayrı olsa da, vaxtlı-vaxtında, düzənli şəkildə bizi ziyarət elədilər, halımızı-xətrimizi soruşdular, ehtiyaclarımızla maraqlandılar.Elə ki, Nuru rəhmətə getdi, onlar da bu dəfə atalarının vida törəninin islami qaydada həyata keçirilməsi üçün hərəkətə keçdilər.Böyük oğlumuz elə o gündən ailə rəisliyini öhdəsinə götürdü.Üç qardaş əl-ələ verərək, bir müsəlmanın dəfninə farz olan hər şeyi yerinə yetirdilər, bu işin öhdəsindən gəldilər.Kiçik oğlumuz ailəmizin ilk Hacısı olduğu üçün, işin ən həssas məqamları da onun

boynuna düşdü.Hacı oğlum çəkinmədən özünü irəli verdi, atasını özü yudu, kəfənlədi, camidə namazını da qıldırdı, qardaşları ilə əl-ələ verərək, torpağa da qoydu.

Biz qürbətə gələndən sonra çox dəyişdik.Biz burda, sözün əsil mənasında Allahı tanıdıq, bir müsəlman olduğumuzu xatırladıq, müsəlmançılığı boynumuza aldıq.İmanlı olmağa, imanlı yaşamağa başladıq. Mən özüm də buraya gələndən bəri namazımda-niyazımda olan bir anayam.Ona görə də, övladlarıma tövsiyələ-rimdə həmişə deyirəm ki, sizin biz valideyinlərə ödəyəcəyiniz tək borcunuz, bizim dəfnimizə Allahın buyurduğu kimi nail olmağınızdır.İnşaAllah bizi son mənzilə siz yola salarsınız. Gecə-gündüz Allaha dualar edib bunu ondan diləyirəm.Siz də bizi Allahın hüzuruna göndərdiyinizi nəzərə alarsınız, dəfn mərasiminin islama görə əsası nədirsə, bizi də elə dəfn edərsiniz.Ondan qalanı bidətdir, günahdır.Zəmanəmizin dərdi-bəlası olan dəblərə uymayın, nə özünüzü, nə bizi günaha soxmayın.Mən bu barədə nə düşünürəmsə, onlara da elə anladıram, özüm də bilirəm ki, bu məsələlərdə övladlarım məndən yüz addım irəlidədirlər.Bunu bilir, buna həmişə şükür edirəm.Ancaq onlara tövsiyələrimdən də qalmıram, onlara həmişə deyirdim ki, zamanı gələndə, bizi müsəlman adəti ilə dəfn edin, bu son törəndə diqqət edin ki, hər şey Allahın buyuruğuna uyğun olsun.Bu sizin övladlıq borcunuzdur. Sizdən başqa heç nə istəmirik.

Ataları dünyasını dəyişdi, mən də tək qaldım.Hər şeyi bir də götür-qoy edirəm, hər şeyi düşünürəm.Burdan bir baxanda, mən indi görürəm ki, biz Nuru ilə çox əziyyət çəkdik, sonunda xeyirli övladlar yetişdirə bildik.Onlar dinlərində imanlı, əməllərində düzgün, niyyətlərində təmiz, əqidələrində möhkəmdirlər.Onlar biz valideyinlərinə də hər zaman diqqətli yanaşmış, əllərindən gələni əsirgəməmişlər.Ona görə də, onlar atalarını şərəflə yola salandan sonra mən də kəfənimi alıb hazır qoydum, "Məni də beləcə yola salarsınız,"--dedim.Bu sözlər, əslində mənim onların işindən razı qalmağım anlamına gəlirdi, bəyəndiyim, təriflə-

diyim anlamına gəlirdi.Mən onlara güvəndim.Onlar da bunu lazım olduğu kimi anladılar.Sonra biz Nurunu yad elədik, onun üzü gülər vaxtlarından, indi bizə daha da şirin gələn xatirələrindən danışdıq.Mən kövrəlib ağladım, Hacı oğlum da dedi:

--Ana, sən bir az səbirli ol, artıq özünü topla, atamın məzarını ziyarətə də hər gün getmə, sərin-sərin get...

Mən anlamadım, soruşdum:

--Niyə oğlum?Bunun kimə nə zərəri var?

Oğlum yanımda oturub dedi:

--Bax ana, məzar başına tez-tez getmək doğru deyil.Dinimizə görə, məzarları nadir hallarda ziyarət eləmək lazımdır, o da bu dünyanın ölümlü olduğunu unutmamaq üçün.

Mən həmişə bilmədiklərimi ondan soruşuram, bu dəfə də ürəyimi ona açdım ki, əyər günah iş tuturamsa, o da bilsin, mən də bilim.Oğluma dedim:

--Əyər sənə desəm ki, mən o məzarı da, o məzarlığı da elə sevmişəm ki, bir gün ora getməsəm, dura bilmirəm.Əyər sənə desəm ki, qınayan olmasa, gecəni də orda qala bilərəm, geri qalan ömrümü də oranın gülünü-çiçəyini yoxlamağa, sulamağa, məzarın yan-böyürünü təmizləməyə, səliqə-səhman yaratmağa həsr edə bilərəm...Əyər sənə desəm ki, bütün günü fikrim-zikrim ordadır...

Oğlum qəmli-qəmli üzümə baxıb dedi:

--Ana, Allah səni əfv eləsin, Allah sənə səbir versin, nə deyim? Allah bir gün atamla səni cənnətlərindən birində qovuşdursun, inşaAllah.

Bu dua o qədər xoşuma gəldi ki, mən ona dedim:

--Sən hər namazında bu duanı mənimçün oxu, yaxşımı oğlum?

Oğlum gəlib alnımdan öpdü:

--Baş üstə, gözəl anam...

Söz yox ki, insan köçəri quşdur, gəlişi də var, gedişi də var...Fəqət, kimsə nə vaxt öləcəyini bilmir.Şəxsən mənimçün bir

şeyi bilmək, bir şeydən əmin olmaq çox vacibdir.Əyər insan bir gün öləcəksə, onun ölüsünə də sahib çıxan olsun.Bu yerdə mən, yas vermək adı ilə, toyxanaları da kölgədə qoyan, xrustal lüstürlü yasxanaları, paxlavadan banana kimi verilən yas süfrələrini, mikrofonla quran oxuyan mollaları demirəm.Biz ailəcə, hələ çox illər bundan öncə belə şeytani məclislərə "YOX!" demişik.Mən bir müsəlmanın camidən məzarlığa qədər olan o qısa yolunu nəzərdə tuturam.Son yolçuluğun, Allahın buyurduğu kimi, artıq heç bir şey əlavə edilmədən yerinə yetirilməsini nəzərdə tuturam.Çünki, önəmli olan da yalnız budur.Bir şey də var ki, ölürkü günün sahibini, hər valideyin özü yetişdirir, həm də həyatın o başından başlayaraq...Hər kəs hələ yolun başındaykən, sonu düşünməli, o sona tədarük görməlidir, övlada qayğısı ilə, sevgisi ilə, doğru-düzgün tərbiyəsi ilə, namuslu yaşayışı ilə.Övlad da o sevginin, qayğının əvəzini ən son gündə geri verir. Ölüsünə sahib çıxır, onu qayda-qanunla dəfn edir.

Allah bütün iman sahiblərinin övladlarını qorusun, onlara uzun ömür versin ki, bir gün vaxtı çatanda ana-atalarını şərəflə son mənzilə yola sala bilsinlər.Allah bütün valideynlərin ölümünü övladların qarşısında versin ki, onlar da bir övlad kimi, alnı açıq, üzü ağ öz övlad borclarını qaytara bilsinlər.Allah kimsəyə övlad acısı göstərməsin.Allah bütün valideynlərə oğul çiynində son mənzilə getməyi nəsib eləsin.

Özüm üçün də Allahdan arzum-diləyim, ancaq budur.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun. Amin.

O və Mən...
Ailə həyatımız...

Ailə həyatımız problemlərlə çox tez üzləşdi.

Gözümüzü açıb-yummağa macal tapmamış, bizim də ailə həyatımız dost-aşnadan görüb-eşitdiyimiz, ailə içi söz-söhbət

kimi, ailə dığ-dığı kimi şöhrət tapmış xoşa gəlməyən, həm də yaranması ilə həlli daşa dirənən məsələlərlə yükləndi.Elə evliliyimizin birinci ilində anladıq ki, çətin bir yolla irəliləyirik, qarşıda da bizi daha ciddi sınaqlar gözləyir.O sınaqların içində təcrübəsiz gənc ailə olmaq kimi, ailəli tələbə olmaq kimi, tələbə ikən valideyin olmaq kimi, daha önəmlisi də, ailə içində ailə olmaq kimi durumların bizə yaşatdığı çətinliklər vardı ki, onların varlığından xəbərimiz olmadığından, ancaq başımıza gələndən sonra anladıq ki, ailə qurmaqla iş bitmirmiş.Ailə həyatında böyük savaşlar olmaya da bilirdi, fəqət kiçik sürtüşmələr, ailə içi söz-söhbətlər gənc ailələrə daha böyük zərbələr vuraraq, hətta gənc ailənin bünövrəsini laxlada bilirmiş ki, bütün bunlar hələ bizim gücümüzün yetmədiyi, o üzdən də uzun müddət daşımalı olacağımız ağır bir yük imiş.Özümüz də bilmədən biz bu ağır yükün altına girmişdik. Bizim tutduğumuz bu yol, üzmək bilməyən bir insanın dərin sulara baş vurmasına bənzəyirdi.Heç nə düşünmədən dənizə baş vurmuş, batmaq təhlükəsi ilə üz-üzə qalmışdıq, indi də batmamaq üçün əl-qol atır, çabalayırdıq.Bir yandan nə evlənməyimizə, nə tələbə olmağımıza, nə də övlad sahibi olmağımıza peşman deyildik. Həyatımızın tək sevinci, tək qazancı bu üç hadisə idi deyə, gündə yüz yol bu nailiyyətlərimizə uşaq kimi sevinirdik.Bəlkə də ehtiyacımız olan hər şeyə sahib olsaydıq, biz bu nailiyyətlərimizlə öyünərdik, üstəlik hələ bizə həsəd aparanlar da olardı.Ancaq nə var ki, ehtiyacımızın olduğu çox şeydən məhrum idik, yaşayışımız da bu ehtiyacları özündə əks etdirə-etdirə, ağır-ağır irəliləyirdi.Gənc ömrümüzün hər günü, kənardan baxanda bəlkə heç gözə batmayan, ən xırda bir məsələnin uğrunda mücadilə aparmaqla keçirdi.

Ən böyük ehtiyacımız ayrı bir evə idi.Ayrıca bir ev olmalı idi ki, biz də orda gücümüzün yetdiyi qədər, səmimiyyətlə yoğrulmuş, sədaqətlə hasarlanmış, məhəbbətlə sığortalanmış bir həyat qura biləydik.O həyatda nə qədər çox çətinlik olacaqdısa da,

ürəyimizdən, canımızdan alıb yaşamımıza əlavə elədiyimiz qatqılarla biz, bütün bu yolumuzu kəsən problemlərin öhdəsindən gələ biləcəkdik.Elə bir ev isə yox idi.O evin olmaması, üstəlik kasıbçılıq üzündən, belə bir evin yaxın zamanlarda alınmasının da mümkün olmaması bizi ümidsizliyə qapadır, yaşamaq həvəsimizi sıfıra endirirdi. Mövcud şərait, bir evin içində yaşayan üç yaş dövrünə aid insanların hər birini diskomfort içində həyat sürməyə vadar edir, yataqxananı xatırladan bu evin sakinlərini ən adi halında da gün boyu gərginlik içində tuturdu.Belə yaşamaq çox çətin idi, belə yaşamaq zülüm idi, belə yaşamaq hər birimizi bezdirə bilirdi.Bu yol, bizi bir-birimizdən soyutmağa, bir-birimizi anlamamağa, bir-birimizə qarşı dözümsüzlüyə aparırdı.Bir yandan bizimlə bir evin içində yaşamalı olan yaşlı insanların hüzurunun pozulması, bir yandan bizim kimi gənc ailənin bu darısqallıqda rahatlıq tapa bilməməsi, bir yandan da iki subay qızın ərköyünlüyü üzündən hər şeyi problemə döndərməsi, bir evdə yaşamaq zorunda qalan böyük bir ailənin birlikdə çəkdiyi zülümdən başqa bir şey deyildi. Azərbaycanda belə ailələr sonsuz sayda idi, bəlkə ona görə də Azərbaycanda gənc yaşlarında həvəsə gəlib evlənənlərin, bu evliliyə hesabsız-kitabsız baş vuranların çoxu, bizim kimi eyni problemlərlə üzləşmiş, çıxış yolunu tapa bilmədikləri üçün ayrılıb getmişdilər.Canını dişinə tutaraq bu sınaqlara duruş gətirənlər də özlərini nə qədər tox tutsalar da, bu uğursuz evlilik həyatını zorla sürdürə bildikləri üçün, onların da üzü gülmürdü.Yaşı keçməsinə baxmayaraq, evlənməkdən qorxan, evlilik məsələlərindən uzaq durmağa çalışan gənclərin dərdi də bir ayrı dərd idi.

Evsizlik, problemlərin ən başı, ən böyüyü idi.Beş ailənin, üç ailənin, hətta iki ailənin bir evdə yaşaması evsizlikdən də betər bir evsizlik idi.Bəlkə də, geniş həyətyanı sahəsi olan bir malikanədə, hər şeyi düşünülmüş şəkildə bölünmüş, hər ailənin yolu-izi də qabaqcadan ayrılmış böyük bir evdə bu problemləri dadmadan da yaşamaq olardı.Ancaq bir apartaman binasında, üç otaqlı bir mənzildə, iki və daha artıq ailələrdən ibarət insanların

rahat yaşaması, dinclik tapması mümkün olası şey deyildi. Mən ailə qurduqdan sonra, hər oğlan evinin elçisindən, qızı üçün ayrıca ev istəyən valideynləri anlamağa, onlara haqq verməyə, onları qınayanları özüm qınamağa başlamışam.İki insan evlənməyə qərar verirsə, öncə zəmində heç olmasa bir otaqlı ev olmalıdır ki, o evdə də "ev-lənmək" mümkün olsun. Nahaq yerə "evlənmək" deməyiblər ki...Burda əsas məqsəd yeni bir ev, o evdə də yeni bir ailə qurmaqdır.Əyər bu işdə ev önəmli olmasaydı, yaxud, evin olması nəzərdə tutulmasaydı, adını birləşmək, yaxud cütləşmək, yaxud da nə isə başqa bir şey qoyardılar.Məsələnin kökündə ev olacaq ki, "evlənmək" sözü də haqqını alsın.Əksi halda, öz həyatımızı yadıma salıram, ömrümüzün ən gözəl illəri bizim o darısqallıqda, ailə dığ-dığı ilə zəhərlənərək keçdi.Bu gün o illərə uzaqdan baxıram, o illəri itirilmiş illər hesab edirəm, o illərə heyfim gəlir.Əslində, o illər bizim ömrümüzün ən gözəl yaş dövrü idi.Ancaq nə var ki, biz evlənməyə tələsdik, gerisini düşünmədən özümüzü o darısqallığa tıxadıq, orda keçirtdiyimiz illər bizim ömrümüzdən düşən, salınıb itirilmiş, həm də boş yerə itirilmiş illər oldu.

Halbuki, ilk başdan öz evlərində, hamıdan ayrı yuva quran cütlüklər üçün mənim burda yazdıqlarım, onların heç vaxt görmədikləri, görmədikləri üçün də bilmədikləri, bilmədikləri üçün də anlamadıqları bir mövzudur.İstəyirsiniz inanın, istəyirsiniz inanmayın, ancaq müstəqil yaşamaqla kiminləsə birlikdə yaşamağın arasındakı fərq bu qədər geniş həcmli, bu qədər uzaq məsafəlidir.Məni ancaq başına gələnlər anlaya bilər.

Bir şeyə sevinirəm ki, hələ bu qədər çətinliyin içində də bir-birimizə güvənməyimiz, tutunmağımız, əl-ələ verməyimiz bizi ayrılmağa qoymadı.Demək ki, sevgimiz düşündüyümüzdən də güclü imiş ki, bizi bütün bu sınaqlardan qalib çıxarda bildi.

O vaxt ömrümüzün ən çətin günlərində, işin zor hissəsi yenə də Nurunun boynuna düşürdü.Nuru odla su arasında qalan bir övlad kimi daima çırpınır, valideynlərini üzmədən bu

gərginlikdən qurtulmaq, bu darısqallıqdan çıxmaq üçün yollar axtarırdı.Mən ona, ancaq qazancımızdan ayırdığım az miqdar pulu kənara qoymaqla kömək edə bilirdim.Biz artıq öz aramızda bir qərara gəlmişdik.Aylıq gəlirimizdən qəpik-qəpik də olsa, pul yığıb özümüzə ev almaq niyyətindəydik.Bizim kənara qoyduğumuz doğurdan da qəpik-quruş idi, ancaq bu bizim öz aramızda "Ev pulu" deyə kodlaşdırdığımız toxunulmaz əmlakımız idi.Bu əmlak nə vaxt artıb bizi evlə təmin edəcəkdi, biz bilmirdik. Ancaq hər dəfə, o məbləğə az da olsa əlavələr edəndə, ümidimiz də bir o qədər artırdı.Ümidimiz artdıqca inamımız da böyüyürdü. İnanırdıq ki, çox yaxında özümüzə ev ala biləcəyik.Topladığımız məbləğ artdıqca, biz də satılıq ev elanlarına göz atmağa, evlərin qiymətləri ilə maraqlanmağa başlamışdıq.

***

Toydan bir neçə gün əvvəl bizim üçün ayrılmış balkonlu otağımızda, biz düz yeddi il yaşadıq.Uşaqlarımızın üçü də o evdə, o balaca otaqda yaşadığımız zamanlarda doğuldu.Böyük oğlumuz birinci sinfə də orda yaşadığımız dönəmdə getdi. Həmin il üçüncü oğlumuz dünyaya gəldi, altı aydan sonra da biz özümüzə balaca həyəti olan beş otaqlı bir həyət evi ala bildik.Ev o qədər geniş idi ki, biz bir ildən sonra onun bir hissəsini ayırıb satdıq, o pula da özümüzə bir maşın aldıq. Maşının olması birdən-birə önümüzdə bir çox imkanlar açdı.Görmədiyimiz günlərə düşmüşdük. Həftə sonlarını maraqlı yaşamağa başlamışdıq. Birdən birə ağlımıza gələn ani fikirlə, uşaqlar üçün azuqə götürüb maşına doluşurduq.Ürəyimiz hara istəsəydi, ora da gedirdik. Balalarımızı könlümüzcə əyləndirər, özümüz doyunca istirahət edər, uzun zaman aclıq çəkmiş yorğun ruhumuzu, yeni arzularla qidalandıraraq evə dönərdik.Nurunun da uçmağa qanadı olmazdı.O uşaq kimi sevinər, yeri düşdükcə mənə deyərdi:

--Gör ey, neçə ildir evliyik, hələ indi-indi adam kimi yaşamağa başlayırıq...Ay yazıq, sən demə biz heç yaşamırmışıq ki...

Belə kövrək vaxtlarımızda mənim gözüm dolar, heç nə demədən onun boynuna sarılardım.O da məni sözsüz anlayardı.Bilərdi ki, mən hər zaman onun yanında olacağam, ona təkcə həyat yoldaşı deyil, həm də bir dost, bir sirdaş, hər işində ən yaxın arkadaşı olacağam.Həqiqətən də, bilənlər bilir, mən Nuruya hər zaman bir yoldaşdan ötə, bir qardaş olmuşam.Burda qardaş sözünü vəfa, etibar, güvən mənasında anlamaq lazımdır, yoxsa mən də bilirəm ki, arvaddan ərə qardaş olmaz.Başımıza o qədər qəribə hadisələr gələrdi, macəralar başımızdan əksik olmazdı.Ancaq mən hər zaman uşaq kimi saf, uşaq kimi səmimi, uşaq kimi kövrək yoldaşımın yanında idim, onun arxasında durar, onu tək buraxmaz, onu hər yerdə, hər durumda şəxsi vəkili kimi müdafiə edərdim.Bizim çevrəmizi təşkil edənlər, bizi yaxından tanıyanlar şahiddir ki, biz həyatımızı belə yaşadıq.

Bu bizim ailə həyatımızın enişli-yoxuşlu yolları idi...

11. Yaddaşımın xatirə qatlarından bir epizod...

Ailə həyatımızın ilk yeddi ilini Nurunun valideynləri ilə bir yerdə yaşadıq. Bu illərə asan deməyə dilim gəlmir, çünki o illərdən yadımda iz buraxan xatirələrin çoxu heç də xoş xatirələr deyil. Biz o evdə böyük bir ailə kimi deyil, daha çox "kommunalka" ifadəsinə uyğun gələn bir qayda ilə yaşayırdıq.Rus dilindən, həm də rus mühitindən tanıdığımız "kommunalka" kəlməsi, bir evdə yaşamaq zorunda qalmış bir və ya bir neçə ailənin, əvvəldən bir ev olub, sonradan bir neçə yerə bölünmüş, lakin yenə də bir damın altında yaşamasını nəzərdə tutan bir ifadə idi ki, bu da insanların dözülməz şəraitdə yaşamasına dəlalət edən ən acı kəlmələrdən biri idi."Kommunalka", hər qapısından başqa bir ailənin girib-çıxdığı, ümumi mətbəxdə hər kəsin ocağı, qazanı, və hər şeyi

ayrı olmaq zorunda qalan birgə yaşayış növü idi.Biz adını kommunalka qoymasaq da, evləndiyimizin ilk illərindən bu qayda ilə yaşamağa məhkum edildik.Və bu, heç də asan olmadı. Arada narazılıqlar vardı deyə, bəzən ən xırda şeylər üzündən ailə fərdləri arasında söz olurdu.Nə gizlədim, o dönəmdə evimiz bizə zindan kimi görünürdü.Evdəki gərginlik bizə pis təsir edir, sanki bizim ikimizin də arasına sədd çəkirdi.Belə vaxtlarda Nuru mənə yad adam təsiri bağışlayırdı, çünki bəzən biz bir-birimizi də anlamaqda çətinlik çəkirdik.Belə olduqda da, Nuru hər şeydə bir nöqsan axtarar, evdə yaşanan gərginliyin əsil səbəbkarını aşkara çıxartmaq yerinə, yerli-yersiz məni danlayar, ürəyini bu yolla soyutmağa çalışardı. İkimizə də gün kimi aydın idi ki, bu onun çarəsizlikdən əl atdığı bir yol idi.Günah məndə olmasaydı da, ana-atasının üzünə ağ olmaqdansa, bacılarının qəlbini qırmaqdansa, o bütün acığını mənə tökməyi seçirdi. Mən nə qədər özümü təmizə çıxartmağa çalışsaydım da, problemin yaşandığı gün Nuru mənə inanmaqdan çox uzaq olardı.Ancaq ya ertəsi gün, ya da irəlidə bir gün, ilk fürsətdə, mənə inandığını dilə gətirər, mənim haqlı olduğumu bilə-bilə acığını mənə tökdüyünü etiraf edərdi.Əyər mən bu etirafa qədər ona acıqlı olurdumsa, məndən uzaqlaşdığını düşünürdümsə, onun etrafından sonra ona yazığım gəlirdi, ona qıymırdım.Özümü onun yerinə qoyaraq, ona haqq da verirdim.Çünki, mənə görə, bir insanı ailəsi ilə valideynləri arasında seçim eləməyə təhrik etmək, bir övlada verilən ən böyük işgəncədir. Hər valideyin anlamalıdır ki, bu yolun sonu o övladın insanlıqdan çıxması ilə bitə bilər.Çünki, bir övlad ya ailəsini yarı yolda buraxacaq, yaxud da ana-atasına arxa çevirməklə onlara nankorluq edəcək.Həyatında bu iki dayaqdan birini itirən insan da, insanlıqdan çıxmış sayılar. Parçalanmış ailələrin həyat yolunu incələyən olsa, onların çoxunda bu söylədiklərimin müxtəlif variantlarına rast gələcəyindən heç şübhəm yoxdur. Həmin o illərdə, mənim gördüyüm işlərdə nöqsan axtara-axtara Nuruda

belə bir xasiyyət formalaşmışdı.O, mənim bişirdiyim yeməkləri bəyənməz, hər nə bişirsəydim, hərəsinə bir "mız" qoyardı. Yaşadığımız şəraitin çətinliyi bir yandan, Nurunun da bu kaprizləri o biri yandan, mənə çox yer edirdi. Vaxt olurdu ki, əsəblərim buna dözmürdü.Mən özüm bişirdiyim yeməkləri bəyənirdim, yəni o yeməklərin hamısını mən lap əvvəldən eyni üsulla bişirirdim.Ancaq Nuru neyçünsə, əvvəllər bəyəndiyi yeməkləri sonradan bəyənmir, gah duzlu olduğunu, gah şit olduğunu, gah çox bişirdiyimi, gah çiy qaldığını, və sair, və ilaxır, bir qazan xörəyə neçə cür eyib tutmaq mümkün olardısa, hər dəfə onlardan birini deyər, süfrədən də narazı qalxardı.Bəzən heç yeməzdi.Bu mənə çox pis təsir edir, çox ağır gəlirdi.Özümü, özümün də anlaya bilmədiyim bir şeydə günahkar hiss edir, özümə nifrət edirdim.Çünki, o vaxtlar Nuru, üzünü ancaq axşamlar görə bildiyimiz, süfrəmizin başında oturaraq, bizə dünyalardan xəbərlər gətirən bir dünyamız idi.O, günün çoxunu işdə olurdu, ancaq axşamın bir-iki saatını bizimlə birlikdə keçirdirdi.Yorğun olduğu üçün bundan artığına gücü çatmır, erkəndən yatırdı.Onun evdə oyaq olduğu o bir-iki saatda bizi bir arada tutan, bizim süfrəmiz olurdu.O halal süfrədə balalarımızla birlikdə yediyimiz bir qismət çörək, bizim həm gəzməyimiz-görməyimiz idi, həm kinomuz-teatırımız idi, həm toyumuz-düyünümüz idi.Biz gün boyu evdə olurduq, dünyadan xəbərləri bizə Nuru gətirirdi.O, süfrə başında bizə çöldə-bayırda baş verənlərdən danışardı, xəbərlərdən xəbərdar edərdi.Ona görə də, bizim darısqal evimizin şənliyi, gümrahlığı da büsbütün Nurunun kefinə-əhvalına bağlı olurdu.O bir gün süfrədən narazı qalxanda, ya da heç süfrəyə yaxın gəlməyəndə, biz belə bir mənəvi blokadanı çox çətinliklə həzm edə bilirdik.Nurunun bu hərəkəti, onsuz da müxtəlif səbəblər üzündən aramızda yaranan gərginliyi bir az da artırırdı.

Belə zamanların birində mən bir qazan yarpaq dolması bişirdim.Nuru yarpaq dolmasını çox sevirdi, həmişə də mənə

tapşırırdı ki, yarpaq dolmasını bişiriəndə çox bişirim, bir-iki gün yeyək.Hər şeyi Nurunun sevdiyi kimi elədim.Böyük bir qazan dolusu dolma bükdüm, dolmanı yağlı qoyun ətindən hazırladım, əti də təzə yarpağa sarıdım.Qazanın dibinə də sümüklü (kəmikli) ət parçaları qoydum ki, bir az da dadlı olsun.Yemək hazır olanda, ondan iki böyük boşqabla pay ayırdım.Qazanı ortadan götürdüm, payları da bizimlə eyni mərtəbədə yaşayan divar qonşumuza, başqa millətdən olan qadına apardım.Bu qonşumuz bizim evimizə tez-tez gəlib gedirdi deyə, çox şeylərdən xəbərdar idi.Mən boşqabın birini onların özləri üçün gətirdiyimi söylədim. İkinci boşqabı isə, bir saatdan sonra bizə guya ki, pay gətirirmiş kimi, gətirməsini tapşırdım. Mən ona məsələni qısaca anlatdım, Nuruya bir dərs vermək istədiyimi dedim. Qonşu bu məsələdə mənimlə həmfikir idi deyə, mənə haqq verdi.O, məni dəstəklədi, və hər şeyi mənim tapşırdığım kimi edəcəyinə söz verdi.Bir az sonra Nuru işdən gəldi.O, əl-üzünü yuyana kimi mən süfrəni düzəltdim, süfrəyə göy-göyərti, təzə tərəvəzdən hazırladığım salatı, duzu-çörəyi qoydum.Qazanı qızdırmışdımsa da, hələ üzə çıxartmadım.Nuru gəlib oturdu.Elə əlini çörəyə uzadırdı ki, qapı döyüldü, qonşu qadın əlində boşqab içəri girdi.Nuruya salam verib, boşqabı masaya qoydu:

--Qonşular, bu gün mən də yarpaq dolması bişirdim, yeyin dadına baxın, görün bəyənəcəksinizmi?

Nuru hər şeyi unudaraq, çox sevdiyi dolmaya girişdi.Elə ilk dolmanı ağzına qoymuşdu ki, gözlərini yumub dolmanın dadından necə məmnun qaldığını nümayiş elətdirdi.Sonra həvəslə daha bir neçə dolmanı ağzına aldı, başını sağa-sola döndərərək, marçıltı ilə dolmaları çeynəyib uddu.Sonra da üzünü qonşuya tutub dedi:

--Dolma əla çıxıb ey, əla!Adamın ağzında əriyir, dadı da, duzu da yerində!Sən Allah onun bişmə qaydasını bizim xanıma da yaz ver, qoy o da sənin kimi bişirsin, ağzımız dada gəlsin. Mən susurdumsa da, incimişdim.Nurunun dediyi sözlər ürəyimə

sancılıb qalmışdı deyə, hələ ona heç nə demək istəmirdim, gözləyirdim ki, qonşu getsin, sonra deyim.Ancaq qonşu bu haqsızlığa necə əsəbləşdisə, bir anda özündən çıxdı, mənim yerimə də ürəyini boşaldaraq, dedi:

--Nuru qardaş, mən sənin mənim qonşuma qarşı haqsız olduğunu təxmin edirdim, ancaq bu gün bunu öz gözlərimlə gördüm.Sən necə bu qədər haqsız ola bilirsən?Mən hara, yarpaq dolması bişirmək hara?İnsafın olsun ey...Bizim hər gün gözümüz yolda qalır ki, kaş siz bizi evinizə dəvət edəydiniz, biz də sənin xanımının bişirdiyi dadlı yeməklərdən yeyəydik, ancaq gör sən nə danışırsan.Bu bəyəndiyin dolma var haa...onu mən bişirməmişəm ey, o bişirib, inanmırsan bax!

Bunu deyib qonşu qadın mətbəxə keçdi, ordan içi yarpaq dolması ilə dolu qazanı gətirib Nurunun önünə qoydu.Nuru pərt olmuşdu, deməyə söz tapmırdı, ancaq elə gülümsəyirdi.

Qonşu getdi, Nuru mənim kefsiz olduğumu görüb mənə yaxınlaşdı, çiyinlərimi qucaqlayaraq dedi:

--Hmmm...Burda deyiblər ey, 1:0, Baloğlanın xeyrinə...Yaxşı dərs verdin mənə, halal olsun.Əslində sən də bilirsən ki, mən sənin bişirdiyin xörəklərdən başqa heç kimin bişirdiyini bəyənmirəm.Sadəcə, son zamanlar bir az ağzımın dadı qaçıb, incimə... Görünür ağzımın dadını qaçırdan sənin bişirdiyin xörəklər deyilmiş, başqa şeylər imiş.

Bu məsələ, yemək mövzusunda bizim aramızda yaşanan son hadisə oldu.O gündən sonra Nuru mənim mətbəx qabiliyyətimə qarşı, ədaləti tezliklə bərpa elədi.Mən əvvəldən də yemək bişirmək mövzusunda özümə güvənirdim.Çünki, mən görürdüm ki, əlimdən çıxan hər yeməyi hamı bir nəfər kimi bəyənir.Bu da səbəbsiz deyildi, mən hər şeyi rəhmətlik anamdan öyrənmişdim, anamın yeməkləri də adla idi.Hər kəs anamın yemək bişirmək qabiliyyətinə bələd idi, mən də onun yetirməsi idim. Sonralar, biz müstəqil yaşamağa başlayandan sonra, Nuru mənim əl qabiliyyətimə mövqeyini yavaş-yavaş dəyişərək, həmin o

neqativ vərdişinin əksini ələ aldı.Nə vaxt bizə qonaq gələrdisə, mən də süfrəyə yemək qoyardımsa, Nuru heç kəsə macal verməz, mənim yeməklərimi hamıdan əvvəl tərifləməyə başlayardı.Bir gün bir dostu da süfrə başında ona belə bir irad tutdu:

--Ay Nuru, sən Allah, bu dəfə bizi qabaqlama, imkan ver bacımızın əl qabiliyyətini biz tərifləyək.Sən sadəcə yeməyini ye.

Bu sözə süfrə başında olanların hamısı doyunca güldü.

Nuru da söz altında qalmayaraq dedi:

--Paxıllığınızdan tərifləyirsiniz ki? Birdəki, mən bunu tərif üçün demirəm, sizin diqqətinizi çəkmək istəyirəm ki, baxın görün nə yeyirsiniz?Siz bu cür yeməyi burdan başqa heç yerdə yeyə bilməzsiniz, onu deyirəm.

Qonaqlar gedəndən sonra mən ondan xahiş edirdim ki, bir daha belə eləməsin, ayıb olur.

O, hər dəfə söz versəydi də, mən də bilirdim ki, ona da Nuru deyərlər, gələn dəfəsində yenə də sözünü tutmayacaq, yenə də dilini dinc qoymayacaq...

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun. Amin.

O və Mən...
Dürüst yaşamağın zülmü də çoxdur...

Hərdən özümdən soruşuram ki, biz ki, bu çətin ömür yolunu bu cür uğurla başa vurduq, arxamızda adımıza ləkə salacaq heç bir iz buraxmadan, bizim üçün ayrılmış ömür kəsiminin öhdəsindən gələ bildik, əcəba Nuru ilə bizim gücümüz nədə idi?

Bu sualı heç də yersiz hesab eləmirəm, çünki indi burda bir-iki cümlə ilə söhbət açmaq istədiyim əzablı yollar, bu yollarda yaşanmış min-bir macəra, arxada buraxılmış ağlı-qaralı günlər, aylar, illər bizim ömür yolumuz idi.İndi burda, "Biz bu ömrü yaşadıq, uğurla başa vurduq," demək dilə nə qədər kolay olsa da, əslində hər günündən bir dastan yazıla biləcək, rəngarəngliyi

yalnız problemlərdən ibarət olan o ömür yolunu alnı-açıq, üzü ağ başa vurmağın nə qədər zor olduğunu anlamaq da çətin olmamalıdır.Və, bütün bu yaşanmışlara baxmayaraq, bizim o yolu birlikdə, bir ailə kimi parçalanmadan, dağılıb getmədən, xətasız-bəlasız başa vura bilmək bacarığımız da, hər halda təqdirə layiq olmalıdır.Mən burda "başa vurduq" ifadəsini əbəs yerə işlətmirəm, beləki, Nurəddin artıq aramızda yoxdur, mənim də ömrümdən nə qədər saylı illər, saylı aylar, yaxud saylı günlər qalıbsa, onu da Allah bilir.Doğrudur, Allahın hər verdiyi günə, hər açılan sabaha "şükürlər olsun" demək borcumuzdur, və mən də bunu hər gün deyirəm.Ancaq bir şey var ki, Nurəddinin gedişi ilə mənim üçün çox şey dəyişdi.Onsuz ağzımın dadı qaçdı, o varkən nələri əldə eləmək istəyirdimsə, nə xəyallar qururdumsa, o gedəndən sonra bu həvəslər də mənasını itirdi, harasa uçub getdi.Həyatda elə şeylər var ki, onlar ancaq yanında paylaşmağa yoldaşın olanda gözəl effektlər verir. Təkliyi qonaqlarla bəzəməyin, mənəvi boşluğu əşyalarla doldurmağın mənası da, dadı da ancaq qonaqlar dağılışıb gedənə kimidir.Axşamlar, hər kəs dağılıb gedəndən sonra divarların üstünə gəlməyi, təkliyin ən dəyişməz, ən dözülməz halıdır...

Uzun bir ömür yolunu Nurəddinlə çiyin-çiyinə, əl-ələ keçdik. Ömür yolumuz heç də asan olmadı, o yol ağır-ağır yürüyən, həyatın hər üzünü bizə daddıran, bizi bir imtahandan başqa bir imtahana sürükləyən bir yol oldu.Bizim bu yolda göstərə bildiyimiz şücaət, ancaq dözümlülüyümüz idi.Biz dözdük, biz ayaqda durduq, biz yıxılmadıq, sınmadıq...Bu səbəbdən də mən hesab edirəm ki, belə bir suala ehtiyac var, çünki bizim həyatımız bir məktəbdir.O məktəbdən evlənməyə qərar vermiş gənclər, yeni qurulmuş ailələr çox şey öyrənə bilər.Hərçənd ki, biz uzun bir yol gəldik, ancaq biz o yolu oynaya-oynaya gəlmədik.Ailə qurduğumuz ilk zamanlardan başlayaraq başımıza gəlməyən qalmırdı, həyat bizi çox tez-tez imtahana çəkirdi.Büdrəməmək üçün, yıxılmamaq üçün bir-

birimizə tutunurduq, bir-birimizdən güc alırdıq.O güc bizi qaldırırdı, ayaqda tuturdu.Bəs elə isə o gücü biz hardan alırdıq, bizim gücümüz nədə idi?

Bilirəm ki, bu suala bundan sonra məndən yaxşı cavab verən tapılmayacaq, çünki nə yaşadığımızı ikimiz bilirdik, bir Nuru, bir də mən.Nuru artıq yoxdur, demək ki, cavab vermək də mənə qalır. O zaman bu suala özüm də cavab verməyə çalışacağam. Ancaq bir şərtlə ki, mən bu cavabı ***ikimizin yerinə*** verəcəyəm.

Nuru ilə bizim gücümüz dürüstlüyümüzdə idi.Biz ikimiz də dürüst insanlar olmuşuq.Ailə qurub evləndiyimiz gündən ömrümüzün sonuna kimi qapımızdan içəri haram tikə girmədi. Heç kimə söz verib aldatmadıq, heç kimin çörəyinə bais olmadıq, heç kimin evini yıxmadıq, heç kimi satmadıq.Bizim öz yolumuz oldu, həmişə doğruları danışmaq, həmişə gözü-könlü tox olmaq, həmişə qürurumuzu uca tutmaq, nəfsimizə satılmamaq və sairə. Biz kasıb idik, ancaq mərd idik. Günahlardan qaçırdıq deyə, heç kimdən qorxmazdıq, heç kimə yaltaqlanmazdıq, riyakarlıq eləməzdik, yalan-dolanla işimiz olmazdı. Bizim olmayan heç nəyə göz dikməz, əl uzatmazdıq. Yəqin ki, bizim gücümüz də elə bunda idi.

Biz dürüst yaşayırdıq, ancaq dürüst yaşamağın heç vaxt, heç bir cəmiyyətdə asan olmadığını da bilməmiş deyildik.Nəfsini geri, vicdanını irəli buraxaraq yaşamaq, bizim üçün də asan deyildi.Dürüst yaşamağın zülmü də çox idi, çünki əyər bizim aid olduğumuz Azərbaycan cəmiyyətində bir insan dürüst yaşamağı seçərdisə, o dərhal təklənəcəkdi, kənarlaşdırılacaqdı, həmişə kasıb olacaqdı, ehtiyac içində yaşayacaqdı. Həqiqət budur ki, bir cəmiyyətdə hər kəs qanunlara arxa çevirib kefi istədiyi kimi yaşayarsa, orda bərabərlik pozular, biri digərinin haqqına göz dikər, biri digərinin ruzusunu çalar.Bizim aid olduğumuz cəmiyyətdə həyat bu cür yaşanırdı.Kimin necə yaşamalı olacağına qanunlar deyil, hər məmurun nəfsi, hökmü qərar verirdi.Belə cəmiyyətdə dürüst olmaq, dürüst qalmaq, dürüst

yaşamaq qədər çətin bir şey yox idi.Biz bu çətinlikləri çəkə-çəkə, yaşaya-yaşaya gəldik.Çünki başqa cür yaşaya bilmirdik.

Bir insan oğurluq edərsə qorxar, yalan danışarsa qorxar, haram tikə yeyərsə qorxar, başqasının sözünü danışarsa qorxar, rüşvət verərsə qorxar, rüşvət alarsa qorxar, ev yıxarsa qorxar, mərdimazarlıq edərsə qorxar və sairə.Şeytani əməllərin sayı-hesabı olmadığı üçün, hamısını saymağa ehtiyac yoxdur.Bir insan bu yaramazlıqları edərsə qorxar, ancaq qorxsa da, o yaramazlıqları eləməyə davam edər.Çünki, bu addımı bir dəfə atan adam daha o yoldan dönə bilməz.Tövbə qapısı hər zaman açıq olsa da, adət eləmişə tövbə yoxdur.Oğurluq da, yalançılıq da, tamahkirlik də, mərdimazarlıq da zəhərli bir ilana bənzəyir.O fərqlə ki, bu ilanlar insanı bir dəfə dişlədisə, insanın qanı daha bu zəhərdən təmizlənə bilməz.İnsanın qanı təmizlənmədiyindən, bu bəd əməllərə bir bağlılıq əmələ gələr, nəşə kimi, heroin kimi, artıq istəsə də bu əməllərdən gen dura bilməz.

Oğurluq edən bir gün tutulacağından, yalan danışan bir gün yalanının üzə çıxacağından, haram tikə yeyən bir gün qusacağından, başqasının sözünü danışan bir gün üzləşəcəyindən, rüşvət verən bir gün bu günahıyla suçlanacağından, ruşvət alan bir gün yaxalanacağından, ev yıxan bir gün cəzalanacağından, mərdimazarlıq edən də bir gün əvəzini çəkəcəyindən qorxar.Və hər günahkar bəndənin qorxusu da, özü kimi Allahın yaratmış olduğu başqa bir bəndədən olar.Bu sadaladığım əməlləri törədən insanların qorxuları da özləri kimi miskin, cılız, gec ya tez, biriləri tərəfindən fiziki cəza alacaqları qorxusudur ki, belə cılız qorxular insanı insanlıqdan çıxardan qorxulardır.Və nə yazıq ki, dünyamız günahlarla dolu bu yolu tutan, bu yolu tutduğu üçün də cılız qorxularına əsir düşən, bu cılız qorxuların təqibi ilə yavaş-yavaş insanlıqdan çıxan, qorxduğu şərəfsizlərin hər əmrinə boyun əyən, qulu-köləsi olan bəndələrlə doludur.

Biz bu bəd əməllərin heç birini ağlımızın ucundan belə keçirtmədiksə də, biz də qorxduq.Ancaq biz ondan-bundan

deyil, təkcə Allahdan qorxduq.Bizim sığortamız Allah xofu oldu.Bizi hər cür əyri yoldan, yaramaz işlərdən içimizdəki Allah sevgisi qorudu.Biz buna vicdan da desək, əslində bu, Rəhman və Rəhim olan Allahın özü tərəfindən seçkin insanların ürəyinə yerləşdirdiyi inancın özü idi.Allahın varlığına inananlar, onun xofundan qorxanlar, bu dünyaya insan kimi doğulanlardır.Və məhz onlar, ömürləri boyu da insan qalanlardır. Burda qorxu sözü yalnış anlaşılmamalıdır.Biz yalnış bir iş tutanda çox sevdiyimiz anamızı, atamızı incitməkdən necə qorxurduqsa, sevdiyimiz, bizə hər zaman düz yol göstərən o böyük Yaradandan da bu mənada qorxuruq.Biz Onun qəzəbindən qorxuruq, çünki O bizə heç kimin haqqına göz dikməməyi, heç kəsin ahını almamağı, heç kimin canına qəsd eləməməyi əmr etmişdir.Artıq hər kəsin yəqin bildiyi bu qanunları pozanlar da, bir gün ancaq Ona hesab verəcəklərini unutmamalı, Ondan gələn cəzanı gözlərinin altına alaraq, Onun qəzəbindən qorxmalıdırlar.Bu qorxu bizim xeyrimizədir, bizi düz yoldan çıxmağa qoymamaq naminədir.Allahdan qorxanlar öz insanlıqlarına sadiq qalanlardır.İnsanlığa sadiq qalanlar yuxarıda saydığım bəd əməllərə uymazlar, çünki onların qəlbində Allah xofu, Allahın cəzasından qorxmaq kimi bir sığortası var.O sığorta atmayınca, sağlam qaldıqca, insan da insan adına layiq ömür sürər, insanlığı ölməyə qoymaz.

Nuru ilə biz, həyatımız boyunca, zaman içində nəfsinə yenildiyi üçün sığortası atan, beş günlük dünyada şəxsi mənfəəti üçün əqidəsini dəyişən, min bir günaha batdığı üçün Allahdan başqa hər şeydən qorxan, o qorxuları üzündən də insanlıqdan çıxan çox adamlar tanıdıq, gördük, onlardan uzaqlaşdıq, yollarımızı ayırdıq.Ən xırda ehtiyacı üçün də cilddən-cildə girən, başqasının yuvasını dağıdan, özündən acizlərin ah-naləsinə bais olan, böyük sərvət sahibi olduqca iştahı daha da artan, gözü doymayan, bir az da azğınlaşan insanları gördükcə, özümüz öz gözümüzdə böyüyürdük. Çünki, düşünürdük ki, əyər

bizim qədər ehtiyacın ağır zirehi altında əzilən, Allahdan başqa heç kimə də gumanı gəlməyən insanlar bu çətinliklərə boyun əymədən, var güclərini toplayaraq yollarına davam edə bildilərsə, demək hər kəs də o yolu eyni cür, vicdanını dinləyərək, qeyrətinə yaslanaraq gedə bilərdi, nəfsinə də, tamahına da sahib çıxa bilərdi...Əyər...

...Əyər nədən qorxmalı olduğunu zamanında anlaya bilsəydi, əyər onu insanlıqdan çıxardan o qorxuların yerini dəyişik salmasaydı, əyər Allahı tanısaydı...

Bu bizim yolumuz idi...

12. Yaddaşımın xatirə qatlarından bir epizod...

Həyatı boyunca Nurunun, ən yaxın dostu, sirdaşı, qardaşı, üstəlik sevimli qaynı, mənim böyük qardaşım Kərəm idi.Yusif qardaşım həm yaşca kiçik idi, həm də xasiyyətcə çox dürüst, çox tərbiyəli, çox həyalı uşaq idi.O tamam başqa xasiyyətdə olduğundan, Nuru ilə də kiçik qayın-yeznə münasibətini heç zaman aşmazdı.Nurunun sərhəd tanımayan məzəli zarafatları da Yusifi dəyişə bilmədi.Gördüyümüz mənzərə həmişə eyni olaraq qaldı.Nurunun hamını yerindən oynadan zarafatlarına qarşılıq, Yusifin verdiyi ciddi cavablar, onları eyni məsafədə tutar, bir qayının bir yeznəyə sayqısından o yana aşmazdı.Yalnız illərin sınağından çıxa-çıxa Nuru ilə Yusif də tədricən bir-birinə daha çox güvənməyə, ərk eləməyə başladılar.Xüsusən də Kərəmin yeri boş qalandan sonra...

Mən hərdən düşünürəm ki, əyər Kərəm Nurunun qaynı olmasaydı da, onlar bir ömür boyu bir-birini gözdən itirməyən, daima sıx əlaqə saxlayan, tez-tez görüşən, və bu görüşləri də həyatlarının bir parçası hesab edən dostlar olaraq qalacaqdılar.Çünki onların dostluqlarının bu qədər güclü olmasının kökündə, bir-birini uşaq yaşlarından tanımaları, eyni mühitdə böyümələri, birlikdə həyatın bərkindəm, boşundan çıxmaları, bir ailədə çörək kəsmələri dururdu.Onlar bir-birini bir

kitab kimi oxumuşdular, hər biri o birinin içini görürdü, ürəyini bilirdi.Onlar bir ömür boyu bir-birində heç yanılmadılar. Qardaşımın Nurunun qaynı olması faktı, onların daha çox dostluqlarına arxalanan münasibətlərində, sadəcə bir rəsmi ştrix idi.Kərəm qardaşım Nurunun böyük qaynı idi.Yalnız və yalnız bu durumda, mənim bu dostların arasındakı yerim öz qiymətini tapırdı, mənim də bu dostların həyatına yaxından şahid olduğumu, onların üçüncü bir dostu kimi onlara məxsus olan hər şeyi bildiyimi, paylaşdığımı göstərirdi.Bu mənada, biz əslində üç dost idik, Kərəm, Nuru, bir də mən...

Nurunun həyatında, onun özü ilə birlikdə daha bir üçlüyün tərkib hissəsini təşkil edən bizdən başqa iki dostu da vardı.Onlar Nurunun sinif yoldaşları idilər.Onlardan biri Aydın idi, biri də Arif.Orta məktəbin aşağı siniflərində tanış olub bir araya gəlmiş bu üç dostun dostluğu, illər ərzində ailəcə dostluğa çevrildi, həm də Nurunun və Arifin ömrünün sonuna kimi davam elədi.Nuru ilə məndən, Aydınla Adilədən, Arifə Lətifədən ibarət olan bu dostluq, hər birimizin üç övladını da bir araya gətirmiş, onları da dost eləmişdi.Biz hər dəfə bir araya gələndə, həm də aralarında bir-iki yaş fərqi olan doğğuz uşağı da bir araya gətirmiş olurduq.Bu dostluq başqa cür dostluq idi.Bəzən həyatın amansız dəli dalğaları onları qoynuna alıb elə uzaqlara apara bilirdi ki, həyati vacib məsələlər onları elə atıb-tutur, sahillərdən elə uzaqlaşdırırdı ki, belə zamanlarda onlar bir-birindən xəbərsiz yaşayar, bir müddət əsla bir-birindən xəbərləri olmazdı.Gah da həmin o dəli dalğalar o dostları bir həmlə ilə sahilə atar, onlar da bir-birinin üfüqlərində görünməyə, yaxınlaşmağa, bir-birini tapmağa başlayardılar.Bu üç dostun bütün ömrü belə keçdi.Hər üç ildən, beş ildən bir tapışdılar, sözlərini-söhbətlərini paylaşdılar, həyatlarındakı yaxşını da, pisi də qardaş malı kimi yarı böldülər.Mən, Kərəmlə Nurunun dostluğunda necə bir xüsusi statusa malik idimsə, bu üç dostun yaxın münasibətində də elə bir xüsusi statusa malik idim.Çünki, bu dəfə də,

əvvəlcədən bu üç dostla eyni məktəbdə oxumağım, mənə belə bir özəllik vermişdi.İlk tanışlıqlarından etibarən, mənim də onlarla eyni məktəbdə, iki sinif aşağıda oxumağım, məni onların yeniyetmə vaxtlarına da, daha sonra bütün ömürlərinə də şahid eləmişdi. Və mən şahidəm ki, bu üç dost, üç qardaşdan daha yaxın idi.Onların məhəbbəti də qardaş məhəbbətindən daha güclü idi.Bünövrəsi dördüncü sinifdən qoyulmuş bu dostlüğün ən şirin xatirələri də elə məktəb illərinin payına düşürdü. Orta məktəbi bitirdikdən sonra taleh onların yollarını ayrıldı.Hərəsi bir universitetə daxil oldu, universiteti bitirdi, başqa-başqa yerlərdə çalışmağa başladı.Təkcə evlilik məsələsində ikisi də bizim kimi eyni yolu getdi, tələbəlik illərində evləndi, ailəli tələbə oldu.Zamanla hər dostun üç övladı dünyaya gəldi, və bu körpələr bizi daha da yaxınlaşdırdı.O illərdə biz daha çox görüşürdük deyə, bilirdik ki, onlar da az əziyyət çəkmirdilər. Çünki, ailəli tələbə olmaq, asan məsələ deyildi.

Məktəbi bitiridkdən sonra yolları ayrılan üç dostun üçü də gənclik illərində evləndikdən sonra, bu dəfə biz üç ailə şəklində sıx-sıx görüşür, gah uşaqlarımızın ad günlərində, gah da kinoya, teatra, gəzməyə getmək məqsədilə bir araya gəlirdik.Həyat irəlilədikcə, görüşlər də azalır, müəyyən vaxtdan bir baş tuturdu.Nuru ilə Arif ömrünün yarım əsirlik bir hissəsini vətəndə yaşadılar, övladlarını orda böyütdülər.Sonra qismət onları daha uzaqlara apardı.Arif ailəsi ilə birlikdə Türkiyəyə, biz də ailcə Belçikaya köçdük.Təkcə Aydın vətəndə qaldı, o bu gün də vətəndə yaşayır.

2016-cı il, hər üç dostun həyatında qara zolaqla haşiyələnmiş bir çərçivə ili oldu. Əvvəlcə Arif Türkiyədə rəhmətə getdi.Həmin gün oğlu Elnur mənə mesaj yazdı, bu xəbəri mənə çatdırdı.Biz də oğlanlarımla Lətifəyə, Elnura başsağlığı verdik, Nurunun xəstəliyi üzündən hüzürə gələ bilməyəcəyimizi dedik, bizi üzürlü hesab eləmələrini xahiş elədik.Onlar da Nurunun belə bir xəstəliyi olduğunu o zaman öyrənmiş oldular.Bir

müddət bu xəbəri Nuruya deyə bilmədik.Sonra böyük oğlum təklif elədi ki, yavaş-yavaş bu xəbəri ona deyək, qoy bilsin.Bir gün biz Nurunun başına toplaşdıq, bu acı xəbəri ona dedik.Nuru elə sarsıldı ki, bunu ancaq görmək lazım idi...Bir-neçə gün onun sözü-söhbəti ancaq elə Arif oldu, göz yaşından boğula-boğula onunla yaşanmış xatirələrindən danışdı, biz də dinlədik.

Allah Arifə qəni-qəni rəhmət eləsin...

Sonra, Aydının həyat yoldaşı Adilənin xəbəri gəldi.Hamımız şok olduq.Çünki, Arifin xəstə olduğunu bilirdik, son zamanlar lap ağırlaşdığından da xəbərimiz vardı.Ancaq Adilə barədə bunu demək olmazdı.Adilənin xəstəliyi vardısa da, onun sağlığı o qədər də zəifləməmişdi.Onu son dəfə oğlumuzun toyunda görmüşdük, birlikdə doyunca rəqs eləmişdik.Adilə həyat dolu idi, gümrah idi.Bir şey var ki, ölüm, atalarımızın dediyi kimi, " gözlə qaş arasındadır." Onun vaxtı-vədəsi olmaz, nə zaman gələcəyi də bilinməz..

Adilə Nurudan iki ay əvvəl rəhmətə getdi.Ancaq biz bu xəbəri Nuruya demədik.Nurunun vəziyyəti bizi bu fikirdən daşındırdı, iki ay bu xəbəri ondan gizlətdik.Biz bu xəbəri Nuruya deyəndə, o artıq xəstəxanada idi.Bu xəbəri ondan gizlətdiyimizə görə bizi qınadı.Kiçik oğlumdan Aydının nömrəsini yığmağı xahiş elədi, Aydınla danışdı.O, Aydına duyğularını ifadə edən o bir-iki cümləni deyənə kimi, biz də həyəcandan Nuru kimi əsdik, Nuru kimi kövrəldik.Nuru sözləri qırıla-qırıla, dili dolaşa-dolaşa dostuna başsağlığı verdi, onu ovundurmağa çalışdı.Sonra Aydın mənimlə danışmaq istədiyini bildirdi.Mən də onunla danışdım.Xəstəxananın koridoruna çıxıb həqiqəti Aydına etiraf elədim.Zatən, Aydın Nurunun danışığından nəsə başa düşmüşdü. Ona görə də ilk sözü belə oldu :

--Düzünü de, Nurunun vəziyyəti necədir, danışığı heç xoşuma gəlmədi.

Mən də olduğunu dedim, Nurunun növbəti kemoterapidən yeni çıxdığını, indi kanserlə ölüm-dirim mücadiləsi apardığını

söylədim.Aydın kövrəldi, dostuna tezliklə sağalmağı arzuladı.

Üç gün sonra mən elə Nurunun palatasından, zəng vurub Aydına Nurunun vəfat elədiyini xəbər verdim.Qopardığım fəryadın içindən onun səsini eşitmirdim, sadəcə məni çağırdığını duyurdum.Ancaq mən onunla danışacaq halda deyildim, ona görə də telefonu kiçik oğluma verdim, o danışdı.Buna heç danışmaq da demək olmazdı.Bu başda mənim oğlumun ağalaya-ağlaya dediyi bir-iki kəlmə, o başda qəhərdən boğula-boğula ona qarşılıq verməyə çalışan Aydının bir-iki kəlməsinə qarışmışdı...

2016-cı ildə bu üç dostun üçünün də qapısını ölüm döydü.Bir evdən Arifi, bir evdən Adiləni, bir evdən də Nurunu alıb apardı...Evlərdən birində məni, birində Lətifəni, birində də Aydını tək qoydu, bizi ömür gün yoldaşını itirmiş dul insanlara çevirdi. Allah üçünə də rəhmət eləsin.Allah bizə səbir versin.

Vaxt vardı ki, bu üç evdən üç dostun şən qəh-qəhələri divarlara çat salardı.İndi o evlərin üçü də, suyu sovrulmuş dəyirmana dönüb, çünki, Arifin, Adilənin, Nurunun ölümü ilə, o üç evin üçündə də insana yaşamaq üçün həyat nəşəsi verən hər şey yarım qaldı...

...İndi o üç dostdan təkcə biri, Aydın həyatdadır.Allah ona uzun ömür versin.

Allah Nurəddinə, Arifə, Adiləyə, onlarla birlikdə bütün ölənlərimizə qəni-qəni rəhmət eləsin...

Ruhları şad olsun.Amin.

O və Mən...
Qürbətə aparan yollar...

Mənim 48, Nurunun da 50 yaşı olanda, biz Azərbaycanı tərk elədik...

Doğma vətəndə buraya qədər yaşadığımız həyat bir gün bizi küncə qısdı, biz də, yerimizdən-yurdumuzdan üz çevirib getmək qədər ağır bir qərarın hökmü altında, yarım əsirlik həyatımızın

üstündən xətt çəkərək, naməlum bir istiqamətə üz tutmağa məcbur qaldıq.Qısa zaman içində evimizi, evimizlə birlikdə hər şeyimizi dəyər-dəyməzə satdıq, dünya malından bir az əyin-baş, bir də var-dövlətimiz olan övladlarımızı da götürərək vətəni tərk elədik.

Bu bir turistik səfər deyildi, biz də kefimizdən dünya səyahətinə çıxmamışdıq.Bu, bizim ailəmiz üçün məcburi bir seçim idi.Bu seçimi bizim qarşımıza həyatın özü qoymuşdu.Biz siyasətçi deyildik, heç bir partiyanın üzvü də olmamışdıq.Bizim partiyamız, elə özümüz idik.Allahın verdiyi düşünmə qabiliyyəti sayəsində, ağlımızın kəsdiyi gündən, biz nəyin pis, nəyin yaxşı olduğunu özümüz ayırd edə bilirdik.Bunun üçün bizə dilmanc, yaxud bələdçi lazım deyildi.Xoşbəxtlikdən, valideynlərimiz bizi azad fikirli, açıq gözlü yetişdirmişdilər ki, bu da sonradan bizim həyat kredomuz olmuşdu. Düzə düz, əyriyə əyri demək kimi bir fərqliliyimiz, həyatımız boyu bizi kiçik uğurlara da, böyük problemlərə də tuş gətirən əsas səbəblərdən biri idi.Biz bu yaşa qədər harda yaşadıqsa, harda çalışdıqsa, hamı bizi düzgün yaşayan, doğruları danışan, doğruları da müdafiə edən insanlar kimi tanımışdı.Bizə güvənən doğru, sonuna kimi arxasında duracaq bir müdafiəçi, bizə güvənməyən yalan da, son ana kimi onu ifşa etməkdən əl çəkməyəcək bir rəqib görürdü.Bizim haqq tərəfdarı olmağımız əhatəmizdəki insanlardan kimlərisə sevindirirdisə, daha çoxlarının qəzəbini, nifrətini üzərimizə çəkirdi.Çoxluq, həmişə olduğu kimi hər şeyə şübhə ilə baxır, özünün paxıllıq kimi, gözügötürməzlik kimi miskin duyğularına təslim olduğundan, öz seçimini də yalnış verirdi.Haqqın yanında olmaqdansa, özünün də əziyyət çəkdiyi haqsızlığın yanında yer almağı seçirdi.

Belə haqsızlıqlarla dolu bir mühitdə biz övladlarımızı da özümüz kimi, düz amallı, düz niyyətli böyütmüşdük."Ən qısa yol-düz yoldur", deyərək, onlara bütün əyriliklərdən uzaq durmağı öyrətmişdik.Biz onları vətən üçün böyütmüşdük, öz xalqımıza şərəflə xidmət eləsinlər deyə böyütmüşdük.Onlar da böyüyüb boyumuz bərabəri olanda, artıq ali təhsilli, üç-dörd

dildə səlis danışan, dünyanın gərdişindən xəbəri olan aydın baxışlı insanlar idilər.Övladlarımız yaşadıqları cəmiyyətdəki dözülməz qüsurları, heç bir məntiqə uymayan nöqsanları görür, fürsət düşdükcə, bu cür antipotik bir mühitdə yaşamaq istəmədiklərini bəyan edirdilər.Ailəcə hamımız ali savadlı idik, hərəmizin əlində bir diplom vardı.Fəqət bu diplomların bizə yaratdığı imkanlar o qədər cılız idi ki, hamımızın maaşını bir yerə toplasaydıq da, birlikdə yaşadığımız bircə evin dolanışığına yetmirdi.Min-bir zillətlə böyüdüb boya-başa çatdırdığımız bu yetişkin insanların irəlidə ayrıca evə, ailələrini təmin eləmək üçün normal məvacibi olan işə, doğulacaq övladlarına sağlam bir cəmiyyət lazım olacaqdı ki, bunların hamısı Azərbaycan xalqı üçün bu gün də nağıllar aləmindən bir nağıl olaraq qalır.İnsanlığın bu nağıllarla görüşməsinin yalnız kitablarda mümkün olduğunu anlayır, heç nəyin xəyalını qura bilmirdik.Ən böyük qayğılarımız bu günü sabaha calamaq olmuşdu.Ömrümüzün ən gözəl illəri bu minvalla keçirdi.Ancaq biz, hələ bu halımızla da sevinməyə bir səbəb tapırdıq.Ona sevinirdik, ona şükür edirdik ki, başqaları kimi bu aydan o aya kimdənsə borc almaq zorunda qalmır, vəziyyətdən öz gücümüzə çıxa bilirdik. Doğrudur, biz aclıq çəkmirdik, ancaq hər şeyə ekonom eləməyimiz, vaxtaşırı gözümüzü çox şeydən çəkməyimiz, bizi həyatın dibinə düşməkdən saxlayırdı.İllərlə ürəyimizin istədiyinə, hələ istədiyimiz bir yana qalsın, ehtiyacımız olan çox şeyə həsrət yaşadığımız üçün, biz də bu cür yaşayışın qəhrəmanlarına çevrilmişdik. Çoxları bizdən nümunə götürməyə, özlərini bizə bənzətməyə çalışırdı.Belə yaşayışa uzun zaman dözmək də mümkün deyildi. Çətinlik dediyimiz bir şeyin olması da, ancaq bir-iki il ola bilərdi.Bütün həyatı bu cür yaşamaq nə mümkün idi, nə də insafdan idi.Belə yaşayışa kim dözərdi ki, biz də dözəydik?Boyu boyumuzca, huyu huyumuzca olan övladlarımızın təminatını ödəyə bilməməyin günahı bizdə olmasa da, onlar bizim, biz də onların qarşısında daima xəcalət

çəkməli olurduq. Biz, bu çarəsizliyimizdən xəcalət çəkirdik. Fəqət, hamımız bilirdik ki, bizə bu xəcaləti zorla çəkdirirdilər, bizi xəcalət çəkməyə məcbur buraxırdılar.Bir valideyin kimi, övladlarımızın sabahı üçün heç bir plan tuta bilmir, heç xəyal da qura bilmirdik.Mən əminəm ki, belə bir cəmiyyətdə, o zamanlar bizim adımızı fərsiz qoyanlar, bizi yaşamağı bacarmayan işə yaramazlar adlandıranlar da az olmamışdı.Belə insanlar bircə dəfə əllərini ürəklərinin üstünə qoyaraq, o firavan həyatı hansı yollarla əldə elədiklərini ancaq elə özlərinə etiraf edə bilsəydilər, anlayardılar ki, həmi haram yollarla əldə elədikləri zənginliklərinə görə, bir də bizim kimi təmiz vicdanlı insanları qınadıqlarına, gözdən salmağa çalışdıqlarına görə, nəhayət bir gün, bütün insanlığı hesaba çəkmək üçün insanların yolunu gözləyən əm böyük məhkəmədə, HAQQIN məhkəməsində cavab verməli olacaqlar.Bizi, toplumun o harınlamış hissəsinə fərsiz kimi göstərən də bizim düzgünlüyü, halallığı seçməyimiz idi ki, bu yoldan da dönməyimiz mümkün deyildi.Belə olan surətdə, biz də haqlı olaraq bizi bu günə qoyanlardan soruşurduq ki, biz niyə belə yaşayırıq, nəyin cəzasını çəkirik?Əyər belə bir sualla dövlət qurumlarına üz tutmaq, onlardan cavab istəmək günah idisə, Allah şahidimizdir ki, bu bizim yeganə günahımız idi.

Cəmiyyətdə ifrat dərəcəyə çatmış bir gərginlik hökm sürürdü.İşsizlik, maddi durumun gün-gündən aşağı düşərək, insanları dilənçi halına salması, hakimiyyət qurumlarının ən aşağı pilləsindən başlayaraq, zorla xalqdan toplanan rüşvətin ən kriminal qurum olan bir fondda toplanması, o fondun bütün cinayətkar qurumlara maddi dəstək verməsi, ölkə içində polis zorakılığı, əxlaqsızlıq, narkomaniya və daha neçə-neçə ciddi problemlər, dövlətin yürütdüyü məqsədyönlü siyasəti sayəsində özünün çiçəklənmə dövrünü yaşayırdı.Hərçənd ki, bu problem cəmiyyətin 80 %-nə aid idi, lakin ortada böyük bir susqunlar ordusundan, bir də etiraz səsini ucaltmağa çalışan, lakin hər addımda güclü təzyiqlərə məruz qalan bir ovuc insandan savayı

kimsə gözə dəymirdi.Etiraz səsini ucaldanları amansızcaçına cəzalandırırdılar deyə, susqunlar ordusu da dilini dişi ilə sıxaraq susurdu.Artıq, yetişməkdə olan neçənci nəsil gənclik də, gördüklərindən hansı nəticəni çıxardacağına düzgün qərar verə bilmir, az bir qismi o mübarizlərin dəstəsinə qoşulurdusa, daha çoxu yenə də gedib o susqunların yanında yer alırdı.Qorxu insanların canına, qanına işləmişdi.Ona görə də, bütün Azərbaycan xalqına az da olsa ümid bəxş edən mübariz insanların deyil, heç bir işə yaramayan, o mübariz insanların da yolunda ciddi bir əngəl kimi dayanan, susqunlar ordusunun sayı durmadan artırdı.

Susqunlar, iqtidardan qorxanlar daha çox idi, ancaq buna rağmən biz, bütün qorxuları aşaraq, hər fürsət düşəndə, həmin o bir ovuc mübariz insanların yanında yer alırdıq.Artıq övladlarımız da oxuduqları, çalışdıqları yerlərdə öz azad baxışları ilə, özgür fikirlər söyləmək cəsarəti ilə seçilir, diqqət çəkirdilər.O vaxtki hakim dairələri qorxuya salan, onların şirin yuxusuna haram qatan da belə gənclər, onlardakı iradə, hünər, cəsarət idi.Halbuki, onları bir dinləyən olsaydı, bu azad fikirlərdə qorxulu heç bir şey yox idi.Bu insanların niyyəti qarışıqlıq salmaq, dövlətə ziyan vurmaq, ölkəni dağıtmaq deyildi.Niyyət, cəmiyyətdə hər insanın normal yaşaması üçün normal şərait yaradılmasını, halal zəhmətlə çörək qazanmaq istəyən insanlar üçün iş yerlərinin açılmasını, sayı günbəgün artan, fəqət heç yerdə iş tapa bilməyən ali təhsilli insanlara çalışmaq üçün imkan yaradılmasını istəmək qədər məsum tələblərdən ibarət idi.Bu tələbləri də bir-birindən deyil, dövlətdən istəmək insanların doğal haqqı idi.Ağlı başında, savadlı, yaşayıb-yaratmaq potensialı yüksək olan insanlar, yaşadıqları bu çürük cəmiyyəti yeni reformlarla reabilitasiya eləmək, bu cəmiyyətə yeni nəfəs vermək, düşdüyü yerdən ayağa qaldırmaq istədiklərini dilə gətirirdilər.Onlar yalnız düşündüklərini, arzuladıqlarını, həyata keçirtmək istədiklərini deyirdilər.Həm də onların düşündükləri də, arzuladıqları da, həyata keçirtmək istədikləri də təkcə özləri

üçün deyildi, bütün xalq üçün idi, ölkə üçün idi, Azərbaycan üçün idi.Fəqət, hər addımda haqları tapdalanan bu insanlar, üz tutduqları hər dövlət idarələrində təhqir olunur, hər aidiyyatı təşkilatlarda ağızlarını açıb ürəklərindən keçəni dillərinə gətirən kimi, onları təhdid edir, hədələyirdilər.Düz sözə görə hər danışanın başına bir torba keçirmək adət halını almışdı, hər danışanı susdurmağa çalışırdılar. Həbsxanalara doldurulan, işgəncələrə məruz qalan, evindən, ailəsindən olan insanların günahı ancaq bu idi.Onların günahı, yaşadıqları dözülməz həyatı tərifləmək yerinə, həqiqətləri dilə gətirməkdən ibarət idi.Hayqıraraq küçələrə tökülən, etiraz səslərini hakimiyyət təmsilçilərinə çatdırmaq istəyən insanların sözünün canı bu idi:--
BİZ DAHA BELƏ YAŞAMAQ İSTƏMİRİK!

Bu cümlənin altında tom-tom kitablara sığmayan dərd-sər, ah-nalə yatırdı.Beləki, ilin-günün bu vaxtı hər biri 2-3 yerdə qul səviyyəsində çalışmaq məcburiyyətində qalan insanlar, bu zəhmətin müqabilində əllərinə miskin qəpik-quruş alır, bu üzdən də ailələrinin ən zəruri ehtiyaclarını belə təmin edə bilmirdilər.Vəziyyət bu qədər acınacaqlı ikən, xalqın səsini, sözünü eşidən yox idi.Cəmiyyətdə bir struktur kimi fəaliyyət göstərərək, millətin əleyhinə nüfuzunu gün-gündən artıran Milli Məclis vardı ki, onun əsas vəzifəsi, xalqın tələblərini hökümətə çatdırmaq, xalqla dövlər arasınsa qarşılıqlı anlaşma yaratmaq olmalı idi.Fəqət, həmin o millət vəkilləri, bir zamanlar xalqa yalan vədlər verərək illərlə oturduqları o kürsülərə yerləşən gündən, xalqı satdılar, xalqa arxa çevirdilər.Özlərinin başlıca vəzifələrini xalqa xidmətdə deyil, xalqa divan tutan vəzifəli məmurlarla birləşməkdə gördülər.O gündən də xalqın müdafiəçiləri olmalı deputatlar, rüşvətxor məmurların ortağı oldular.Onların bu hərəkəti, xalqa arxadan zərbə idi.Onların bu hərəkəti, o başıpozuq məmurların yerlərdə törətdikləri cinayətlərə şərik olmaları, ortaq çıxmaları qədər ağır cinayət idi.Çünki, onlar xalqın inamını satdılar, güvənini satdılar.Onlar

xalqı aldatdılar.Dövlət tərəfindən nəzarətsiz buraxılmış, hər cür özbaşınalığın baş verdiyi, polis cinayətlərinin başlı-başına buraxıldığı, qiymətlərin də gün-gündən qalxdığı bir cəmiyyətdə, insanlar dilənçi kökündə yaşayır, hər cür qanun pozğunluğuna məruz qalırdılar.Halbuki, bu boyda respublikanın sərvətlərinin az bir hissəsi də xalqın rifahına, güzəranına, yaşayışına sərf edilsəydi, dünyada bu ölkənin vətəndaşlarından xoşbəxti olmazdı.Nə var ki, ölkənin varı-dövləti bir ovuc rüşvətxor məmur tərəfindən oğurlanırdı, ata malı kimi bölüşdürülərək xalqın gözü önündə yeyilirdi, xalqın güzəranı da gün-gündən pisləşirdi.Təcili islahatlar aparılmalı, çoxdan simasını itirmiş Milli Məclis buraxılmalı, rüşvətin kökü kəsilməli, yeni iş yerləri açılmalı, insanlara normal şərait yaradılmalı, dünya standartlarına uyğun maaş, normal pensiya verilməli idi.Ancaq iqtidar bu arzulardan çox uzaq idi deyə, xalqın şikayətlərini eşitmək istəmir, sözlərini qərəzli adlandırır, onlara ya vətən xaini, ya hansı ölkəninsə casusu, ya da narkoman kimi böhtanlar atır, şərləyərək içəri tıxmağa çalışırdı.O zaman da mənfur planlar işə düşürdü.İqtidar, tabeçiliyindəki güc strukturlarını və digər başqa imkanlarını səfərbər edərək, onlardan öz xalqına qarşı, xalqı əzmək, susdurmaq məqsədi ilə istifadə edirdi.

Bu da sözdür ki, ölkədə yaşanan problemlərlə dövlətə müraciət edəsən, kömək istəyəsən, dövlət də o dediyin məsələləri səndən də yaxşı bildiyi halda, səni qərəzli fikir söyləyən adlandırsın, hələ sənə qarşı ciddi tədbirlər də görsün.İnsanların haqq səsi dünyaya yayılandan sonra da, "Dövlət də bir ailədir, ailənin sözü ailədən kənara çıxmamalıdır", şüarı yada düşsün, səni də vətən xaini adlandırsınlar.Deyək ki, dövlət də bir ailədir.Elə isə ailə içində bir problem yaranarsa, ailə üzvlərindən biri o problem barədə ailənin başçısına məlumat verməli deyildimi?Ailə başçısı da buna bir çarə axtarmalı deyildimi?Ancaq görünürdü ki, məqsəd bu deyildi.Sistem vətəndaşdan başqa şey tələb edirdi.Sistem

danışmağa imkan vermir, yalnız və yalnız susmağı tələb edirdi. "Baxmağına baxın, görməyinə görün, anlayırsınızsa, canınız cəhənnəmə, anlayın, ancaq susun.Baxmaq olar, görmək olar, anlamaq olar, təkcə danışmaq olmaz."

Millət həqiqətən də cəmiyyətdə baş verənlərə baxırdı, çünki harın təbəqə öz şah-şahlı yaşayışını özü millətin gözünə soxurdu.Televiziya kanalları 24 saat onların israfçılıqla dolu firavan həyatlarından verilişlər hazırlayır, bununla da kasıb təbəqəni bu "gözəlliklərə" tamaşa eləməyə məcbur edirdi.Ona görə də, bir ölkədə yaşayan, bir-birindən bu dərəcə fərqlənən iki təbəqənin həyatı daima göz qabağında idi.

Millət görürdü ki, toxun acdan xəbəri yoxdur, tox deyir ki, mən ki toxam, başqaları məni maraqlandırmır.Millət hər şeyi görürdü. Millət anlayırdı ki, bu oğurlanan, yeyiləndə yeyilən, özgələrə də yedirdilən, yeyilməyəndə də çölə atılan onun özünün, onun ailəsinin haqqıdır.Millət bunu anlayırdı.

Sıra səsini çıxartmağa, bunları danışmağa gələndə, yuxarılardan "Susun!!!"əmri gəlirdi., Bu hesabla, görəsən xalq kim olurdu? Belə gedişatın nəticəsində xalqı nə yerinə qoyurdular? Qoyun yerinə!!!Neçə-neçə milyonluq qoyun sürüsü yerinə!!!

Bəs xalqın savadlı, öz biliyinə, savadına güvənən hissəsi necə olsun?Onlar susmaq, qoyun yerinə qoyulmaq istəmirdilər, axı...Onlar buna etiraz edirdilər...Bu da onların haqqı idi axı...

***

Biz də sıradan bir vətəndaş kimi, zaman-zaman səsini ucaldan o cəsur insanların arasında olurduq, sözümüzü deməkdən çəkinmirdik.Çünki bu problemlər bizə də aid idi.Sözün düzünü dediyimiz üçün dəfələrlə işdən qovulduğumuz da olurdu, təhdidlər də eşidirdik, bundan sonrakı həyat yolumuza maneələr də düzülürdü.O maneələri aşmaq da asan olmurdu.Beləcə, yalnız başımızdan qəribə-qəribə olaylar

keçəndən sonra biz anladıq ki, artıq ailəcə kimlərinsə hədəfindəyik. Bizimlə həmfikir olanların, bizə canı yananların dolayı yollarla bizə çatdırdığı məlumatlara görə, artıq övladlarımıza qarşı mənfur planlar hazırlanmaqda imiş.Biz övladlarımızı elə yetişdirmişdik ki, inandıqları həqiqətlər uğruna nəyə desələr gedərdilər.Bir tərəfdən biz övladlarımızla qürur duyurduq.Əyər biz sağlam bir cəmiyyətdə yaşasaydıq, əqidələrinə sadiq qalmaları onlara da, bizə də ancaq baş ucalığı gətirərdi, digər tərəfdənsə, sağlam cəmiyyəti hardan tapaydıq ki, biz də bu təmiz vicdanlı övladlarımızla qürur duyaydıq...Ancaq biz yenə də onlarla qürur duyurduq, çünki onlar öz haqlarını tələb edirdilər, çünki onlar bizim sabahımız, gələcəyimiz idilər..Biz özümüz də bir vətəndaş kimi, eyni tələblərlə hər zaman onların haqlı tələblərinə dəstək verirdik. Fəqət, onlara qarşı bir risk, bir təhlükə hiss etdikdə, bizim valideyin instinktimiz işə düşürdü, onları qorumağa çalışırdıq.Gənclərimiz nə qədər ürəkli olsalar da, heç nədən qorxmadıqlarını söyləsələr də, övladlarımızın yanında biz vardıq ki, onları bu oda, bu atəşə atmağa razı deyildik.Yubanmaq olmazdı, gözümüzün önündə o qədər azad fikirli gəncləri həbs edərək, izini də itirmişdilər ki...Valideyinləri aylarla dövlət qurumlarının, polis idarələrinin, təcridxanaların qapısında yatırdılar, ancaq oğullarından bir xəbər ala bilmirdilər.O gənclər sağ idimi, yoxsa, başlarına bir şey gəlmişdimi? Bunu da bilən, deyən yox idi.Mən bir anlıq, özümü o valideyinlərin yerinə qoyurdum, az qalırdı ürəyim ağzımdan çıxsın.Bir şeyi artıq anlamışdıq.Vətəndə həyatımız təhlükədə idi.Bu təhlükə də artıq təkcə ikimizə aid deyildi, bu təhlükə, artıq övladlarımızın da ətrafını sarmışdı.Daha doğrusu, artıq bilirdik ki, mənfur niyyətli qüvvələr bir gün hərəkətə keçsəydilər, öncə övladlarımızdan başlayacaqdılar. Çünki, onların bütün bəd niyyətləri gənclərin əleyhinə idi.Doğruları danışan, haqq sözləri ilə cəmiyyətdə nüfuz qazanmağa başlayan gəncləri daha çox hədəf alırdılar.Onların son zamanlardakı dəsti-

xətti belə bir senari üzrə inkişaf edirdi: övladları həbs edirdilər, valideyinlər də qalırdı idarələrin qapılarında.Necə deyərlər, bir güllə ilə iki quş vururdular.Cəmiyyətdə haqsızlıq at oynadırdı, özbaşınalıq baş alıb gedirdi.Ölkə içində anarxiya əmələ gətirmiş hakim dairələrin kəsdiyi başa sorğu yox idi.Məhkəmələr, hakimlər hamısı satılmış, kimisi qorxu ilə, kimisi də rüşvətlə susdurulmuşdu.Bu durumda tülkü tülkülüyünü sübut edincə, dərisini boğazından çıxardırdılar.Azərbaycanda bu deyim heç vaxt bu qədər aktual olmamışdı.Belə bir vaxtda ağlımıza buralardan getmək fikrindən başqa bir şey gəlmirdi.

Təkcə özümüzə qalsaydı, bəlkə də biz heç yana getməzdik, vətəndə qalar, "ya bizə verən Allah, ya da onlara," deyərək mübarizəmizə davam edərdik.Ailəmizdə ideya birliyi var idi deyə, haqsızlığa qarşı mübarizə aparmaq potensialı da yüksək idi.Bu bizi bir-birimizə daha da möhkəm bağlayırdı.Bizim mübarizəmiz, əslində sadə bir etirafdan, yalnız düşündüyümüzü deməkdən ibarət idi."Biz də insan kimi yaşamaq istəyirik!" Vəssalam!Buna min don geyindirənlərin günahı onların öz boynuna olsun ki, həmi tutduqları vəzifədən sui-istifadə edərək, insanlara zülüm edirdilər, həm də etiraz səsini ucaldanlara cürbəcür böhtanlar ataraq, susdurmağa çalışırdılar.

O vaxtlar ətrafımızda bizim sözümüzü eşidən, bizə dəstək verən yüzlərlə təmiz vicdanlı insanlar var idi.Onlara güvənərək qalmaq da olardı.Ancaq bir şey vardı ki, biz Azərbaycanda yüksək vəzifədə oturmuş bir ovuc oliqarxın hökmünü, özbaşınalığını görürdüksə, başqa bir qrup, cəsur və mübariz insanların da onlara qarşı mübarizə apardığını, həm də canidildən mübarizə apardığını, öz həyatlarını, övladlarının həyatını, gələcəyini təhlükəyə ataraq mübarizə apardıqlarını da öz gözlərimizlə görmüş insanlar idik.Sual ola bilər ki, bəs nədən qorxdunuz, niyə getdiniz?

Səbəb əcaib idi, qorxunc idi.Biz, bu hadisələrin baş verdiyi eyni zamanda, eyni məkanda, Azərbaycanda elə bir toplumu da

görürdük ki, onlar da burda yaşayır, hər şeyi görür, hər şeyi bilirdilər.Həm də onlar Azərbaycan xalqının böyük bir hissəsini təşkil edirdilər.Özləri də sürdükləri acınacaqlı həyat şəraiti baxımından zülüm çəkənlərin içində, tən ortasında idilər.Fəqət, işin ən qəribə tərəfi, onlar əqidəcə nə zülüm verənlərin, nə də zülüm çəkənlərin yanında deyildilər. Onlar kənarda idilər, onlar heç nəyə qarışmır, heç bir fikir söyləmirdilər.Onlar susqunlar idilər.Neçə-neçə milyonluq susqunlar ordusu...Bu dəhşətli bir şey idi...Hakim qurumlar da onların bu susqunluğundan istifadə edərək, bu susqunluğun sonsuza qədər pozulmayacağından əmin olduğu üçün, bu susqunlar ordusundan qorxmadığı üçün belə sərbəst hərəkət edir, öz amansız siyasətini yeridə bilirdi.Susqunlar, hər şeyə biganə qalan, özünü məzlumluğa vuran, acizliyini bəhanə gətirərək qorxularına sığınan, bilə-bilə mübarizədən kənarda daldalanan insanlar idilər.Biz onları da görürdük və bilirdik ki, məhz belələrinin biganəliyi üzündən, zülümə boyun əymək istəməyən o qeyrətli oğullar hər fürsətdə qırğına da verilirdi, həbs edilərək təcridxanalara da salınırdı, orda illərlə işgəncələrə məruz qalırdı, cürüyürdü, məhv olub gedirdi.Biz bunları da öz gözləri ilə görmüş insanlar idik.Halbuki, bu mübariz insanlar əlbət ki, gec-tez öz istəklərinə nail olacaqdılar, buna nə şübhə?Ancaq o zaman, onların özləri nə halda olacaqdılar, o günü görəcəkdilərmi, bu da məlum deyildi, fəqət o günlərin dadını çıxardan, o mübarizənin nailiyyətlərindən faydalanan da həmin o susqunlar ordusu olacaqdı. Məsələnin həlli xalqın birləşməsində, yekdil etiraz səsini ucaltmasında idi, ancaq heç kim də bu birliyə gəlmirdi deyə, mübariz insanlar da orda-burda təklənir, müxtəlif bəhanələrlə şərlənir, həbs olunurdu.Qalsaydıq, bizi də, balalarımızı da belə bir aqibət gözləyirdi.Özümüzə heyfimiz gəlmirdi, ancaq gənclərimizi bu qəddar hökümətə yem edə bilməzdik.Ona görə də, günlərin bir günü, arxamızdan deyiləcək bütün qınaqlara qulağımızı tıxadıq, övladlarımızı

çətinliklə də olsa yola gətirdik, götürüb getdik.Necə deyərlər, "keçmə namərd körpüsündən, qoy aparsın sellər səni..."

Vətənimizi ən son gördüyümüzdə, cəmiyyətin sosial durumu da, siyasi durumu da bu qədər ciddi olmaqla yanaşı, üstəlik respublika bütövlükdə dərin bir dərəyə yuvarlanmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Aradan xeyli zaman keçdi, və keçən zaman bir daha sübut elədi ki, Nuru ilə biz o vaxt düz hərəkət eləmişdik.O vaxt övladlarımız, heç gözləmədikləri halda, bizim onların qarşısına qoyduğumuz paradoksal bir seçimlə qarşılaşdılar, qəbul etməmək üçün xeyli direniş göstərdilər, ancaq sonunda, məntiqi baxımdan bizim haqlı olduğumuzu da qəbul elədilər. Paradoks ondan ibarət idi ki, kiçik yaşlarından övladlarımıza vətəni cani-könüldən sevməyi öyrədən də biz olmuşduq, məcburiyyət tələb edəndə, vətəndən getməyi şərt kimi onların qarşısına qoyan da biz olduq.Belə hərəkət eləmək üçün əlimizdə ciddi səbəblərimiz var idi.Belə olmuşdu ki, biz öz ömrümüzü yalnış yaşamışdıq. Yəni, sovet sisteminin özülünü təşkil edən kommunist ideologiyasının, fəhlə və kəndli təbəqəsini "əbləh" yerinə qoyaraq, beyninə yeritdiyi bir patriotizm ruhunda tərbiyə almağımız, bizim bütün sonrakı həyatımızı bu yalançı vətənpərvərlik hissinə təslim elədi, bizi o boğazdan yuxarı səslənən, alt qatında aldadılmış insanların qırğınlara qurban verilməsindən savayı heç bir şey olmayan şüarlara satdı.Biz anlayanda ki, fəhlə-kəndli təbəqəsinin övladları bu ad altında, hakimmiyyət mənsublarının şəxsi marağı uğruna cürbəcür savaşlara sürüklənir, artıq neçənci nəsildir ki, bir ucdan yetişdirilir, bir ucdan da qoyun sürüsü kimi qırğına verilir, ömür yarıdan keçmişdi. Arxamızda, atalarımızın, babalarımızın bu nağıllara uyaraq aldanması, önümüzdə də içini görə bilmədiyimiz qaranıq dururdu.Ya aldanmağı seçib qalmalı idik, ya da o qaranlığa baş vurmalı idik.Aldanıb qalmağın nə ilə bitdiyini artıq üçüncü nəsil idik ki, öz gözümüzlə görür, o həyatı

yaşayırdıq. Övladlarımızın da bu yolla getməsinə könlümüz razı olmadı.Biz vaxtında anladıq ki, burda bir az da yubansaq, sıra bizim övladlarımıza da çatacaq.Böyümələrində dövlət qurumlarının boş vədlərindən, pafoslu çıxışlarından başqa heç bir qatqısı olmayan, yalnız öz imkanlarımızla, öz gücümüzlə, zillətlə böyütdüyümüz övladlarımız, növbəti "Dağlıq Qarabağ" məsələsi kimi uydurulmuş siyasi oyunun qurbanı olacaqlar.Oyunun da oyun olduğunu lap başdan hər kəs bilirdi.Bu dəfə biz, fərqli düşünür, övladlarımızın da qurbanlıq qoyun yerinə qoyulmasına razı olmurduq.Odur ki, qaranlığa baş vurmağı seçdik, ümidlərimizi nəyə bağladığımızı özümüz də bilmədən, getməyə qərar verdik.Bir halda ki, kasıb təbəqənin övladları cəbhədə qırğına verildiyi bir zamanda, həmin o "irəli" əmrini verənlərin balaları Avropada, Amerikada isti yorğan altında barama qurdu kimi bəslənirdi, bir halda ki, cəbhədə həlak olan xınalı quzuların qanı yerdə qalırdı, bir halda ki, şəhid analarının dünyaya yayılan ahu-naləsini ölkə içində eşidən yox idi, biz də öz valideyin haqqımızı, lap elə insanlıq haqqımızı qullanacaq, arxamızdan bu hərəkətin adını nə qoysalar da, başımızı götürüb gedəcəyik.

Beləcə getməyə qərar verdik, və getdik...

Bu gün biz də Avropada yaşayırıq, dövlət başçılarının gülməşəkər balaları da. Düşünmək olardı ki, nəhayət haqqın tarazlığı düzəldi.Ancaq yox, tarazlıq düzəlmədi, çünki biz burda yaşadığımız ölkənin humanist qanunlarına uyaraq yaşayır, buranın öz vətəndaşları kimi, hərə bir işdə çalışaraq halal zəhmətlə dolanırıq, onlarsa atalarının göndərdiyi haram pullarla burda da hər oyundan çıxırlar, Avropa ölkələrinin qəzetlərinə manşet olurlar.Tarazlıq düzəlmədi, çünki Azərbaycan dövlətinin qanunları qarşısında onların hərəsi bir igid qəhrəman, bizim övladlarımız isə, onların ataları üçün, həm də həmin o ölkədə, hərəsi bir postda oturaraq özbaşınalıq edən, millətin qanını içən, balalarını da qırğına verən oliqarx ataları üçün, qanunu pozan

cinayətkarlardır.Tarazlıq düzəlmədi, çünki bu qoluzorlu məmurlar öz övladlarının harda yaşamasına, necə yaşamasına keflərinin istədiyi kimi qərar verə bildikləri halda, bizdən, onların ağzından çıxan ən düşünülməmiş, ən geri zəkalı qərara uymağı, barmaqlarını hara tuşlasalar, canımızın bir parçası olan övladlarımızı ora göndərməyi tələb edirdilər.Əyər bu sətirləri oxuyanların arasında bunun adını ədalət qoyan tapılarsa, qoy belə bir ədalət həmin o adamın özünə qismət olsun.

***

Aradan zaman keçirdi, biz də su kimi axıb gedən zamanın ardından arabir geri boylanırdıq, gəldiyimiz yola baxır, bir daha qəbul edirdik ki, biz doğru olanı seçmişik.Geridə buraxdığımız hadisələr tam da bizim düşündüyümüz kimi inkişaf edirdi.Aradan uzun zaman keçdiyinə baxmayaraq, bu illər ərzində heç nə dəyişməmişdi. Olaylar həmin olaylar, xəbərlər də həmin xəbərlər idi.Xalqın güzəranı daha da çətinləşmiş, daha dözülməz olmuşdu.O mənfur siyasi oyun hələ də davam etməkdə, millətin gənc övladları hələ də qırğına verilməkdə idi.Belə olan surətdə, məntiqlə, heç kimin bizi qınamağa haqqı çatmamalı idi, çünki bizim də özümüzə görə daşdan-dəmirdən keçə bilən haqqımız var idi.Bu, bəlkə ölkəmizin qanunlarının bizə vermədiyi, lakin Uca Yaradanın bizə verdiyi bir valideyin haqqı idi.Doğrular bunu deyirdi ki, hər valideyin övladlarını qorumaqla mükəlləfdir.

Cəmiyyətdə çoxluq təşkil edən passiv, tənbəl, biganə insanların çoxundan fərqli olaraq, bizi tanıyanların, həyat yolumuzu o başdan təqib edənlərin şahidliyi sayəsində, bəlkə bizim də adımız nə vaxtsa, tarixin salnaməsində kiçik hərflərlə də olsa keçəcəkdi.Hətta belə deyilsə də, ən azından biz heç vaxt "susan şeytanların" cərgəsində olmadıq.Biz, Həzrəti İbrahim üçün qalanmış tonqala su daşıyan qarışqa qədər də olsa,

vicdanımızın səsini dinlədik, o nəhəng tonqala bir qarışqanın daşıyacağı qədər su daşıdıq.O su bir şeyə yaramayacaqdısa da, ən azından niyyətimizi bəlli edəcəkdi.Deyirlər ki, insanın niyyəti, onun əməlindən də qat-qat vacib şeydir bu dünyada.Çünki insanın niyyətini hər kəsdən öncə Allah görür, bilir.Ona görə də hər insanın niyyəti, onun əməllərinə yol açar, insan o yola üz tutunca da, bu dəfə niyyət o yolda insana mənzil başına kimi yelkən tutar, azmağa, itməyə qoymaz.O da doğrudur ki, əyər bir insanda niyyət yoxdursa, o insandan əməl gözləməyin də mənası yoxdur.

Bizi tanıyanlar, bizi bu gün də xatırlayanlar, o vaxt bizim niyyətimizdən xəbərdar olan, bizi niyyətimizlə birlikdə qəbul edən, bizi sevən, bizə inanan insanlar idilər.Onlar bizim dostlarımız, qohumlarımız idilər. Onlar bu gün də yaxşı bilirlər ki, niyə biz vaxtilə mübarizədən kənarda qala bilmədik, niyə hər yerdə mübarizə aparanların arasında olduq, sonra da niyə birdən hər şeyi atıb getdik.Onlar bilirlər ki, haqq-ədalət axtaranlarla bir yerdə mübarizə meydanlarında olmağımız, onlarla bir yerdə sözümüzü də qorxmadan, çəkinmədən deməyimiz, əslində bizim vicdanımızın səsi, ürəyimizin tələbi idi.Sonda hər şeyi buraxıb getdiksə də, bunun da məntiqli açıqlaması vardı, və onlar bunu da bilirlər.Əvvəla biz ailə olaraq, başqalarına nisbətən, vətənə borcumuzu zamanında ödəmişdik.Çalışdıqsa, zəhmətimizə qiymət verilmədisə də, namusla çalışdıq, əskəri xidmətsə, Nuru özü iki dəfə əskərlik çəkdi, oğlanlarımız əskəri xidmətdən əlavə hələ Qarabağ savaşında da ön cəbhədə vuruşdular.Ancaq vətəndaş da, vətənə bütün bu borclarını ödədikdən sonra bir az da insan kimi yaşamağı haqq edər.Əl-əli yuyarsa, əl də üzü yumalı deyilmi?Bir xalqa nə qədər ancaq elə əmr vermək olar, onun yaşayışını da yada salmaq, ona normal şərait yaratmaq, haqqını ödəmək lazım deyilmi?Biz bunu görmədik, nə vaxtsa görəcəyimizə də inamımız qalmadı.Elə ki, mövzu balalarımız oldu, biz də bir an belə tərəddüd etmədən bu yola baş qoyduq.O

vaxt çox qəribə bir dönəm idi.İnsanlar sanki qaranlıq bir tunelin içində qərarsızlığa məruz qalmışdılar.Arxada da qaranlıq vardı, irəli də də...O vaxt çoxluq arxadakı qaranlığı seçdisə də, bizim kimi gerini artıq geridə buraxmağı, arxadakı o məlum qaranlıqdansa, irəlidəki naməlum qaranlığı seçənlər də az olmadı.Biz, bundan sonrasını Allaha buraxaraq, görmədiyimiz, bilmədiyimiz, tanımadığımız irəlini seçdik.

Nə edəsən ki, insanların çoxu haqqı danan, gözlərinin önündə baş verənlərə də şahidlik etməkdən ərinən olurlar.Hər şeyi görə-görə, hər şeyi anlaya-anlaya inadla susan insandan təhlükəlisi yoxdur məncə.Biri, hər şeyi gözünün altına alaraq meydana atılıb mənim də yaşadığım cətinliklərdən danışırsa, mən ona necə dəstək olmayım?Bir nəfərin dediyini yüz nəfər də təkrar eləsə, bunun effekti daha çox olmazmı?

Doğrudur, insanların qorxusu da əbəs yerə deyildi.Əyər bir cəmiyyətdə, insana ancaq deyilmiş sözə görə ən ağır cəza kəsilirsə, o söz nə qədər yalnış olsa da, mənası nə qədər ağır olsa da, qarşılığı fiziki cəza olmamalıdır.Bu düzgün deyil, bu nadanlıqdır, vəhşilikdir, və bu dözülməzdir.Bir cəmiyyətdə insanı ancaq dediyi sözə görə döyürlərsə, ona işgəncə verirlərsə, daha başqa insanlıqdan kənar cəzalara əl atırlarsa, bu sistem sağlam deyil, geri qalmış bir sistemdir.Bu dəsti-xətt, heç şübhəsiz ki, həmin cəmiyyətdə feodalizm sisteminin mövcudluğunun göstəricisidir.

Bu yerdə bir xatirə yadıma düşür.Yeni gəldiyimiz vaxtlar idi.Günlərin bir günü bizim uşaqlar polisə düşürlər.Bu da həmişəki kimi, Avropada qudurub dilini dinc qoymayan bir ermənini döydükləri üçün olur.Polis məmuru uşaqlardan soruşur ki, siz bu adamı niyə döymüsünüz?Uşaqlar da polisə ermənilərlə müharibə şəraitində olduğumuzdan, bu məsələ ilə əlaqəli məlum problemlərdən danışırlar.Sonunda da deyirlər ki, o özü də bilirdi ki, bu sözə görə bizdən payını alacaq, ancaq yenə də qudurub bizə belə bir söz atdı.Polis uşaqlara deyir ki, siz onu

döyməməli idiniz, bir sözün cəzası da söz olmalıdır.Məyər söz bitmişdi ki, siz ona əl qaldırırdınız?Məyər onun dediyindən kəskin söz tapmaq, onun sözünə sözlə cavab vermək bu qədər çətin idi?Sözə sözlə cavab vermək daha doğru olmazdımı?Siz ona əl qaldırmaqla haqlı idinizsə də haqsız duruma düşdünüz.Çünki o sizə sadəcə söz deyib, siz isə onu əzişdirib bu günə salmısınız.Bu durumda günahkar siz olursunuz.

İndi mən də fikirləşirəm ki, məyər bizim hökümət də belə bir humanist yol tuta bilməzmi?Sözün cavabını da sözlə verə bilməzmi?Təkcə sözə görə insanları döymək, həbs eləmək, işgəncə vermək nə qədər doğrudur?Yoxsa biz feodalizm sistemində yaşayırıq, xəbərimiz yoxdur?Əyər beladirsə, bir dəfə bunu boynlarına alsınlar, biz də bilək, qurtarsın getsin.

Deyək ki, insanlar bir sıra tələblərlə nümayişə çıxıblar.Dövlət orqanları onları dinləyə bilər, sözlərinin cavabını da sözlə verə bilər.Bu söz də bir vəəd ola bilər, bir plan ola bilər, bir nəzəriyyə ola bilər, axır ki, yaranmış kritik vəziyyətdən çıxış yolu tapmaq naminə bir xoş söz ola bilər.Biz də bilirik ki, deyilənlərin hamısı yalan olacaq, ancaq heç olmasa o yalanı da döymədən, söymədən, işgəncə vermədən desinlər.Yoxsa bu da işdir ki, güc strukturları insanları döyə-döyə insanlıqdan da çıxardıblar. Görəsən bu yerişlə bu cəmiyyət hara gedir?Bunu bir düşünən varmı?

Azərbaycan xalqı bəlkə də yeganə xalqdır ki, onu dözümlü olmaqda həm ittiham edirlər, həm də tərifləyirlər.Ancaq Azərbaycan xalqını nə bu ittiham, nə də bu tənqid öz halından çıxarda bilmir.Bu xalq inadla susmaqdan başqa heç nəyə yaramır, odur ki, ortada heç nə də baş vermir.Daş dilə gəlir, ancaq Azərbaycan xalqı dilə gəlmir ki, gəlmir.Niyə belə elədiklərinin yəqin ki, məntiqli bir səbəbi vardır, ancaq ömür başa gəldi, mənsə belə insanları heç vaxt anlaya bilmədim. Susmaq bir yana qalsın, sözün düzünü deyənləri hələ bir qınayanlar da tapılır.Söhbət, hamının yerinə meydanlara çıxanları, hamının dərdini ucadan deyənləri qınayanlardan gedir,

bu cəsur insanların, hər günü yaşam mücadiləsi ilə dolu keşməkeşli həyatına kölgə salmaq istəyənlərdən gedir.

Yeri gəlmişkən, bizi qınayanlar da az olmadı.Onların çoxu bizim bədxahlarımız, düşmənlərimiz idi.Düşmən, adı üstündə düşməndir, o hər zaman öz düşmənçiliyini eləməlidir, onun elədiyi də bizə heç toxunmurdu.Bəs dosta nə deyəsən ki, bizim həyat yolumuzu bizimlə birgə keçməsə də, yaxın olduğumuz üçün başımıza gələnlərdən də xəbərdar idilər, həyatımızı da bir seyirçi kimi də olsa, izləmişdilər.Bəs belə dostların bizi suçlamasını necə izah eləməli?Elə adamlar ki, hələ mənim burda yazmağı lazım bilmədiyim çox mətləblərdən də agahdırlar, o məsələləri gözləri ilə görüb, qulaqları ilə eşitmişdilər? Nə edək ki, həyatını bizimlə çox yaxın münasibətlərdə yaşamış, hər günümüzə şahidlik edə biləcək insanların çoxu bu gün aramızda yoxdur.Halbuki, onlar bizim çəkdiyimiz zəhmətə bu gün daha obyektiv bir qiymət verə bilərdilər.Bu qiymətə bizim ehtiyacımız olmasa da, onlar bizi müdafiə edər, bizi yersiz qınaqlardan qoruya bilərdilər.Dünya elə dəyişib ki, insanlar elə güvənilməz olub ki, sənin haqlı olduğunu hamı bilsə də, kimsə sənə dəstək olmaq istəmir, elə bil buna ərinir.Ancaq qınamağa gəlincə, baxırsan ki, bu yerdə hamı həmişə hazırdır, heç kim gecikməz, dəxli olan da, olmayan da özünü tez çatdırar.Həm də dəstək kimdən gələr bilməzsən, ancaq qınaq gələndə elə doğmaların içindən də gələ bilər.Onda anlayırsan ki, qorxu bu millətin qanına elə işləyib ki, bəlkə hələ qanının rəngini də dəyişib, xəbərimiz yoxdur.O zaman da qəbul edirsən ki, güvən kimi, vəfa kimi, etibar kimi ağır çəkili duyğular məhz həmin o mübarizə meydanında qazanılmayıbsa, o şəraitdə sınanmayıbsa, onlara güvənməyə dəyməz.

Nə yaxşı ki, məndə bir gün hamıya yazığı gəldiyi üçün, bir gün də ancaq mənə yazığı gəldiyi üçün göynəyən bu ürək var.Belə bir ürək daşıdığımdan məni tanıyanların da xəbəri var, onlar da bilirlər.Həmin o ürəyimin göynərtisi məni, bizi

qınayanlardan inciməyə qoymadı, onların təpkisini anlamaqda çətinlik çəkdimsə də, daha çox ürəyim ağrıdı.Bəlkə onlar üçün susmaq, "dözümlü xalqın" bir fərdi olmaq daha xoş idi... Bəlkə son çarə idi...Bilmirəm...

Dərindən düşünəndə, bizim etiraz səsimiz daha çox sosial xarakter daşıyırdı.Burda bir şeyi anlamaq lazım idi, biz heç kimə qarşı həqarət eləmirdik.Biz özümüz yaşadığımız həyatın içindən çıxış edərək, o həyatı daha sürdürə bilmədiyimiz üçün buna etiraz edirdik.Hətta səslərini çıxartmayanlar da bilirdilər ki, biz haqlıyıq, biz daha bu rəzilliyə dözmək istəmirdik.Fərq onda idi ki, biz gerisini heç düşünmədən danışırdıq, onlarsa min-bir səbəbi gözlərinin önünə gətirərək susurdular.Biz dediklərimizi də təkcə özümüz üçün demirdik, orda yaşayan hər kəsin adından, həm də doğmalarımız üçün deyirdik.Biz heç vaxt özümüzü onlardan ayrı tutmadıq ki...Biz ancaq getmək qərarına gələndə o toplumla yollarımızı ayırdıq.Çünki baş götürüb getmək, artıq bizim fərdi seçimimiz idi, bizim özümüz üçün tutduğumuz bir yol idi.O yolu seçib-seçməmək də, hər kəsin özünə qalırdı.

***

Bəlkə kimsə inanmayacaq, ancaq bu mənim səmimi sözümdür ki, biz öz vətənimizi, bəlkə orda yaşayanlardan da çox sevirik.Biz vətəndə baş verən eybəcərliklərin orda necə əks-səda verməyindən ziyadə, bu hadisələrin dünyada necə şöhrət tapacağından da narahatlıq çəkən bir toplumuq.Biz, orda baş verənlərin dünya ictimaiyyəti tərəfindən necə qəbul olunacağını düşünən, bunu özünə dərd edən bir toplumuq.Bu mənada, qürbətdə yaşayanlar vətənlərini əsil məhəbbətlə sevirlər. Vətənimizi sevdiyimiz üçündür ki, onun aqibəti bizi daim narahat edir, bizə rahatlıq vermir, bizi qorxudur.Əyər övladlarımın başının üstünü almış ciddi bir təhlükə olmasaydı,

biz daşı-torpağı, dənizi bizə bu qədər əziz olan bir vətən uğruna, bizimlə eyni millətdən olan insanların insan kimi yaşaması uğruna, o meydandan çəkilməzdik.Bunu, hər kəs bir də, insanların heçə xərclənmiş həyatlarının intiqamı kimi də düşünə bilər, və bu mənada haqlı da olar.Hakimiyyətdə oturan, ölkəni böyük bir təcridxanaya çevirən dövlət başçıları bizim təkcə insan kimi yaşamaq haqqımızı çalmamışdılar, onlar bizim öz vətənimizdə yaşamaq haqqımızı da çalmışdılar. Niyə bizim haqlarımız tapdanırdı? Niyə qanunlar bizi qorumurdu?Niyə azğın məmurlar bizi insan yerinə qoymurdu, səsini çıxardanı da gözümçıxdıya salırdı?Niyə biz öz vətənimizdə məsud-bəxtiyar yaşamaq yerinə calayi-vətən olduq?

Səbəbsiz deyildi, inanın ki, heç nə səbəbsiz deyildi...

Ona görə də mən hələ bu yaşımda da o mübarizə meydanında olanlara qibtə edirəm.Onlar seçilmiş insanlardır, cəsur insanlardır.Mən hər gecə başımı yastığa qoyanda, onları düşünürəm. Xəyalımda keçən günlərə geri dönürəm. Çəkdiyimiz əziyyətlər bir-bir yadıma düşür.Onda da ürəyimdən, bu gün də orda haqq-ədalət uğrunda mübarizə aparan o cəsur insalara necəsə yardım eləmək keçir.Əlimdən bir şey gəlməsə də, onlara alqış deyir, onlar üçün bol-bol dualar edirəm.Allah onlara kömək olsun!

Gün boyu internet vasitəsi ilə dünyaya nümayiş olunan video çəkilişlərini görəndə, insanın qanı damarında donur.Orda bu gün də polis özbaşınalığı ölkə içində bir müharibədir.Dövlət rəhbərlərinin xalqdan gələn şikayətləri eşitməməzliyə vurmasını görəndən, bunun üstündən hələ bir də, həmin o zorakılıqla məşğul olan polisin ünvanına ən yüksək tribunadan söylənən tərifləri, polisə dəstək vermək məqsədi ilə deyilən xoş sözləri eşidəndən sonra anlayırsan ki, bu polis bu qədər gücü, hökmü hardan alır, kimə arxalanır.Onda anlayırsan ki, bu sözlərdən sonra, bu ölkədə özbaşınalıq nəinki azalmayacaq, hətta daha da artaraq, bütün sərhədləri aşacaq.

Unutmaq lazım deyil ki, bu dünyada hər şey, hər şey bir başlanğıcla bir sondan ibarətdir.Bu Azərbaycanda baş verənlərin də bir gün sonu gələcək.Hətta düşündüyümüzdən də tez gələcək.Bir də unutmaq lazım deyil ki, bütün haqsız cəmiyyətlərdə haqsızlığa qarşı mübarizə aparanlar, həbsə düşənlər, hakim qüvvələrin verdiyi işgəncələrə məruz qalanlar həmin xalqın qəhrəmanlarıdır.Sabahını düşünməyən bir toplum, bu gün bəlkə də bunu anlamaq iqtidarında deyil, anlaya bilmir ki, həmişə şübhə ilə baxdıqları, yanlarında yer almaqdan qorxduqları, çəkindikləri, bu səbəbdən də meydanda həmişə tək qoyduqları bu insanlar onların sabahı üçün mübarizə aparan qəhrəmanlardır.Sözün əsil mənasında qəhrəmanlar... Bu günün olmasa da, sabahın qəhrəmanları.O qəhrəmanların arasında olmaqdan böyük şərəf varmı dünyada?Onlar, qurmağa çalışdıqları, bəlkə də özlərinin görməyəcəkləri, sabahki azad, xoşbəxt bir cəmiyyətin qurucuları, həm də o cəmiyyətdə sabah insan kimi yaşayacaq böyük bir "dözümlü xalqın" azsaylı qəhrəmanlarıdırlar.Təəssüf edirəm ki, biz o qəhrəmanlara yardım etməkdə, onları çəkdikləri haqsız cəzalardan azad eləməkdə bu gün belə acizik.Lakin bizdən böyük Allah var.İnşaAllah Allah bu zülmü götürməz, Allah bu qanı yerdə qoymaz, zalımların cəzasını ən yaxın zamanda verər.Mən çox təəssüf edirəm ki, bizim xalqda heç vaxt birlik olmadı.Başımıza nə gəldisə, birlik ola bilmədiyimizdən gəldi.Halbuki, bir zamanlar biz də birləşmək ümidi ilə niyyətimizə doğru yol almış, az-çox elədiyimiz əməllərimizlə eyni amalın uğrunda, biz də cəsarətlə mübarizə meydanına atılmışdıq.Doğrudur, məlum şərtlər bizi vətəndən getməyə məcbur elədi, ancaq biz heç dəyişmədik.Ömür keçdi, biz yaşlandıq, ancaq amalımız, istəyimiz eyni qaldı.Ən gözəl arzularımız həmişə vətənimiz Azərbaycanla bağlı oldu.Nuru ilə biz, bir gün qapısından ərklə girəcəyimiz bir Azərbaycanın xəyalını qururduq həmişə.İndi bilirəm ki, o günü görmək artıq Nuruya qismət olmayacaq.O,

vaxtsız aramızdan getməklə, bizə ikinci vətən olmuş Belçika torpağında dəfn olundu, Belçikanın münbit torpağına qarışdı. Allahdan ona qəni-qəni rəhmət diləyərək onu da demək istəyirəm ki, dünya zatən Allahındır, harda yaşayıb harda öləcəyimiz də qismətin işidir.Bir gün mən də yaşadığım bu ölkədə rəhmətə getsəm, həyat yoldaşımın yanında indidən yerim hazırdır.Buna rağmən, istəyirəm hər kəs bilsin ki, biz burda yaşaya bilərik, burda ölə bilərik, burda torpağa qarışa bilərik, ancaq arzularımız daim Azərbaycana aid olacaq.Çünki Azərbaycan bizim ana vətənimizdir, həm də Azərbaycanın bu arzulara çox ehtiyacı var.

Biz didərginlər azad, xoşbəxt bir Azərbaycan görmək istəyirik.

Elə bir Azərbaycan ki, orda insanlar səadət içində, məsud, bəxtiyar yaşaya bilsinlər.

Elə bir Azərbaycan ki, orda hər kəs haqqı olanı alsın, hər kəs həyatını istədiyi kimi yaşaya bilsin.

Elə bir Azərbaycan ki, orda insanların üzü gülsün, hamı bir-birinə can deyib, can eşitsin.

Biz cani-könüldən hər kəsə, Azərbaycanı yalnız və yalnız belə görməyi arzulayırıq.

Biz orda olsaq da, olmasaq da...

Bu bizim əqidəmiz idi...

13.Yaddaşımın xatirə qatlarından bir epizod...

Nuru mənim ailə üzvülərimlə həmişə çox mehriban olardı.Məndən də mehriban.Arada ola bilirdi ki, mən kimdənsə küsərdim, inciyərdim.Belə vaxtlarda bəlkə bir müddət o incidiyim adamla görüşməzdim, danışmazdım.Ancaq bunların Nuruya heç bir aidiyyatı, heç bir dəxli olmazdı.O, mənim ailəmdən olan biri ilə, mənim hər hansı yaxşı-pis münasibətimə əsla qarışmazdı.O, həyatı boyunca bir növ sülh carçısı idi.Kiçik yaşlarından böyük qardaşımla dost olması, illərlə, bizim ailənin bir üzvü kimi bizimlə birlikdə böyüməsi, sanki ona başqalarında

olmayan əlavə bir status da vermişdi.Nuru mənim həyat yoldaşım olmaqla yanaşı, mənim ailəmdə kim vardısa, hamısına ərk edən, hamısının damarını tutmağı bacaran, özünü də sevdirə bilən bir insan idi.

Elə oldu ki, bir zamanlar bu böyük ailənin ata evini ilk tərk edən övladı mən oldum.Yəni, ailə qurmaq səbəbilə o evdən bir dəfəlik çıxan, toyumun böyük bacımın toyundan da əvvəl baş tutması səbəbilə, ailəmizin o evdən ilk gəlin köçən övladı mən oldum.Doğrudur, bacımın toyu da elə bir aydan sonra oldu, amma yenə də bizim toyumuz ailəmizin ilk toyu idi.Nuru da bu ailəyə qəbul olunmuş ilk kürəkən idi.Bu vəziyyət ona bəzi haqlar tanıdırıd.Məsələn, ailəmizin bütün toyları bizim toyumuzdan sonra olmuşdu deyə, Nuru da bu durumlarda sinəsini irəli verməkdən, sanki bu evdə daha artıq hüquq sahibi olduğunu göstərməkdən zövq alardı.Hardasa, bu doğurdan da başqalarına nisbətən bir üstünlük sayıla bilərdi.Bizdən sonra ailəmizə qəbul olunan gəlinlərin də, kürəkənlərin də yad yerlərdən gəlməsinə rağmən, Nurunun uşaqlıqdan bizim qonşumuz olması, hamımızla məhlə uşağı kimi ərk ediləcək bir münasibətdə olması, ən əsası da Kərəmlə dost olması, ona əlbəttə ki, bəzi üstünlüklər verirdi.

Ona görə də, Nuru hər gəlinə, hər bacanağa ərklə yanaşa bilir, onlarla hər mövzuda zarafatlar edə bilirdi.İlk başlarda bu zarafatlardan tutulan, inciyən gəlinlər də, bacanaqlar da, az sonra Nurunun xasiyyətinə bələd olur, onu olduğu kimi qəbul edirdilər.Hələ Adil yeznəm var ki, Allah ona uzun ömürlər versin, gəncliyindən bu yana nə özü zarafat eləməyi sevməz, nə də heç kimin zarafatını götürməz. Bir tək Nuru idi ki, onun da dilini tapmışdı.Beləki, Nuru Adillə də ərklə heç kəslə eləmədiyi zarafatları edirdi, Adil də bundan incimirdi.Məncə, beş bacanağın içində Nuru, Adilin özünə daha yaxın bildiyi tək bacanağı idi...

Təəssüf ki, isan nə özünün, nə də ən yaxın adamının başına nə gələcəyini bilmir. Yaradan, bu işlərdən bizi agah eləməyi

lazım bilməmişdir.Ona görə də kimin harda, nə zaman ömrü bitəcəyini də Yaradandan başqa heç kəs bilmir.Biz də bilmədik. Nurunun bir neçə günün içində gedəcəyini bilsəydik, hamını çağırar, hamını onun başına toplayardıq. "Nuru gedir, Nuru yol üstədir, gəlin, yetişin..." deyərdik.Biz bunu bilmədik.

Hər şey üç günün içində baş verdi, əcəl bir göz qırpımında Nurunu əlimizdən alıb apardı.Ona görə də, çox illər bundan əvvəl Avropaya köçmüş, illərlə bizimlə eyni şəhərdə yaşamış, həftədə ən azı bir dəfə Nuru ilə görüşüb, həmsöhbət olmuş Adil yeznəm, Nurunun o son anında yanında ola bilmədi.Çüki o, Nurunun ölümündən iki həftə əvvəl bacımı da götürüb vətənə istirahətə getmişdi...

Nuru optimist idi, Nuru pozitiv idi, Nuru hər cür insanlığa açıq idi.Ona görə də, Nuru hər kəslə ürəyinin istədiyi kimi söhbət də qura bilirdi, zarafat da edə bilirdi.Vaxt olurdu ki, mən onun yerinə ehtiyat edirdim, qorxurdum ki, kimsə onun zarafatlarından inciyər, ancaq ona mane də ola bilmirdim.Əyər Nurunun deməyə sözü olardısa, o mütləq o sözü deyəcəkdi.Mən ona tapşırsaydım da ki, hər kəslə zarafat eləmə, inciyən olar, o mənim sözümə məhəl qoymaz, içindən nə gələrdisə, onu da deyərdi.Bizim ailəmizdə Nurunun özünü də bu mənada kölgədə qoyan daha iki insan vardı ki, bunlardan biri bacım Rahilə idisə, biri də Kərəmin həyat yoldaşı Ruxsara idi.Nuru ən məşhur, ən duzlu-istiotlu, ən dilə-dişə düşən zarafatlarını bu iki qadınla edərdi.Bizə qalsa, ayrılıqda nə Rahiləyə, nə də Ruxsarəyə dil çatdıran olmazdı.Ancaq onların ikisinin də öhdəsindən gələn, hələ üstəlik, bu mənada onları xeyli geridə qoyan Nuru olardı. Onun zarafatlarının dadlı-duzlu olması özünə rəqib tanımazdı. Bu üçlük, ailəmizin ən şən və hazırcavab üzvüləri idilər.Onlar bir-birinə ərk edər, bizi gülməkdən keçirdən zarafatları arda-arda düzər, bir-birindən heç vaxt inciməzdilər.Onların zarafatlaşması, hazırcavab insanların deyişməsinə bənzəyirdi. Nurunun, Rahilənin, Ruxsaranın bir arada olduğu, doyunca zarafatlaşdığı günlər,

ömrümüzün ən şən, sən demə həm də, ən bəxtəvər günləri imiş...

Gənclik illərimizdə çox şən, çox gözəl günlərimiz oldu onlarla. Bu gün xatirələrimizdə yaşamağa məcbur qalan həyatımızın ən maraqlı, ən mənalı kəsimlərini biz birlikdə yaşadıq.O illərdə gənc ailələr kimi, həftə sonları bir yana getməkdə, yay tətillərində yoldaşlı Nabrana köç eləməkdə çox yaxşı yoldaşlıqlarımız olmuşdu onlarla.

Nə edəsən ki, həyat bəzən çox amansız olur ki, Nurunun son günlərində nə bacım Rahilə, nə qardaşımın arvadı Ruxsara, nə də yeznəm Adil onun yanında ola bilmədilər. Rahilə Adillə vətəndə idi.Ruxsara da sonradan köçüb yerləşdiyi Hollandiyada yaşadığı üçün, ancaq ertəsi gün oğlu Azərlə, qızı Cəmilə və nəvələri ilə özünü yetirə bildi. Kərəmin, iyirmi ildən artıq Türkiyədə yaşayan böyük qızı Könülsə, xətrini çox istədiyi Nurəddin əmisini bir daha heç görmədi. Ruxsaragil özlərini yetirəndə, artıq Nurunu dəfn edirdilər.Beləcə, Ruxsara heç olmasa Nurnun son anına yetişə bildi.Rahiləgilsə, ancaq bir neçə gündən sonra bilet tapıb gələ bildilər. Hollandiyada yaşayan qudalarımız Raufla Nüşabə də Nurunun dəfnində yanımızda idilər.Allah hamısından razı olsun.

Nurunun dəfn mərasiminə çox yerdən çox adam gəlmişdi. Ancaq ən yaxınlarımız vətəndə olduqlarından, viza məsələlərindəki süründürməçiliyi zorla aşa bildilər, ancaq bir-iki aydan sonra Belçikaya, məni təsəlli eləməyə gələ bildilər.Gələnlərin arasında böyük bacım Əsli, qudalarım Eldar və Gülnarə də var idi.Allah onlardan razı olsun.

Nuru son anında yəqin ki, çox adamları başının üstündə görmək istərdi, ancaq biz onları qınaya bilmərik.Əvvəla ona görə ki, şükürlər olsun ki, Nuru illərlə yataqda yatan xəstələrdən olmadı ki, biz də xəbər salıb hamını başımıza yığaydıq.Onun bir gün gedəcəyinə, hələ bir də gözlənilmədən rəhmətə getdiyinə bu gün də çox adam inanmır.İkincisi də, lap əvvəldən bunu bilən olsaydı da, hesabını düz tutub zamanında bura yetişə bilməzdi.

Çünki, Azərbaycan həmin Azərbaycandır ki, nə orda yaşamaq olur, nə də ordan çıxmaq olur.Bu gün də Avropaya gəlmək, hər kəsin imkanının yetmədiyi bir rüşvət hesabına başa gəlir, hələ də orda viza açdırmaq, dünyanın çox işlərindən çətindir.Ona görə də, qürbətdə yaşayan bir insan üçün, onun öz övladlarından, bir də burda tanıyıb ünsiyyət qurduğu insanlardan yaxını yoxdur.Mən, Nurunun dəfnində qol çırmayıb yaxından iştirak edən belə insanların hər birinin qarşısında baş əyirəm.

Allah onların hamısından razı olsun.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Həyatımız yoluna düşür...

Qürbət eldə yenidən özümüzə yuva qurmağımız da asan olmad.Həyatımızın yavaş-yavaş normala dönüşməsi, həm də fərqli şəkildə normala düşməsi, bizim çoxu gedib azı qalmış ömrümüzdən illər aldı.Önümüzdə bizi hara aparacağı məlum olmayan uzun bir yol, arxamızda da vətəni tərk elədiyimiz gündən, bütün qohum-əqrəbalarımızın qapısını təpiklə açan, onları qəfil hücumları ilə bezdirən, bir gün belə rahat yaşamağa qoymayan polis təqibləri vardı.Vaxtaşırı vətəndən gələn o təqib xəbərləri də bizi, bundan belə rastımıza çıxacaq hər şeyə qarşı dözümlü olmağa çağırırdı. Bəxtimiz onda gətirdi ki, rastımıza daha çox gözəl şeylər çıxırdı.

Ən qısa zamanda pulsuz dil kurslarına göndərilməyimizə rağmən, yerli dili bilməməyimiz, bu dili qavramaqda da çox çətinlik çəkməyimiz, bizi bir xeyli geri atırdı.Dilimiz yetərli olmadığından, nə dərdimizi anlada bilirdik, nə də bizə üz tutanları anlaya bilirdik. Biz onları, onlar da bizi anlamırdılar . Ona görə də, ilk iki il boyunca biz bu ölkədə lal-kar kimi yaşadıq.Nə ürəyimizdə qalaqlanan, dolub-daşan sözümüzü deyə

bilirdik, nə də bizə anlatmaq istədiklərini, dillə deməkdən əlavə, üstəlik əl-qol hərəkətləri ilə də anlatmağa çalışan, səbirli olmaqda bizdən çox fərqlənən, heç cür həvəsdən düşməyən insanların dediklərini anlayırdıq.O illərimiz, bizim ünsiyyətə həsrət qaldığımız, vətənimiz üçün, doğmalarımız üçün çox darıxdığımız ən çətin illər oldu.Yad bir ölkədə, hər şeyin fərqli olduğu bir mühitdə gözümüzü dörd açıb ətrafımızda cərəyan edən hər şeyə diqqətlə baxmaqdan başqa əlimizdən bir şey gəlmirdi.Hər şeyi ilə bizim ölkəmizdən fərqlənən, insanları fərqli, dilləri fərqli, dinləri də fərqli olan bir ölkədə, ağlı kəsməyə başladığından, həyatı yeni-yeni qavramağa başlayan, köşək gözlərini geniş açaraq, hər şeyə maddım-maddım baxan uşaqlar kimi, biz də heç nəyi gözdən qaçırtmamağa çalışaraq, ətrafımızda yaşananlara döyükə-döyükə qalmışdıq.

Yeni cəmiyyətdə, qoşulduğumuz ilk rəsmi qurum dil kursu oldu.Bu ölkənin qanunlarına görə, üzümüzə qapı açdıqları gündən bircə həftə sonra bizi pulsuz dil kurslarına göndərdilər.Çünki bu ölkələrdə ana dili siyasəti, bütün başqa siyasətlərdən ən öndə gedəni, ən həyati-vacib olanı sayılırdı.Sən nə yapıb nə edib, bu insanlarla onların öz dilində danışmalısan, əks halda, sən nə qədər çabalasan da, nələrə əl atsan da, bu cəmiyyətdə sənin bir addım belə irəliləməyinə imkan olmayacaq.Çünki, bu ölkədə hər şey bu ölkənin dilini bilməkdən başlayırdı.Dil baryeri, bütün arzuların, xəyalların önünü kəsən, həm də çin səddi kimi kəsən ciddi bir maneə idi.O maneəni aşmadan, heç bir iş görə bilməzsən.Dövlət, dünyanın hər yerindən üz tutub bura gələn yabançıları, ən qısa zaman içində öz dilində danışdırmaqdan ötrü əlindən gələni edir.O, öz dilini gəlmələrə pulsuz tədris edir, bunun üçün hər cür şərait yaradır, məktəblər də açır, kitablara, yazı ləvazimatına da pul xərcləyir, sənə dil öyrədən müəllimlərə də yaxşı maaş ödəyir ki, sən də o dili öyrənəsən, ən yaxın zamanda hər kəslə ancaq və ancaq bu dildə danışasan.Burda sənin daha hansısa dili öyrənməyinə heç bir qadağa yoxdur, əksinə sənin getdiyin dil kurslarında ikinci,

üçüncü dil seçimində də sərbəstsən.Lakin yaşayacağın ölkənin dövlət dili nədirsə, sən də birinci yerə onu qoymalı, onu təmiz öyrənməlisən.Daha sonralar bu dil sənin yolunu açacaq, sənə cəmiyyətdə öz yerini tapmaqda kömək edəcək.Dil bilməyin sənin sosial həyatında böyük rol oynayacaq, sənə kömək edəcək.Sən işə düzələ biləcəksən, uşaqlarına məktəb həyatında, təhsilində yaxından kömək edə biləcəksən, və sair, və ilaxır.Burda bizdəki kimi hər kəsən istədiyi dildə danışa bilməz.Yox bu ruskoyazıçnıdır, yox bu azərbaycan dilini pis bilir, və sair, burda belə şeylər keçməz.Burda, nə dünyanın bir yarısını əsarətdə saxlayan, bizim də az qala ana dili qədər səlis bildiyimiz rus dili, nə də dünyanın digər yarısını öz heqemonluğu altında əzən, bizdə də əksər insanların çat-pat bildiyi ingilis dili bir işə yaramadı.Bu ölkələrdə hər kəs ən azı üç dil bilir, di gəl ki, kimsə sənin lə o dillərdə danışmayacaq, sənə də o dillərdən istifadə eləməyə imkan verməyəcək.Sənin sınıq-salxaq ingilis dili bilməyinin müqabilində, qarşında təmiz ingiliscə bilən məmurlar oturacaq, ancaq onlar da özlərini anlamamazlığa vuraraq səni bacardığın qədər də olsa nederland dilində danışdırmağa çalışacaqlar.Belə bir siyasətin nəticəsi kimi də, hər kəs, gecmi-tezmi bu dili təmiz öyrənir, bu cəmiyyətin hər xırdalıqlarına, hər incəliklərinə gözü açılır, necə yaşamalı olacağını da, hansı haqlara sahib olduğunu da öyrənir.Bundan sonra da, bu ölkələrə pənah gətirən hər kəs, özü öz xoşu ilə nederland dilini yalnız və yalnız öz ana dilindən sonra ikinci yerə qoyur.Mən öz evimizdə ana dilimizin necə hörmətsiz olduğunu unutmadığımdan, burda şahidi olduğum bu sistemi çox doğru sayır, bəyənirəm.Ana dili, hər millətin qürurudur.Hər millət, özünə qarşı hörməti, ana dilinə qoyulan hörmətdən hesablamağa başlayır.

Qürurunu, birinci elə özü qiymət qoymayan bir xalqın, özünün də qürur anlayışı yoxdur demək...

Bu yerdə yadıma bir xatirə düşür.Dil problemi yaşadığımız ilk zamanlarda rəhmətlik Nurəddin heç bir tərəddüd etmədən, yerlilərlə rusca danışırdı.Uşaqlar nə qədər desəydilər ki,"Ata,

onlar rus deyillər, onlarla rusca danışma," Nuru fikrindən dönməzdi, çünki onun da özünə görə məntiqli cavabı olurdu.O deyirdi: "Siz qarışmayın, xəbəriniz olsun ki, biz çox gözəl anlaşırıq.Sən demə, 1-ci Pyotr rus dilindəki əksər sözləri bunlardan götürübmüş.O, holland dilinin az qala yarısını aparıb rus dilinin tərkibinə oturdub.Odur ki, siz narahat olmayın, mən onlarla rusca danışsam da, onlar bir az düşünən kimi, mənim nə demək istədiyimi anlayırlar."

Əslində, bu komik durum onun dili hələ də yaxşı bilmədiyindən irəli gəlirdi.Nuru bu dili çox çətin qavrayırdı...

Bir mənada Nurunun sözündə haqq vardı ki, ruslar holland dili kimi tanıdığımız nederland dilindən çox sözləri mənimsəmişdilər ki, bu da 1-ci Pyotrun sayəsində olmuşdu.1-ci Pyotr Hollandiya səfərindən geri döndükdən sonra, gözəlliyinə aşiq olduğu, su üzərində salınması ilə onu heyrətə gətirmiş, möhtəşəm Amsterdamı xatırladan Sank-Peterburqu inşa elətdirmişdi.Gözəllikdə təkrarı olmayan bir şəhər də, nederland dilindən götürülmüş bir çox sözlər də, 1-ci Pyotrun öz xalqına göstərdiyi xidmətlərindən sayılaraq, həmin o tarixi Hollandiya səfərindən əldə edilmiş nailiyyətlər idi.Bunlar həm də Rusiya tarixinin ən parlaq səhifələri, ən dəyərli tarixi salnamələri idi.

Yeri gəlmişkən, bizim yaşadığımız ölkə də nederland dilində danışır.Hollandiya ilə Belçika eyni dildə, nederland dilində danışan iki ölkədir.Və bu iki ölkənin bir çox şəhərlərində Grote Piter (Böyük Pyotr) adına küçələr, prospektlər var ki, bu da o tarixi hadisəni, Böyük Pyotrun bir vaxtlar gəlib buraları gəzməsi, bu dövlətlər arasında gəmiçilik tarixinin ən önəmli anlaşmalarını imzalaması kimi mühüm faktları tarixə salınaraq, əbədiləşdirildiyini göstərir.

Bu yaşımızda bir şagird, bir tələbə olmaq bizə nə qədər qəribə görünsə də, dərslər çox maraqlı keçir, bizi də bütünlüklə içinə alırdı.Başımız dərslərə necə qarışmışdısa, bir müddət heç nə yadımıza düşmədi.Dil kursu dediyimiz də bizə təkcə dil

öyrətmirdi, bu ölkənin qanunlarını, yaşayışını, insanların haqq və hüquqlarını öyrədirdi.Bizim yaşam tərzimizdən çox fərqlənən bu məlumatlara inana bilmirdik.Hər eşitdiyimizə mat qalır, hər anladığımıza heyrət edirdik.Ürəyimizi sevinc hissi ilə qibtə hissinin qarışımından əmələ gələn qəribə bir hiss doldururdu.Bir yandan sevinirdik ki, nə yaxşı ki, insanı insan kimi yaşadan belə ölkələr də var imiş, bir yandan da qibtə, həsəd bizi boğurdu.Niyə bizdə belə olmamalıdır?Bunların nəyi bizdən artıqdır deyə, həm bu xalqın şörəyini yeyirdik, həm də nə gizlədim, onların paxıllığını çəkirdik.

Beləcə, öz fikrimizi anladacaq qədər, bazar-dükan işlərimizi, müəllimlərimizlə, doktorlarımızla anlaşacaq qədər işlərimizi həll edə bildiyimiz dilə sahib olmağımız bir-iki il çəkdi.Nuru ilə məndən fərqli olaraq gənclərimiz, onların da ilk dəfə tanımağa başladıqları nederland dilini daha tez mənimsəyə bildilər . Əvvəlcədən ingilis dili bilmələri də bu işdə böyük rol oynadı.Beləki, bir ilin tamamında onlar artıq səlis nederlandca danışır, xüsusi rəsmi yerlərdə, hətta bizim üçün tərcüməçilik də edirdilər.

Görmədiyimiz günlərə düşmüşdük deyə, hər şeyə uşaq kimi sevinirdik.Xəbərimiz yox idi ki, başımız çəkən zülümdən qaçıb canımızı zorla qurtarmağımızın arxasından, geridə qoyub gəldiyimiz dövlət orqanları, işini-gücünü buraxıb bu dəfə də bizim kimilərin boyuna satqınlıq, vətəni yad ölkənin bir tikə çörəyinə dəyişən xainlik kimi bir don biçirmiş.Biz, düşdüyümüz bu yeni cəmiyyətdə həyatın dadını çıxartmaqda, gördüyümüz hər şeyə uşaq kimi sevinməkdə idik.Çünki biz burda özümüzə qarşı elə münasibət görmüşdük ki, insan bunun adını ancaq paxıllıqdan, ancaq kin-küdurətdən ləkələməyə çalışar."Çörək" deyirsinizsə, bizə burda ehtiyacımız olduğundan da artıq "çörək" də vermişdilər, ev-eşik də vermişdilər.Ancaq burda bunlardan daha önəmli bir şey vardı.Biz burda özümüzə qarşı anlayış görmüşdük, yardımlaşma görmüşdük, xoş niyyət görmüşdük.Daha da əsası, biz burda insanlıq gömüşdük.Həkimlərin ilk gündən bizi müayinə eləməsi,

durumumuza görə bizi tibbi qeydiyyata götürməsi, aylıq sağlıq kontrolu, aylıq diş kontrolu, bütün xərclərin də səksən faizinin tibbi sığorta tərəfindən ödənməsi bizim üçün fantastik şeylər idi.Həmin fantastik şeylərin içində Nuru ilə bizim ayrı, subay oğullarımızın da ayrı-ayrı, hərəmizin üçotaqlı mənzillərlə təmin olunması kimi, bizim vaxtından əvvəl təqaüdlə, uşaqlardan hər birinin iş tapana kimi işsizlik pulu ilə təmin olunması kimi şeylər də var idi.Qanunların saat kimi dəqiq işlədiyi bu ölkədə, uşaqlarımız evlənib oğul-uşaq sahibi olduqca, onların dördotaqlı, daha sonra da beşotaqlı mənzillərlə təmin edilməsi də bizə bu gün də yuxu kimi gəlir.Halbuki, bunlar hamısı bu cəmiyyətin yaşadığı adi həyatdır, qəbul olunmuş normalardır.Buna ancaq bizlər təəccüb qalırıq, bizlər həsəd aparırıq.Çünki, belə şeyləri bizim vətənimizdə ancaq yuxuda görərsən.Nuru ilə məni elə gəldiyimiz ildən yaşlılıq təqaüdü ilə təmin elədilər.Qanunlar bizim oxumağımıza, bir sənət sahibi olmağımıza mane olmurdu. Ancaq bizim bir ixtisasa yiyənləyimizin pensiya yaşına dirənəcəyini düşünərək, bizim maddi durumumuzu öncədən, adı pensiya olmasa da, pensiya puluna bərabər bir məbləğlə stabilləşdirdilər. Bunula da bu ölkədə, işləmək öhdəçiliyi bizim üstümüzdən bir dəfəlik götürüldü.Bu da o demək idi ki, biz ömrümüzün sonuna kimi işləməyə bilərdik.Dövlət artıq bizi aylıq maaşla təmin etmişdi.Bundan sonra Nuru ilə mənə yaşıl xiyabanları gəzmək, səyahətlər eləmək qalırdı.Vaxtımız öz ixtiyarımıza buraxılmışdı deyə, bundan sonra hərəmiz özümüzə bir məşğuliyyət tapa bilərdik.Mən çoxdan ürəyimdə yığılıb qalan fikirlərimi yazmağa başladım.Boş vaxtımın müəyyən bir hissəsini buna sərf eləməyə başladım.Nuru da özünə başqa bir əyləncə tapdı.Nuru burda çox şeylərdən xəbərdar olandan sonra bir gün qərarını verdi, və qonşulara qoşularaq balıqçılığa başladı.Sən demə, onun belə bir qabiliyyəti də var imiş, biz bilmirdik.Nuru balıq ovuna çox böyük həvəslə gedirdi, çoxlu balıq tuturdu.Bunların içində daha çox sazan, qırmızı balıq, karp olurdu.Mən də bu balıqlardan cürbəcür yeməklər hazırlayırdım.

Ailə albomumuzda Nurunun balıqçılığını əks etdirən şəkilləri var.Onların içində Nurunun bir şəkli də var ki, hər əlində hərəsi az qala üç kilo gələn sazanları tutaraq, necə deyərlər, poz vermişdi...Hələ yerdə də onun təmizləyib yığdığı bir neçə balıq vardı.O şəkil, Nurudan, Nurunun o günlərindən, bizim Nurulu günlərimizdən qalan əziz xatirədir...

Hərdən fikirləşirəm ki, "hər işdə bir xeyir var" deyənlər, düz deyiblər:Doğrudur, bura gəlməzdən əvvəl yaşadıqlarımızı biz heç vaxt unuda bilməyəcəyik.Orda yaşananlar üçün, o cür yaşamaq zorunda qaldığımız üçün də həmişə peşmançılıq çəkir, keşkə yarım əsirlik ömrümüzü belə yaşamasaydıq deyirik.Ancaq həyatı bir kino lenti kimi geri fırlatmaq mümkün deyil.Onsuz da Azərbaycanın bu günkü günü onu göstərir ki, həyatımızı on dəfə geri fırlatmağı bacarsaydıq da, hər şey ta başdan eyni cür təkrarlanacaqdı ki, bu da özümüzə eyni işgəncəni təkrar-təkrar yaşatmaqdan başqa bir şey olmayacaqdı. Azərbaycanda nə vaxt, nə dəyişdi ki, biz də o dəyişikliklərə tuş gələydik? Onda anlayırsan ki, deyilənlər doğru imiş, hər işdə bir xeyir varmış.Başımıza nələr gəldi ki, axırda biz vətəni tərk eləməli olduq, o ayrı məsələ, ancaq nə yaxşı ki, o vaxt biz buralara gəlib çıxdıq.Nə yaxşı ki, Nuru qalan ömrünü burda yaşadı, ailəsi ilə birlikdə o gözəl günləri gördü, ömrünə qatdı...Biz öz vətənimizdə bir gün görmədik ki...Nə gördüksə burda gördük, bu yad-yabançı insanların arasında, insana qiymət verən bu cəmiyyətdə gördük.Dili fərqli, dini fərqli insanlarla bir cəmiyyəti paylaşsaq da, burda bizə "qaşının üstündə gözün var" dəyən olmadı.Heç kim durub-dururkən bizdən heç nə istəyə bilməz, çünki qanunda belə bir şey yoxdur, haqqımız olana da heç kim göz dikə bilməz, çünki qanunda bu da yoxdur.Qanunlar insanların haqqını qoruyur, ona görə də aldığımız da, verdiyimiz də şəffafdır, halaldır.

Hərdən onu da düşünürəm ki, vətəndən gətirdiyimiz xəstəliklərimiz olmasaydı, belə yerdə Nuru da bəlkə yüz il

yaşayardı.Adamı yandıran da budur.Qaçdıqsa da, canımızı qurtara bilmədik.Keçirdiyimiz qorxular, həyəcanlar üzündən hələ orda içimizə düşüb cücərməyə başlamış xəstəliklərdən biri Nurunu vaxtsız bizdən alıb apardı, biri də gecə-gündüz ac qurd kimi məni güdür, fürsət tapan kimi aparacaq.

Allahın hər açılan gününə şükür edən insanlardan olduğumuzdan, mən də hələki varam, yaşayacağım hər günə, açılan hər sabaha şükür edirəm.Hətta bir gün mən bu dünyada olmasam belə, bir sürü davamçılarımızın yaşayacağı sabahlara da şükür edirəm. Nuru ilə məndən geriyə qalan, arzularımızı, xəyallarımızı yaşadacaq övladlarımız, nəvələrimiz var.Onların da yaşayacağı hər günə, üzlərinə açılacaq hər nurlu sabaha bu başdan şükür deyirəm. Şükür ki, varıq, şükür ki, yaşayırıq. Haqqımızda baş verənlərin hamısı, Uca Yaradanın təqdiridir, bunu bilirik, ona görə də hər zaman "şükür Onun təqdirinə, şükür Onun məsləhətinə"--deməyi unutmuruq.Qoy Allahdan xeyirlisi nədirsə, o da olsun, təki bizi yaradan, bizə həyat verən o Uca Allah hər zaman yarımız, hər zaman yardımçımız olsun!

O ki, qaldı Nurəddinin yoxluğuna, biz bu gün də Nurunun yerini boş qoymuruq, onun özünü itirdiksə də, xatirələrini onun yerinə qoyduq.Nuru bu gün də bizimlədir, sözü ilə, söhbəti ilə, xatirələri ilə yanımızdadır.

Bu bizim imtahanımız idi...

14.Yaddaşımın xatirə qatlarından bir epizod...

Avropaya gəldiyimiz ilk vaxtlarda Nuru çox darıxırdı.Necə ki, körpə uşaq həvəslə harasa qonaq gedər, getdiyi yerdə gün boyu əylənib oynayar, axşam düşən kimi evinə dönmək istəyər, Nuru da bir müddət sonra qoyub gəldiyimiz vətənimiz üçün, o vətəndə artıq bizim olmayan evimiz üçün darıxmağa başladı.Bu da birdən-birə olmadı.Biz bir neçə il ancaq elə bizim yaşam tərzimizdən çox fərqlənən Avropa yaşayışına baxa-baxa, gördüklərimizdən yaxşı mənada təsirlənə-təsirlənə yaşadıq.

İnsanların burda bizdən fərqli, daha düzgün, daha rahat yaşaması bizim ürəyimizi təəssüf hissi ilə, öz ölkəmizi "idarə edən" hakimiyyətə qarşı qəzəb hissi ilə doldururdu.Çünki, hər gördüyümüzdən sonra gözlərimiz bir az da açılır, hər şeyi görür, çox şeyi də anlayırdıq.Məyərsə, dövləti bü cür də idarə eləmək olarmış.Məyərsə, xalqı təmin eləmək də mümkün imiş, onların sosial tələblərini yerinə yetirmək də bu qədər asan olarmış, yetərdi ki, niyyət bu olaydı...

Halbuki, bizim ölkəmizdə, nefti, qazı, və insanın firavan yaşaması üçün lazım olan hər şeyi olan bir ölkədə, bu sistemin əlasından da əlasını yaratmaq olarmış.Hər kəsin bildiyi bir mahnıda deyildiyi kimi: "Olmalıydı, olmadı." Orda hər şey var idi, təkcə niyyət yox idi. Aradan zaman keçdikcə sanki gözümüz öyrəşirdi, hər şeyə alışmağa başlayırdıq.Biz də burdakı insanlar kimi yaşamağa başlayandan sonra bizə artıq heç nə qəribə gəlmirdi. Niyə də gələydi? Məyər bu gördüklərimizdə qeyri-adi bir şeymi vardı?Yaxud, insan belə yaşamalı deyildimi?

Biz bura gəldik, burdakı yaşayışın içinə qatıldıq, və hər şeyi gördük, hər şeyi anladıq. Azərbaycan məmurlarının adını təkrarlamaqdan dillərini qabar eləmiş, işlərinə gələndə tərifladikləri, işlərinə gəlməyəndə adına qara yaxdıqları "Avropada" hər şey normal idi, olması gərəkən kimi idi. Avropalılar neyləsinlər ki, biz analoqu olmayan anormal bir cəmiyyətdən gəlmişdik.İçimiz özümüzü yandırırdı, çölümüz də özgəni.

Zaman keçdikcə Nuru da Avropa həyatına alışmağa başladı.Çörək dərdi yox, iş-güc dərdi yox, polis qapımızı təpikləmir, heç kimdən qorxmuruq, gizlənmirik, yaşayışımız rahat.Qaz kəsilmir, su problemi yox, işıqlar bir saniyəlik də olsa sönmür.Bizim maddi təminatımızı yaşımıza görə pensiyaya bənzər bir kateqoriyaya saldılar, əlimizə bank kartı verdilər, dedilər gedin, hər ayın filan tarixi pulunuzu çəkin və yaşayın.Bütün haqlarımızı əlimizə verib dedilər ki, gənclərə qarşı iş tələbimiz var, hər kəs bir iş tapıb öz çörəyini özü qazanmalıdır.Ancaq bu sizə aid deyil.Siz

yaşlısınız, özünüz də çox əziyyət çəkmisiniz, bundan sonra dincəlin, sizə qarşı heç bir tələbimiz yoxdur.Biz də bu qədər asudə vaxtın içində nankorcasına boğulmağa başladıq.Burda nə ilə məşğul olasan ki, başın qarışa.Artıq Nurunun da başını qatan, onu heyrətləndirən bir şey qalmamışdı deyə, darıxmağa başladı. Nə edirdiksə, bu yaşlı cocuğu ovundura bilmirdik.

Bir gün qapımız döyüldü.Qapını açanda qarşımızda bizim kimi gəlmələrdən oluşan bir dəstə adam gördük.Bunlar bizin qonşularımız idi.Onlardan ən öndə duranı, rusca danışa bilən bolqar Dimitri idi.O dedi ki, bir-neçə qonşu yaxındakı böyük kanala balıq ovuna gedirlər, istəyirsə, Nuru da onlara qoşula bilər.Dimitri də, başqa qonşular da Nurnunun darıxdığından, bizi "incitdiyindən" xəbərdar idilər.Nuru bu təklifə çox sevindi, ancaq tərəddüd içində qaldı.Çünki, balıq ovu üçün heç nəyi yox idi.Böyük oğlum dedi ki, hələlik ancaq baxmağa getsin, ən qısa zamanda ona da balıqçı "silah-sursatı" alacaq.Nuru da onun bu sözündən sonra sevincək qonşulara qoşulub balıq ovuna getdi.O gün axşama kimi mən Nurudan nigaran qaldım.Uşaqlara da dedim ki, görərsiniz, gələcək deyəcək ki, mənlik deyil.Ona görə mən belə deyirdim ki, o aralarda biz ona heç nə bəyəndirə bilmirdik. Uşaqlar onu üzgüçülüyə yazdırmaq istəyirdilər, idmana göndərmək istəyirdilər, heç birinə getmək istəmirdi. Çarəsi olsaydı, dil kursuna da getməzdi.Ona da ikimiz gedirdik, bir sinifdə oxuyurduq deyə, yaxasını kənara çəkə bilmirdi.

Axşam qonşuların səs-küyü küçəni başına götürdü, biz də qapıya çıxdıq.Nuru əlində iki dənə böyük sazan balığı, gülə-gülə bizə sarı gəlirdi.Balaca oğlum zarafatla soruşdu:

--Ata bu nədir, orda da duruş gətirmirdin, ona görə sənə rüşvət veriblər?

Nuru onun bu sözünə gülərək cavab verdi:

--Sən elə bilərsən.Özüm tutmuşam.Əfqan qonşumuz Səidin iki tilovu varmış, orda birini mənə verdi.Mən də onlara baxa-baxa hər şeyi öyrəndim, bunları da özüm tutdum.

Mən dedim:

--Ay Nuru, ilk gündən sən bu işi bacardın yəni?

O da həvəslə cavab verdi:

--Rəhmətliyin qızı, kanalda balıq qaynayır ey, qaynayır.Burda sən də balıq tuta bilərsən.Tilova çörək taxırsan, atan kimi cumurlar, axır ki, biri ilişir.

Nuru çox qısa zamanda balıqçılğa alışdı, bu iş onun başını qatdı.Belə deyirdilər ki, balıqçılıq adamda bu işə bağlılıq əmələ gətirir, mən inanmamışdım.Nurunun balığa böyük həvəslə getdiyini, axşama qədər kanalın sahilində oturmağa səbri çatdığını gördükdə, eşitdiklərimə də inandım, Nurunun yerinə də sevindim.O vaxtdan Nuru hər səhər qonşulara qoşulub balığa gedirdi, axşama da beş-altı balıqla evə dönürdü.Elə olmuşdu ki, mən balıqdan birini özümüzə götürürdüm, artığını qonşulara paylayırdım.Qonşuluqda zənci tələbələr var idi, ailə başçısını itirmiş bosniyalı ailə var idi, bir evdə yaşayan ərəb qadınlar var idi, rus qonşumuz var idi.Mən hər axşam onlara balıq paylayırdım.Nuru da bununla fəxr edirdi.Vaxt olurdu ki, mən də ipimi-sapımı, toxuma millərimi götürüb Nuru ilə gedirdim.Mən oturub nəvələrimə bir şeylər toxuyurdum, Nuru da balıq tutrdu.Arada ikimiz də fasilə elan edib çörək yeyir, çay içirdik.Balıq ovunda ucadan danışmaq olmazdı, odur ki, biz də xısın-xısın söhbət edirdik.

Mənim Nuru ilə balığa getdiyim vaxtlarda o da sevinirdi, həvəslə mənə balıqçılığın sirlərindən danışırdı.

Sonralar nəvələrimiz bir az böyüdü, Nuru hər bazar günü onları özü ilə balığa aparırdı.Nəvələrimiz balıq ovunu elə sevmişdilər ki, bütün günü o barədə danışmaqdan doymurdular. Babaları da onlara baxıb fərx edirdi.Şəkil albomumuz belə məqamları əks etdirən şəkillərlə doludur.Ancaq mən hələ də o albomun arasını açmağa ürək eləmirəm.Aradan bir az zaman keçməsini gözləyirəm.Bir gün özümü bu görüşə hazır bilsəm, o xatirələrdə qalan Nurunun görüşünə çıxacağam.Albomdakı Nurunun görüşünə...

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Nurəddin-Nuru...

Nurəddin-Nuru...Uşaq yaşlarında inadkarlığı ilə, gəncliyində dürüstlüyü və zəhmətkeşliyi ilə, yaşlılığında da uşaq kimi səmimi, uşaq kimi kövrək olmağı ilə seçilən, rəhmətə getdiyi andan bu nuşanələri ilə birlikdə onu tanıyanların, onu sevənlərin, onu heç vaxt unuda bilməyəcək bir sürü insanın ürəyinə köçən, bu şəkildə yaddaşlara həkk olunan Nurəddin-Nuru...

O, mənim 45 illik ömür-gün yoldaşım, həyatımız boyu birlikdə yaşadıqlarımızın, başımıza gələnlərin yeganə şahidi, ortağı, və cavabdehi idi.

Nurəddin-Nuru...Ömür yolunu sonuna qədər mənimlə qoşa addımlayan, o enişli-yoxuşlu yollarda mənimlə birlikdə gah büdrəyən, gah yıxılan, amma yenə də Allahdan güc alaraq qalxmağı bacaran, görəndə ki, mən yorulmuşam, yaslanmağa ehtiyacım var, cəld mənə çiynini dayayan, əlimi ancaq Allahın təqdiri ilə ən son gündə buraxan, etibarlı sirdaş, vəfalı dost, mehriban insan, gözəl həyat yoldaşı Nurəddin-Nuru...

Bu yerdə ürəyi paxırlı insanların nə düşünə biləcəyini də təsəvvür edirəm."Bunlar lap Leyli-Məcnun imiş, xəbərimiz yox imiş..." deyənlər də tapılacaq.Mən insanlara bir az bələdəm, ona görə də bilirəm ki, mənim səmimi sözlərimi şübhə altına alan da tapılacaq, ağız büzən də.İnsanlar adətən gördüklərini, eşitdiklərini anlayışla qarşılamaq yerinə, bəri başdan önyarqılı olmağa tələsirlər."Qoy biz bəri başdan pisləyək, sonra vəziyyət başqa cür olarsa, biz də fikirimizi dəyişərik." Hər şeyi pisləmək, ləkə atmaq, gözdən salmaq daha asandır axı...Ancaq mənim də bu mənada öz müddəalarım var. 65 illik ömrümüzün azı 60 ilini

birlikdə keçirtmək, o 60 ilin də 45-ni bir yastığa baş qoymaq, Nuru ilə məni Leyli-Məcnun eləmədisə də, bizi Leyli-Məcnundan da artıq, "ətlə-dırnağa" çevirdi ki, bu mənca ailə içində daha önəmli bir şeydir. Biz elə "ətlə-dırnaq" olduq ki, uzun bir ömür boyu bir kimsə aramıza girə bilmədi.Biz bütün maneələri birlikdə aşdıq, bütün sınaqlardan birlikdə keçdik, bir dəfə çıxdığımız o yolu birlikdə başa vura bildik.Bu halda Leyli nəçi imiş, Məcnun kim imiş?Onların bizə çatmağına hələ çox...çox... var.

Bir şey də var ki, mən Nurunun qədrini heç bilmədim.Həyatı görə-görə bu yaşa gəldimsə də, ağlımın ucundan da keçirtmədim ki, bir gün onu itirə bilərəm, onsuz qala bilərəm.İndi hər kəs bu sözlərə görə də məni qınaya bilər, "Bu da bizim ağbirçəyimiz, bu da bizim dünya görmüşümüz.Bu yaşda bir insanın ağzından çıxan sözlərə bir baxın, " deyə bilər.Halbuki, mən kitablarımı yazanda, onları özümə ən güvənli sirdaş bilərək, onlarla o qədər səmimi olmağa çalışıram ki, onlarla elə ürəkdən dərdləşirəm ki, sonrasında bu yazdıqlarıma tənələr, ittihamlar ola biləcəyini heç düşünmürəm.Ancaq yazdıqlarımı təkrar oxuduğum bəzi məqamlarda, mən sanki həmin o tənələri, ittihamları eşitmiş kimi oluram.Ona görə də özüm də qəbul edirəm ki, yazdıqlarımda qınağa da yer var, incikliyə də, hələ istəsəniz ittihama da...Mən bu gün elə yerdəyəm ki, artıq hər kəs məni:"Nə oldu, yola saldın getdi, indi qədrini bilməyə başamısan?"-deyə qınaya bilər, qınasa da haqsız sayılmaz.Ancaq mən ömrün başında bir kərə dürüstlüyü seçmiş bir insan olduğum üçün, bu yaşımda kiməsə xoş gəlmək üçün riyakarlıq eləmək istəmirəm.Ona görə də, ələlxüsus, əyər söhbət Nurudan gedirsə, mən bu gün burda düşündüklərimi deyil, hiss etdiklərimi yazıram, və hər kəsi səmimiyyətimə inanmağa çağırıram.Həqiqət budur ki, mən Nurunun qədrini bilmədim. Həqiqət budur ki, ancaq onu itirəndən sonra mən anladım ki, o mənim həyatımın yaraşığı, dayağı, mənası imiş.O mənim arxam,

dirəyim, güvəncim imiş, və bu heç də gəlişi gözəl sözlər deyil.Bu elə bir acı həqiqətdir ki, bu sətirləri yazarkən də acısı burnumun ucunu göynədən, gözlərimdən vurub çıxan, damcı-damcı yazı masama töküldüyü üçün, mənə yazmaqda mane olan göz yaşlarının içindən kecən bir həqiqətdir. Bir şeyi itirdkdən sonra onun qədrini, qiymətini bilmək vardı ya...bax bu da elə bir şeydir.Fəqət daha ağrılı, daha göynərtili acı həqiqət.Gərək nankor insan bir şeyi itirəymiş ki, onun dəyərini anlayaymış. Bu bir əşya üçün də keçərli imişsə, görün söhbət bir insandan gedərsə, itirilən bir can yoldaşı olarsa, bu ağrı nə qədər dərin olar, insanı necə yandırar, necə göynədər...

Düşünürəm ki, mənim burda oxucularımla paylaşdığım bəzi etiraflarım başqalarına da dərs ola bilər.Bu qənaətlə də, fürsət düşmüşkən oxucularımı bir məqamdan xəbərdar etmək istəyirəm.Əvvəlcə Allah qorusun deyirəm, ardından da istəyirəm heç kəs unutmasın ki, həyatda bir gün, belə bir peşmançılığı yaşamaq da var.Lütvən bu dediklərimi çox ciddi qəbul edin ki, sonra gec olmasın.Nə qədər ki, varsınız bir-birinizin qədrini bilin, qəlbini qırmayın ki, bir gün itirdiyi yaxın adamın ardından kimisə öz ürəyi məhkəməyə çəkməsin.Ürəyin məhkəməsi başqa məhkəmələrə bənzəməz, bu məhkəmə düz bir ömür sürər .Günlük həyatınızda boş-boş şeylərə görə üz-göz olduğunuz üçün, yoldaşınızın qədir-qiymətinin azaldığını düşünürsünüzsə, səhv edirsiniz.Bir-birinizə qarşı bəslədiyiniz o duyğular, o səmimi hisslər həyatın çətinliklərinə məruz qalaraq yıprana bilər, ancaq o hisslərin ölməsinə, sizi öz tərəf müqabilinizdən soyutmasına əsla izin verməyin.Nə qədər çətin günlər yaşasanız da, günahı bir-birinizdə deyil, mühitdə, zəmanədə, dövlətdə, daha nə bilim nədə...nədə... görün.Təkcə bir-birinizdə görməyin.

Anlayın ki, günah onda deyil, günah, yaşamalı olduğunuz həyatın hansısa bir əyər-əksiyindədir ki, o əyər-əksiyi düzəltməyə bəlkə heç onun da gücü çatmır. Nuru rəhmətə getdi, elə həmin gündən də mənim də ürəyimin məhkəməsi quruldu.O

gündən mən hər gün ürəyimin məhkəməsində hesaba çəkilirəm. Çəkəcəyim cəza bir peşimançılıq, bir yanqı, bir göynərtidir.

Özümü, gün ərzində yüz dəfə eyni sözləri təkrarlayarkən yaxalayıram:

--Sən neylədin, ay Nuru?SƏN NEYLƏDİN?????

Əyər dünyasını dəyişənlər bu dünyada baş verənləri görüb-eşidə bilirlərsə, Nuru da mütləq mənim o yanqı dolu sözlərimi eşidir, mənasını da, göynərtisini də yəqin ki, anlayır.Ümid edirəm ki, bu sözlərdən sonra təkliyi fürsət bilərək, mənim göz yaşları içindəki hayqırtılarımı da Nuru eşidir.Ya mənə qıymadığı üçün "Ağlama," -deyir, ya da aramızdakı bəzi söhbətləri xatırlatmaq üçün "Demişdim,"-deyir.

Doğurdan da demişdi.Son zamanlar, həkimlərin təkidi ilə də siqareti buraxmadığı üçün mən onu tez-tez danlayır, zəifliyinə görə onu qınayır, məzəmmət edirdım.O da məsum-məsum üzümə baxıb deyirdi:

--Sən Allah danlama məni.Bu zəhirmarı ata bilsəydim atardım da...Görürsən ki, ata bilmirəm.

Mən dediklərimə peşman olar, onun könlünü almağa çalışardım.Ona qıymadığım üçün, onun daha uzun ömür sürməsini istədiyim üçün belə dediyimi söyləyirdim, o da cavabında deyirdi:

--Mən bilirəm, sən istədiyindən deyirsən, ancaq daha demə...Boş yerə nə özünü yorma, nə də məni danlama.Bilirsən ki, hələ bu xəstəlikdən sağalan olmayıb, mən də bir gün gedəcəyəm.Mən gedəndən sonra sən hər sözünün peşmançılığını çəkəcəksən, ürəyin ağrıyacaq.Onsuz da vaxtım az qalıb, gəl bu zəhirmara görə daha üz-göz olmayaq.

Bir yandan özü də bilirdi ki, siqaret bir zəhirmardır, bir yandan da onu daha da acgözlüklə çəkirdi.İndi ürəyimi deşən o idi ki, bu qədər ciddi durumda da o məni düşünürdü,"Sonra ürəyin ağrıyacaq,"- deyirdi. Mən də daha heç nə demirdim. Siqaret qutuları gözümü çıxartsa da, əsəbdən qanım beynimə

vursa da, daha heç nə demədim.Bazarlığı ikimiz birlikdə edirdik. Mən supermarketin əl arabasına rəflərdən ərzaq yığırdım, o da siqaret qutuları yığırdı.İçim-içimi yeyirdi, ancaq susurdum.Mən susmağı seçdiyim gündən, Nuru da sanki daha da həvəsə gəlmiş, əli-qolu açılmış, bir aldığını iki eləmişdi.Evdə hər dolabın gözü siqaret qutuları ilə dolu idi.Gözü bununla da doymurdu, hər Azərbaycana gedənə də siqaret gətirməyi tapşırırdı.Xətrini istəyənlər də onun sözünü yerə salmırdı, alıb gətirirdi.Elə bil rəhmətliyə xəbər gəlmişdi ki, bir gün siqaretin kökü kəsiləcək.O qədər siqaretə qarşı acgöz olmuşdu.İndi mən özümü buna görə də suçlayıram, nahaq təslim oldum, gərək mübarizəni dayandırmayaydım, deyirəm.Ancaq onun dediyi sözlərdən sonra, səbəb nə olursa olsun, onun xeyrinə olsa belə, kəskin hərəkət eləmək, qadağalar qoymaq da asan məsələ deyildi.Nuru özü hər şeyi bilirdi, bilə-bilə də bu yolu gedirdi.Bir zamanlar həyatın hər cür çətinliyinə sinə gərmiş, hər cür sınaqdan qalib çıxmış bir adam, siqaretin qarşısında duruş gətirə bilmədi, zəiflik göstərərək çox erkən təslim oldu, həyatı bahasına bu zəifliyinə yenildi.Məni də 64 yaşımda damın altında tək qoyub getdi.

Övladlarım şahiddir ki, Nuru rəhmətə gedəndən sonra mən evimizdən qutu-qutu, cürbəcür markalı siqaret çıxartdım, bir ölüm makinası hesab elədiyim üçün, onları heç kəsə verməyə əlim gəlmədi, zibilə atdırdım.

Siqaretə aludəçiliyi olmasaydı, Nuru hələ uzun bir ömür yaşaya bilərdi.Mən onun ölümünü yaşının səksənlərində, doxsanlarında görürdüm.Halbuki, son illərdə Nuru "özü-özünə elədi, külü gözünə ələdi," bizimlə deyil, siqaretlə əlbir olduğuna görə, başına da belə bir müsibət gəldi.Biz də ha çalışdıq, ha çabaladıqsa da, onu qurtara bilmədik.

O getdi, sanki yanımdan bir el, bir oba köçdü.Onsuz mənim evim indi tərk edilmiş yurd yerinə bənzəyir.Onun çox ucadan danışığından sonra, ard-arda otuz sual verməsindən sonra, hər şeyə görə höcətləşməyindən sonra, məzəli söhbətlərindən sonra

evimizə çökmüş sükutdan az qalır qulaqlarım tutulsun.Yaxşı ki, övladlar, nəvələr məni tək qoymur, tez-tez gəlib-gedir, məni yoxlayırlar.Yoxsa bu səssizliklə evim lap məzarlığa bənzəyərdi.

Bu bizim Nurəddinimiz idi, Nurumuz idi...

15. Yaddaşımın xatirə qatlarından bir epizod...

Nuru rəhmətə gedəndən bir-iki ay sonra mən qohum-qardaşın, xüsusən də qudalarım olan Əsli bacımla Gülağa yeznəmin dəvəti ilə vətənə getdim.

Mən orda bir ay qalacaqdım.Əvvəldən düşünmüşdüm ki, bu bir ayda Nurunu hamılıqla yad etmək üçün xüsusi bir gün ayırım. Niyyətim o idi ki, indi ki, bacı-qardaşım Nurunun dəfninə gələ bilməmişdi, mən onları burda bir gün başıma yığım, sonradan da olsa, ailəmlə birlikdə Nurunu yad edək.Yəni, onun xatirəsini ailə çərçivəsindən kənara çıxmamaq şərtilə yad eləmək istəyirdim. Ancaq bacılarım da, kiçik qardaşım da buna imkan vermədilər.Onların hərəsi bir gün bizi evlərinə qonaq çağırdılar, bununla da ayrıca bir yığıncağa lüzum qalmadı.Zatən biz hər yerə hamılıqla yığışırdıq deyə, bu dəfə də, dəfələrcə hamımız bir araya toplanmış olduq.

Birinci Elmira bacım bizi qonaq çağırdı, gözəl süfrə açdı. Aydın yeznəm və oğlu Anar başda olmaq şərtilə, Elmira bacım bütün ailə üzvüləri ilə birlikdə bizi hörmətlə ağırladı.Bunların arasında onun qızı da, gəlini də, qudası da vardı.

Biz Avropaya köçəndən sonra nə vaxt Vətənə yolumuz düşdüsə, bir iş dalınca gedəndə Gülağa qardaşımla, bir yerə qonaq çağrılanda Əsli bacımla gedirdik.Aradan keçən illər ərzində bu bir ənənə şəklini almışdı.Bu dəfə mən Nurusuz idim, tək idim.Bu dəfə mənə qarşı daha diqqətli olan bacımla yeznəm, məni bir an belə gözlərindən qoymurdular.Odur ki, bu dəfə də, Əsli bir böyük bacımız kimi hər yerdə yanımda oldu, məni heç yerə tək buraxmadı. Məni hər yerə müşaiət edən bacım qızları, hər getdikləri yerdə məclisi ürəkaçan xatirələrlə şənləndirməyə

çalışır, bunu da yaxşı bacarırdılar.Biz Nurunu yad edirdik.Hər dəfə Nurunun adı çəkiləndə mənim dərdim təzələnirdi, elə bilirdim ki, onu yenicə itirmişəm, buna görə də kədərlənirdim.Mənim bu halım, onsuz da Nurunun ölümünə çox heyfislənən qohumlarımın da kədərlənməsinə səbəb olurdu.Belə yerdə bacım qızları Elnarə və Gülnarə də, Nuru ilə bağlı çoxlu xatirələri olan Aydın da, Nurunun başına gələn ən məzəli əhvalatları, onun özünün danışdığı lətifələri yada salaraq, məni qəmli notlardan uzaqlaşdırmağa çalışırdılar.

Sonra biz sonbeşik bacım Sahibəgilə toplaşdıq.Yeznəm Fikrəti görəndə çox kövrəldim, çünki Nurunun Fikrətlə bağlı o qədər xatirələri vardı ki...

Fikrət özü də doluxsundu, Nurunun aramızdan getdiyinə heç cür inana bilmədiyini söylədi.Rəhmətlik Nuru, Fikrətin xətrini çox istəyirdi, onunla hər görüşündə dadlı-duzlu zarafatların sayı-hesabı olmazdı.Fikrət özü də yaxşı bilirdi ki, sonradan o zarafatların hər biri bir lətifə olacaq.Fikrət ondan inciməzdi, çünki bacanaq olmaqdan əlavə, onlar həm də dost idilər. Ümumiyyətlə, məncə ailəmizdən hər kəs qəbul edər ki, Nuru yeganə bacanaq idi ki, başqa dörd bacanağın dördü ilə də yaxşı münasibətdə idi, onların hər biri ilə ayrı-ayrılıqda dost idi.Həm də, onların hamısı da bilirdi ki, Nuru ilə təmasda olduqdan sonra, ən yaxın zamanda özləri barədə yeni bir lətifə eşidəcəklər. Çünki bilirdilər ki, hər görüşün sonrasında Nuru boş durmayacaq, hər dəfə yeni bir lətifə qoşacaq.Heç kim də ondan inciməzdi.

Sahibə bacım da, ailəcə bizi yüksək səviyyədə ağırladı, qızları, gəlini, nəvələri səmimiyyətlə başımza toplaşdı.Bu məclisin yaraşığı bacım oğlu Rəşad oldu.O, bütün gecəni keçən günlərdən, yəni uşaqlıq xatirələrindən, bir az da bu günkü iş həyatından maraqlı şeylər danışdı.Söhbət o qədər şirin idi ki, biz gecə yarısına qədər oturub qaldıq.

Sırada kiçik qardaşım Yusifin evinə toplaşmaq vardı. Qardaşım da mənimlə görüşəndə, məni Nurəddinsiz gördü, çox

kövrəldi.Qardaşımın arvadı Səkinə bizi hazır süfrə ilə qarşıladı. Əsli bacım başda olmaqla, İlqar, Elnarə, Təranə və uşaqları, Yusifin böyük qızı Zəhra da iki oğlu ilə, bir süfrə ətrafında toplaşdıq. Keçənlərdən-gələnlərdən söhbət elədik.O söhbətlərin çoxunda Nurunun adı keçirdi, çünki biz Nurunu yad edirdik.

Nuruya həsr olunmuş ən təsirli toplantı Əsli bacımın evində oldu.Adi günlərin birində, bir axşam, biz hamımız bir yerdə nahar elədik, sonra kimsə Nurunun bir sözünü xatırladı, o sözlə də hər kəs növbəti dəfə Nurunu yada saldı.Beləcə xatirələr bir-birinin ardınca corab söküyü kimi çözülə-çözülə gəldi.Xatirənin birini Gülağa, birini Murad, birini Elnarə, birini Təranə danışdı.Hər xatirə danışan da göz yaşlarını tuta bilmir, səsi qırıla-qırıla danışırdı.Çünki bu ev, bu ailə yeganə ünvan idi ki, lap başdan Nuru ilə mənim ən çox gəlib getdiyim bir ev, bir ailə idi.Xüsusən də son illər, biz qürbətdən hər gəlişimizdə, bu ev bizim, qapısını ərklə açdığımız, bir lüks otel kimi qonaqladığımız, özümüzü çox sərbəst, çox rahat hiss elədiyimiz, həm də ürəyimizin istədiyi qədər qaldığımız ev idi.Ona görə də, hər dəfə Nuru söhbətlərin ən səmimisini də, zarafatların ən şirinini də bu uşaqlarla edirdi.Ona görə də, xatirələrin ən gözəli, ən şirini də bu evdə yaşayırdı.Və mən bilirəm ki, bir gün mən də dünyada olmayanda, Nurunun da, mənim də sözümün-söhbətimin ən çox danışıldığı, xatirələrimizin ən çox sığınacaq tapdığı tək ev, yenə də bu ev olacaq.Rəhmətlik anamızın, atamızın ruhu, xatirələri burda əbədi bir sığınacaq tapdığı kimi...

Necə şeydirsə, mənim Əsli bacımın evi lap əvvəldən də hər kəsin sıx-sıx gəldiyi, ərklə qapısını açа bildiyi bir ev olmuşdu.Kimi harda itirsəydin, bu evdə tapardın.Bəlkə bu ondan irəli gəlirdi ki, bu ev bizim ata evimiz, ata yurdumuz idi, bilmirəm.Ancaq, Azərbaycanda bu gün də bu qədər ərk elədiyimiz, içində yaşayanlara bu qədər güvəndiyimiz ikinci bir qapı yoxdur. Bir də, orda bir bacım qızı Gülnarə var ki, gələn qonağın kimliyindən asılı olmayaraq, hər qonağı Günəş kimi

nurlu çöhrəsi ilə, gülər üzü ilə, əlinin duzu ilə, bişirdiyi təamların dadı-tamı ilə, tikəsinin şirini ilə qarşılayar, yorulmaq bilmədən hər zəhmətini çəkər, hörmətlə yola salar.Halbuki, bu gənc yaşında onun ürəyində necə dərin yaralar olduğunu mən də bilirəm.Onu da bilirəm ki, Gülnarə üçün hər kəs bir yana idi, Nuru dayısı bir yana...

Əminəm ki, Gülnarənin ən sevdiyi qonaq Nuru dayısı idi.Nuru da onu çox sevirdi, xətrini çox istəyirdi.Onların ikisinin arasında özlərinin bildiyi çoxlu duzlu-məzəli zarafatları var idi. Ona görə də Gülnarə qəhərdən elə tutuldu ki, o axşam xətrini bu qədər çox istədiyi Nuru dayısından heç nə danışa bilmədi.Göz yaşları buna imkan vermədi.Əvəzində, ən gözəl xatirələri Təranə danışdı.Özü də kövrəldi, bizi də kövrəltdi.

Sonra sıra mənə gəldi.Mən, Nurunun son üç gününü başdan ayağa danışdım.Onun geyinib-keçinib evdən çıxdığını, sevinə-sevinə tibb bacısı Katrinin görüşünə getdiyini, o gedişin son gediş olduğunu, Nurunun sevimli kosyumunun palatanın asılqanında asıla qaldığını, çox sevdiyi maşınının xəstəxananın həyətində boynu bükük qaldığını, və Nurunun bu dünyadan gedişini bütün təfsilatı ilə, bütün xırdalıqları ilə danışdım.Mən danışdım, məni dinləyən böyük bir ailə ağladı.

Mən Nurunu son dəfə, onu elə yatağı qarışıq otaqdan aparanda gördüm.Bu bizim son görüşümüz oldu.Üçcə gün gecəli-gündüzlü onun yanında keşik çəkdik, aldığı-verdiyi hər nəfəsi dinlədik, ayılacağına ümid edərək, gözümüzü onun üzündən çəkmədik.Ancaq bu dəfə möcüzə baş vermədi, Nurunun son nəfəsini verdiyini də, həyatının bitdiyini də öz gözlərimizlə gördük.Son anda biz tək deyildik.Bu acı xəbəri eşidib, gəlmiş azərbaycanlıların hamısı orda idi.Bizimlə eyni şəhərdə yaşayan bacım oğlanları Ramillə Rövşən onları da başına toplayıb bizə dəstək olmağa gəlmişdilər.O an ağlım üstümdə deyildi deyə, indi hər şey mənə yuxu kimi gəlir.Bir onu gördüm ki, Nurunu harasa apardılar, uşaqlara da tapşırdılar ki,

mərhumun əşyalarını toplasınlar.Hərə bir şeyi götürdü, birdən gözüm asılqana sataşdı.Nurunun ən çox sevdiyi kostyumu asılqanda asıla qalmışdı.Biz bu kostyumu Brüsseldən yeni almışdıq, fikrimiz vardı ki, hər il olduğu kimi, bu dəfə də kemoterapi kursu bitdikdən sonra vətənə istirahətə gedək.Nuru da bu kostyumu o niyyətlə almışdı.Mən kostyumu görəndə elə sarsıldım ki, az qaldı yıxılım, bacım oğlu Rövşən məni vaxtında tutdu.Sonra belə qərar verdilər ki, kimsə məni evə aparsın, artıq burda mənlik bir iş yoxdur.Ortancıl oğlum qoluma girib məni həyətə çıxartdı.Mənim gözüm bu səfər də park yerində boynu bükük qalmış maşına sataşdı, Nurunun yetim qalmış maşınına.

O, yeddi yerlik bu maşını da çox sevərdi, adını da "School büs" qoymuşdu.Bu maşın nəvələrimizin məktəb maşını idi.Necə oldu ki, mənim ürəyim partlamadı, necə oldu ki, mən ölmədim, özüm də təəccüb qalıram.Demək ki, dərdi verən Allah səbrimizi də verirmiş... Allah heç kimə dərd göstərməsin.

Əsli bacımın evində biz Nurunu belə yad elədik, ürəyimizi də belə boşaltdıq.

Mən inanıram ki, o gün Nurunun ruhu şad oldu.Çünki o gün, biz Nurunu ən səmimi şəkildə, üryimizin içindən göynəyə-göynəyə, gözlərimizdən qan-yaş tökə-tökə yad elədik.

Mən bir də ona görə bundan əminəm ki, o gün, o göz yaşı tökənlərin arasında onun çox sevdiyi qızları Gülnarə, Firuzə, Nuray da var idi.

Cümləmizin axır qəmi olsun.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Nuru bir yoldaş idi...

Biz 45 il boyunca ömür yolunu birgə getdik.Xoş günlərimiz, zor günlərimizlə müqayisədə, qara parçanın üstündəki xırda ağ

xallara bənzəyirdi.Ancaq biz yenə də həyatımızdan məmnun qalır, ruhdan düşmür, yolumuza davam edirdik.

Bəlkə də bizi ideal ailə adlandırmaq olmazdı.Çünki, ideal ailə olmaq ürəyimizdən keçsə də, hər şey hər zaman istədiyimiz kimi olmurdu.Biz tez-tez xəyal qırıqlığına uğrayırdıq.Heç kimə gücümüz yetmədiyindən, hər şeyin acısını bir-birimizdən çıxırdıq.Belə zamanlarda bir-birimizin qəlbini qıra bilir, acı sözlərlə yaralaya bilirdik.Biz də insan idik, real həyatda yaşayırdıq.O real həyatda da hər şey nağıllardan, bizim qurduğumuz xəyallardan çox fərqli idi, çətin idi, amansız idi.Belə vaxtlarda biz dalaşırdıq da, küsürdük də, bir-birimizi günahlandırırdıq da...Birlikdə yürüdüyümüz yolun sonuna gəldiyimizi düşündüyümüz vaxtlar da olurdu.Ancaq aramızda elə bir qüvvə vardı ki, ikimiz də onun adını doğru-düzgün qoya bilməsək də, hər ikimiz də o qüvvəyə sonuna qədər güvənirdik.O qüvvə bizi dönüb getməyə, bir-birimizi tərk etməyə qoymazdı.Bu bir Leyli-Məcnun eşqi deyildisə də, ən azından aramızda, gün keçdikcə bərkiyən bir bağ idi.Bu bağın adını bəlkə sevgi, bəlkə dostluq, bəlkə yoldaşlıq qoymaq olardı, bunu mən bilmirəm.Ancaq onu bilirəm ki, o bağ bizi bir-birimizə elə möhkəm bağlamışdı ki, başımıza gələn hər olaydan sonra bir-birimizdən soyumaq, uzaqlaşmaq yerinə, biz bir-birimizə daha da kilidlənirdik.

Yəqin ki, bizi tanıyan, bizi bir cütlük kimi kənardan müşahidə edənlərin gözündə, biz ən adi ailələrdən, ən çox rast gəlinən ər-arvaddan başqa bir şey deyildik.Həqiqətən də, ilk baxışda biz də cəmiyyətimizdə həyatlarını zorluqlar içində keçirdən, bu günündən sabahına cibində ümidlərindən başqa heç nəyi olmayan, tipik azərbaycan ailələrindən biri idik.Bizim bir ailə kimi özəlliyimiz vardısa da, o özəlliklər, ancaq bizimlə yaxınlıq edən dostlarımızın, qohum-əqrəbamızın bildikləri, şahidi olduqları xüsuslar idi. Həmin o dostlar da, qohumlar da bilirdilər ki, bizim ikimizin də bu dünyada tutduğumuz yol, iki

sahillə gedən yoldur.Mən bu kitabı həm də bir növ dərslik kimi, həyat məktəbi kimi yazıram.Bəlkə də bu yazdıqlarım kiminsə yolunu müəyyənləşdirəcək, kiməsə bir şeylər öyrədəcək.O üzdən də mən fikirlərimin də oxucularıma doğru-düzgün ulaşmasını istəyirəm.Bu məqsədlə də, mən burda işlətdiyim "orta yol" ifadəsinin yalnış anlaşılmasının önünü almaq məqsədilə, fikrimi daha geniş şərh eləmək istəyirəm.Elə məsələlər var ki, orda orta yolu tutmaq tək çarə ola bilər, və bu yolu tutanları da heç kim qınaya bilməz.Mənim dediyim məsələ bu deyil, bir az fərqlidir.İki sahillə getmək deyəndə, mən burda bizim bir insan kimi dünyaya baxışımızı nəzərdə tuturam.Yəni biz ağa ağ, qaraya da qara deyənlərdən idik.Bilirsiniz ki, "Bu nə rəngdədir?" sualına, "Siz bilən məsləhətdir," deyənlər də az deyildir bu dünyada. Bizim üçün bu mənada orta yol qəbul olunası bir şey deyildi.Həyatımızda elə məsələlər vardı ki, biz orda alınmaz qala idik, elə məsələlər də var idi ki, orda bizim darvazalarımız hər kəsin üzünə açıq idi.Nəzərdə tutduğum iki sahil də bu anlamda idi.Biz fikirlərimizdə, inanclarımızda manqal kimi bərk olmağı da bacarırdıq, başımıza nələr gəlsə də, inandığımız bir şeydən dömürdük.Ancaq elə ki, ehtiyacı üzündən bizə üz tutanlar olurdu, kimsə bizdən yardım umurdu, biz də onlara qarşı yuxa ürəkli olurduq.Sabahın necə olacağını bilmədən, bizə nələr gətirəcəyini, yaxud gətirməyəcəyini düşünmədən, son tikəmizi də ortaya qoyar, bölüşməyi bacarardıq.Çünki Allah bizi belə yaratmışdı.Ortada qalmaq, nəyin xətrinəsə mövqeyini gizlətmək, canını qurtarmaq üçün yalançı şahidlik eləmək, orta sularda daldalanmaq bizlik deyildi.Belə şeylər bizim vicdanımıza zidd idi.

***

Evliliyimizin ta... o başından yadıma gələn bəzi şeylər var ki, onlardan biri də o idi ki, Nuru çox qısqanc bir həyat yoldaşı

idi.Səbəb olsaydı da, olmasaydı da, məni hər kəsə qarşı qısqana bilərdi.Bu o vaxtlar onun ən çox gözə çarpan zəifliyi idi.Mən gənc idim, gənc olduğum üçün də bir az gözəgəlimli idim, bu da bir toyda, məclisdə, orta yerdə Nurunun daim gərgin olmasına, hər kəsin baxışını güdməsinə səbəb olurdu.Mən bu mövzunu onunla çox dartışırdım, özümü təhqir olunmuş hesab elədiyimi deyirdim, ona başa salmağa çalışırdım ki, qısqanmaq, əslində bir insanın öz yoldaşına güvənməməsi deməkdir.O da bunu qəbul edirdi, günahını boynuna alıb məndən üzür diləyirdi, bir də belə eləməyəcəyinə söz verirdi, ancaq sonra yenə də özü ilə bacara bilmirdi.Mən onun bu halına acıyırdım, ona görə də ikimizin də çağırıldığı çox yerə getmirdim.Uşaqları bəhanə edərək evdə qalır, onu tək göndərirdim.Sonralar, uşaqlar bir az böyüyəndən sonra Nuru da bir az dəyişdi.Ya mənə güvəni artdı, bərkidi, ya da bəzi dəliqanlılıq tələşları yaşla əlaqəli onun ürəyini tərk edib getdi. Hər necəsə, onun mənə bəzən yoldaş kimi, bəzən yoldaşdan da artıq güvənməyə başlaması, bizim evlilik həyatımızın ciddi bir dönüş nöqtəsi kimi, məni çox sevindirdi.Onun mənə güvənməsi ilə, mənim həmişə gərginlik içində olan həyatım hüzur tapdı. Mənim də həm ona, həm də özümə güvənim bir az da artdı.

Bunları özüm yaşamışam deyə, burdan gənc ailələrə tövsiyə verib deyə bilərəm ki, insanın yaşı artdıqca, onun xarakteri bəzi lazımsız vərdişlərdən təmizlənə bilir.Ona görə də hər xırda problemi dərd edib böyüdənlər, boşanmağa üz tutanlar, yoldaşlarına bir az da zaman versinlər, onların yaşa dolduqca necə dəyişdiklərini də öz gözləri ilə görəcəklər. Bu dəyişiklik, həm ər üçün, həm də arvad üçün keçərlidir.

Xasiyyətlərimiz tam bir-birinin tərsi idi ki, bu da çox maraqlı bir məqamdır.İki, xasiyyətcə bir-birinə zidd insanın 45 il boyunca bir yerdə yaşaması kənardan nə qədər mümkünsüz, mümkün olsa belə, zor görünə bilərdisə də, əslində heç də zor olmadı.Biz ikimiz yalnız həyat yoldaşımızın bizim sevmədi-

yimiz şeyləri sevə bilməsinə, zövqlərimizin fərqli, yəni tərs mütənasib olmasına təəccüb edə-edə, bir-birimizin üst-üstə düşməyən hallarına məzəli lətifələr qoşa-qoşa, beləliklə də öz ömrümüzü bu zarafatlarla bəzəyə-bəzəyə yaşayırdıq.Bəlkə elə ona görə də nə fərqliliyimizi gözümüzdə böyüdürdük, nə də bunu özümüzə dərd edirdik.Biz sadəcə yaşayırdıq.Çay daşlarından hörülmüş evlərin divarları kimi, ikimiz də əyri tərəflərimizi düz tərəflərimizə dayayaraq, özümüz üçün son nəticəsi düzgün alınan, və tarazlıq effekti verən bir dünya inşa edirdik.O dünyada bizim balalarımıza, balalarımızın da bizə olan qarşılıqlı məhəbbəti gün-gündən aşıb-daşır, nadir hallarda da olsa, çörəyimizə yavanlıq tapmadığımız bəzi günlərimizin də toy-bayram kimi keçməsinə səbəb olurdu.İndi anlayıram ki, sən demə ailə səadəti, xoşbəxtlik elə bu imiş.

Bu bizim ən gözəl günlərimiz idi...

16. Yaddaşımın xatirə qatlarından bir epizod...

Ali təhsili başa vurub diplomlarımızı əlimizə aldığımız il, Nuru turizm şirkətlərindən birində işə düzəldi.İşindən çox razı idi. O, hər zaman belə bir işdə çalışmaq istəmişdi, bu işi çox arzulamış, çox axtarmışdı.Nəhayət bir gün onun axtarışları müsbət nəticə verdi, və Nuru bir turizm şirkətində bələdçi kimi işləməyə başladı.Doğrudur, o bundan sonra evdə az tapılacaqdı, tez-tez səfərlərdə olacaqdı, ancaq mən buna razı idim.Nurunun ağır işlərdən canını qurtarması, ailəmiz üçün böyük hadisə idi.Ondan da vacib, Nurunun nəhayət ki, tər-təmiz əyin-başla adam içinə çıxacağı, turistik səfərlərə çıxmış insanlarla birlikdə şəhərləri, ölkələri gəzib dolaşacağı fikri, onun yerinə məni də sevindirirdi. Mən ona qıymırdım, bundan əvvəlki ağır işlərini sevmirdim, ancaq Nuru da bir ailə başçısı kimi, işsizliyin baş alıb getdiyi bir zamanda işin yaxşısını-pisini seçmirdi, nə cür iş tapsa, gedirdi. Bu iş başqa idi, təmiz idi, maraqlı idi, daha yüksək maaşlı idi.Qəribədir ki, həyat yoldaşımın bundan sonra

iş vaxtını gəzintilərdə keçirməsi, müxtəlif insanlarla təmasda olması fikri məni nəinki qısqandırmırdı, əksinə, məni özümün də anlamadığım gözəl şeylərə ümidləndirirdi.Nuru, hər 15 gündən bir turistlərlə səfərə çıxır, onların gedəcəkləri hər yerdə həm turistlərə bələdçilik edirdi, həm də özü gəzirdi, görürdü.Onun səfərdən gəlməsi də bir başqa aləm olurdu.Nuru hara gedirdisə getsin, ailəsinin yanına həmişə əli dolu dönürdü, balalarına cürbəcür hədiyyələr alıb gətirirdi.O, bizim hamımıza əyin-baş almaqdan əlavə, hələ Moskva kimi, Riqa kimi, Sank-Peterburq kimi şəhərlərdən cürbəcür ərzaq məhsulları da alıb gətirirdi.O vaxt Azərbaycanda yaşanan ərzaq qıtlığının müqabilində, Nurunun hardansa əli dolu gəlməsi, bizim üçün başqa bir aləmə açılmış sehirli qapı kimi idi. Nurunun yeni işə düzəlməsi ilə, vaxtaşırı səfərdən əli dolu dönməsi ilə həyatımız daha da rənglənmişdi.

Nuru hər dəfə səfərə çıxanda, mən ayın on beş gününü uşaqlarımla tək qalır, hər işin dalınca özüm getməli olurdum.Bu bir az çətin olurdu, bəzən hər işin dalınca güclə yetişə bilirdim, ancaq mən dözürdüm.Çünki, bilirdim ki, 15 günün tamamında Nuru yanımıza dönəcək, bizi gətirdiyi hədiyyələrlə sevindirəcək, sonrakı 15 günü də mənimlə, balalarımızla keçirəcək.Bu fikir mənə güc verirdi, ümid verirdi, səbir verirdi.

Nuru bir müddət işləmişdi ki, bir səfərində mənə bir sürpriz elədi.Moskva səfərinə mənə də bilet aldığını, bu dəfə məni də özü ilə aparacağını dedi.Mən əvvəlcə onun sözünə inanmadım, elə bildim zarafat eləyir.Ancaq o mənə biletləri göstərəndə anladım ki, bu onun ciddi sözüdür.Vaxt gəlib çatdı, biz uşaqları nənələrinə təhvil verib səfərə, Moskvaya yola düşdük.Səfərimiz qış tətili zamanına tuş gəlmişdi.Bakıda qoyub gəldiyimiz müsbər 7-8 dərəcəyə qarşı, Moskvada 11-13 dərəcə şaxta vardı.Axşam saatlarında isti təyyarədən endik, bu şaxtada turistləri gözləyən avtobusa doğru getdik.O avtobusa minənə qədər şaxta məni kəsib keçdi.Otelə çatdıq, duş qəbul edib

yerimizə girdik, məlum oldu ki, mən xəstələnmişəm. Ertəsi günün səhəri mən qızdırdım, Nuru da başını itirdi.O, turistlərlə şəhərin tarixi yerlərini gəzməyə getməli idi.Turistlərlə dolu avtobuslar otelin həyətində onu gözləyirdi. Nuru vəziyyəti həmkar dostlarına başa saldı, onlar getdilər, Nuru isə otelə təcili yardım çağırdı.Doktorlar məni müayinə elədilər, iynə vurub qızdırmamı saldılar.

Beləcə, ilk turistik səfərimin 4-5 gününü mən yataqda keçirdim, Nuru isə səhərlər öz işinə gedir, axşamlar da tələş içində yanıma qayıdırdı.O, mənim heç yeri gəzmədən, görmədən yatağa düşməyimə çox heyfislənir, peşmançılıq çəkirdi.Halbuki, onun heç bir günahı yox idi.

Mən beş gündən sonra tamam sağaldım, turistlərə qoşuldum, biz bir yerdə proqramımıza davam elədik.

Bir gün, Moskva ətrafı bir şəhərdə bir univermağa girdik, Nuru ordan mənə bir dəst əyin-baş, ona uyğun hündürdaban ayaqqabı aldı.Bu libas da, ayaqqabı da bahalı idi.Doğrusu, mən ilk içəri girəndən, bu paltardan gözümü çəkə bilmirdim, ancaq qiymətləri gördükdən sonra tərəddüd edirdim, deyirdim, bəlkə almayaq, bəlkə pulumuza ekonom edək.Çünki, biz bura gələrkən, uşaqlara məktəb forması, palto, papaq almağı da düşünürdük.Sonra pulumuz çatmaya bilərdi.Mən bunu da Nuruya dedim, ancaq Nuru razı olmadı, qətiyyətlə fikrində durdu.Bu əyin-başı mənə aldı, hələ özünə də çox görkəmli kostyum, köynək, ayaqqabı aldı, üstündən də ded:

--Sabah axşam otelin restoranında yeni il gecəsi keçiriləcək.Təzə paltarlarımızı ilk ora geyinərik.Onsuz da səfərin yarısını xəstə yatdın, barı bu bayram gecəsini adam kimi keçirərik.

Ertəsi gün biz həmin o paltarları geyinib-keçinib yeni il gecəsində iştirak eləmək üçün restorana endik. Restoran əsil bayram havasında bəzədilmişdi, hər tərəf göz qamaşdırırdı, salonun bir tərəfində yolka da qurulmuşdu.Rəngbərəng işıqlar,

çilçıraqlar yanıb sönür, sanki burda olan hər kəsə göz vururdu.Görünürdü ki, bu təmtərağa gəlmiş insanlar da bu gün geyimlərinə özən göstərmişdilər.Hər kəs ən gözəgəlimli libasını geyinib gəlmişdi.Ancaq yalan nə deyim, Nuru ilə biz hamıdan gözəl idik o gecə.Bir yandan yaşımızın ən gözəl vaxtı idi, biz gənc idik, bir yandan da əynimizdə ən son dəbli, ən bahalı libas var idi.Birazdan hamı yeməklə dolu masaların arxasında yerini tutdu, tədbir başlandı.Bütün turist yoldaşlarımızın gözü bizdə idi.Restoranda bir qrup erməni, bir qrup da gürcü turistlər də var idi.Onların xain baxışları altında bizim masada oturanlar yüksək əhval-ruhiyədə yeyib-içir, arabir qalxıb rəqs edirdilər.Bunlar əsasən dans edənlər idilər.Bir azdan bizim qrupun rəhbəri bizə yaxınlaşdı.Bu, adını xatırlaya bilmədiyim, 50-55 yaşlarında atamız yaşında bir kişi idi.O, Nuruya sarı əyilərək dedi:

--Gənclər, nə oturmusunuz, qalxın siz də dans edin.Qoy hamının gözü çıxsın.

Nuru ona təbəssümlə baxıb dedi:

--Çox sağ olun, biz halımızdan məmnunuq.

Kişi yenə israr etdi:

--Canım niyə oturmusunuz, belə gündə siz də dans etməyəcəksiniz, kim edəcək.Gəncsiniz, gözəlsiniz.

Nuru birdən dedi:

--Biz qalxsaq, ancaq rəqs edləmək üçün qalxa bilərik, o da yəqin ki, burda mümkün deyil.

Kişi dönüb getdi, biz də daha ona fikir vermədik.Birazdan musiqi səsi kəsildi, ardından qulağımıza klarnet səsi gəldi, biz başımızı qaldırıb səhnəyə baxdıq.Qrup rəhbərimiz saksafon çalanın(o yəqin ki, erməni idi) yanında dayanıb qaş-gözlə bizi ayağa qalxmağa dəvət edirdi.Biz bir gözümüz onda, Azərbaycan oyun havalarından birinin, "Qoçəlinin" çalındığını eşitdik.Nuru da bilirdi ki, bu mənim ən çox sevdiyim, babət oynaya bildiyim oyun havası idi.Bu oyun havasını mənə, atamın onu toylarda sındıra-sındıra oynaması sevdirmişdi.Mənə görə, "Qoçəlini"

atam kimi oynayan ikinci adam yox idi.İndi bu qədər sevdiyim bir oyun havasına oynamamaq insafdan deyildi.Özü də bu çalan milliyyətcə hər kim idisə, profesional musiqiçi idi.Saksafonu yerə qoyub klarneti götürmüşdü, gözəl də çalırdı.Biz qrup rəhbərimizin təkidi ilə ortaya çıxdıq, rəqs eləməyə başladıq.Mən əvvəlcə sıxılırdım, ancaq başımı qaldırıb Nuruya baxdım, onun necə həvəslə oynadığını gördüm, mən də ürəkləndim.Nuru gənc yaşlarından gözəl rəqs eləmək bacarığı ilə seçilirdi.Hansı toyda onu ortaya çəksəydilər, təkbaşına da elə gözəl rəqs edərdi ki, heç kəs onunla oynamağa ürək eləməzdi.Bu dəfə də Nuru sındıra-sındıra oynayırdı, mən də onun yanında bacardığım kimi hərlənib dururdum.Bir müddət heç kim bizə qoşulmağa cəsarət eləmədi, ancaq tamaşa elədi.Biz az qala yarım saat böyük zalın ortasında təkcə ikimiz üz-üzə, bir-birimizlə fəxr edə-edə oynadıq.Bizim rəqsimizi görəndən sonra oyun havası başqalarının da sümüyünə düşdü deyə, iki-bir, iki-bir ayağa qalxan, zalın ortasına çıxıb oynayan oldu.Sonra elə oldu ki, o biri millətlərin nümayəndələri də, hətta ruslar da davam gətirə bilməyib rəqsə qoşuldular.

Azərbaycanlıların olduğu hər yerdə, ermənilərin özlərini gözə soxmağa çalışması, onların adi halı idi.Bunu bütün millətlər çoxdan bilirdi.Biz o zamanlar da xain qonşularımızı sevməz, onlara güvənməzdik.Ancaq ən azından, o vaxt hələ aramızda savaş yox idi.

O günlərdən zaman keçirdi, Nuru da məni arada-bir özü ilə səfərə aparırdı.Ancaq, bizim iklikdə getdiyimiz o səfərlərdə, sanki o ilki qədər maraqlı səfərimiz olmadı. Üstündən illər keçsə də, ilk səfərimizin bu xatirəsi yadımızdan çıxmırdı.Sonralar biz tez-tez o axşamı yada salır, ikimizin zalın ortasında rəqs eləməyimizi, ardından o biri millətlərin də rəqsə qoşulmasını, "Mimino" filmindəki ən populyar epizoda bənzədir, hamıya danışır, özümüz də gülməkdən ölürdük."Mimino" filmindəki o epizodda restoranın rəqs meydançasında bir erməni, bir gürcü,

bir-birinə açıq verə-verə rəqs edirlər.Bu zaman bir rus qadın da özünü saxalaya bilməyib bu rəqsə qoşulur.Rəqs edənlərin ikisi bir-birinə göz dağı verirsə, rus qadın öz aləmində, ancaq özü üçün rəqs edir.Çox gülməli səhnə idi, və biz bu səhnədə bizim o vaxtki rəqsimizi xatırladan məqamlar tapır, doyunca gülürdük.

O günlər, bizim ailə həyatımızda nadir hallarda yaşana bilən gözəl günlər idi.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun. Amin.

O və Mən...
Nuru bir ata idi...

Nuru çox mehriban ata idi.

Ailədə tərbiyə işlərinə əsasən mən baxırdım deyə, "Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir," deyərək övladlarımıza qarşı gah mehriban olan, gah da bu mehribançılıqdan üz bularaq yollarını azmasınlar deyə, yeri gələndə sərt olmağı da bacaran mən idimsə, uşaqlarımızla ən kövrək münasibətlərlə davranan, onlara "Qaşının üstündə gözün var," deməyə də qıymayan, yorğun iş günlərindən sonra onların hər şıltaqlığına dözən, onları əzizləyən, sevən Nuru idi.Vaxtilə bu mövzu aramızda çox dartışılırdı.Uşaqlara çox üz verdiyinə görə mən onu qınayırdım, o isə cavabında deyərdi:

--Vuran əl sənsən, barı sığallayan əl də mən olum daa...

"Vuran" burda tələbkar anlamına gəlirdisə, "sığallayan" da sevən, daha çox əzizləyən demək idi.Nuru doğurdan da balalarımıza qarşi çox səbirli idi, onları hər zaman ancaq əzizləyirdi.Övladlarımız kiçik yaşlarında olanda Nuru onlara səsini belə yüksəltməzdi.

Halbuki, mən də bilirdim ki, Nurunun balalarımıza göstərdiyi o kövrək duyğular, onun özündən asılı olmayan bir münasibət, onun özünün də gücü çatmayan bir sevgi idi. Nuru, körpələ-

rimizə bəslədiyi bu münasibəti özü tənzimləyirmiş kimi göstərməyə çalışırdısa da, mən də bilirdim ki, Nuru istəsəydi də özü ilə bacara bilməzdi.O, balalarına düşkün bir ata idi.Bu da onun Allah verən xasiyyəti idi.

Evlilik həyatımızın ilk illərində Nuru rast gələ işlərdən çəkinməz, nə iş olurdusa, heç tərəddüd etmədən işə girib çalışardı.Bunların içində ağır işlər də olurdu, yorucu işlər də olurdu.Ancaq bununla belə, rəhmətlik axşamlarını balaları ilə keçirtməyi çox sevərdi, bunun üçün də özündə güc tapardı.Bu azmış kimi, o hələ gün ərzində də, heç olmasa bir dəfə iş arası vaxt tapıb evə gələr, uşaqlarına baş çəkərdi.Nurunun, təməli hələ o vaxtlar qoyulmuş bu xasiyyəti, onun Azərbaycanda doldurduğu 50 yaşına qədər davam elədi.Bunu ona görə xüsusi qeyd edirəm ki, bir ailə başçısının ailəsinin durumundan, balalarının boğazından nigaran qalması, bizim cəmiyyətdə, həm də həyatını bizim kimi hesablı yaşayanların ən dəyişməz vərdişlərindən idi.Nuru da həmin o nigaran atalardan biri idi.Gərçi, o hər zaman bizim ehtiyaclarımızı ödəməyə çalışar, bunu da Allahın hikməti ilə bacarardı.Maaş hər nə qədər az olurdusa da, biz evimizə girən o məbləği elə hesabla xərcləyər, elə düzgün bölərdik ki, heç kəs bizim nəyəsə bir ehtiyacımız olduğuna inanmazdı.Biz gözü tox, könlü tox yaşamağa adət eləmişdik.Az maaşla tox yaşamağın sirlərini çoxdan öyrənmiş, bu işin ustası olmuşduq.Bununla belə, nədə ekonom eləsək də, balalarımızın qidalanmasında ekonom eləməzdik, belə bir ekonomdan söhbət belə gedə bilməzdi.Əksinə, biz hər şeyin ən keyfiyyətlisini, ən faydalısını balalarımıza yedirtməyə çalışırdıq.Heç vaxt unutmurduq ki, onlar bizim sabahımız, gələcəyimizdirlər.

Şükürlər olsun ki, balalarımız da bizim çəkdiyimiz zəhməti itirmədilər.Düzgün böyüyərək, saf niyyətli, sağlam əqidəli insanlar oldular.Onlar heç vaxt bizim başımızı önümüzə əymədilər.Onlar bizim üçün, dünya içində öz dünyamız

oldular.Öz dünyamızın varı-dövləti, malı-sərvəti oldular.Allah onlardan razı olsun ki, biz hər zaman onlardan razı olduq.Nuru bu dünyadan köçəndə, övladlarından o qədər razı idi ki, onlarla söhbət elədiyi o son ana kimi də gözlərinin içi gülürdü.

Son zamanlarda, Nuru ilə ikimiz həftədə bir dəfə cümə günü toplantıları təşkil eləməyə qərar vermişdik.Biz bu mübarək gündə ailəcə bir araya gəlməyə, övladlarımızı bir yerə toplamağa, bununla da balalardan ayrı yaşadığımız evimizi həftədə bir dəfə şənləndirməyə başladıq.Nəticə, düşündüyümüzdən də gözəl oldu.Balalarımız yavaş-yavaş buna alışdılar, cümə günləri, öylə namazından çıxıb birbaşa bizə gəlməyə başladılar.Mən cürbəcür yeməklər hazırlayırdım, Nuru da mənə kömək edirdi.Belə vaxtlarda Nuru elə həvəsə gəlirdi ki, mətbəxdən çıxmaq istəmirdi. Gəlinlər də şirniyyat bişirib əli dolu gəlirdilər.Nəvələrimizin səs-küyü evimizi başına götürürdü. Nuru bu qərarımızla öyünürdü, özü ilə qürur duyurdu.Çox təəssüf ki, onun üçün bu toplantılar çox da uzun sürmədi.Ancaq yenə də biz bu toplantını davam etdiririk, hər cümə toplantımızı bir qayda olaraq, Nurunun adı ilə başlayıb, Nurunun adı ilə bitiririk.Atalarının məzarını iki-üç gündən bir ziyarət eləmələrinə baxmayaraq, olur ki, bu toplantı bitdikdən sonra biz ailəcə Nurunun məzarını ziyarətə gedirik. Atalarından yadigar qalan cümə toplantılarımızda, övladlarım Nurunun xatirəsini yad edir, onunla bağlı ən şirin xatirələrini danışmaqla, çox güman ki, onun da ruhunu şad edirlər.

Xatirələr yada düşür, uşaqlar da xatırlayırlar ki, ataları, erkək quş kimi əlinə düşəni balalarına daşıyan, şirin tikəsini onlardan ayrı yeyə bilməyən qayğıkeş bir ata idi.İşdə olurdusa, günortalar nahar fasiləsində əlinə bir şey də alıb özünü evə, balalarımızın yanına yetirmək, sadəcə bir istək deyildi, Nurunun ürəyinin səsi idi.O səs, ona hərdən elə doğru, elə yerinə düşən mesajlar verə bilirdi ki, bəzən mən özüm də mat qalırdım. Bir də görürdün ki, əlində arasına soğanlı, turşulu, kabab yığılmış dağlı çörəyi ilə qapıdan girirdi.Uşaqları oturdub hərəsinin ağzına o kababdan

qoyardı, özü də sevinə-sevinə onlara qoşular, onlarla birlikdə yeyər, hələ məni də səsləyərdi.

--Hardasan, gəlsənə, kabab soyuyur.

Mən görünür çox deyingən arvad idim ki, buna da deyinirdim.Deyirdim ki:

--Bunları belə alışdırma, bu yaşda uşaq bu qədər kabab yeməməlidir.Sonra onlar mənim bişirdiyim normal yeməkləri yemirlər.Gözləri qapıda qalır, səni gözləyirlər.

O da cavabında:

--Heç nə olmaz, həftədə bir dəfə qoy ataları üçün rejimi pozsunlar.--deyərdi.

Ya da bir də görərdin ki, nahar fasiləsində əlində nar kimi qızardılmış, arası da soğanlı-göyərtili, narlı, narşərablı iri bir kütüm balığı ilə qapıdan girdi.Gördüyümdən çaşıb qalırdım, çünki elə bu sabah könlümə balıq düşmüşdü, ancaq Nuru işdə idi deyə, mən onu nə görmüşdüm, nə də bu barədə bir söz demişdim.Üstəlik özüm də bir azdan bunu unutmuşdum.Mən ancaq Nuru əlində balıq içəri girəndə xatırladım ki, Bismillah, bu hardan bildi ki, mənim könlümə balıq düşüb? Mən yerimdə donub qaldım.O, məni belə görüb soruşdu:

--Nə oldu, yenə yalnış bir iş tutdum yoxsa?

Mən döyükə-döyükə ona baxdım:

--Yox ey, könlümə balıq düşdüyünü sən hardan bilə bilərdin, biz ki, bu gün heç görüşməmişdik?--deyəndə, o da cavabında əvvəlcə doyunca güldü, sonra dedi:

--Bəs eşitməmisən ki, ürəkdən-ürəyə yollar görünür?Mən sənin ürəyini oxuyuram, ürəyini...

Bir az da güləndən sonra əlavə elədi:

--Ay rəhmətliyin qızı, sənin balıq sevdiyini bilməyən varmı?Dedim bir gün də sənin könlünü xoş eləyim, birlikdə balıq yeyək də...

Sevirdim onun bu optimist ruhunu, kefkom xasiyyətini. Dünya od tutub yansaydı da, Nuru özünü elə aparacaqdı ki, guya

dünya vecinə deyil.Halbuki onun kimi həssas, gözündən heç nə qaçmayan, hər gördüyündən da uşaq kimi duyğulanan adam tapmaq da asan deyildi.O, övladlarımın sevdiyi bir ata, mənim güvəndiyim bir yoldaş idi.

Uşaqlarımız böyüdükcə bizim də qayğılarımız artırdı.Bir yandan onların böyüməyini heyranlıqla izləyir, gördüyümüzdən ürəyimiz açılırdı.Onların bir-birinin ardınca məktəbə getməsi bizim üçün çox böyük bayrama dönüşürdü.Biz də buna çox sevinirdik.Bu sevinci unutmamaq üçün, onu hər il qey etmək məqsədilə, həmin tarixləri hətta təqvimə də salırdıq.Ancaq elə ki, onlar iki-günün biri infeksion xəstəliklərlə evə dönməyə başladılar, biz də panikladik.Uşaqlar bir-birinin ardınca bütün keçici xəstəlikləri evə daşıyır, bir-birinə yoluxdururdular.Evimiz hərbi hospitala dönmüşdü.Biz belə şey görməmişdik deyə, o aralar uşaqların sağlamlığı üçün narahat olmağa başladıq.Necə olsa, varımız-yoxumuz bu uşaqlar idi.Onlara bir şey olacağından qorxurduq.Həkimlər bizə demişdilər ki, ard-arda infeksion xəstəlik keçirdən uşaqların təbii şəraitdə möhkəmləndirilməsinə, imun sistemlərinin gücləndirilməsinə ehtiyac var.Biz təşvişə düşdük, öz aramızda çox götür-qoy edəndən sonra qərara gəldik ki, üzümüzə gələn yayı Bakıda qalmayaq, bu dəfə uşaqları harasa, təbiətin qoynuna çıxardaq.Elə o aralarda da kimsə Nuruya Nabrandan söz açmışdı.Nabranın təmiz havasından, dağlardan axıb gələn göz yaşı kimi duru bulaqlarından, bir tərəfi dənizə, bir tərəfi də meşəyə dirənən nadir gözəlliyindən danışmışdı.

Vaxt gəlib çatdı, bir gün Nuru evə gəlib bizi Nabrana aparmaq istədiyini söylədi.Mən əvvəlcə tərəddüd elədim, körpə uşaqlarla evdən uzaqda qalmaq gözümə durdu.Üç azyaşlı uşaqla bir yana gedəcəkdiksə, gedəndə də köçlə getməli idik, gələndə də.Mən bunu deyəndə, Nuru da cavabında:

--Mən deyirəm, uşaqların dənizə, quma, günəşə ehtiyacı var, gör sən nələri düşünürsən. Məyər burda hər gün dənizə gedb-gəlmək zülüm olmur?Fikirləş, gör hansı daha çətindir?Orda biz

bircə dəfə dənizin sahilinə köç salacağıq, uşaqlar səhərdən axşamacan dənizdə çimib qumda gəzəcəklər.Sən o köçü düşünəcəyinə bunun fərqini düşün.--dedi.

Mən onun haqlı olduğunu qəbul edib razılaşdım.Həmin ildən başlayaraq, biz hər il yaylarımızı Nabranda keçirdirdik.Gün boyu dəniz də, qum da, günəş də bizim xidmətimizdə olurdu.Biz bütün ərzaqları, əti, yağı, südü, qatığı, yumurtanı kənd camaatından alırdıq.Bütün bostan məhsullarını da qaldığımız evin sahibindən alır, bağçasından özümüz dərirdik.Uşaqlar hər gün balıq yeyirdilər.Ən ləzzətli dəniz balıqları Nabranda su qiymətinə idi.

Çox gözəl, çox unudulmaz günlər idi o günlər.Uşaqlar doğurdan da hər dəfə Nabrandan geri dönəndə, bədəncə möhkəmlənmiş, günəşdə yanıb qaralmış, bir az da böyümüş olurdular.Nabran tətilləri həyatımıza girdikdən sonra uşaqlar doğurdan da gec-gec xəstələnir, sağlam böyüyürdülər.Mən bir həyat yoldaşı kimi Nurudan hər barədə razı idim, ancaq Nabran tətillərimiz üçün ona xüsusilə minnətdar idim.O da bunu bilir, bundan qürur duyurdu.

Oğlanlar böyüdükcə Nuru da onların yaşla bağlı dəyişikliklərinə anlayışla yanaşırdı.Nuru, ümumiyyətlə anlayışlı ata idi.Hər zaman oğlanları ilə təmas qurmağa, onlarla dost yana rəftar eləməyə çalışırdı.Ona görə də uşaqlar hər sözlərini ona deyir, heç nəyi ondan gizlətmirdilər.Əyər yalnış bir şey yapmış olsaydılar, evə gəlməkdən çəkinər, çöldə yubanar, atalarının evə dönəcəyi vaxtı gözləyərdilər.Bilirdilər ki, məndən fərqli olaraq, ataları onları daha tez anlayacaq, aranı da yumuşalda biləcək.

Bütün valideynlər kimi, bizim ikimizin də övladlarımızla bağlı çox gözəl arzularımız var idi. Onları sağlam böyütmək, gözəl yerlərdə oxutmaq, gələcəkləri üçün əlimizdən gələni əsirgəməmək, bunlar bizim ən məsum arzularımız idi. Ətrafımızda yaşanan həyata baxanda anlayırdıq ki, bütün bu düşündüklərimizi həyata keçirmək heç də asan olmayacaq.

Ancaq ürəyimizin dərinliklərində biz yenə də nəyəsə ümid edir, arzularımızı solmağa qoymurduq.Arzular bizim üçün çox önəmli idi.Çünki, arzular bizə qol-qanad verirdi, biz də bu arzuların qanadlarında göylərə uçmağa hazır idik.

Bu bizim balalarımızın atalı günləri idi...

17.Yaddaşımın xatirə qatlarından bir epizod...

Ər-arvad olaraq xasiyyətimizdə təzadlar çox idi ki, onlardan biri Nurunun tez özündən çıxması idisə, biri də bir hadisə baş verəndə tez panikləməsi, başını itirməsi idi.Məndə də bu xasiyyətlərin tərsi vardi.Mən daha səbirli idim, başımıza bir iş gələndə də daha təmkinli, daha sakit olmağa çalışırdım.Bir hadisə baş verərdisə, mən özümü də, yanımda kim varsa, onu da sakitləşdirməyə çalışır, vəziyyətdən necə çıxacağımıza dair yollar axtarırdım.Yanımda da həmişə tələş içində haray-həşir salan Nuru olurdu.Belə hallarda, mən eyni zamanda həm nə edəcəyimizi düşünməli olurdum ki, bu mənə görə daha asan idi, həm də Nurunu sakitlədirməli olurdum ki, bu adətən daha çətin olurdu.Hər dəfə də Nurunu sakitləşdirmək, məsələni həll etməkdən çox vaxt aparırdı.Kişi xeylağında ürəyi yuxalıq belə şey idi.Nuru çox ürəyi yuxa adam idi.Xüsusən də övladlarımızın sağlığı mövzusunda çox həssas idi.Bir hadisə baş verəndə uşaqlardan əvvəl özü qorxardı, rəngi-ruhu qaçardı.Bununla yanaşı təcili tədbirlərə əl atmaqdan da qalmazdı.

Birinci oğlumuzun körpə vaxtları yadıma gəlir ki, onda körpənin guya "çöp götürməsi", boğazı gəlməsi, qarın ağrısına düşməsi halları ola bilirdi.Belə vaxtlarda Nuru işi-gücü atar, bizi daha haralara aparıb çıxartmazdı.Uşaq çöp götürəndə onu çöpçüyə, boğazı gələndə boğaz basana, hər qarnı azacıq ağrıyanda xəstəxanalara çatdırmaq, Nurunun övlad sevgisinin gücünü göstərir, bu məsələdə nə qədər həssas olduğunu ortaya qoyurdu.Mən də bunu görür, onu anlayışla qarşılayır, könülsüz də olsa, onun bizi sürüklədiyi hər yerə onunla gedirdim.

İkinci oğlumuz məktəbdə başqa bir uşaqla dalaşmış, burnunu sındırmışdı. Biz onu həkimə apardıq, burnunu müalcə elətdirdik.Aradan bir az keçmiş, uşağın ayağları tutuldu, yeriyə bilmədi.Nuru təşvişə düşdü, bunu uşağın burnunun sınması ilə əlaqəndirdi.Bunu öz beyninə yeritdiyi, bu üzdən də rahatlığını itirdiyi azmış kimi, məni də şübhələrə salmağı bacardı.Uşağı həkimlərə apardığımız 2-3 günün içində Nuru özü uşaqdan betər oldu.O, keçirdiyi həyəcandan, oğlumuzun durumu ilə əlaqəli yaşadığı tələşdan, tezliklə ciddi xəstəliyə tutulmuş bir adama bənzədi.O arıqladı, gözləri çuxura düşdü, iştahdan kəsildi.Mən də qaldım eyni vaxtda onunla uşağın dərdini çəkmək hayında.O vaxta qədər ki, Nuru bizi yenidən həkimlərə apardı, oğlumuzun revmatizmi olduğunu öyrəndi, dava-dərman elətdirdi.Ancaq bununla da ürəyi soyumadı, uşağı Maştağa kəndindəki çildağa apardı.İki həftə uşağı davamlı çildağa aparandan sonra uşaq özünə gəldi, yeriməyə başladı, Nuru da, belə türkəçarə vasitələrə inanmadığıma görə məni qınadı.

Üçüncü körpəmiz elə doğuşdan Nurunun ürəyini ağzına gətirdi, çünki səkkiz aylıq doğuldu.Nuru o gündən xəstəxananın qapısında yatıb qaldı.O, tələş içində vurnuxur, tibb bacılarını öz sorğu-sualı ilə boğaza yığırdı.Ta ki, bir gün uşaq həkimi bayıra çıxıb ona sakit olmasını tövsiyə edir.Doktor deyir ki, qorxulu heç nə yoxdur, uşaq tez doğulsa da, hər şeyi normaldır, bircə həftəyə özünü toplayacaq.Nuru yenə də nəsə demək istəyib, doktor bu zəhlətökən atanı kökündən sakit eləmək üçün deyib:

-- Ay qardaş, qorxma ey, səkkiz aylıq nədir, biz hətta beş ayında doğulan uşaqları da yaşada bilirik, bunun üçün hər şəraitimiz var.

Nuru ancaq bundan sonra sakitləşir, onda da bir qəfil doktoru qucaqlayıb öpür, cibinə də 100 manat pul qoyur.Doktor tez qaçıb içəri girir.Bunları da mənə doktorun özü danışmışdı.

Nuru belə ata idi.Bəzi ata adına layiq olmayan atalardan çox ötə bir ata idi.Nuru ana ürəkli ata idi.Onun böyük ürəyinin övlad

sevgisi ilə dolu olduğunu göstərən o qədər xatirələrimiz vardı ki...Bəziləri qəmli olub, bəziləri komikliyi ilə yadda qalan xatirələlə dolu idi ömrümüz.İndi burda yazdığım bir-iki epizod bizim macəra dolu həyatımızın ən məsum anları idi. Övladlarımızın əskərliyi ilə bağlı, oxumaları ilə bağlı çox şeylər yaşadıq biz.O çətin anlarda biz aramızda olan bütün umu-küsüləri bir kənara qoyar, əl-ələ verərək özümüzü mübarizə meydanına atardıq.Əyər haqqımızı sübut edə bilərdiksə, savaşdan sağ-salamat çıxmış iki döyüşçü kimi bir-birimizə sarılardıq. Biz anlayırdıq ki, ömrün hər günü bayram olmaz, ancaq çətinliklər bir-birinin ardınca nəfəs çəkməyə imkan vermədən gələndə, başımıza gələnlərin bizim üçün bir imtaham olduğunu anlayır, o imtahanlara sinə gərməyi bacarırdıq.İçindən keçdiyimiz çətinliklər bizim ailə bağlarımızı daha da gücləndirirdi.Uşaqları bizə, bizi də bir-birimizə bağlayırdı.Bizə görə ailə olmaq da belə bir şey idi.

Bu gün mən oğlanlarımın da öz övladlarına qarşı həssasiyətinə şahid oluram.Onlar da bu gün, övladlarının qayğısını eyni ataları kimi çəkir, onların şən gülüşləri ilə, hərəkətli oyunları ilə nəfəs alır, həyata tutunurlar.Allah onlara da övladlarının mürvətini, muradını, yuva qurub övlad sahibi olduqlarını görməyi nəsib eləsin.

Biz Nuru ilə bu yolu çox çətinliklə gəldik, ancaq hər dəfə geri baxanda ikimizin də sinəmizi qürur hissi doldurdu.O bağa ki, bir vaxtlar biz girdik, orda bir ömür boyu çalışdıq, əkdiyimizi əkdik, becərdiyimizi becərdik, zəhmət sərf edərək orda övlad yetişdirdik, zəhmətimizin bəhrəsi də ürəyimizcə oldu. Əlhəmdülillah ki, qazancımız xeyirli övladlar oldu.Nurunun onlardan razı qalması, onların mürvətini görməsi, hər oğuldan təkrar-təkrar nəvə şirinliyini dadması, bü gün mənə ən böyük təsəllidir.Gün o gün olsun ki, bizim balalarımız da övladlarını yerbəyer elədikdən sonra, bir gün geri baxanda, bizim kimi özləri ilə fəxr eləsinlər, övladları ilə qürur duysunlar.Nuru ilə

ikimizin də dualarımız həmişə bu yöndə olardı.İndi mən bu duaları tək eləsəm də, Nuru da yəqin bilmiş olar, mən bu duaları həmişə olduğu kimi, ikimizin yerinə edirəm.Və mən həyatda olduqca, bu belə də davam edəcək.Nə eləsəm, nə iş görsəm, hamısını ikimizin yerinə edəcəyəm, ***ikimizin yerinə...***

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Nuru bir baba idi...

Nəvələrimin Nuru Babası...Günlərin bir günü ilk nəvəmiz dünyaya gəldi, dil açıb danışmağa başladı, Nurunun adını baba qoydu.O vaxtdan da biz hamımız Nuruya nəvəmizin dili ilə Baba deməyə başladıq.O bu adı ilə öyünürdü, qürur duyurdu, uşaq kimi sevinirdi.Onun özünə də xoş gəlirdi ki, o bu boyda ailənin, az qala bir kənd camaatın Babası idi, Nuru Babası. Nuru Baba, baba olduğu ilk gündən nəvələri üçün həsrəti bitməyən, onları sevməkdən doymayan bir baba oldu.O, ilk nəvənin dadını bildiyi ilk gündən ömrünün sonuna kimi, səhərləri nəvələrini düşünərək açdı, gündüzlərini nəvələrinin görüşünə getmək üçün bəhanələr axtarmaqla keçirtdi, axşamları da mən onu zorla nələrindən ayırıb evə gətirər oldum.Nuru Baba belə baba oldu.

Oturub olanları-keçənləri saf-çürük edəndə belə qənaətə gəlirəm ki, biz burda keçirdiyimiz illəri boş da durmadıq.Şükürlər olsun ki, övladlarımızı evləndirdik, həm də el adəti ilə, bütün qayda-qanunu ilə evləndirə bildik, onları oğul-uşaq sahibi elədik.Öz millətimizdən olan gəlin-qızlarımız, həmişə bizi ana-ataları qədər sevdilər.Nuru da onları çox sevirdi, qarşılayanda da alınlarından öpürdü, yola salanda da.Onlar da Nurunu daha çox sevirdilər.Nuru gəlinlərin hər işinə koşan, onlara hər işlərində yardım edən bir baba idi.Onu ailəcə belə də çağırırdıq, nəvələrimizin dediyi kimi:Baba...

O Baba yorulmaq bilməz, bu yaşında ailəmizdən hər kəsin çağırışına koşar, kimə necə lazım olardısa, elə də yardım edərdi.Hələ onun elə bir xidməti də var idi ki, ümüd edirəm ki, nə övladlarımız, nə də nəvələrimiz bunu heç zaman unutmayacaqlar.Nuru Babanın həftədə ən azı bir dəfə uç ünvana əlində yemək dolu qaynar qazanla yetişməyi var idi ki, bu da onun sayəsində zamanla bir ən-ənəyə çevrilmişdi.Ən azı həftədə bir dəfə mən elə yeməklər hazırlayırdım ki, onu gəlinlərimiz çox nadir hallarda bişirə bilirdilər.Buna onların sadəcə vaxtları çatmırdı.Yarpaq dolması , peraşki, pərəməc, ət qutabı, göy qutabı, cürbəcür plovlar, borş belə yeməklərdən idi.Belə hallarda mən bol-bol bişirdiyim həmin yeməyi paylara bölərdim, Nuru da gah gəzə-gəzə, gah da maşınla, o payları üç ünvanda yaşayan balalarımıza daşıyardı.Elə olmuşdu ki, Nuru nəinki bundan yorulurdu, əksinə məni tələsdirirdi ki, yemək soyumadan payları hazırlayım, o da aparsın.Yadıma gəlir ki, Nuru o payları aparıb qapıdan verər, geri dönər, ancaq bundan sonra onu gözləyən hazır süfrədə yeməyə əl uzadardı.O, böyük ruh yüksəkliyi ilə süfrəyə oturar, bir yandan da gəlinlərin də, nəvələrin də o paylara necə sevindiklərini söyləyərdi.Gəlinlərimizin üçünün də gözəl əl qabiliyyəti, dadlı yeməklər bişirmək bacarığı var idi.Onların mənim bişirib göndərdiklərimə elə də ehtiyacları yox idi.Doğrudur, mənim göndərdiyim nənə payları da o evlərdə sevinclə qarşılanırdı, çox vaxt dərsdən ac gəlmiş nəvələrim üçün göydəndüşmə olurdu.Nuru isə bunu elə qələmə verirdi ki, guya onlar məhz bizdən gələn payı daha çox sevdiklərinə görə bu qədər seviniblər.Mən bilirdim ki, Nuru bu olaya belə don geyindirməklə mənim könlümü şad eləməyə çalışırdı.Halbuki, o paylar olsaydı da, olmasaydı da, Nuru o üç evin ən sevimli, ən yolu gözlənilən Nuru Babası idi.

Allaha çox şükürlər olsun ki, üç evdə doqquz nəvəmiz böyüməkdədir.Onların səkkizini Nuru həyat gözü ilə gördü, sevdi.Doqquzuncu nəvəmiz onun ölümündən sonra doğuldu.

Nəvələrimiz böyüdükcə, Nuru da onların boylarına sevinirdi. Nəvələrin arasında onun adını daşıyan kiçik Nurəddin də var.Nuru Babası onu özündən də çox sevirdi...

Nəvələrimizdən məktəbə gedənlərini Nuru altı il boyunca öz maşınında həvəslə məktəbə aparırdı, gətirirdi.Nuru, sanki bu məşquliyyətindən güc alır, həyatını nəvələrimizə sərf elədiyi üçün həyat eşqi də, yaşamaq həvəsi də gün-gündən artırdı.O, bu yaşında da bir işə yaradığından qürur duyar, nəvələrimizi məktəbə məmnuniyyətlə aparar, vaxtını onlara həsr eləməkdən böyük zövq alardı.Hayıflar olsun ki, o son uğursuz kemoterapi seansı təkcə Nurunun deyil, bütün onu sevənlərin planlarını pozdu, alt-üst elədi.Halbuki, son kemoterapi seansına gəməzdən bir neçə gün əvvəl Nuru həyat dolu idi, həvəslə yeni dərs ilinə hazırlıqdan danışırdı.Onun özünün yeni dərs ilinə hazırlığı da onun "School-bus" adlandırdığı maşınının baxımından başlayırdı. Nuru maşını kontrol elətdirir, həvəslə əyər-əksiyini düzəltdirirdi. Daha bilmirdi ki, yeni dərs ilinə qalmaq ona qismət deyilmiş.Bilmirdi ki, hər axşam maşınının texniki vəziyyətindən, əyər-əksiyindən bizə məlumatlar verdiyi günlər, onun bizimlə yaşadığı son günlər, nəvələrimizlə birlikdə keçirdiyi son zamanlar imiş.Müalicə məqsədi ilə gedəcəyi kemoterapi seansı, Nurunun ömrünün son nöqtəsi olacaqmış.

Cəmi bir neçə gün sonra, kemoterapinin etkisi ilə Nuru yatağa düşdü, və bir daha qalxa bilmədi...

Hələ bu gün də itirdikləri babaları üçün göz yaşı tökən, Nurunun rəhmətə getdiyi gündən bu yana, onun ölümünü qəbullana bilməyən, gecə gündüz "Baba" deyib ağlayan, hər yerdə onu axtaran nəvələrimiz, ilk dəfə bir faciəyə şahid oldular, ilk dəfə bu qədər böyük bir acı yaşadılar. Onlar bir insanın öldüyünü öz gözləri ilə ilk dəfə görürdülər, və bu insanın da onların çox sevdikləri babaları olması, yəqin ki, bu körpə ürəklərin çəkə bilməyəcəyi ağır bir dərd olmalı idi.Bir yandan Nurunun yerinə sevinirəm ki, onun son anında hamımız, ən

körpə nəvəmizə kimi, onun başının üstündə olduq.Nuru, bu dünyaya gözünü yumduğu son anda da bizi bir yerdə, bir arada gördü, öz yanında gördü.Mən olsam, son anımda mənim üçün bundan böyük xoşbəxtlik olmazdı.Digər tərəfdən, bu körpələr ilk dəfə belə bir faciə ilə rastlaşırdılar.Onlar üçün, çox sevdikləri babalarını, həm də üçcə gün əvvəl onları Quran dərsindən gətirən, yol boyu onlarla dadlı-duzlu zarafatlar edən babalarının ölümü kimi bir faciəyə şahid olmaları da asan məsələ deyildi.Onlar o son günü hələ də unuda bilmir, Nurunun adı çəkilən kimi hamısı göz yaşı tökürlər.Bu göz yaşları, nəvələrimizin ən səmimi hisslərini biruza verən, önların əziz bir insanın yoxluğuna dözə bilməyən məsum ürəklərinin fəryadıdır.Allah onlara səbir versin.

Mən rəhmətlik Nurunun o dünyası üçün dualarımda Allahdan bir də onu diləyirəm ki, kaş ki, bizim Nuru üçün darıxmağımız, onu unutmamağımız, onu sevgi ilə yad etməyimiz ona əyan olaydı...Mən bunu çox istəyirəm...İstəyirəm ki, o bunları görsün, duysun, hiss eləsin...Kaş ki...

Nurunun son anlarını əks edirən bir şəkil də var.Heç bilmirəm kim çəkib.Çox təsirli şəkildir.Əsasən böyük nəvələrimiz ağlamaqdan qızarmış gözləri ilə babalarının yatağının yanında boy-boya durublar.Baba yəqin ki, son saatlarını yaşadığını hələ bilmirdi, ona görə də onlara fəxrlə baxıb gülümsəyir.Nəvələrimizsə, kameraya qəmli-qəmli, sanki Nuru Babaları artıq yoxmuş kimi baxırlar.Mən o şəkli ilk gördüyümdə, Nurunu yenicə itirmiş kimi oldum, ürəyim parçalana-parçalana bir gün axşama kimi ağladım.O vaxtdan balalarım o şəkli bir daha mənə göstərmədilər.

Allah sənə rəhmət eləsin ay Nuru.Özün getdin, sözün-söhbətin qaldı.

Bu bizim nəvələrimizə verdiyimiz sevgi payımız idi...

18.Yaddaşımın xatirə qatlarından bir epizod...

Nəvələrimizlə doyunca vaxt keçirməyimiz, ömrümüzün bizə bəxş elədiyi ən qiymətli hədiyyə, ən dəyərli fürsət idi.İndi mən ancaq bununla təsəlli tapıram.Doğrudur, bu fürsət Nurunun payında, bizim ürəyimizdən keçən qədər uzun olmadı, ancaq yenə də keçən günləri yada salanda, nəvələrimizlə keçirdiyimiz oyunları, gəzintiləri, əyləncələri xatırlayanda, Allaha çox şükür deyirəm.Çox şükür ki, biz bunları birlikdə gördük, bunları birlikdə yaşadıq.Harda yaşadıqsa, hansı şəhərdə yurd saldıqsa, o şəhərlərin hər görməli-gəzməli yerində izimiz qaldı. Nəvələrimizi alıb gəzdiyimiz bağçalar-bağlar, onları Nuru ilə apardığımız əyləncə yerləri, oyun parkları bizim xatirələrimizlə doludur.Bir də bu kitabda yazılanlar, Nuru ilə mənim qoşa gəzdiyim, günün müəyyən saatlarında nəvələrimizi hava almağa çıxartdığımız, gəzdirib-dolaşdırdığımız, heyvanat bağçasına apardığımız, balığlara çörək atmağa apardığımız o gözəl günlərdən əziz xatirələrdir.İnanıram ki, bu kitab hardasa, kimin evindəsə yaşadığı sürəcə, o xatirələr də həm özləri yaşayacaq, həm də Nuru ilə məni yaşadacaq.Xatirələrdə olsa belə...

Doğru deyirlərmiş ki, nəvə övladın özündən də şirin olurmuş.Nuru Babanın nəvələrimizi nə qədər sevdiyini, onlarla nəfəs aldığını məndən yaxşı bilən olmaz.Biz övladlarımızdan ayrı, müstəqil yaşayırdıqsa da, mən Nurunun üzünə bir az da xoş baxsaydım, bəlkə də hər gün bir övladımızın qapısında yatıb qalardı.O qədər çox sevirdi nəvələrini.Onlardan doymurdu, ayrılmaq istəmirdi.Mən onu o qapılardan zorla qoparda bilirdim.Onun təkidi ilə tez-tez nəvələrdən hansınısa bizdə gecələməyə də saxlayırdıq. Ancaq yenə də o, hər gün bir şeyi bəhanə gətirib özünü nəvələrinə yetirməyə çalışırdı.Allahdan, gəlinlər onun xətrini çox istəyir, ona atalarından da çox ərk edirdilər.Bu məni çox sevindirirdi. Belə olmasaydı gəlinlər, vaxt-bivaxt onlara gələn, uşaqlarla müxtəlif hərəkətli oyunlar keçirdən, bəzən onlarla igəşən, bəzən savaşan, bəzən də barışan,

səsli-küylü bir qaynataya nə qədər dözə bilərdilər?Mən onu danlayanda, gəlinlər ona qahmar çıxırdılar, və mən bilirdim ki, gəlinlərimiz dediklərində səmimidirlər.Onlar üçü də qaynatalarını çox sevirdilər.Bu da boş yerə deyildi, Nuru bu sevgini özünün ata sevgisi ilə, qayğıkeşliyi ilə qazanmışdı.O, gəlinlərini çox sevirdi.Hər görüşdə onların alınlarından öpürdü.Həyatının son günündə də onların alınlarından əllərindən öpdü, "Mənim gözəl qızlarım"-- dedi.İndi belə qaynatalar harda var?O vaxtdan gəlinlər də elə bunu deyib ağlayırlar.Heç birinin yanında rəhmətliyin adını çəkmək olmur, o saat gözlərindən sellər axır. Nuru, həm də gəlinlərin təcili yardımı idi.Hansı gəlinin maşını nasaz olardısa, Nuru özünü yetirər, öz maşını ilə onları alışverişə aparardı. Gah onlara evdə, xırda təmir işlərində yardımçı olardu, gah uşaqları gəzməyə apararaq, gəlinlərə dinclik verərdi.

Onun ən böyük xidməti, uşaqları dərsə aparıb-gətirməyi idi.Oğlanların dövlət işində, gəlinlərin də ev işlərində başlarının qarışıq olduğu bir zamanda, Nurunun nəvələrimizi səhər məktəbə aparması, günortadan sonra da gedib gətirməsi, övladlarımız üçün əhəmiyyətli dərəcədə kömək idi.Nuru bu işi sevirdi, həvəslə yerinə yetirirdi.Oğullarımız da, gəlinlərimiz də ona son dərəcə güvənir, ona minnətdar olurdular.İndi yada salıram ki, Nuru bu işi ölümündən üç gün əvvələ qədər gördü, çünki onun ölmək fikri, ölmək niyyəti yox idi.Onun yoxluğu bizə bu qədər acı verdiyi bir zamanda bunu demək çox ağırdır, ancaq bu bir həqiqətdir ki, biz heç özümüz də gözləmədiyimiz halda, çoxlarından sağlam görünən, gümrahlığı ilə, həyat dolu olması ilə çoxlarına nümunə ola biləcək bir insanı, üç günün içində əlimizdən verdik, getdi...Görünür qismət belə imiş.

Nəvələri məktəbə aparmaq, məktəbdən gətirmək Nurunun özü üçün də bir əyləncə idi. Hər dəfə nəvələri məktəbdən gətirəndə, ya bu nadinclərin hansındansa şikayət edərdi, ya da mənə uşaqlarla əlaqəli bir macəra, bir olay, bir gülməli hadisə danışardı.Son dəfə danışdığı gülməli söhbət kiçik oğlumuzun kiçik oğlu ilə bağlı

olmuşdu.Nuru bu söhbəti son günə kimi danışar, bundan elə ləzzət alardı ki, nəvəm artıq bu söhbətdən bezərək:

--Eee...Baba...--deyirdisə də, Nuru bu söbəti təkrar-təkrar danışmaqdan doymazdı.

Söhbət də belə olmuşdu.Məktəbdən geri gələndə, necə olursa, söhbət evlənməkdən düşür, nəvələrimizin hərəsi siniflərindən bir qızın adını çəkir, o qızı sevdiyini babasına etiraf edir.Mən bilirdim ki, onları bu mövzuya çəkən də həmişə Nuru olurdu.Biz ona nə qədər belə mövzularla ehtiyatlı olmağı, indidən uşaqları ayıltmamağı tapşırırdıqsa da, Nuru əməlindən qalmırdı.Gülə-gülə deyirdi ki:

--Bir şey ki, onlar bu yaşda da kimdənsə xoşlanırlar, bunun üstünü ört-basdır eləməyin nə mənası var.Bura Avropadır, burda onlar onsuz da dərsdə hər mövzularda söhbətlər aparırlar.

Nə isə, bu dəfə də 12, 10, 8, 6 yaşlı nəvələrin hərəsi bir ad çəkir, sevdiyini deyir. Növbə, hələ məktəbə getməyən, babası ilə məktəbə gedənləri müşaiyət edən, maşındakı nəvələrin ən kiçiyinə, 3 yaşlı Osmana çatır.Babası soruşur:

--Osman, aslanım, sən de görək sənin sevdiyinin adı nədir, sən kimi sevirsən?

Osman da cavab verir:

--Çupa-çupsu...Mən çupa-çupsu sevirəm, böyüyəndə də onunla evlənəcəyəm.

O gündən Osmanın bu sözü dilə-dişə düşdü.

Çupa-çupsun nə olduğunu uşaqlar yaxşı bilir.Bu, taxta çubuğun ucuna bərkidilmiş yumru şəkərli toplardır.Bizim uşaqlığımızda da buna bənzər şəkərlər olurdu, biz ona "şirni quşu", yaxud "xoruz" deyirdik.Bizim konfetlərimiz xoruz şəklində, rəngi də hər kəsin diqqətini çəksin deyə, al-qırmızı olurdu.Uşaqlar bu sovurma konfetləri çox sevsələr də, analar hər zaman bu şirni quşlarının əleyhinə olmuşdular.Onlar övladlarını bu cür konfetlərdən uzaq tutmağa, dişlərinin vaxtından əvvəl tökiləcəyindən ehtiyat edərək, onları qorumağa çalışırdılar. Ancaq hər qadağanın effekti də,

gözlənilməz dərəcədə əks nəticə verirdi.O qədər ki, günlərin bir günü, Osman nəvəmiz babasına sirr gələrək, böyüyəndə ancaq Çupa-çupsla evlənəcəyini bəyan etmişdi. Osman əlbət ki, evlənməyin nə olduğunu bilmirdi, ancaq o sevginin nə olduğunu bilirdi.Ömrünün bu yaşında çupa-çupsu hər şeydən çox sevdiyindən, bu sevgidən əmin idi, ona görə də babasına belə bir cavab vermişdi.Onun bu sözünün ətrafında edilən zarafatlar, Nuru Babası rəhmətə gedənə kimi davam elədi.Hər dəfə qardaşları, yaxud əmilərinin uşaqları ona sataşanda o da babasına baxıb deyirdi:

--Eee...baba...

Osmanın Nuru Babası rəhmətə getdi, o çupa-çups söhbəti də dadını-duzunu itirdi, unuduldu.

Nuru yeni dərs ilinə hazırlıq edəndə, həmin o "School bus"a daha bir oturacaq qoyaraq demişdi:

--Osmanın da oturacağını quraşdırdım, inşaAllah onu bu il məktəbə aparmaq mənə qismət olar, ancaq Nurəddini məktəbə aparmaq mənə qismət olarmı, bilmirəm...

Onun bu sözü bu gün də hər birimizin ürəyini deşir, çünki heç Osmanı da məktəbə aparmaq ona qismət olmadı...

Nuru Baba belə baba idi.Nəvələr onu unutmur, hər həftə dəstə-dəstə onun qəbrini ziyarətə gedirlər.Orda hamıdan çox ağlayan Osman olur.Osman yəqin ki, hələ də Nuru Babanın harda olduğunu anlaya bilmir, tez-tez mənim telefonumu götürüb deyir:

--Nənə, Nuru Babaya zəng vurum, qoy yanımıza gəlsin.

Allah Nurəddinə qəni-qəni rəhmət eləsin...Ruhu şad olsun.Amin.

O və Mən...
Biz ikimiz...

İkimizin dünyası çox da geniş deyildi.O dünyada biz vardıq, bizim balalarımız, nəvələrimiz vardı, uzaq-yaxın qohum əqrəba-

dan kimlərsə vardı, bir də çox az saylı, uzun bir ömür boyu, o ömür yolunda pis gündə də, yaxşı gündə də dəfələrlə sınanmış, o sınaqlardan da hər dəfəsində qalib çıxa bilmiş 3-5 dostumuz var idi.Ömür keçdikcə biz onların bəzisini o yollarda salıb itirdik, bəzisi dünyasını dəyişdi.Daha sonra biz baş alıb gedəsi olduq, beləcə bir də baxdıq ki, bizə qalan yenə də övladlarımız oldu.

Bizim dostumuz çox deyildi, ancaq buna baxmayaraq, yadıma gəlir ki, gəncliyimizdən bu yana evimiz həmişə qələbəlik olardı. Bəxtimizdən bir xasiyyətimiz üst-üstə düşmüşdü ki, o da bizim ikimizin də təkliyi sevməməyimiz idi. Biz, xoş günümüzü o az saylı dostlarla, qohumlarla keçirtməyi sevərdik.Azmı olardı, çoxmu olardı, ancaq hər şirin tikəmizi paylaşaraq, şirin-şirin söhbət edərək yeməyi çox sevərdik.Bu xüsusda Nuru məndən də həvəsli idi.Vaxt olurdu ki, mənə xəbər vermədən, yanında qonaqla gəlirdi, o an hazır yemək olmadığından mən pərt olurdum, əl-ayağa düşürdüm, nəsə hazırlamağa çalışırdım. Ancaq Nuru heç halını pozmazdı, soyuducuda nə tapardısa, yanına salıb gətirdiyi qonağa da onu təklif edərdi.Qonaq gedəndən sonra mən onu məzəmmət edərdim, məni pis vəziyyətə saldığını söyləyərdim, o isə cavabında deyərdi:

--Sən nahaq narahat olurdun, mən hər yoldan keçəni evimə gətirmərəm axı...Sən tanımırsan, ancaq bu adam mənim dostumdur, özü də bizim kimi sadə insandır.Onun üçün bu evdə nə yeyəcəyi önəmli deyildi, elədiyimiz söhbətlər önəmli idi.

Ona baxırdım, fikirləşirdim ki, həyata bu qədər sadə baxmağın özü də, hər kəsdə olmayan bir qabiliyyətdir.Amma, bu qabiliyyət zənginlikdirmi, kasadlıqdırmı, buna qərar verə bilmirdim.Bir dəfə söhbət düşdü, mən bu barədə onun özündən soruşdum:

--Sən necə hər şeyə bu qədər asan qərar verə bilirsən, hamıya inanırsan, heç nə üçün qorxmursan, narahat olmursan?Bəlkə sənin belə asan inandığın, ürək qızdırdığın insan heç sənin düşündüyün kimi yaxşı adam deyil?

O da cavabında dedi:

--Neyləyək?Olanımız budur da...Mən özüm necəyəmsə, hamını da elə bilirəm.Qalanı qalır bir o insanın vicdanına, bir də Allaha. Baxdım, baxdım, bir söz tapıb deyə bilmədim.Düz sözə nə deyəsən? Bu insan o qədər saf idi ki, uşaq kimi hər kəsə inanırdı. Doğrudur, onu aldadan olmurdu, ancaq necə şeydirsə, başına da ən əcaib macəralar gəlirdi.Heç kimin ağlına gəlməyən, eşidəndə bizim də inana bilmədiyimiz qəribə hadisələr axtarıb onu tapırdı sanki.Başına nə gəlsəydi də, mən də, belə qəribə macəralarda onu qurtarmağa özünü yetirən qardaşım Kərəm də, başqa dostlarımız da əzəl başdan Nurunun günahsız olduğuna inanırdıq.Buna heç vaxt şübhəmiz olmazdı.Çünki həyat özü sonradan sübut edirdi ki, Nurunun o an başına nə gəlmişdisə, o sadəcə bir təsadüf idi.

İndi fikir verəndə düşünürəm ki, biz hər halda qəribə cütlük idik.Bizim xasiyyətimizdə o qədər tərs düşən şeylər var idi ki, evli cütlüklərin hər xırda şeyi bəhanə gətirərək boşanmağa tələsdiyi bir zamanda, bizim kimi, iki bir-birinə zidd xarakterli insanın bir yerdə uzun zaman yaşaya bilməsi də, kənardan baxana qəribə gələ bilərdi.Ancaq biz özümüz bilirdik ki, bu ziddiyyətlər bizi nəinki bir-birimizdən uzaqlaşdırmır, əksinə, bizi bir-birimizə sarı çəkir.Beləki, iki gün ayrı qalırdıqsa, özümüz həmin o xırda, sıradan çəkişmələrimiz üçün darıxırdıq.

***

Az tapanda aza, çox tapanda çoxa sevinməyi bacaran, başımıza gələn heç bir şeydən qorxmayan, ümidsizliyə qapılmayan, bir-birimizə dəstək olmağı bacaran bir cütlük...

Bu biz idik...

Hamının kasıb saydığı, bəlkə bəyənmədiyi, bəlkə uzaq durduğu, o üzdən də bizi tanıya bilmədiyi, əslinə baxanda isə, daxili dünyası zənginlikdən aşıb-daşan, hamıya can yandıran, hamını sevə biləcək qədər böyük ürək sahibi olan iki insan...

Bu biz idik...

Yaşam gücünü dürüstlükdən alan, haramdan, yalandan, şərəfsizlikdən qaçan, həyat kredosu ancaq düz yolu tutmaq olan iki yolçu...

Bu biz idik...

Bir-birini qəribə bir sevgi ilə sevən, həyatdan zərbələr aldıqca sevgisi sönmək, bitmək yerinə daha da alovlanan, bir tonqala, bir atəşə dönüşən, sonra bu atəşdə özü də yanıb-yanıb kül olan, sonra yenidən öz külündən doğmağı bacaran sevgi dolu iki ürək...

Bu biz idik...

Övladlarını da dürüstlük üzərində tərbiyə edən, onlara gözünün nurunu, ürəyinin odunu, dünya malından gücü yetəni əsirgəməyən iki valideyin...

Bu biz idik...

Eyni gündə, səhər qızdırmalı övladını təcili yardıma yetişdirməklə məşğulkən, axşamı dəvət olunduqları toya da yetişməyi bacaran, üstəlik səhərki tələşlərini bir anda unudaraq, ürəkdən qol götürüb oynayan, məharətlə rəqs eləməyi bacardıqları üçün çoxlarının həsəd apardığı, bütün cətinliklərə savaş açmış nikbin, optimist, dəli-doli ər-arvad...

Bu biz idik...

Artıq çox sınaqlardan qalib çıxdıqları üçün özləri ilə öyünən, bütün çətinlikləri arxada buraxmağı bacaran, bir ömrün ahıl yaşına kimi də bir-birinin əlini buraxmayan, yolun sonundan geri boylanarkən peşimançılıqdan çox qürur duyan, gün boyu nə qədər mübahisə edib höcətləşsələr də, bir-birini görmədikləri bir saatın içində azı on dəfə zəng vurub "Nardasan?" deyə axtaran, ən maraqlı həmsöhbətini itirmiş adamlar kimi bir-biri üçün darıxan, axşamları çay dəmləyib televizorun qabağında oturan, baxdığı verlişin mövzusundan mövzu taparaq şirin-şirin söhbət edən iki yaşlı...

Bu biz idik...

Mən bu gün də axşamları çay dəmləyib televizorun qarşısında otururam, sağlığında olduğu kimi, yenə də verilişlərə baxa-baxa Nuru ilə söhbət edirəm.Ondan cavab gəlməsə də, Nuru bu söhbətə qoşula bilməsə də, mən onu hər zaman yanımda hiss edir, hər fikrimi, hər sözümü onunla paylaşıram.Hərdən onu da düşünürəm ki, sən demə tək yaşayan qocaların öz-özləri ilə danışmağı da bu səbəbdən imiş.Onlar da itirdikləri həyat yoldaşlarının yoxluğuna alışa bilmədikləri üçün öz aləmlərində onunla danışırlarmış. Fikir verən olsa, tək qalmış hər yaşlı adamin dodağının altında öz-özü ilə danışdığını görər.Mən indi bilirəm ki, o qocalar öz-özləri ilə deyil, xəyal elədikləri adamla danışırlarmış...

Xatırlayarsınız, belə bir deyim də vardı."Nə sənlə olmur, nədəki, sənsiz..."

Bu da biz idik...

Biz, Nuraddinin rəhmətə getdiyi o gün cismən bir-birindən ayrılan, ruhən hələ də birlikdə yaşamağa davam edən iki insan, iki ömür-gün yoldaşı, iki həyat arkadaşı olaraq, yenidən görüşmək ümidi ilə müvəqqəti ayrılmış insanlarıq.Mən bilirəm ki, Nuru orda məni gözləyir.Mən də burda hər gün onun görüşünə hazırlaşıram.O görüş nə vaxt olacaq, bilməsəm də inanıram ki, Allahın əmri ilə o görüşün baş tutacağı gün, biz yenidən qovuşacağıq.Artıq əbədiyyən bir yerdə olmaq üçün, həyatımızı sonsuza qədər birlikdə davam etdirmək üçün qovuşacağıq.O günə qədər, hər fürsət düşəndə, sağmış kimi Nuru ilə söhbət edə-edə, ona hər günün hesabatını verə-verə, ikimizin də o dünyası üçün dua edə-edə yaşayıram.Ümid edirəm ki, Rəhim və Rəhman olan Allah bizim günahlarımızı bağışlayacaq, ikimizi də cəhənnəm atəşindən qoruyacaqdır.Bizi o atəşdən uzaq bir yerdə bir-birimizə qovuşduracaq...

Nuru tez-tez yuxularımıza girir.O yuxularda o gəncdir, sağlamdır, nəşəsi yerindədir.Hər kəs yuxusunda onu bu cür görür, yaxşı əhvalda görür.Nuru gülür, nəsə danışır, hərəmizə

bir şey verir.Mən də ümid edirəm ki, Nuru Allahın dərgahında, onun cənnət bağçalarından birindədir.Bunun belə olması üçün gecə-gündüz dua edirəm.

Allah Nuraddinə qəni-qəni rəhmət eləsin.

Bu bizim ikimizə aid dünyamız idi...

19.Yaddaşımın xatirə qatlarından bir epizod...

Ölkəmizdə çox gərgin, çox da qarışıq zamanların yaşandığı bir vaxt idi.Səhər-səhər evdən çıxırdın, axşama qədər başına nə gələcəyini özün də bilmirdin.Bircə onu bilirdin ki, hər an başına nəsə gələ bilər.Bundan ehtiyat edirdin, hər addımını tərəddüd içində atırdın, axşam evinə sağ-salamat döndüyünə şükür edirdin. Zaman belə çətin zaman idi.İnsanların bir-birinə şübhə ilə baxdıqları, bir-birində casusluq əlamətləri axtardıqları, ətrafdakı heç nəyə güvənmədiklərindən hər şeyə döyükə-döyükə baxdıqları, bu əhvalla da həyatlarına davam elədikləri mürəkkəb bir zaman idi.

Günün axşama doğru irəlilədiyi bir saatda mən evdə tək idim.Bir az əvvəl zivədən yığdığım quru paltarları ütüləməklə məşğul idim.Uşaqlar hələ dərsdən gəlməmişdilər, mən də onlar gələnə kimi bu ütü işini bitirib ortaları yığışdırmağı düşünürdüm.Nuru bir az əvvəl işdən gəlmiş, çörəyini yeyib qardaşımgilə getmişdi.Niyyəti, bu gün oynanacaq futbol maçını qardaşımla birlikdə izləmək idi.Onlar ikisi, tez-tez gah bizdə, gah da qardaşımgildə bir araya gələr, ciddi azarkeşlik elədikləri futbol komandalarının oyununu birlikdə izləməkdən böyük zövq alardılar.Oyunu izləyərkən onların qaldırdıqları səs-küydən qulaq tutulurdu, ancaq hər iki ev artıq buna alışmışdı.Mən əlimdəki işi bitirmək üzrə idim ki, bu vaxt darvazanın qapısı döyüldü, mən də gedib qapını açdım.Qapıda 5-6 nəfərlik polis dəstəsi durmuşdu.Onlar Nurunu soruşurdular.Onlara Nurunun evdə olmadığını söylədim.Polislər sanki mənə inanmadılar, şübhəli-şübhəli həyət-bacanı gözdən keçirtdilər.Ancaq qarajı boş görəndə ağıllarına gəldi ki, Nuru evdə olsaydı, maşını da qarajda

olardı.Mən onlardan bu ziyarətin səbəbini soruşdum, onlar da cavabında mənə heç nə deyə bilməyəcəklərini bildirdilər.Özləri də təkidlə məndən Nurunu hardan tapa biləcəklərini soruşurdular. Mən bir yandan rahat idim, inanırdım ki, Nurunun polislik heç bir işi ola bilməzdi.Digər tərəfdən, biz hər gün gözümüzün önündə insanların başına gələn ən əcaib, ən ağılasığmaz hadisələrin də şahidi olurduq deyə, bu düşüncə məni bir az narahat elədi. Əvvəlcə Nurunun yerini bildirmək istəmədim. Sonra ağlıma gəldi ki, Nuru bu saat özünün də ən çox güvəndiyi, başımıza gələn bütün macəralarda özünü hamıdan tez yetirən, bizim təcili yardımımız olan Kərəm qardaşımın yanındadır.Elə isə, qoy onu elə orda tapsınlar ki, qardaşımın da bundan xəbəri olsun.Əks halda, onlar Nurunu başqa vaxt, başqa yerdə yaxalayardılar, bundan da nə mənim, nə də qardaşımın xəbəri olmazdı.Mənim söhətini açdığım, mobil telefonların hələ həyatımıza girmədiyi, internet haqqında heç anlayışın da olmadığı, evlərin də ancaq ondan birində ev telefonu olduğu, ən tez əlaqə yaratmağın tək yolunun ancaq telefon budkalarındakı avtomat telefonlar olduğu bir zaman idi.Bir kəs evindən çıxardısa, əyər onun işində də telefon yox idisə, artıq gün boyu ondan xəbər almaq mümkün deyildi.Onun harda olduğundan, başına nələr gəldiyindən heç kimin xəbəri olmurdu.O adam ya axşam evinə dönəcəkdi ki, onun salamatçılığından, ya da dönməyəcəkdi ki, başına bir iş gəldiyindən hamının xəbəri olaydı.Belə bir zamanda, mən Nurunun yerini deməliydim ki, başına gələcəklərdən də xəbərimiz olaydı.Yoxsa sonra bu boyda respublikada Nurunu axtarıb tapmaq, tapsaq da onu polisin nəzarətxanasından çıxartmaq kimi müşkül bir işlə uğraşmaqla keçərdi ömrümüz.Bu qənaətə gələrək, mən Nurunun bu saat harda olduğunu onlara söylədim, qardaşımgilin adresini də verdim.Onlar getdilər, mən də əynimi dəyişib onların ardından evdən çıxdım. Mən qardaşımgilə gələndə hamını ayaqlanmış, həyəcan içində gördüm.Polislər Nurunu götürüb getmişdilər,

qardaşımla yeznəm də öz maşınlarında onları təqib edərək polis bölməsinə getmişdilər.Qardaşımın ailəsi, onlarla bir həyətdə yaşayan bacımgilin ailəsi təlaş içində idi.Mən mövzunun nə olduğunu soruşdum, gəlinlə bacımın verdiyi cavabdan ağzım açıla qaldı.Hər şey ağlıma gələrdi, ancaq belə bir şey ağlıma əsla gələ bilməzdi.Polislər deyiblər ki, guya üç gün əvvəl günorta üstü bir yüksək vəzifəli şəxsin qızı tibb universitetindən dərsdən şıxarkən, onu bir jiquli markalı maşına basıb naməlum istiqamətə aparıblar.Həmin maşına verdikləri nəm-nişan da, maşının nömrə nişanları da bizim maşına uyğun gəlirdi, yəni eyni idi.Marka həmin marka, rəng həmin rəng, nömrə həmin nömrə idi.Bu nə ola bilərdi, necə ola bilərdi?Ağlıma heç nə gəlmirdi, əvəzində bu dəqiqə Nurunun orda nə halda olduğunu təsəvvür eləməyə çalışırdım.Gözümün önündən cürbəcür qorxulu səhnələr keçirdi.Belə işlərlə Nurunun bir əlaqəsi ola biləcəyini düşünmürdüm, ancaq qorxurdum ki, o haqlı olaraq belə bir şeyi boynuna almasın, onlar da onu orda döysünlər.O vaxt hələ kiminsə cibinə narkotik ataraq şərləmək icad edilməmişdi, əvəzində cürbəcür bəhanələrlə şərlənib həbs edilmək də, içəridə də yaxşıca döyülmək də var idi.Həbsə düşənlərin başına belə şeylərin gəlməsi, artıq hamıya məlum olan adi hal idi.

O gün başımıza gələnlərlə əlaqəli keçirdiyimiz həyəcanlar, bəlkə də ömrümüzün yarısını aldı.Qardaşım ancaq axşam qayıda bildi, özü də tək gəldi.Bizə də dedi ki, Nurunu hələ bir-iki gün orda tutacaqlar.Bu vaxt ərzində biz boş durmamalı, həmin gün, o saatda onun harda olduğunu araşdırmalı, nəticə nə olursa olsun, Nurunun orda olub-olmadığını təsdiqləyən dəlil-sübut toplamalıyıq.Qardaşım özü elə o an gümanı gələn bütün tanış-bilişinə xəbər verdi, yeznəm də polis bölməsində çalışan məktəb yoldaşını tapıb bu işə qoşdu.

Boynuna qoymaq istədikləri böhtanı təsdiqləyəcək heç bir bir dəlil-sübut tapılmadığı üçün, üç gün sonra Nurunu buraxdılar.O üç günün içində Nuru xeyli arığlamış, üz-gözünü tük basmış,

gözləri çuxura düşmüşdü.Onu orda döymüşdülərsə də, Nuru bunu boynuna almadı.Mən bilirdim ki, o bizim yanımızda özünü sındırmaq istəmir.Biz hamımız onunla üz-üzə oturub intizarla onun bizə nə danışacağını gözləyirdik.Nuru da polis bölməsində özünün də ilk dəfə eşitdiklərini bizə danışdı. Sən demə, deyilən gün, deyilən saatda həmin o yüksək vəzifəli şəxsin qızı universitetdən çıxaraq, sevdiyi oğlana qoşulub qaçıb.Burda hər şey aydın idi.Qızı istəmədiyi başqa bir vəzifəli adamın oğluna vermək istəyirlərmiş, qız da öz istədiyinə qoşulub qaçır.Bəs bizim maşının nəm-nişanı, o söhbətə hansı tərəfdən calanırdı, Nurunun bu işlə nə əlaqəsi vardı, bunu anlaya bilmirdik. Doğrudur, iş yoldaşlarının köməkliyi sayəsində Nuru artıq heç cür o vaxt orda ola bilməyəcəyini sübuta yetirə bilmişdi.Qız da atasına xəbər göndərmişdi ki, ondan narahat olmasın, o sevdiyi adamın yanındadır. Belə olduğu üçün də Nurunu buraxmışdılar. Ancaq yenə də arada aydın olmayan bir məsələ qalırdı.O da, məhz bizim maşının nəm-nişanının bu hadisəyə calanması idi.Nurunun bu məsələ ilə uzaqdan-yaxından bir əlaqəsi olmadığı halda, nə o gün, nə də başqa gün, o küçədən keçmədiyi halda, bu məsələ ilə əlaqəsi nə ola bilərdi ki, bizim maşının nömrəsi, rəngi, markası, üstəlik Nurunun öz nəm-nişanı da bu məsələyə qarışaydı?Bir gün sonra yeznəmin məktəb yoldaşı bizə gəldi, hamımızı oturdub bu müəmmaya açıqlıq gətirdi.O sözünü belə başladı ki, "Siz kiminsə muşkasındasınız."Biz təəccüblə bir-birimizə baxdıq, sonra gözümüzü onun ağzına zilləyib durduq, o da bizi bilmədiklərimizdən agah eləməyə başladı. Onun sözlərinə görə, yaşadığımız cəmiyyətdə dövlətin xidmətində olub, gizli casusluq edən insanlar var, onlardan biri bu maşının nömrəsini, rəngini, hətta Nurunun özünün əlamətlərini də polisə veribmiş.O dedi ki, o hər kimdirsə, sizi yaxından tanıyır, sizinlə hansısa haqq-hesabı var, ona görə də bu fürsətdən belə istifadə edib.O kimdir, niyə belə eləyib, bunu artıq siz özünüz düşünün.Yeznəmin dostu bizə sirr gəldi ki, polis işində

hər cür vasitəyə əl atmaq var ki, bu da ancaq və ancaq siyasi mativlər üzündən kimsəsə dərs vermək məqsədilə ola bilir. Bunu eşitdikdə, hamımız bir-birimizin üzünə baxdıq.Elə həmin an da, nədənsə bizim evin sağ tərəfindəki divar qonşumuz. yadımıza düşdü.Necə şeydirsə, biz bu evə köçdüyümüz ilk günlərdən bu qonşu ilə anlaşa bilmirdik.

Çox qaranlıq adam idi, haqqında da xoşagəlməz söz-söhbət gəzirdi.Sonradan da eşitdik ki, o dövlətin gizli xəfiyyələrindəndir. Yəni, bu adam ofisial heç yrdə işləmirdi, ancaq işi-peşəsi kimisə güdmək, həyatını izləmək, yeri gələndə də onun haqqında lazımı orqanlara xəbər daşımaq idi.Belə çıxırdı ki, belə bir adamın başqa birisi ilə şəxsi problemləri olsaydı da, o həmin adama istədiyi böhtanı ata bilərdi, onu tutdura bilərdi, həyatını alt-üst edə bilərdi.Bu da, var olan bir çirkin sistemin özünə yaraşan çirkin üsullarından biri idi... Bircə anlıq təsəvvür edəndə ki, Allah bilir nə qədər insanın talehi belə şərəfsizlərin günahı üzündən bada gedib, canımdan bir üşütmə keçdi, bu məsələnin bu cür son bulmasına sevinərək, şükür elədim.Nuru isə bu başına gələnlərə öz qiymətini bu sözlərlə verdi:

--Kül o gizli təşkilatın başına ki, onun əməkdaşları bizim qonşumuz kimi tör-töküntülərdir.Gizli xidmət...yox bir nə...Bunun nəyi gizlidir?Bir şeyi ki, hamı bilir bu nə yuvanın quşudur, daha bunun harası gizli oldu? Yüz ildir bilirik ki, qonşumuz adam satandır.Ölmürlər, adlarını da kişi qoyublar... Belə xidmət olar?Bu ki, onu-bunu satmaqdır, şeytanlamaqdır.

Qardaşım da, bu gərginliyi aradan qaldırmaq məqsədilə Nurunun çiyinlərini qucaqlayıb dedi:

--Eh, Nuru...Nuru... boynuna al ki, sən də az aşın duzu deyilsənmiş aa...Mən sənin çox işlərindən xəbərdar idim, ancaq qız qaçıtmaq qabiliyyətindən xəbərim yox idi.Bundan sonra kim qız qaçırtmaq istəsə, deyəcəyəm get Nurunun yanına, o bu işləri yaxşı bilir...

Onun bu zarafatı bizi güldürdü, bunula da eynimiz açıldı, üç

gün ərzində bizi əsir almış gərginlik də birdən-birə harasa uçub getdi. Kaş hər kəsin Nuru kimi yoldaşı, Kərəm kimi qardaşı olaydı... Allah hər ikisinə də qəni-qəni rəhmət eləsin...Ruhları şad olsun.Amin.

O və Mən...
Mən Onsuz...

Nuru rəhmətə gedəndən bəri mənim həyatımda hər şey dəyişib.Xasiyyətim dəyişib, yaşam tərzim dəyişib, vərdişlərim dəyişib.Xasiyyətimin dəyişdiyini özüm hiss eləmirəm, bunu uşaqlar deyir, uşaqlar da deyirsə, deməli doğrudur. Ancaq yaşam tərzimin dəyişdiyini özüm də görürəm.Nurudan sonra çox durğun olmuşam, içimə qapanmışam.Bayaqdan balalarımı il-gün axşamacan yanımda tutmaq istəyirdim, onlardan doymurdum.Onlar axşamlar öz evlərinə getmək istəyəndə də buraxmaq istəmirdim. İndi hər şeyi ancaq qədərində çəkə bilirəm, sevinci də, səs-küyü də, qələbəliyi də müəyyən bir ölçüdə çəkə bilirəm.Əvvəlki yığıncaqlara, toplantılara daha səbrim çatmır.Daha çox tək qalmaq, düşünmək istəyirəm.Ancaq, nəyi düşünürəm, niyə düşünürəm, onu da bilmirəm.Çünki arada konkret bir mövzu da yoxdur.Vaxt olur ki, mən həftələrlə qazan asmağa da ərinirəm.Bundan əvvəl ikimiz üçün, əsasən də Nurunun sifarişi ilə yemək hazırlayırdımsa, indi nə bişirməyə, nə də yeməyə həvəsim qalmayıb.Halbuki, Nurunun sağlığında bizim mətbəximizdən vaxtaşırı elə dartışma səsləri gələ bilirdi ki, kənardan bir dinləyən olsaydı, sonra da bu dartışmada keçən söhbətin mövzusunu öyrənsəydi, bizi dəli yerinə qoyardı.

Nurunun mətbəxdə bir-birindən gözəl, həm də bir az qeyri adi yeməklər bişirmək kimi bir qabiliyyəti də var idi.Doğrudur gənclik illərimizdə onun bu qabiliyyəti o qədər də gözə batmamışdı, ancaq yaşa dolduqca, o sanki mətbəx işlərinə daha çox bağlanırdı. Bu yəqin ki, boş vaxt mövzusu ilə əlaqəli bir şeyd idi.Gənckən o

çalışırdı, evdə üzünü də güclə görürdük, sonradan düşdüyümüz, tamamilə başqa cür yaşadığımız bu şəraitdə isə bizdə boş vaxtdan bol heç nə yox idi.Ona görə də, Nuru darıxdığından yavaş-yavaş özünü mətbəxə vermişdi.Bir şey vardı ki, Nuru tədricən mətbəxdə vaxt keçirtməyə nə qədər həvəsli olmuşdusa, mən əksinə, yaşa dolduqca mətbəxdən soyuyurdum.Biz bu tərs mütənasibliyi öz aramızda belə yoluna qoymuşduq ki, kimin həvəsi nə vaxt olarsa, o gün mətbəxə o girsin, yeməyi də o bişirsin.Sözdə bu problemi çözmüş kimi görünsək də, hər gün evimizdə eyni dartışma yaşanırdı.Vaxt olurdu ki, eyni gündə biz ikimiz də mətbəxə girməkdən boyun qaçırtmağa çalışırdıq.Belə vaxtlarda da sözümüz çəp düşürdü.Bu işi sırayla görmək yerinə, biz gah ikimiz də bir gündə yemək hazırlamaq həvəsinə düşürdük, gah da ikimiz də eyni gündə yemək hazırlamaqdan boyun qaçırmağa çalışırdıq.Nə yazıq ki, artıq bunlar hamısı tarixdə qaldı.İndi nə mətəbəxə can atan var, nə də yemək bişimək üstündə mənimlə dartışan. Bişirən də mən, yeyən də mən olmalıyam deyə, nə bişirmək istəyirəm, nə də ki, yemək...Çünki, artıq yoldaşsız qalmışam, yoldaşsız da bu işlər yürüməzmiş.

Yoldaş...Heç vaxt mənasına varmadığım bir söz.Ancaq yoldaşımı itirdikdən sonra onun anlamını, mənasını dərk elədim...Yoldaş...Bir yana gedəndə də, bir iş tutanda da, bir fikir yürüdəndə də, yoldaşın olması vacib imiş.Vaciblikdən də əlavə, sən demə, həyatın hər anında insanın yanında bir yoldaşı olması gözəl şey imiş.Yolla gedərkən yol yoldaşına, həyatını yaşayarkən ömür-gün yoldaşına, hətta yeməyə oturarkən süfrə yoldaşına ehtiyacı olurmuş insanın...Sən demə, yoldaşsız qalan hər şey bu qədər cansıxıcı, bu qədər anlamsız, dadsız-duzsuz olurmuş.Bunu bilmirdim, başıma gələndən sonra öyrəndim, gec də olsa, artıq bilirəm...

Bircə cümə toplantılarımızı onun sağlığındakı kimi davam etdirməyə çalışıram.Ancaq bu toplantıların da mənası bir az dəyişib.Əyər Nurunun sağlığında, hər cümə günü bizə

yığışmaqdan başlıca məqsəd, bir araya gələrək, islam dünyasının bu mübarək gününü xüsusi qeyd eləmək idisə, onun yoxluğunda bu məqsədə daha başqa mənalar da əlavə olundu.Həftənin heç olmasa bir günü, hər şeyi bir kənara buraxaraq cümə namazından sonra hamılıqla bir araya gələk, bu ölümlü dünyada, belə bir qürbət eldə bir-birimizin halını-əhvalını yoxlayaq, ən çox da, gözünü bu dünyaya yumarkən, bizi bir-birimizə əmanət eləmiş Nurunu yad edək, onunçün dualar oxuyaq.Təkcə bu işin səliqə-səhmanı pozulmamış qalıb.Ancaq yenə də baxıram ki, hətta uşaqları bu toplantıya dəvət eləməyim də dəyişib.Onun sağlığında "Cümə günü bizdəsiniz", deyirdimsə, indi bu deyim də istər-istəməz dəyişərək, "Cümə günü məndəsiniz," şəklini alıb.Mən hər dəfə bu sözləri deyəndə, söz ağzımdan çıxmağa macal tapmamış ürəyimin içindən bir göynərti keçir.Yadıma düşür ki, Nuru artıq aramızda deyil, Nuru artıq yoxdur.Bizim uzun zaman birlikdə yaşadığımız o evdə, artıq "biz" deyə bir şey yoxdur.Bundan sonra orda ancaq mən varam, təkcə mən...

Nurusuz keçən hər gün, onunla keçirdiyim hər saatı mənə aradır.Arayıram-axtarıram, ancaq tapa bilmirəm.Tapanda da, ancaq keçən günlərin xatirələrində tapıram.Xatirələrdə keçən günlərə dönürəm, Nuru da o xatirələrin içindən çıxaraq, yuxu kimi yanıma gəlir, məni təklikdən qurtarmağa çalışır.Evdə iki dənə böyük televizor ola-ola, vaxt olur ki, mən televizoru da açmadan saatlarla səssizcə oturub xatirələrə dalıram.Əvvəllər buna vaxtım olmazdı, ancaq indi, mənim özümün özümə, yəni başlı-başına buraxıldığım bu sərbəstlikdə vaxtımın çoxunu xatirələrə baş vurmaqla keçirdirəm.Niyə belə elədiyimi bilmirəm.Fikirləşəndə, özüm üçün bunu belə izah edirəm ki, hər halda mən Nurəddinli günlərimi axtarıram...Qədrini bilmədiyim, ardından bu qədər axtaracağımı ağlımdan keçirtmədiyim o günləri, Nurulu günlərimi...

Bu mənim onsuz qalan həyatım idi...

20.Yaddaşımın xatirə qatlarından bir epizod...

Bu yerdə, Nurəddinli günlərdən bəzi məqamlar yadıma düşür.Hər şeyə həvəsli idi rəhmətlik, təkcə gəzməyi, səyahət eləməyi sevməzdi.Bəlkə bu, bir vaxtlar turizmdə işləməyi ilə əlaqəli idi.Mən belə düşünürəm ki, bəlkə o vaxt turizmdə işləyəndə, o qədər turistik səfərlərə çıxmışdı ki, artıq belə səfərlərdən gözünün qurdu ölmüş, gəzmək həvəsi bitmişdi, bilmirəm.Bu, sadəcə bir fərziyyədir.Hər necəsə, biz Avropaya gələndən, burda yaşamağa başlayandan sonra mən fikir verdim ki, Nuru heç yana getmək istəmir.Biz bura yerləşəndən sonra, bura qədərki həyatımız boyu ancaq adlarını eşitdiyimiz, heç vaxt görüb bilmədiyimiz yerlərə səfərlər edirdik.Həm başımız qarışsın, həm də işlərimizin yoluna düşməsi üçün gözləməli olduğumuz vaxt tez keçsin deyə, tez-tez Avropanın digər ölkələrinə səfər edirdik.Nuru bu səfərlərin heç birinə getməz, evdə qalmağı seçərdi.

İlk səfərimiz Almaniyaya oldu.Biz Nurusuz Almaniyaya getdik.Əvvəlcədən nə qədər israr elədiksə də, o getmək istəmədi.Biz gedib Almaniyanın sərhədyanı şəhərlərini gəzdik, bir-iki şey alıb axşama qayıtdıq.Biz evə gələndə, ləzzətli yeməklərdən aşıb-daşan, həm də bizi gözləyən hazır süfrəni gördük, gözlərimizə inanmadıq.Hamımızın ac olduğu bir anda, bunları kimin hazırladığı ilə maraqlanmaq yadımıza da düşmədi.Biz bütün dünyanı unudub süfrəyə oturduq.Ancaq yeyib-içəndən sonra, gözümüzə işıq gələndən sonra fikir verib gördüm ki, Nuru nələr-nələr bişirib.Özüm də məətəl qalmışdım ki, Nuru belə qəliz yeməkləri bişirməyi bilirdimi?Hamımız yedik-doyduq, çəkdiyi zəhmətinə görə Nuruya dualar elədik.Uşaqlar çəkilib gedəndən sonra Nuru gəlib yanımda oturdu, bir uşaq məsumluğu ilə üzünü mənə tutub dedi:

--Həə...İndi danış görüm, Almaniyada hara getdiniz, nə gördünüz?Leypsiqə də getdinizmi?

Mən onun niyə Leypsiqi soruşduğunu bilirdim.Nuru vaxtilə iki il əsgəri xidmətini bu şəhərdə çəkmişdi.Ona dedim ki,

Leypsiq sərhəddən çox uzaq olduğu üçün, ora gedə bilmədik. Axşama dönəcəkdik deyə, nisbətən yaxın şəhərləri gəzdik. Berlində, Düseldorfda, Kölndə oluq.

O, bir ah çəkib dedi:

--Sən heç olmasa oraları gördün, mən heç yeri görmədim.

Mən onu qınadım:

--Niyə belə eləyirsən?Biz gedək deyirik getmirsən, sonra da belə deyib ürəyimi xarab eləyirsən.

O da yavaşca dedi:

--Boş ver, elə-belə dedim.Getmək istəsəydim gedərdim dəə...Mən uzaq yolu sevmirəm, uzaq yoldan yoruluram, bezirəm, özün ki, bilirsən...Mən evdə qalmağı sevirəm.Əvəzində bax, yeməyinizi, çayınızı hazırladım.Pis oldu bəyəm?

Əlbəttə pis olmamışdı, çox yaxşı olmuşdu.Uzun günün, uzun yolun sonunda evə gəlib nəsə hazırlamalı idim, yemək hazır olana qədər uşaqlar səbirsizlik edəcəkdilər, acından bir təhər olacaqdılar.Burdasa, gəlib hazır bir ziyafət üstünə çıxdıq.Doyunca yeyib istirahətə çəkildik.Əlbəttə gözəl idi.Ancaq Nurunun heç yana getmək istəməməsi məni dilxor edirdi.Özü də mən onun uzaq yol getməyi sevmədiyini də bilirdim.Bir-iki səfər zamanı Nuru özünü yaxşı aparmamışdı.O, yol yarı olmamış yorulur, uşaq kimi kürlük edir, evə dönməyi tələb edirdi.O səfərlərdən sonra həyat yoldaşımda uzaq səfərə bir dözümsüzlük olduğunu öyrəndim.Sonra biz dəfələrlə Fransaya da, Almaniyaya da getdik, tez-tez Hollandiyaya gedirdik.Belçikanı eninə-uzununa gəzirdik, ancaq Nuru bu səfərlərin heç birində bizə qatılmırdı.

Onda gözəl bir vərdiş əmələ gəlmişdi ki, bu da bizə bir təskinlik verirdi.Biz harasa gedirdiksə, axşam geri dönəndə, Nuru vaxtı düzgün hesablayardı, tam da biz sərhəddi keçdiyimiz bir zamanda zəng vurub, sözünü belə başlayardı:

--Harda qaldınız?

Cavab:--Yoldayıq, gəlirik,--olurdu.

O da sonrasında deyirdi:

--Çatırsınızsa, süfrəni qurum.

Bu yaxınlarda Hollandiyadan qayıdırdıq, artıq ömrümüzün Nurusuz qalan bir dönəmi idi.Antverpeni yenicə keçirdik ki, hamımız eyni anda onun, həmişə bu yerdə soruşduğu sözlərini xatırladıq.Səsi də olduğu kimi qulağımıza gəldi, hamımız çox kövrəldik.Mən qalan yolu ağlaya-ağlaya gəldim.Qulağıma Nurunun o doğma, o qayğıkeş səsi gəlmişdi:

--Harda qaldınız?Çatırsınızsa, süfrəni hazırlayım...

Allah sənə qəni-qəni rəhmət eləsin, ay Nuru!!!

Aramızdan çox tez getdin...Ruhun şad olsun.Amin.

Son bölüm...Son xatirə...

...Və bir gün gəldi ki, belə bir acı xəbəri öyrəndiyimiz gündən etibarən, ayrılığın soyuq nəfəsi damarlarımızda qanımızı dondurdu, həyatımıza öz zəhərini axıtmağa başladı, üç il boyunca bizi əsir aldı. Əbədi ayrılıq qorxunc bir xəstəlik şəklində xaincəsinə aramıza girdi, bizim onsuz da hər zaman asan olmayan 45 illik birgə yaşayışımızın bitmək üzrə olduğuna eyhamlarını bildirməyə başladı, öz amansız hökmünü verdi.Acı həqiqət həyatımızın ritmini də, mənasını da dəyişdi.Heç gözləmədiyimiz halda hər anı qurtuluş savaşına bənzəyən tamam başqa bir həyatın içinə düşdük.Bütün fikrimiz, düşüncəmiz evimizin rəisini, övladlarımın atasını bu gəmirici, qaniçən xəstəliyin əlindən qurtarmağa sərf etdiyimiz çabalarla keçdi. Gözümüzün önündə, əlində gediş bileti olan bir insanın yaşadığı ağrı-acılarla uğraşması, bu ağrılara mərdliklə dirəniş göstərməsi baş verirdi ki, bu da ürəyimizi oda yaxırdı. Əlimizdənsə çox az şey gəlirdi.Halbuki bu bizim canımızdan bir can, bizim bir parçamız, ən yaxınımız idi.Mədə kanseri nə zaman onun içində əmələ gəlmişdi ki, bütün analizlərin nəticəsi artıq çox gec olduğunu, xəstəliyin 4-cü, yəni son mərhələdə olduğunu

göstərirdi, anlaya bilmədik.Halbuki, mən Nurəddinin bir gün həyatdan gedəcəyini ağlımın ucundan da keçirdə bilmirdim, onu yalnız ömrünün 80-lərində, 90-larında əcələ təslim ola biləcəyini düşünürdüm.Bəlkə də onun nikbin ruhlu bir insan olması, heç nəyə ciddiyyət verməməsi, dərinə getməyi sevməməsi bizi uyutdu.Nurəddin həyat dolu bir insan idi.Heç vaxt sağlığından şikayəti olmazdı, ikidə-bir doktora görünməyi sevməzdi.Hər cür soyuqlamanı zarafata salar, ciddiyə almaz, xalq təbabəti vasitəsi ilə sağalmağa çalışardı.Bəlkə də bizi çaşdıran da elə onun bu pozitiv əhvalı, dözümlülüyü oldu, bizi aldatdı, onun təhlükəli bir dərdə düçar olduğu gözümüzdən qaçdı.Onun gün boyu deyib gülməyi, hamını gülməkdən qırıb-keçən lətifələr danışması, hər kəslə zarafat eləməsi bizi elə uyutdu ki, belə şən bir insanın içində əmələ gəlmiş bir yırtıcının nə yaranışından, nə gün keçdikcə böyüməsindən, nə də Nurəddinin həm ağ ciyərinə, həm də qara ciyərinə sıçramasından xəbərimiz belə olmadı.Biz xəbər tutanda, artıq çox gec idi...

Biz onu çox sevirdik, hələ arada xəstəlik-filan olmadan, onun üçün zaman-zaman narahat olduğumuz da olurdu.Bunun da bəlli bir səbəbi var idi.Biz Nurəddini çox sevirdik, Nurəddin də siqareti çox sevirdi.O, siqareti bizdən də çox sevirdi, bizdən ayrı qala bilirdi, ancaq siqaretdən ayrı dura bilmirdi, siqareti xüsusi bir acgözlüklə çəkirdi.Bu cür hərisliklə siqareti sümürmək, bronxit xəstələrinin nəfəs alətini bir an əlindən yerə qoymadığı kimi, siqareti əlindən yerə qoymamaq, kənar gözlə də normal görünmürdü.Bu da bizi təşvişə salırdı.Nurəddin artıq özü də hiss eləmədən, siqaretin əsirinə çevrilmişdi, artıq siqaretin birini söndürər-söndürməz, yenisiri yandırırdı.Onunla birlikdə bizim də ömrümüz siqaret tüstüsü udmaqla keçdi.Hələ gündüzlər bir yana qalsın, gecələri də yuxusu olmazdı, səhərə qədər siqaret çəkə-çəkə televizor izləyərdi.

Yadıma gəlir ki, bu gün 14 yaşında olan ilk nəvəmiz doğulandan bəri, Nurəddindən heç olmasa nəvəmizin xatirinə

siqareti tərgitməyi xahiş edirdik.Ancaq hər dəfə sözümüz yerə düşürdü, çünki Nuru artıq siqaretin qarşısında aciz qalmışdı.Bu gedişlə, mən hər yeni doğulan nəvəmizin adından ona yalvarırdım ki, siqareti atsın, fəqət bu mənada Nurəddin özü ilə bacara bilmədi, siqareti atmağa gücü çatmadı.Mövzu siqaret olunca hər kəsin qəlbinə dəydi, ancaq siqareti buraxmadı. Doğrusu, onun siqaretə bu cür bağlanması məni arada-bir çox qorxudurdu.Yadıma gəlir ki, ancaq Nurəddin bu qorxunc xəstəliyə tutulandan sonra mən özüm-özümə etiraf elədim ki, buna bənzər bir sonluğu bəlkə də bütün həyatım boyu gözləyirdim. Qorxa-qorxa gözləyirdim.Allah göstərməsin deyə-deyə, iraq olsun deyə-deyə, Allah qorusun deyə-deyə gözləyirdim.Qorxurdum ki, bir gün bu siqaret Nurəddinin sonunu gətirər.O cür ki, Nurəddin siqareti çəkirdi, bu gedişlə siqaret həqiqətən də onun sonunu gətirdi.Siqaretə bağlılıq o qədər güclü idi ki, Nurəddinə kanser təchizi qoyulandan sonra da o siqareti buraxmadı.Halbuki həkimlər təcili siqareti buraxmasını ondan israrla tələb edirdilər.Nə ailə, nə dostlar, nə də doktorlar bu mənfur siqaretlə bacara bilmədilər.Ölüm bəlkə də bu tezliklə Nurəddini elə keçirə bilməzdi, fəqət o, satqın siqaretin vasitəçiliyi ilə Nurəddini bu qədər tez bizdən alıb apardı...

***

Dərd gəldi, biz də darvazaları geniş açmalı olduq.Bundan belə Nurəddin ildə altı dəfə kemoterapi seansı alacaqdı.Onu da bilirdik ki, bu seanslar orqanizmin yaralı-xoralı bir yerinə çarə idisə, orqanizmin daha çox yerinə zərərli idi.Fəqət biz bu həqiqətin qarşısında aciz idik.Çünki, elm hələ də insanlara kütləvi müalicə üsulu kimi yeni bir şey təklif eləmirdi.Kemoterapi isə, ikibaşlı dəyənəkdən başqa bir şey deyildi.Kemoterapi, əslində kanser hüceyrələrini öldürmək məqsədi ilə tətbiq edilən kimyəvi zəhərdir.Nə edək ki, alimlər

hələ də icad elədikləri, (icad elədiklərini də bilməyən yoxdur), həqiqi dərmanları meydana çıxarmaqda aciz qalıblar.Nə edək ki, bu gün də kanser tədavisi 100 il bundan əvvəlki kemoterapi üsulu ilə müalicə olunur.

Biz, böyük elmin, böyük siyasətin, böyük dünyanın qarşısında aciz qalmış sıradan insanlar olaraq, yenə də çox yerlərə əl atdıq, araşdırdıq, bəzi yeni icad edilmiş, lakin hələ tibb dünyasında rəsmən təsdiqlənməmiş bir-iki üsula da əl atdıq.İndi fikirləşirəm ki, Nurəddinin son üç günə qədər bir gün də düşkünləşməməsi, hər zaman özünü yaxşı hiss eləməsi, aktiv həyat sürdürməsi, normal yeyib-içməsi, yataq xəstəsinə dönüşməməsi bəlkə də bu alternativ tədbirlərin sayəsində qazanılan nailiyyətlərin nəticəsi idi.Ancaq baxırsan ki, bu tədbirlər də xəstəmizin durumunu tam nəzarətə götürə bilmədi.İş yenə də kemoterapiyə qaldı.Nurəddin üç il idi ki, ildə altı seans olmaqla kemoterapi alırdı.Ancaq balalarım şahiddir ki, mən lap başdan kemoterapinin əleyhinə idim.

Nə var ki, qərar verəcək olan Nurəddinin özü idi, mən də məsləhətimin üstündə çox dura bilmirdim.Bu söhbəti eşidənlər-bilənlər şahidimdir ki, son dəfə, Nurəddinin növbəti kemoterapi seansına gedəcəyi günün axşamı, aramızda belə bir söhbət də oldu. Mən onun özü ilə götürəcəyi əşyalarını topladım, əyin-başını hazırladım, sonra da yanında oturub dedim:--Nuru, dünən yutubda bir məqalə oxumuşam.Nə dərəcə doğru olduğuna dair bir söz deyə bilmərəm, ancaq oxuduğumu sənə danışmaq istəyirəm.Məqalədə deyilir ki, Robert Deniro da kanser xəstəliyinia yaxalanıb. Durumu da çox ciddidir.Doktorlar ləngimədən kemoterapi seanslarına başlamağı təklif ediblər.

Ancaq Robert Deniro bu təklifi qətiyyətlə rədd edib.Deyib ki, mən üç-beş gün daha artıq yaşamaqdan ötrü gözüm baxa-baxa bədənimi zəhərləyən deyiləm.Ondansa, Allahdan nə qədər ömrüm qalıbsa, onu da bacardığım kimi yaşamağa baxaram.

Nuru uşaq məsumiyyəti ilə üzümə baxıb soruşdu:

--Necə yəni?Nə demək istəyirsən?Kemoterapiyə getməyim, bəs neyləyim, deyirsən ölüm???

İndi bu sözlər ox olub ürəyimə batır.

--Getdin də nə oldu, ay Nuru?Güya ölmədinmi?

Halbuki, onu fikrindən döndərmək məqsədilə mən o gün ona daha nələrsə dedim.Dedim ki, baxsana o qədər varın-dövlətin sahibi daha uzun yaşamaq xatirinə də olsa, o ziyanlı müalicə üsuluna boyun əymək istəmir.Məyər o yaşamaq istəmir?Həyat onun üçün də, hər kəs üçün də şirindir.Ancaq gör bu adam nə qədər güclü iradəyə sahibdir ki, özü öz xoşu ilə o yoldan imtina edir.Bəlkə sən də əl çəkəsən bu kemo zəhirmarından.Bax, bu gün gör necə gümrahsan, halbuki sabah axşamdan başlayaraq, Allah bilir neçə gün canınla əlləşməli olacaqsan, təzədən ayağa qalxmaq üçün ölümlə mücadilə aparacaqsan.

Mən daha nələrsə dedim, dedim, dedim...ancaq Nurəddini qərarından döndərə bilmədim.O, ertəsi gün sonuncu dəfə kemoterapi seansına getdi...və bir daha geri dönmədi...

Onu o yola aparan qismət imiş, bilirəm...Ancaq yenə də özümlə bacara bilmirəm, ürəyim parçalanır.Deyirəm, gərək önünü kəsib getməyə qoymayaydım...Bu mənada özümü günahkar hiss edirəm.Digər tərəfdən də düşünürəm ki, o ki, müalicə almağa gedirdi, buna möhtac idi.Axı müalicələr xəstəni öldürmək üçün deyil, sağaltmaq üçündür.Nə edək ki, kanser başqa xəstəliklərə bənzəməz, onun geri duruşu, can almadan gedişi yoxdur...

***

Son üç günə kimi hər şey normal görünürdü.Nurəddin növbəti kemoterapidən çıxmışdı.Seansın ertəsi günü halı nədənsə xarablaşdı, əvvəllər də belə olurdu.Kemoterapi bütün bədəni zəhərləyir, insanın az qala canını alırdı.Sonra xəstəyə, bir neçə gün, sözün əsil mənasında, ölümlə mücadilə aparmaq

qalırdı.Başına gələnlər nə demək istədiyimi daha yaxşı bilirlər.Kemoterapiyə girmək, sonra da yenidən ayağa qalxmaq, ölüb-ölümdən qayıtmaq kimi bir şeydir.Allah kimsəni bu dərdlə sınamasın.Nuru da hər dəfə həyatın son nöqtəsinə kimi gedər, sonra var gücünü toplayıb o nöqtədən geri gönərdi.Bu dəfə də halı xarablaşanda, biz də onu adəti üzrə yenidən xəstəxanaya qaldırdıq. Həkimlərin göstərdiyi çabalarla iki gün içində özünə gəldi.İlk baxışda hər şey normal idi, Nurəddin yenə də gümrah idi, danışırdı, gülürdü, yeyirdi, yatırdı.Biz də sevinirdik ki, deyəsən bu dəfə də atlatdı.Məyərsə bu gördüklərimiz, fırtına öncəsi sakitlik kimi bir şey imiş.

Son üç gündə hər şey bir qəfil dəyişdi.Xəstəlik özünün əsil üzünü bu üç günün içində göstərdi, bir qəfil aqressivləşdi. Əvvəlcə Nurəddinin gücünü aldı, onu taqətdən saldı, yatağa düşürdü.Sonra onu şam kimi əritməyə başladı, üç gündən sonra da şam kimi söndürdü.Üç il əvvəl təchizi qoyulmuş qorxunc xəstəliyin amansız pəncəsi onun yaxasına yapışdığı gündən, Nurəddin uzaq bir səyahətə əvvəlcədən biletini rezerve edib zamanını gözləyən turistlər kimi özü də tikan üstə yaşamağa başlamışdı, və təkcə özünün deyil, onu sevənlərin də ürəyində daimi bir həyəcan siqnalı yandırmışdı.O həyəcanın son bulduğu nöqtədə Nurəddinin həyatı bitdi.Elə o andan da mənim içimi yandırıb-yaxan bir peşimançılıq hissi bütün duyğularıma hakim kəsildi, bütün varlığımı qəmli bir havaya boğdu.Gözümün yaşı hələ də qurumaq bilmir, hər gün onun məzarını ziyarətə gedirəm.Özümə təskinlik olsun deyə, gedəndə əliboş getmirəm, onun sevdiyi güllərdən-çiçəklərdən alıb aparıram.Hamısını Nurəddinin məzarında torpağa əkirəm.Mənə baxaraq, hər gedən onun məzarına çiçək aparır, orda torpağa basıdırıb gəlir.Bu gedişlə də Nurəddinin məzarı elə ilk gündən gülün-çiçəyin içində itib-batıb.Gülləri-çiçəkləri çox sevərdi rəhmətlik, balkonumu hər zaman yaşıllıq içində, güllü-çiçəkli tutardı. Mənim üçün bir üzüm ağacı da əkdi son günlərində. Əkərkən də, məni çağırıb dedi:

--Gəl bax, sənin üçün üzüm ağacı əkirəm, məndən yadigar qalsın.Gələn mövsümdə yarpağından dolma da bükərsən.Bəlkə mən o vaxta qalmadım, ancaq sən bu üzümə yaxşı bax.Vaxtlı-vaxtında dolmasını da bişir, üzümünü də dər.Hər dəfə də məni yada sal, hesab elə ki, mən də yanındayam...

Nuru rəhmətə gedəndən sonra neçə gün o üzümə baxa bilmədim, onu ordan itirmək də keçdi könlümdən.Sonra uşaqlar məni qınadılar,"Dəymə ana, atamın yadigarıdır", dedilər.Mən də yumşaldım, üzüm ağacına yazığım gəldi, əvvəlcə onu da aparıb Nurəddinin məzarı başına əkmək istədim.Ancaq uşaqlar buna da yol vermədilər."Atam onun sənin yanında olmasını istəmişdi, o üzüm ağacı sənə onu xatırlatsın deyə..." dedilər.Bir də dönüb dibçəkdəki üzüm ağacına baxdım, ürəyim sızladı, bir anlıq elə bildim Nurəddinin özüdür.O gündən üzüm ağacına can-könüldən qulluq edirəm.Onu göz bəbəyim kimi qoruyuram. Nurunu qoruya bilmədim, barı onun xatirəsini qoruyum...

O üzüm ağacı böyüməlidir, qol-budaq atmalıdır, yaşıllaşmalı, çoxlu yarpaq açmalıdır.Mən o yarpaqları toplayıb dolma bükəcəyəm.Yarpaq dolması bişirəcəyəm, balalarımı başıma yığıb o dolmanı onlarla birlikdə yeyəcəyəm.Çünki, rəhmətlik yoldaşım, əzizimiz Nurəddin belə istəmişdi.O məndən daha nələrsə istəmişdi.O istəkləri burda saymaq niyyətim yoxdur, çünki onların hamısı, "bir gün mən yanında olmasam..." başlığı ilə başlayan vida sözləri idi.O sözlər mənim yaddaşıma qazıldı, ürəyimə yazıldı, canıma hopdu... O sözlər, heç vaxt unutmayacağım, hər zaman əməl eləməyə çalışacağım sözlərdir. O sözlər bizim aramızdakı son əhdi-peymanımızdır... Nurəddin artıq yanımda yoxdur.Mən bu yoxluğa alışa bilmirəm, hər zaman gözüm yolda, qulağım səsdədir.Bu dünyaya gözünü yumduğu o müdhiş ana hamımız ailəlikcə şahid olduqsa da, Nuru gözümüzün önündə bu dünyadan köçdüsə də, mən hələ də buna inana bilmirəm.Elə bilirəm ki, harasa gedib, indicə gələcək."Sən get namazını qıl, mən də çay dəmləyim."--deyəcək.

***

Havalar xoş olanda hər gün, hava əlverişli olmayanda iki günün biri Nurəddinin məzarını ziyarətə gedirəm.Onunla söhbər edir, sanki görüşüb yüngülləşirəm.Allahdan, məzarlıq şəhərin mərkəzində, oğullarımın evi ilə üz-üzədir.Biz zatən dörd tərəfdən məzarlığın ətrafında yaşayırıq.Evlərimizlə məzarlığın arasındakı ən uzaq məsafə 500 metrə ola, ya olmaya.Cami qapısı ilə məzarlığın darvazası da üz-üzədir.Yəni gündə beş dəfə bu küçədə qələbəlik olur.Burda hər şey bizdə olduğundan bir az fərqlidir.Məzarlıq həyatdan qoparılmış, ayrı tutulmuş bir məkan deyil.Məzarlıq, həyatın orta yerində, əslində tam ortasındadır. Hər zaman insan axını gəlir, məzarlığı ziyarət edir, yaşıllığın, gül-çiçəyin içində itib-batan məzarlığı muzey kimi gəzib-dolaşıb gedirlər.Səhərin erkən saatlarında da, axşamın gec vaxtında da məzarlıqda insanlar olur.Gün boyu məzarlığın işçiləri təmizlik, əkin-biçin işləri görürlər.Heç vaxt yalqız olmadığın üçün burda məzarlıq xofu deyə bir durum da yoxdur.Mən Nurəddinlə dərdləşirkən hasarın arxasından camidən çıxan insanların söhbətləri, məktəbdən dönən uşaqların səs-küyü eşidilir.Mən də bu yerdə Nurəddinə deyirəm:

--Bax Nuru, heç vaxt tək qaldığını düşünüb burda darıxma. Sən burda tək deyilsən. Baxsana, ətrafında həyat qaynayır. Camidən çıxan camaatın arasında oğullarımız, məktəbdən dönən uşaqların arasında nəvələrimiz də var.Mən də səni ömrüm varkən tək qoymayacağam.Nə qədər sağam ziyarətinə, Allah çağıranda da yanına gələcəyəm. Hələlik, sənin dediyin kimi, yaşamağa, həm də sənsiz yaşamağa alışmağa çalışıram. Sənsiz çox çətindir, biləsən.Hər yerdə, hər yerdə yerin görünür.Hara baxıramsa, səni görürəm.Daha doğrusu sənsizliyi görürəm.

Sən kompyuterin qabağında oturmalı idin, amma yoxsan, halbuki sən orda qəzet oxuyardın. Sən öz divanında oturub sənə aid televizora baxmalı idin, amma orda da yoxsan.Halbuki, sən

o otaqda oturub rahatca futbol maçlarını, rus kanallarının siyasi proqramlarını izləyərdin.Arada məndən çay da istəyərdin.İndi o otağın işığı yanmır.Çünki indi orda nə televizora baxan var, nə də məndən çay istəyən.

Salondakı divanın bir başından mən uzanardımsa, o biri başından da sən uzanardın.Amma indi divanın o başı boş qalıb.Halbuki biz ikimiz birlikdə, bu televizorumuzda türk seriallarını izləyərdik.

Yoxluğun düşündüyümüzdən də ağırdır, çəkilməzdir.Ancaq bir şey var ki, elə sənin özünün də dediyin kimi, həyat necə olsa davam etməlidir, mən də sənin bir vaxt verdiyin öyüd-nəsihətlərinə, vəsiyyətlərinə görə həyatımı sürdürməyə çalışacağam.Mən hələ həyatdayam, demək ki, qismət belə imiş, sən öndən getməli, mən sonraya qalmalı imişəm.Elə isə, mən bundan sonra da birgə həyatımızın ən dəyərli sərvəti olan övladlarımıza həyan olmağa, gücümün yetdiyi qədər dəstək verməyə, onları sevməyə, qorumağa çalışacağam.Mən heç vaxt onlar üçün səni əvəz eləyə bilmərəm, hələ bu gün də "baba, baba" deyib ağlayan, hər yerdə səni axtaran nəvələrimiz var ki, mən onların gözünə görünməklə, əslində sənin yoxluğunu yadlarına salıram, yaralarının qaysağını qopardıram.Ancaq yenə də sənə söz verirəm ki, özümdə güc tapacağam, boynuma düşən işlərimi layiqincə yerinə yetirməyə calışacağam. Məsuliyyətimə bələdsən, bilirsən ki, mən heç vaxt zəif qadın da olmadım.Odur ki, məni düşünmə, əmin ola bilərsən ki, həyatdan küsməyəcəyəm, hər günə şükür edəcəyəm. Sağlamlığıma da diqqət edəcəyəm, çünki məni heç vaxt xəstəlik içində görmək istəməyən sən varsan, bir də məni yanlarında sağlam görmək istəyən nəvələrimiz var.Mən çalışacağam ki, bundan sonra da yaşıma yaraşan, mənə layiq olan, mənim müdrikliyimi, ağbirçəkliyimi sərgiləyən əməllər edim.Həyatdan da geri qalmayacağam, gülənlə güləcəyəm, ağlayanla ağlayacağam. Ancaq istəyirəm bir şeyi dəqiq biləsən:sən ki, məni qoyub

getdin, mən ki, səndən sonraya qaldım, elə isə, bundan belə bu dünyadakı həyat payımda boynuma düşən hər bir şeyi sənə söz verdiyim kimi, layiqincə, həm də ikimizin yerinə edəcəyəm.Yaşayacağım hər günü, hər saatı, hər dəqiqəni ikimizin yerinə yaşayacağam...ikimizin yerinə...Eşidirsənmi Nuru? Eşidirsənmi əzizim?

İkimizin yerinə...

SON SÖZ...

...Göyün üzü ulduzlarla doludur.Onlar gecələr uzaqdan qum dənəcikləri boyda görünsələr də, hər biri bir çıraq kimi yanaraq, sabahlara qədər ətrafa işıq saçır.Düşünən bir insan olduğum üçün, həmişə ulduzlarla insanların arasında bir paralel görmüşəm.Bir baxımdan, insanları da ulduzlara bənzətmək olar.İnsanlar da yaşadığı sürəcə öz varlığı ilə, sevgisi ilə, gözəl əməlləri ilə sanki, ətrafına işıq saçır.Sonra ömür başa çatır, insan da ulduz kimi sönüb gedir.Sönən ulduzun yerini yeni doğulan ulduzlar, ölən insanın yerini də yeni doğulan insanlar tutur.Göyün üzündə ulduzlardan başqa saysız-hesabsız planetlər də var.O planetlərdə həyat varmı, yoxmu, biz bilmirik.Ancaq bizim yəqin bildiyimiz, daha önəmli başqa bir məlumat var.Planetlərin birində həyat var, üstəlik, bu gün də həmin planetdə milyardlarla insan yan-yana, bir arada yaşayır.O planet Yer kürəsidir.Yüz illərlə nəsil-nəsil insanların doğulub, ömür sürüb, bir gün də ölüb getdiyi Yer kürəsi.Yer kürəsi, bizim dirimizə də, ölümüzə də sahib çıxan bir gəzəyəndir.Yer kürəsi, yaşadıqları zaman kəsimində insanları hər nemətlə təmin edər, dünyasını dəyişənlərə də sahib çıxaraq, onlara öz qoynunda yer verər.Yer kürəsi, insanlığın əbədi məskənidir.İnsanlar burda doğulur, burda ömür sürür, burda da ölür.Və bu, əsirlərlə belə davam etməkdədir...

Həmin o Yer kürəsində, saysız-hesabsız ölkələr var, şəhərlər var, küçələr var.O şəhərlərin içində bir şəhər də var ki, onun alçaq evli, dar dalanlı məhlələrindən birində büzüm qismətimizin başlanğıc nöqtəsi sayıla biləcək xüsusi bir yeri var.Alçaq evləri sadə insanlarla, dar dalanları keçmişlərin xatirələri ilə dolu olan o məhlədə, çoxdan fəaliyyətini dayandırmış dördillik məktəbin həyətində, uzun illər bundan öncə Nuru ilə bizim taleh yollarımız kəsişmişdi.O günlərin şirin xatirələri, ana qucağına sığınar kimi, yaddaşımızın yuxu ilə gerçəklik arasındakı o

pambıq qatına sığınır, ruhumuzun onlar üçün oxuduğu laylaları ilə pambıq beşikdə yırğalanırmış kimi yırğalanırlar.Ona görə də xatirələrin bir gəlişi də var, bir gedişi də...

Altı yaşında, ilk dəfə qədəm basdığım o məktəbin həyətində, Allahın yazısı-qismәti bir gün Nuru ilə məni bir araya gətirdi.Həmin vaxtdan da biz, 45 il sürəcək bir evlilik yolunu qoşa getmək üçün Nuru ilə əl-ələ verdik, ömrümüzün bizi apardığı yollara düşərək, o enişli-yoxuşlu yolları getdikcə getdik. Biz birlikdə bu yollarda çox şey yaşadıq, ancaq nə yaşadıqsa, həmişə yanımızda ən yaxın dostumuz, ən etibarlı sirdaşımız Kərəm də vardı. Biz nə zaman çəkişdik, bərkişdik, nə zaman üç dost olduq, heç özümüz də bilmədik.Bir də baxdıq ki, üçümüz birlikdə möhtəşəm bir üçlük olmuşuq, və bu üçlük ömrümüzün sonuna kimi davam elədi.Bu, bir bacı-qardaş, yeznə münasibəti deyildi, bu başqa bir şey idi.Bu, təməli vəfadan, etibardan, sevgidən, mərdlikdən, cəsarətdən, və daha neçə-neçə güclü hisslərin yoğrulmasından qoyulmuş, möhkəm, çox möhkəm bir dostluq idi.Biz, üç dost idik.Kərəm, Nurəddin, bir də mən...

Bu vəfasız dünyada bir gün gəldi ki, əvvəlcə Kərəm, sonra da Nuru məni buraxıb Allahın dərgahına getdilər.Bu dünyada o üçlükdən bir tək mən qaldım, onlarsız qaldım.Mən tez-tez həyat yoldaşımın məzarını ziyarətə gedirəm, ona xitab edib danışıram, ancaq həmin an da hiss edirəm ki, sanki yanımızda daha kimsə var.Mən hər Nurəddini xatırladığımda, Kərəmin də əziz xatirəsi qarşıma dikilib durur.O, gəlir ki, biz əvvəllərdə olduğu kimi, yenə də üçümüz bir yerdə olaq.Bizim üçlüyümüzün pozulmasına onun könlü razı olmur.O hər gəlişində mənim yadıma salır ki, bir zamanlar bü dünyada bir Kərəm var idi, bir Nuru var idi, bir də mən var idim...

O üç dostdan ikisi artıq haqq dünyasındadır.Allah onların o dünyasını versin ki, bir gün mən də onların yanına gedəcəyəm, və bu üçlük yenidən tamamlanacaq.O vaxta qədərsə, istərdim ki, onlar məni duysunlar.Onlara çox önəmli sözüm var mənim.

Onlara demək istəyirəm ki, gözlərini yollardan çəkməsinlər. Ömrün çoxu gedib, azı qalıb, əlbət bir gün bu həsrət bitəcək, mən də onlara qovuşacağam...

Necə şeydirsə, mən bu axirətlikləri bir an belə unutmuram, unuda bilmirəm.Mən onları xatırlayıram, onların ruhuna çoxlu dualar edirəm.Dualarımda onlar üçün Allahdan dilədiyim çox şeylər var.Mən Allaha üz tutub deyirəm:

--Ey Gözəl Allahım!Bütün ölənlərimizin, o cümlədən, Kərəmlə Nurəddinin günahlarını bağışla, təqsitarlarını əfv elə! Onları cəhənnəm atəşindən uzaq tut.Onlara cənnət bağçalarından birində buluşmağı nəsib eylə!Ey Rəhman Və Rəhim olan Allahım, hüzurunda toplaşacağımız o gün, bizləri bağışla, bizləri peşiman eyləmə! Amin.

Qardaşıma və yoldaşıma da bir sözüm var:

--Əziz qardaşım, sevgili yoldaşım! Allah ikinizə də qəni-qəni rəhmət eləsin...

Məkanınız abad, Ruhunuz şad olsun, əzizlərim...

Biləsiniz ki, ömür vəfa elədikcə sizi sevəcəyəm, sevginizi ürəyimdə, xatirələrinizi yaddaşımda yaşadacağam, çünki mən bu dünyada tək qalmış o dostlardan biri, sonuncusuyam...Gözləyin məni, əzizlərim...Mən bir gün gələcəyəm...

Nurəddinlə bizim son bir əhdi-peymanımız da var.Son mənzilə yola salındığı günün ertəsi onu ziyarətə getdim, məzarı başında Nurəddinə bir söz verdim ki, Nuru da ömrümün sonuna kimi o sözümü tutacağımdan əmin ola bilər. Mən ona dedim ki, --Qismətimdə səni vaxtsız itirmək, sənin yoxluğuna alışa bilməmək, hər yerdə səni axtarmaq, ancaq bulamamaq, sənli günlərin həsrətini çəkmək, şirin sözün bir yana qalsın, hətta ən acı sözün üçün də dəlicəsinə darıxmaq da varmış, ay Nuru...Bundan belə, bu ömrü boş da saymaq olar, dolu da.Boşdur ona görə ki, sən yoxsan, ikimizə aid olan bir ömür öz mənasını itirib.Doludur, ona görə ki, həyatımı dolduran övladlar var, nəvələr var, bir də sənin həsrətin var.Ömürdən azmı,

çoxmu, nə qalıbsa, artıq bu minvalla davam etmək zorundadır.Bircə şeydən əmin ola bilərsən, Nuru, mən bundan belə geri qalan ömrümün hər gününü, hər anını tək özüm üçün deyil, həm də sənin üçün yaşayacağam, əlimdən ancaq bu gələr, yəni ikimizin yerinə yaşayacağam. ***İkimizin yerinə...***

--------SON.--------

P.S. ...Dünyanın bütün imtahanları insanlar üçündür...
Nəsibə Günəş.

Sən və mən...

Bir gündə gəlmədik bu dünyaya biz,
Sən öncədən gəldin, mən sonra gəldim.
Hər cür çətinlikdən keçdik ikimiz,
Sənin ürəyində yatdım, dincəldim.

Əl-ələ verərək ömür yolunda,
Övlad yetişdirdik, boy-boya düzdük.
Ağır yük çiynində, qüvvət qolunda,
Hər şeyin haqqından gələn də bizdik.

Qırx beş il boyunca yoldaşlıq etdik,
Bu yolda acı da, şirin də oldu.
Ruzgar bizi yıxdı, biz qalxdıq, getdik,
Bir gün bu gedişin sürəsi doldu.

Yenə sən irəli verdin özünü,
Məni bu dünyada tək qoyub getdin.
Gözümün önündə yumdun gözünü,
Bilsən məni necə pərişan etdin.

Xəzan yeli keçdi könül bağımdan,
Sən getdin, ömrümün gülləri soldu.
Göz yaşı yol saldı al yanağımdan,
Günahı nə səndə, nə məndə oldu.

Dərdi verən Allah apardı səni,
İnşallah yanında, cənnətindəsən.
Əhdini unutma, xatırla məni,
Bil ki, əbədilik ürəyimdəsən...Nəsibə Günəş.


----------SON.----------

19.02.2017.saat 13:45.bazar.Belçika.

Kağız formatı: 60X84 1/16
Fiziki çap vərəqi: 14.5
Çapa imzalanıb: 28.04.2017

ADMİU-nun mətbəəsində çap olunmuşdur.
Ünvan: Bakı ş., Zərdabi 39a
Tel(+994 12) 434 50 04

5m



Azf296347